# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

# SƏKSƏN BEŞİNCİ KİTAB

## YANVAR 2018 - MART 201

AZƏRNƏŞR
BAKI - 2019

# İLHAM
## ƏLİYEV

**ÇIXIŞLAR * NİTQLƏR**

**BƏYANATLAR * MÜSAHİBƏLƏR**

**MƏKTUBLAR * MƏRUZƏLƏR**

**MÜRACİƏTLƏR**

AZƏRNƏŞR
BAKI – 2019

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2019, 392 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının Davos Dünya İqtisadi Forumunun illik toplantısında iştirakına və Forumun «Strateji baxış: Avrasiya» adlı interaktiv iclasında sualları cavablandırması, həmçinin Bakıda «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısında, «İnklüziv cəmiyyətlərin qurulması üçün fərqliliklərin aradan qaldırılması» mövzusunda VI Qlobal Bakı Forumunda məruzələri və bu tədbirlərdə iştirak etmək üçün ölkəmizə gəlmiş beynəlxalq ictimaiyyətin nümayəndələri ilə görüş və danışıqlarına dair materiallar toplanmışdır. Azərbaycan Prezidentinin bütün görüş və danışıqlarında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli yolları prioritet məsələ kimi qaldırılır ki, bu da hər bir cilddə öz əksini tapır.

Kitabda, həmçinin Azərbaycan Prezidentinin Yeni Azərbaycan Partiyasının VI qurultayındakı çıxışı, Nazirlər Kabinetinin «Azərbaycan Respublikası regionlarının 2014–2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransında geniş giriş və yekun nitqləri oxucuların ixtiyarına verilmişdir.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\frac{\textbf{0801000000}}{\textbf{M} - \textbf{651(07)} - \textbf{2019}}$ **ББК - 32**

© Azərnəşr, 2019

## GÜRCÜSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ GİORGİ KVİRİKAŞVİLİ İLƏ GÖRÜŞ

*Davos*

*23 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda Gürcüstan Respublikasının Baş Naziri Giorgi Kvirikaşvili ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi və digər sahələrdə ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı, Azərbaycan ilə Gürcüstanın həyata keçirdiyi qlobal layihələrin əhəmiyyətindən danışıldı. Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin əhəmiyyətinə toxunulan görüşdə TANAP layihəsinin uğurla icra olunduğu məmnunluqla qeyd edildi.*

*Söhbət zamanı ölkələrimiz arasında əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

## «VTB BANK»IN PREZİDENTİ, İDARƏ HEYƏTİNİN SƏDRİ ANDREY KOSTİN İLƏ GÖRÜŞ

*Davos*

*23 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda «VTB Bank»ın prezidenti, İdarə Heyətinin sədri Andrey Kostin ilə görüşmüşdür.*

*Andrey Kostin Azərbaycanda fəaliyyətlərini inkişaf etdirmək əzmində olduqlarını vurğulayaraq, kapitalın həcmini artırmağa maraq göstərdiklərini bildirdi. «VTB Bank»ın prezidenti qarşılıqlı investisiya imkanlarının öyrənilməsinin əhəmiyyətindən danışdı və Azərbaycan Dövlət Neft Fondu ilə uğurlu əməkdaşlıq etdiklərini vurğuladı. O bu işlərdə verdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlıq etdi.*

*Prezident İlham Əliyev ölkəmizin «VTB Bank» ilə əməkdaşlığının genişləndirilməsindən məmnunluğunu ifadə etdi, Azərbaycan Dövlət Neft Fondunun «VTB Bank»ın fəal səhmdarlarından biri olduğunu vurğuladı. Dövlət başçısı Azərbaycan tərəfinin «VTB Bank» ilə əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu qeyd etdi və bu əməkdaşlığın ölkəmizdə özəl sektorun fəaliyyətinin genişləndirilməsinə töhfə verəcəyinə əminliyini bildirdi.*

## «SUEZ GROUP»un BAŞ İCRAÇI VİTSE-PREZİDENTİ MARİ-ANJ DEBON İLƏ GÖRÜŞ

*Davos*

*23 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda «SUEZ GROUP» şirkətinin baş icraçı vitse-prezidenti və «MEDEF International»ın Fransa–Azərbaycan Biznes Şurasının sədri xanım Mari-Anj Debon ilə görüşmüşdür.*

*Xanım Mari-Anj Debon Prezident İlham Əliyevə «SUEZ GROUP»un Azərbaycanda həyata keçirdiyi layihələr barədə məlumat verərək, ölkəmizdəki tərəfdaşlarla çox uğurla əməkdaşlıq etdiklərini bildirdi. Gələcək planlar barədə danışan Mari-Anj Debon Prezident İlham Əliyevə su, kanalizasiya və yağış sularının aradan qaldırılması sahələrindəki yeni texnologiyalar barədə məlumat verdi.*

*Prezident İlham Əliyev «SUEZ GROUP»un gördüyü işlərdən məmnunluğunu bildirdi. Dövlət başçısı Azərbaycanın gələcəkdə də «SUEZ GROUP»la əməkdaşlıq etməkdə maraqlı olduğunu qeyd etdi.*

## «MİCROSOFT» ŞİRKƏTİNİN VİTSE-PREZİDENTİ MİŞEL VAN DER BEL İLƏ GÖRÜŞ

*Davos*

*23 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda «Microsoft» şirkətinin vitse-prezidenti, Avropa, Yaxın Şərq və Afrika üzrə prezidenti Mişel Van der Bel ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi istiqamətində görülən işlərdən, qeyri-neft sektorunun inkişafı ilə bağlı atılan uğurlu addımlardan danışıldı. Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları sahəsinin prioritet istiqamətlərdən biri olduğu qeyd edildi və bu sahədə əldə olunan nailiyyətlərdən söhbət açıldı. «Microsoft» ilə uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi və əməkdaşlığın perspektivləri müzakirə olundu.*

## SƏUDİYYƏ ƏRƏBİSTANININ ENERJİ, SƏNAYE VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRİ XALİD ƏL-FALİH İLƏ GÖRÜŞ

*Davos*

*23 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda Səudiyyə Ərəbistanının Enerji, Sənaye və Təbii Sərvətlər naziri Xalid əl-Falih ilə görüşmüşdür.*

*Xalid əl-Falih Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun salamlarını və rəğbət hissini dövlətimizin başçısına çatdırdı. O, Kralın Azərbaycan Prezidentinin bu yaxınlarda ona göndərdiyi məktubdan böyük məmnunluq hissi keçirdiyini bildirdi.*

*Prezident İlham Əliyev məktubunda Krala və Səudiyyə Ərəbistanına dərin hörmət etdiyini, ölkələrimiz arasında tərəfdaşlıq və əməkdaşlığın genişləndirilməsinə hazır olduğunu vurğuladı. Ölkələrimiz arasında siyasi münasibətlərin yüksək səviyyədə olduğunu vurğulayan dövlətimizin başçısı əməkdaşlığın genişləndirilməsi üçün perspektivlərin, iqtisadi, enerji təhlükəsizliyi və ticarət sahələrində əməkdaşlıq üçün yaxşı imkanların mövcudluğunu bildirdi. Söhbət zamanı OPEC çərçivəsində əməkdaşlıqdan, SOCAR və «Saudi Aramco» şirkətləri arasında işbirliyindən danışıldı. Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun salamlarına görə təşəkkür etdi, onun da salamlarını Səudiyyə Ərəbistanının Kralına çatdırmağı xahiş etdi.*

## «LAZARD FRERES» ŞİRKƏTİNİN SƏDRİ VƏ BAŞ İCRAÇI DİREKTORU METYU PİQAS İLƏ GÖRÜŞ

*Davos*

*23 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda «Lazard Freres» şirkətinin sədri və baş icraçı direktoru Metyu Piqas ilə görüşmüşdür.*

*Metyu Piqas «Lazard Freres» şirkətinin uzun illərdir Azərbaycanda uğurla fəaliyyət göstərdiyini və gələcəkdə ölkəmizdə yeni biznes layihələrində iştirak edəcəklərinə ümidvar olduğunu vurğuladı.*

*Prezident İlham Əliyev «Lazard Freres» şirkətinin ölkəmizdəki fəaliyyətini müsbət qiymətləndirdi və onun Azərbaycanda gələcək fəaliyyətinin də uğurlu olacağına əminliyini ifadə etdi.*

## ABŞ-ın «BLACKSTONE» ŞİRKƏTİNİN HƏMTƏSİSÇİSİ VƏ İCRAÇI DİREKTORU STİVEN ŞVARZMAN İLƏ GÖRÜŞ

*Davos*

*23 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda ABŞ-ın «Blackstone» şirkətinin həmtəsisçisi və icraçı direktoru Stiven Şvarzman ilə görüşmüşdür.*

*Stiven Şvarzman bir müddət bundan əvvəl Azərbaycanda səfərdə olduğunu, ölkəmizin tarixi və müasir simasının onda dərin təəssürat yaratdığını bildirdi. O, «Blackstone» şirkətinin Azərbaycan Dövlət Neft Fondu ilə əməkdaşlığının uğurlu olduğunu vurğuladı.*

*Prezident İlham Əliyev «Blackstone» şirkətinin ölkəmizlə əməkdaşlığını müsbət qiymətləndirdi. Görüşdə gələcək əməkdaşlığa dair məsələlər müzakirə olundu.*

## AVSTRALİYA İTTİFAQININ GENERAL-QUBERNATORU ZATİ-ALİLƏRİ CƏNAB PİTER KOSQROVA

Hörmətli cənab General-qubernator!

Ölkənizin milli bayramı – Avstraliya Günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan–Avstraliya münasibətləri yüksələn xətt üzrə inkişaf etməkdədir. İnanıram ki, dostluq əlaqələrimizin möhkəmlənməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın dərinləşməsi yolunda atdığımız addımlar bundan sonra da ölkələrimiz və xalqlarımız üçün hər cəhətdən faydalı olacaqdır.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Avstraliya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 yanvar 2018-ci il*

**HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RAM NATX KOVİNDƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Respublika Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan–Hindistan əlaqələrinin dərin tarixi kökləri və xoş ənənələri mövcuddur. İnanıram ki, ölkələrimiz arasında bu ənənələrə əsaslanan dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı və möhkəmləndirilməsi bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Hindistan xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 yanvar 2018-ci il*

**HONDURAS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB XUAN ORLANDO HERNANDES ALVARADOYA**

Hörmətli cənab Prezident!

Honduras Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Honduras arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda birgə səylərimizi davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Honduras xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 yanvar 2018-ci il*

## «IBM» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU CİNNİ ROMETTİ İLƏ GÖRÜŞ

*Davos*

*24 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda «IBM» şirkətinin baş icraçı direktoru xanım Cinni Rometti ilə görüşmüşdür.*

*Xanım Cinni Rometti Azərbaycan ilə əməkdaşlığın uğurlu olduğunu, «IBM» şirkətinin Cənubi Qafqaz regionunda ilk dəfə Azərbaycanda birgə müəssisə yaratdığını vurğuladı. Bunun da ölkəmizin coğrafi mövqeyi, uğurlu inkişafı və innovasiyaya yüksək qiymət verməsi ilə bağlı olduğunu bildirdi Cinni Rometti bu müəssisənin yaradılması ilə Azərbaycanda insan kapitalının daha da inkişaf edəcəyinə əminliyini ifadə etdi.*

*Prezident İlham Əliyev «IBM» şirkətinin ölkəmizdəki fəaliyyətinin uğurlu olduğunu, mövcud əməkdaşlığın gələcək əlaqələrin inkişafına töhfə verəcəyini vurğuladı.*

*«IBM» şirkətinin Azərbaycana yatırdığı investisiya nəticəsində yüksəkixtisaslı kadrlardan ibarət yeni iş yerləri açılacaq, SOCAR–«IBM» əməkdaşlığı nəticəsində ən müasir texnologiyalardan istifadəyə geniş imkan yaradılacaq, SOCAR-ın əməkdaşları müasir texnologiyalardan istifadə edərək, bilik və bacarıqlarını təkmilləşdirəcəklər. Layihə üzərində 1500-dək işçi çalışacaq ki, bu da dünya səviyyəli mütəxəssislərin hazırlanmasına rəvac verəcəkdir. Bakı Ali Neft Məktəbinin və Azərbaycanın digər universitetlərinin iştirakı təmin olunacaq bu layihənin icrası nəticəsində ölkəmizin regionda innovasiyaların tətbiqi sahəsindəki nüfuzu daha da artacaqdır.*

## ABŞ-ın «CARLYLE GROUP» ŞİRKƏTİNİN HƏMTƏSİSÇİSİ VƏ İCRAÇI DİREKTORU DEVİD RUBİNŞTEYN İLƏ GÖRÜŞ

*Davos*

*24 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda ABŞ-ın «Carlyle Group» şirkətinin həmtəsisçisi və icraçı direktoru Devid Rubinşteyn ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan Dövlət Neft Fondu ilə «Carlyle Group» arasında əməkdaşlığın yüksək səviyyədə olduğu bildirildi, əlaqələrin daha da genişləndirilməsinin vacibliyi vurğulandı.*

## AVROPA KOMİSSİYASININ ENERJİ BİRLİYİ ÜZRƏ VİTSE-PREZİDENTİ MAROŞ ŞEFÇOVİÇ İLƏ GÖRÜŞ

*Davos*

*24 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şefçoviç ilə görüşmüşdür.*

*Görüşdə «Cənub Qaz Dəhlizi» layihəsinin icrası ilə bağlı görülən işlər barədə fikir mübadiləsi aparıldı, bu ilin fevralında Bakıda «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin növbəti toplantısının keçiriləcəyi qeyd olundu.*

*Söhbət zamanı TANAP və TAP kəmərlərinin maliyyələşdirilməsi, TANAP qaz kəmərinin bu il ərzində istismara verilməsi, «Şahdəniz-2» yatağından ilk qazın hasil olunması ilə bağlı məsələlər müzakirə edildi.*

# DAVOS FORUMU ÇƏRÇİVƏSİNDƏ «NEFT VƏ QAZ SƏNAYESİ SİYASƏTİ ÜZRƏ LİDERLƏRİN TOPLANTISI» ADLI SESSİYADA İŞTİRAK

*Davos*

*24 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda Dünya İqtisadi Forumu çərçivəsində keçirilən «Neft və qaz sənayesi siyasəti üzrə liderlərin toplantısı» adlı sessiyada iştirak etmişdir.*

*Dövlət və hökumət başçıları ilə yanaşı, dünyanın aparıcı enerji şirkətlərinin rəhbərləri, mütəxəssisləri və alimlərin də qatıldığı sessiyada neft və qaz sənayesinin perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

## *bp* ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ROBERT DADLİ İLƏ GÖRÜŞ

*Davos*

*24 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda bp şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşmüşdür.*

*Görüşdə «Azəri», «Çıraq», «Günəşli» neft yataqlarının işlənilməsini nəzərdə tutan müqavilənin uzadılmasının əhəmiyyəti vurğulandı. Bu il «Şahdəniz-2» yatağından ilk qazın hasil olunacağı, TANAP kəmərinin istismara veriləcəyi bildirildi.*

*Söhbət zamanı Azərbaycanda neft hasilatının perspektivləri ilə bağlı məsələlər müzakirə olundu.*

*Prezident İlham Əliyev Robert Dadlini Bakıya səfərə dəvət etdi.*

## İSRAİL DÖVLƏTİNİN BAŞ NAZİRİ BENYAMİN NETANYAHU İLƏ GÖRÜŞ

*Davos*

*24 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda İsrail Dövlətinin Baş Naziri Benyamin Netanyahu ilə görüşmüşdür.*

*Görüşdə İsrailin Baş Naziri Benyamin Netanyahunun Azərbaycana səfəri məmnunluqla xatırlandı, səfərin nəticələrinin Azərbaycan–İsrail əlaqələrinin inkişafına yeni təkan verdiyi qeyd olundu.*

*Söhbət zamanı ikitərəfli əlaqələrin müxtəlif aspektləri müzakirə edildi, gələcək əməkdaşlıq haqqında fikir mübadiləsi aparıldı.*

## STATOYL ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ELDAR SAETRE İLƏ GÖRÜŞ

*Davos*

*24 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda Statoyl şirkətinin baş icraçı direktoru Eldar Saetre ilə görüşmüşdür.*

*Görüşdə Statoyl şirkətinin 25 il ölkəmizdə uğurla fəaliyyət göstərdiyi qeyd olundu. «Azəri», «Çıraq», «Günəşli», həmçinin «Qarabağ» və «Dan ulduzu» neft yataqları üzrə əməkdaşlığın perspektivləri müzakirə edildi, gələcəkdə əməkdaşlığın daha da inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.*

## İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ ALEN BERSE İLƏ GÖRÜŞ

*Davos*

*24 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda İsveçrə Konfederasiyasının Prezidenti Alen Berse ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə İsveçrə arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, enerji və mədəniyyət sahələrində uğurlu inkişafından məmnunluq ifadə olundu. İsveçrə Prezidenti ölkəsinin Azərbaycana mühüm tərəfdaş kimi yanaşdığını diqqətə çatdırdı.*

*Söhbət zamanı Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən qlobal enerji və nəqliyyat layihələri müzakirə edildi. Ölkəmizin artıq mühüm nəqliyyat qovşağına çevrildiyi bildirildi, Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasındakı rolu vurğulandı. Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi istiqamətində görülən işlərdən, ölkəmizdə qeyri-neft sektorunun inkişafı, həmçinin qarşılıqlı investisiya qoyuluşu, SOCAR şirkətinin İsveçrədəki uğurlu fəaliyyətindən danışıldı.*

*Görüşdə ölkələrimiz arasında ticarətin həcminin artırılmasının zəruriliyi, əməkdaşlığın yeni sahələrinin müəyyənləşdirilməsinin vacibliyi vurğulandı.*

## ÇİLİ RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ XOSE MANUEL SİLVA İLƏ GÖRÜŞ

*26 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Çili Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Xose Manuel Silvanın etimadnaməsini qəbul etmişdir.*

*Səfir Xose Manuel Silva Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Xose Manuel Silva etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlət başçısı ikitərəfli münasibətlərin inkişaf etdirilməsinin önəmini vurğulayaraq, bununla bağlı Azərbaycan ilə Çilinin bir-biri haqqında daha çox məlumata malik olmasının zəruriliyini qeyd etdi. Prezident İlham Əliyev bildirdi ki, ölkələrimizin biznes icmaları arasında əməkdaşlıq, rəsmi səviyyədə qarşılıqlı səfərlər, beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlığın həyata keçirilməsi, eyni zamanda, mədəni tədbirlər, müxtəlif təqdimatlar və sərgilərin təşkil olunması, xalqlar arasında münasibətlər yaxın tərəfdaşlıq əlaqələrinin qurulmasına kömək edə bilər. Dövlət başçısı vurğuladı ki, bütün bunlar öz növbəsində, iqtisadi əlaqələrin qurulması işinə təkan verər. Bu işdə ticarət və investisiya imkanlarının müəyyənləndirilməsi də mühüm rol oynaya bilər.*

*Səfir Xose Manuel Silva ölkəmizdəki diplomatik fəaliyyəti dövründə Çili Respublikasının Prezidenti Sebastian Pinyeranın tapşırığı əsasında iki ölkə arasında əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcəyini qeyd etdi.*

## EKVADOR RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ GERMAN ALEXANDRO ORTEQA ALMEYDA İLƏ GÖRÜŞ

*26 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Ekvador Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri German Alexandro Orteqa Almeydanın etimadnaməsini qəbul etmişdir.*

*Səfir German Alexandro Orteqa Almeyda Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*German Alexandro Orteqa Almeyda etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Söhbət zamanı Azərbaycan ilə Ekvador arasında siyasi əlaqələrin yaxşı səviyyədə olduğu bildirildi, ikitərəfli və çoxtərəfli əlaqələrin inkişaf etdirilməsinin vacibliyi vurğulandı. Qeyd edildi ki, iqtisadi əlaqələrin müxtəlif sahələrdə, xüsusən idxal-ixrac sahəsində inkişaf etdirilməsi üçün yaxşı imkanlar vardır.*

**KOREYA RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB MUN CE-İN**

Hörmətli cənab Prezident!

Miryan şəhərində xəstəxanada baş vermiş yanğın nəticəsində çoxsaylı insan tələfatı və yaralananlar barədə xəbərdən son dərəcə kədərləndim.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 yanvar 2018-ci il*

**ƏFQANISTAN İSLAM RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB MƏHƏMMƏD ƏŞRƏF QANİYƏ**

Hörmətli cənab Prezident!

Kabil şəhərində törədilmiş güclü partlayış nəticəsində çoxsaylı insan tələfatı və yaralananlar barədə xəbərdən olduqca kədərləndim.

Bu amansız terror aktı dəhşətli bir bəlaya çevrilmiş terrorizmin bütün təzahürlərinə qarşı qətiyyətlə və ardıcıl mübarizə aparılmasının vacibliyini və zəruriliyini bir daha təsdiq edir.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Əfqanıstan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 yanvar 2018-ci il*

## AVROPA KOMİSSİYASININ NƏQLİYYAT VƏ MOBİLLİK ÜZRƏ BAŞ DİREKTORU HENRİK HOLOLEYİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 29-da Avropa Komissiyasının nəqliyyat və mobillik üzrə baş direktoru Henrik Hololeyin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Avropa Komissiyasının nəqliyyat və mobillik üzrə baş direktoru Henrik Hololey Azərbaycanda nəqliyyat infrastrukturunun yaradılması, o cümlədən yeni dəniz limanının inşası, Bakı–Tbilisi–Qars dəmir yolunun istifadəyə verilməsi, ölkədə müasir aviasiya şəbəkəsinin tam şəkildə inkişaf etdirilməsi istiqamətində əldə edilmiş nailiyyətlər münasibətilə Prezident İlham Əliyevi təbrik etdi.*

*Görüşdə Azərbaycanın aparıcı beynəlxalq nəqliyyat dəhlizlərindən biri kimi, önəmi vurğulandı, ölkəmizin nəqliyyat qovşağı sahəsində mühüm rolu qeyd olundu, Avropa İttifaqının bu işlərə strateji əhəmiyyət verdiyi bildirildi.*

*Söhbət zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında nəqliyyat sahəsində mütəmadi dialoqun yaradılmasının zəruriliyi vurğulandı və nəqliyyat sahəsində əməkdaşlığın dərinləşdirilməsi ətrafında fikir mübadiləsi aparıldı.*

**FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB SAULİ NİİNİSTÖYƏ**

Hörmətli cənab Prezident!

Finlandiya Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi yetirirəm.

Ümidvaram ki, birgə səylərimizlə Azərbaycan–Finlandiya əlaqələrinin, dostluq və əməkdaşlıq münasibətlərimizin daha da genişlənməsinə və inkişafına nail olacağıq.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Finlandiya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 yanvar 2018-ci il*

**ÇEX RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MİLOŞ ZEMANA**

Hörmətli cənab Prezident!

Çex Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Çexiya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin daha da inkişafı və möhkəmlənməsi yolunda birgə səylərimizi müvəffəqiyyətlə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 yanvar 2018-ci il*

**BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAİD ƏL-NƏHƏYYANA**

Əlahəzrət!

Ananız şeyxa Hassa bint Məhəmməd əl-Nəhəyyanın vəfatı xəbərindən olduqca kədərləndim.

Bu ağır itki ilə əlaqədar Sizə, ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 yanvar 2018-ci il*

## REGİONLARIN 2014–2018-ci İLLƏRDƏ SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMININ İCRASININ DÖRDÜNCÜ İLİNİN YEKUNLARINA HƏSR OLUNMUŞ KONFRANSDA* İŞTİRAK

*Heydər Əliyev Mərkəzi*

*29 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 29-da Heydər Əliyev Mərkəzində keçirilən «Azərbaycan Respublikası regionlarının 2014–2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransda iştirak etmişdir.*

*Dövlət başçısı konfransda giriş nitqi söylədi.*

* «Azяrbaycan Respublикasы regионlarынын 2014−2018-cи иllяrdя sosиal-иqtиsadи иnkишafы Dюvlяt Proqramы»nын иcrasынын dюrdцncц иlинин yekunlarына hяsr olunмуш konfransda Lяnkяran Шяhяr Иcra Hakиmиyyяtинин baшчысы Taleh Qaraşov, Naxчыvan Muxtar Respublикasындакы «Nяqшиcahan Holdиnq» шиrkяtlяr qrupunun «Duzdaь» Мцalиcяvи Иstиrahяt Мяrkяzинин dиrektoru Novruz Novruzov, Тяrtяr Rayon Иcra Hakиmиyyяtинин baшчысы Müstəqim Məmmədov, Neftчala Sяnaye Мяhяllяsинин dиrektoru Nəriman Xəlilov, Qazax Rayon Иcra Hakиmиyyяtинин baшчысы Rəcəb Babaşov, Aьdam rayonundaкы Heyvandarlыq Kompleksинин dиrektoru Fuad Əyyubzadə, Salyan Rayon Иcra Hakиmиyyяtинин baшчысы Sevindik Hətəmov, Saatlы rayonundaкы «Aqro-Az» Мяhdud Мяsulиyyяtlи Сяmиyyяtин (pambыq иstehsalы vя emalы) rяhbяrи Vahid Hüseynov və Balakяn Rayon Иcra Hakиmиyyяtинин baшчысы İslam Rzayev çıxış etdilər.

## Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi

Bu gün biz Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasını müzakirə edəcəyik və bu il görüləcək işlər haqqında danışacağıq. Bu il üçüncü Dövlət Proqramının icrası başa çatır və biz bu il dördüncü proqramın hazırlanması ilə bağlı işlərə başlamalıyıq.

Bütövlükdə Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası çox uğurla gedir. Üçüncü proqramda qarşımızda duran bütün vəzifələr uğurla və artıqlaması ilə icra edilir.

Deməliyəm ki, birinci proqramın qəbul edilməsi tarixi hadisə idi. Həyat bunu əyani şəkildə göstərdi. 2004-cü ilin əvvəllərində qəbul edilmiş proqram, demək olar ki, Azərbaycan regionlarında dönüş yaratdı. Azərbaycan regionlarının sürətli inkişafı məhz birinci proqramın icrası ilə bağlı idi.

Mən 2003-cü ildə Prezident seçkiləri ərəfəsində bəyan etmişdim ki, əgər Azərbaycan xalqı mənə etimad göstərərsə, ilk növbədə Azərbaycan regionlarının problemləri ilə məşğul olacağam. Söz vermişdim ki, Azərbaycan regionlarında sosial-iqtisadi inkişaf sürətlə gedəcək. Son 14 il ərzindəki reallıqlar bunu göstərir ki, verilən bütün vədlər artıqlaması ilə yerinə yetirildi.

Son 14 il ərzində Azərbaycan böyük və şərəfli yol keçibdir. Ölkəmiz bütün sahələrdə böyük uğurlara imza atıbdır. Azərbaycanın beynəlxalq nüfuzu artıb, ölkəmizdə aparılan siyasi-iqtisadi islahatlar dünya birliyi tərəfindən yüksək qiymətləndirilir. Bütün beynəlxalq mötəbər qurumların reytinqlərində Azərbaycan qabaqcıl yerlərdədir. Ölkəmizdə təhlükəsizlik, sabitlik təmin edilir. Sabitliyin mənbəyi isə Azərbaycan xalqının iradəsidir, xalq–iqtidar birliyidir.

Sabitlik olmayan yerlərə investisiyalar qoyulmur, inkişaf olmur, vəziyyət mənfi istiqamətdə inkişaf edir. Bu həqiqətdir və yaxın tarixin nəticələri, bölgəmizdə yaşanan böhranlı vəziyyət

bunu təsdiqləyir. Azərbaycan isə təhlükəsizlik, əmin-amanlıq, sabitlik şəraitində öz yolu ilə uğurla gedir. Bu gün inkişaf parametrlərinə və vətəndaş həmrəyliyinə görə Azərbaycan dünyada nümunəvi ölkələrdən biridir.

Ölkəmizdə köklü iqtisadi islahatlar icra edilibdir. Bölgələrdə icra edilən infrastruktur layihələri həm ölkəmizin ümumi inkişafına böyük təkan verdi, həm də bizim nəhəng transmilli infrastruktur layihələrimiz Avrasiyanın enerji və nəqliyyat xəritəsini dəyişdi.

Gündəlik fəaliyyətimizdə Azərbaycan xalqının həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində əməli-praktiki addımlar atılıbdır. Mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, siyasətimizin təməlində Azərbaycan vətəndaşının maraqları dayanır. Bizim əsas strateji məqsədimiz, hədəfimiz ölkəmizi daha da gücləndirməkdir, Azərbaycan dövlətinin qüdrətini artırmaqdır, müstəqilliyimizi möhkəmləndirməkdir.

Son 14 il ərzində regional inkişaf proqramlarının icrasının nəticələri də göz qabağındadır. Biz, əlbəttə ki, 2004-cü ildə ilk növbədə, infrastruktur layihələrindən başlamalı idik. Çünki bu olmadan hər hansı bir inkişafdan söhbət gedə bilməzdi. Elektrik təsərrüfatımıza böyük investisiyalar qoyuldu. Son 14 il ərzində ölkəmizdə 30 elektrik stansiyası tikilibdir. Bu stansiyaların generasiya gücü 2500 meqavata bərabərdir. Bildirməliyəm ki, 2004-cü ilə qədər Azərbaycanda bütün dövrlər ərzində 9 elektrik stansiyası tikilmişdir, ancaq onların generasiya gücü böyük idi, onların potensialı 3900 meqavatdır. Biz 14 il ərzində generasiya gücümüzün 2500 meqavat artırılmasına nail olmuşuq. Bu il bu rəqəm 2900 meqavata çatacaqdır.

Beləliklə, əgər biz 2004-cü ildə elektrik enerjisini idxal edirdiksə və buna görə valyuta ödəyirdiksə, hazırda biz nəinki özümüzü tam şəkildə təmin edirik, eyni zamanda, elektrik enerjisini ixrac etməyə başlamışıq. Bu məqsədlə həm ölkə ərazisində, həm də 3 qonşu ölkə – Rusiya, İran və Gürcüstan ilə elektrik

xətlərimizi birləşdirmişik. Gürcüstan vasitəsilə Türkiyəyə də elektrik enerjisinin ixracı üçün yaxşı imkanlar mövcuddur.

Energetika hər bir iqtisadiyyatın bel sütunudur, təməlidir. Ona görə biz, ilk növbədə, bu məsələlərlə məşğul olmağa başlamışıq. Bu gün ölkəmizin uğurlu, sürətli inkişafı bu elektrik stansiyalarının mövcud olması ilə sıx bağlıdır. Biz indi sənaye istehsalımızı, iqtisadi gücümüzü artırırıq. Yeni müəssisələr, yeni yaşayış kompleksləri yaradılır, əhali artır. Biz bunların hamısını nəyin hesabına enerji ilə qidalandıra bilərdik?! Ona görə ilk növbədə, bu məsələ həll olundu. Növbəti illərdə əminəm ki, biz elektrik enerjimizdən daha səmərəli şəkildə istifadə etməliyik və bərpa olunan enerji növlərinin inkişafı ilə bağlı addımlar atılacaqdır.

2004-cü ildə Azərbaycanda qazlaşdırılmanın səviyyəsi 51 faiz idi. Bölgələrdə, demək olar ki, qaz yox idi, şəhərlərdə də yox idi, kəndlərdə, ümumiyyətlə, yox idi. Hazırda Azərbaycanda qazlaşdırılma 93 faizə çatıb. Bütün şəhərlərimiz qazla 100 faiz təmin edilib. Bir çox kəndlərimizdə bu proses davam etdiriləcək və bu il görüləcək işlər haqqında bir qədər sonra danışacağıq.

İçməli su və kanalizasiya problemləri insanları narahat edən çox ciddi problemlər idi. Düzdür, bu sahənin bilavasitə iqtisadi və sənaye inkişafımıza o qədər də böyük təsiri olmasa da, bu çox ciddi sosial məsələdir. Ona görə biz bu məsələ ilə də ciddi məşğul olmağa başlamışıq.

2004-cü ildə ölkə üzrə fasiləsiz içməli su ilə təminat 26 faiz idi, hazırda bu, 67 faizə çatıb: Bakı şəhərində 81, bölgələrdə isə 43 faizdir. Ona görə bu sahəyə bu il və gələcək illərdə böyük sərmayə qoyuluşu nəzərdə tutulur ki, biz bu məsələni də həll edək. Demək olar ki, bir çox şəhərlərimizdə içməli su və kanalizasiya layihələri uğurla başa çatıb. Oğuz–Qəbələ–Bakı kimi nəhəng su kəməri – bu da tarixi hadisədir – inşa edilib. Ceyranbatanda dünyanın ən böyük sutəmizləyici qurğusu tikilibdir. Bu gün bu qurğudan çıxan sular keyfiyyətinə görə Ümumdünya Səhiyyə Təşkilatının standartlarına cavab verir.

Kənd təsərrüfatının inkişafı üçün böyük meliorativ tədbirlər görülübdür. Son 14 il ərzində 4 su anbarı tikilib – Taxtakörpü, Şəmkirçay, Göytəpə və Tovuzçay su anbarları. Onların arasında, əlbəttə ki, Taxtakörpü və Şəmkirçay su anbarları böyüklüyünə və kənd təsərrüfatına təsirinə görə xüsusi yer tutur. Bu, nəhəng tarixi infrastruktur layihələridir. Bu anbarlar, çəkilmiş və çəkilən kanallar on minlərlə hektar əkin sahəsini suvarmaq üçün həlledici rol oynayır. Meliorativ tədbirlər kənd təsərrüfatının inkişafına bilavasitə təsir edən infrastruktur layihələridir. Bu sahəyə qoyulan böyük vəsait eyni zamanda, sahibkarlığa dövlət tərəfindən göstərilən növbəti dəstəyin təzahürüdür. Bu su anbarlarının kənd təsərrüfatının inkişafına çox müsbət təsiri olacaqdır və biz artıq bunu görürük.

Biz hazırda yeni layihələr üzərində işləyirik. Keçən il 100 min hektardan çox suvarılmayan torpaqlara su xətləri, kanallar çəkilibdir. Bu il də hədəf 100 min hektardır. Beləliklə, biz suvarılmayan torpaqlara həyat gətiririk, su gətiririk, fermerlərə, sahibkarlara şərait yaradırıq və kənd təsərrüfatımızın inkişafına nail oluruq.

Avtomobil yollarının tikintisi infrastruktur layihələri arasında önəmli yer tutan sahədir. Bu həm iqtisadi, həm də sosial sahədir. Rahat, hamar yollar insanlara rahatlıq gətirir. Yol olmadan bölgələr inkişaf edə bilməz, nə turizm, nə də sənaye istehsalı inkişaf edə bilər, kənd təsərrüfatının inkişafı üçün də problemlər yaranar. Hazırda kənd yollarının tikintisi geniş vüsət alıb. Biz görürük ki, harada yeni yol çəkilirsə, o bölgədə canlanma daha da sürətlə gedir, kənd təsərrüfatı istehsalı artır. Nəyə görə? Çünki bazarlara rahat çıxış olur. Beləliklə, yol infrastrukturu sadəcə olaraq, sosial layihə deyil. Son 14 il ərzində 12300 kilometr yol çəkilibdir. Bu il bu rəqəm təqribən 15 min kilometrə çatacaq. Son 14 il ərzində 443 körpü tikilibdir.

Beləliklə, ölkə iqtisadiyyatının, regionların inkişafı üçün bu əsas infrastruktur layihələri icra edilibdir. Onu da deməliyəm ki, əgər biz 2004-cü ildə qəbul edilmiş birinci proqrama nəzər

salsaq görərik ki, görülən bu işlərin böyük hissəsi orada əks olunmamışdır. Çünki biz bu proqrama və ondan sonrakı ikinci və üçüncü proqramlara əlavələr etdik. Mənim bölgələrə çoxsaylı səfərlərim çərçivəsində, vətəndaşlarla təmaslar əsnasında yeni təkliflər gəldi. Mən hər il onlarla rayona səfərlər edirəm, keçən il 30-dan çox rayonda olmuşam. Hər dəfə görülən işlərlə maraqlanıram, nəzarət edirəm, eyni zamanda, yerlərdən təkliflər alıram. Ona görə bu proqramlara bəzi hallarda zərurət yarandıqca əlavələr olunur. Odur ki, proqramların təhlilini apararkən biz mütləq əlavələri də nəzərə almalıyıq.

Əlbəttə, bizim məqsədimiz bu proqramları icra etməkdir. Ancaq əsas məqsədimiz Azərbaycanın inkişafını daha da sürətləndirmək, dayanıqlı, uzunmüddətli inkişafa nail olmaqdır və biz buna nail ola bilmişik. Bugünkü reallıqlar, bölgələrimizin çiçəklənməsi, bütün şəhərlərimizdə gedən quruculuq, abadlıq işləri göstərir ki, biz düzgün yoldayıq.

14 il ərzində iqtisadi göstəricilərimiz də ümumi inkişafımızın uğurlu dinamikasını əyani şəkildə göstərir. İqtisadiyyat 14 il ərzində 3,2 dəfə artıbdır. Hesab edirəm ki, bu, dünya miqyasında rekord göstəricidir. Qeyri-neft iqtisadiyyatımız isə 2,8 dəfə artıbdır. Bu onu göstərir ki, bizim iqtisadi inkişafımız sadəcə olaraq, neftin, qazın istehsalı ilə bağlı deyil. Bizim iqtisadi inkişafımız çoxşaxəlidir. Ona görə qeyri-neft sektorunun 2,8 dəfə artması aparılan islahatların nəticəsidir. Sənaye sahəsində 2,6, kənd təsərrüfatında 1,7 dəfə artım var. Qeyri-neft ixracımız isə 4,1 dəfə artıbdır.

2004-cü ildə bizim valyuta ehtiyatlarımız 1,8 milyard dollar idi. Biz böyük regional inkişaf proqramına, bax, bu rəqəmlə start verdik. O vaxt mən yaxşı bilirdim ki, bu proqram çox böyük vəsait tələb edəcək. Bizim maliyyə imkanlarımız o qədər də geniş deyildi. Cəmi 1,8 milyard dollar valyuta ehtiyatlarımız var idi. Buna baxmayaraq, biz birinci regional inkişaf proqramına böyük vəsait ayırdıq. Yəni bu bir daha göstərir ki,

Azərbaycan regionlarının inkişafı, bölgələrdə yaşayan vətəndaşların güzəranı, həyat səviyyəsi bizim üçün həmişə prioritet olub.

Bu gün isə bizim valyuta ehtiyatlarımız 42 milyard dollara bərabərdir. 14 il ərzində biz valyuta ehtiyatlarımızı 23 dəfə artırmışıq. Həm böyük investisiya layihələrinə, həm infrastruktur layihələrinə, həm də neft-qaz kəmərlərinin tikintisinə vəsait qoymuşuq. Bunlar çox vəsait aparan layihələrdir. Valyuta ehtiyatlarımızı 23 dəfə artırmışıq və adambaşına düşən valyuta ehtiyatlarının həcminə görə bu gün Azərbaycan dünya miqyasında qabaqcıl yerlərdədir. Bizim valyuta ehtiyatlarımız ölkəmizin ümumi daxili məhsuluna bərabərdir. İqtisadçılar yaxşı bilirlər ki, bu göstərici nəyi əks etdirir.

Ona görə bizim böyük valyuta ehtiyatlarımız həm böyük sərvətimizdir, həm də bu bizə iqtisadi müstəqillik verir. İqtisadi müstəqillik isə siyasi müstəqilliyi şərtləndirir. İqtisadi cəhətdən asılı vəziyyətdə olan ölkələr müstəqil siyasət apara bilmir, yaxud da ki, aparmaqda çətinlik çəkir. Biz isə tam müstəqil siyasət aparırıq, bütün məsələlərlə bağlı bizim öz mövqemiz var və bu mövqeni çəkinmədən ifadə edirik. Biz bütün prinsipial məsələlərlə bağlı beynəlxalq kürsülərdən səsimizi ucaldırıq, ədaləti və qanunun aliliyini təbliğ və müdafiə edirik.

Keçən il valyuta ehtiyatlarımızın artırılması istiqamətində çox ciddi addımlar atılıbdır. Baxmayaraq ki, keçən il büdcəmiz də builki kimi deyildi, bundan az idi, neftin qiyməti də hələ aşağı səviyyədə idi, biz düzgün siyasət və maliyyə sahəsində nizam-intizamı gücləndirmək nəticəsində valyuta ehtiyatlarımızı 4,5 milyard dollar artırdıq. Əminəm ki, bu il də valyuta ehtiyatlarımız əhəmiyyətli dərəcədə artacaqdır.

14 il ərzində ölkə iqtisadiyyatına 231 milyard dollar sərmayə qoyulubdur. Bunun yarısı xarici, yarısı isə daxili sərmayədir. Adambaşına düşən sərmayələrin həcminə görə Azərbaycan yenə də dünya miqyasında lider dövlətlər sırasındadır. Xarici sərmayənin qoyuluşu, əlbəttə ki, hər bir ölkə üçün ən vacib

amillərdən biridir. Bu onu göstərir ki, ölkəyə inam var, ölkənin siyasətinə dəstək var, ölkənin gələcəyinə ümid çox böyükdür. Çünki gələcəyi müəyyən olunmayan, yaxud da ki, qaranlıq olan ölkələrə heç kim, heç bir sahibkar, heç bir dövlət, heç bir şirkət investisiya qoymaz. Ona görə 231 milyard dollara bərabər sərmayə qoyuluşu bizim uğurlu siyasətimizin nəticəsidir. Onu da deməliyəm ki, müstəqillik dövründə Azərbaycana yatırılan sərmayənin 93 faizi son 14 il ərzində qoyulubdur. Bu proses davam edir. Keçən il 14,6 milyard dollar sərmayə qoyulub, bu il də ən azı ona bərabər həcmdə sərmayə yatırılacaqdır.

14 il ərzində əhalimiz 1,5 milyon nəfər artıb. Bu çox gözəl göstəricidir. Bu onu göstərir ki, əhalimiz artır, ölkəmiz güclənir. Bu artımın ümumi iqtisadi inkişafımızla sıx əlaqəsi vardır. Hesab edirəm ki, biz bu göstəriciyə görə fəxr edə bilərik. Əhali artımı hər bir ölkə üçün önəmli amildir, bu bizi daha da fəal işləməyə sövq etməlidir. Çünki artan əhali bizdən buna adekvat iqtisadi inkişaf tələb edir. Biz 14 il ərzində ölkəmizdə 1,9 milyon iş yeri yaratmışıq ki, onlardan 1,4 milyonu daimi iş yeridir. Ancaq əhali 1,5 milyon nəfər artıb. Bəli, bu vətəndaşlar hələ ki, yeniyetmə və uşaqdırlar, ancaq bir neçə ildən sonra onlar işlə təmin olunmalıdırlar.

Ona görə iş yerlərinin yaradılması Azərbaycanda daimi proses olmalıdır. İndi dünyada texnoloji inkişafın çox sürətlə getdiyini və bunun iş yerlərinin ixtisarına gətirib çıxardığını nəzərə alsaq, biz bu sahəyə çox böyük diqqət yetirməliyik ki, Azərbaycanda işsizlik daim aşağı səviyyədə olsun. Necə ki, görülən işlər nəticəsində bu gün Azərbaycanda işsizlik 5 faiz, yoxsulluq isə 5,4 faiz səviyyəsindədir. Biz birinci proqramın icrasına başlayanda yoxsulluğun səviyyəsi 50 faiz idi, indi isə 5,4 faizdir.

Budur bizim əsas iqtisadi göstəricilərimiz. Sosial sahəyə də çox böyük diqqət göstərilibdir. Maaşlar 14 il ərzində 5 dəfədən çox, pensiyalar 8 dəfədən çox artıb və bir çox önəmli sosial layihələr icra edilibdir.

Biz sosial infrastrukturla bağlı böyük işlər görmüşük, 3100-dən çox məktəb, 642 tibb müəssisəsi tikilib, yaxud təmir edilibdir, 43 Olimpiya İdman Kompleksi inşa olunubdur. Bu da böyük vəsait tələb edən layihələrdir. Ancaq bu layihələr sosial yönümlü layihələrdir, ona görə də investisiya proqramımızda daim bu layihələr vardır. Bu ilin investisiya proqramına əsasən də kifayət qədər sosial layihələr icra ediləcəkdir.

Biznesin inkişafı üçün şəraitin yaradılması istiqamətində ciddi addımlar atılıbdır. Sahibkarlara güzəştli şərtlərlə 2 milyard manatdan çox kreditlər verilibdir. Nəzərə almalıyıq ki, 14 ilin əsas hissəsində manatın məzənnəsi dollara nisbətən daha yüksək idi. Ona görə bu 2 milyard manat ən azı 2 milyard dollar deməkdir. Güzəştli şərtlərlə verilən bu kreditlər sahibkarlar tərəfindən yüksək qiymətləndirildi, onlar bu kreditlərdən istifadə edərək, yeni müəssisələr, iş yerləri yaratdılar və o vəsaiti qaytararaq, yenə də imkan verirlər ki, biz bu vəsaiti digər sahibkarlara güzəştli şərtlərlə verək, necə ki, bu il də bu, nəzərdə tutulur.

Son illər ərzində ictimai xidmətlər sahəsində inqilabi dönüş baş verib. «ASAN xidmət» mərkəzlərinin yaradılması bu sahədə inqilabi dönüş etdi. Son 5 il ərzində bu mərkəzlərdə 20 milyona yaxın müraciət qəbul edilib və «ASAN xidmət» mərkəzlərini bəyənmə əmsalı 100 faizə yaxındır. Rüşvətxorluğa, korrupsiyaya, bürokratiyaya qarşı çox ciddi mübarizə aparılır. Bu mübarizə, o cümlədən sistem xarakterli tədbirlər sahəsində aparılır. Deyə bilərəm ki, institusional tədbirlər ən səmərəli tədbirlərdir. Əlbəttə, cəza tədbirləri də tətbiq olunub və olunur, onların da əhəmiyyəti vardır. Ancaq institusional tədbirlər, rüşvətxorluq, korrupsiya üçün, necə deyərlər, meydançanın daralması istiqamətində atılan addımlar ən səmərəli addımlardır.

Biz bütün bu işlərlə paralel olaraq, ölkəmizi texnoloji cəhətdən inkişaf etdirmək üçün böyük addımlar atmışıq. Azərbaycan kosmik dövlətə çevrilib. Bunu hələ bir neçə il bundan əvvəl

təsəvvür etmək belə, çətin idi. Hazırda bizim peykimiz var – telekommunikasiya və əraziləri müşahidə peykləri. 3-cü peyk bu il orbitə buraxılacaq. Azərbaycan dünyanın məhdud olan kosmik klubunun üzvüdür. Bu texnologiyadır, təhsildir, biznesdir və inkişafdır.

Əlbəttə ki, ölkəmizdə aparılan və tərəfimizdən irəli sürülmüş nəhəng nəqliyyat və energetika layihələri həm böyük vəsait tələb edən, həm də ölkəmizin uzunmüddətli uğurlu inkişafını şərtləndirən layihələrdir.

Nəqliyyat sahəsinə gəlincə, ölkəmizdə 7 aeroport tikilib. Onlardan 6-sı beynəlxalq aeroportdur. Birinci proqram qəbul olunana qədər bizim 1 beynəlxalq aeroportumuz var idi – Bakı aeroportu. Digər aeroportlar yerli əhəmiyyətli aeroportlar idi. Bakı, Naxçıvan, Gəncə, Lənkəran, Qəbələ, Zaqatala – 6 beynəlxalq aeroport, bir də Yevlax aeroportu yenidən quruldu. Bu gün onlar fəaliyyət göstərir və beynəlxalq reyslər təşkil olunur. Bu, ölkəmizə turistlərin gəlişini şərtləndirir, insanlara rahatlıq verir. Vaxtilə bu layihələrə start verəndə bəziləri hesab edirdilər ki, bəlkə də biz əbəs yerə vəsait xərcləyirik, bunların heç bir istifadəsi olmayacaq. Həyat göstərdi ki, indi bizim beynəlxalq aeroportlarımızdan dünyanın müxtəlif yerlərinə uçuşlar təşkil edilir.

Azərbaycanda böyük Gəmiqayırma zavodu inşa edilib. Bu gün biz bütün növ gəmiləri istehsal edə bilərik. Artıq Gəmiqayırma zavodu önəmli, böyük sifarişlər icra edir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı bu il istifadəyə verilməlidir. Bu, Xəzər hövzəsində ən böyük beynəlxalq dəniz ticarət limanıdır. Bu liman olmadan biz nəqliyyat dəhlizinə, nəqliyyat mərkəzinə çevrilə bilməzdik. Bakı–Tbilisi–Qars dəmir yolunun istifadəyə verilməsi tarixi hadisədir. Bakı–Tbilisi–Qars dəmir yolu Azərbaycan dövləti və xalqı qarşısında tarixi xidmətdir. Bu dəmir yolu – bu barədə çox danışılıb, ictimaiyyət də əhəmiyyətini bilir – həqiqətən, bölgədə, Avrasiyada nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində bəlkə də son illərdə ən önəmli

layihədir. Bunun bizim üçün də çox böyük əhəmiyyəti vardır. Artıq 1-2 aydır ki, Asiyadan, Avropadan müxtəlif istiqamətlərə gedən yüklər Azərbaycan ərazisindən keçir.

Biz Şimal–Cənub nəqliyyat dəhlizinin yaradılması ilə bağlı öz ərazimizdə olan bütün məsələləri qısa müddət ərzində həll etdik. Beləliklə, beynəlxalq əməkdaşlığa gözəl şərait yaratmışıq. Dəmir yolunun yenidən qurulması istiqamətində işlər görülüb, görüləcək və biz bu barədə danışacağıq.

Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft-qaz kəmərlərinin tikintisi iqtisadiyyata böyük valyuta axınını təmin edir. Bu kəmərlər olmasaydı, biz neft-qaz resurslarını haraya ixrac edəcəkdik? Bu, mümkün olmazdı. Heç kim də bizim neft-qaz yataqlarımıza vəsait qoymazdı, əgər bunun ixrac imkanı yoxdursa. Daxili bazarımız isə bizdə olan yataqlarla müqayisədə kiçikdir. Ona görə bu kəmərlər mütləq tikilməli idi və çox ağır şəraitdə, təzyiqlər şəraitində tikildi, bizə qarşı kampaniyalar aparılırdı. Bakı–Tbilisi–Ceyhanı əngəlləmək üçün anti-Azərbaycan qüvvələr nə qədər səy göstərdilər, alınmadı. Biz möhkəm dayanmışdıq, güclü iradə göstərmişdik və bu layihələri qonşu dövlətlərlə birlikdə icra etdik. Bakı–Tbilisi–Ceyhan 10 ildən çoxdur ki, fəaliyyət göstərir. 10 ildən çoxdur ki, qaz kəmərimiz qazımızı Ərzuruma qədər nəql edir. Əgər bu layihələr olmasaydı, Bakı–Tbilisi–Qars da olmazdı. Əgər bu olmasaydı, «Şahdəniz-2» də olmazdı. «Cənub Qaz Dəhlizi» – dəyəri 40 milyard dollardan çox olan layihə də olmazdı. Onda bizim həyatımız necə olacaqdı? Bizim iqtisadi vəziyyətimiz necə olacaqdı? Təsəvvür etmək o qədər də çətin deyil.

Ona görə bütün bu layihələr xalq qarşısında tarixi xidmətlərdir. Biz fəxr edirik ki, bunları icra etmişik. Bu layihələr uzunmüddətli inkişafımıza şərait yaradır. Biz indi 42 milyard dollar valyuta ehtiyatına malikik. Bunları nəyin hesabına qazanmışıq? Enerji resurslarının ixracı nəticəsində. Bakı–Tbilisi–Ceyhan tikilməsəydi, bu da olmayacaqdı. Ona görə bu 14 il ərzində görülmüş işlərin hamısını bir çıxışda sadalamaq

mümkün deyil. Bəlkə də günlər lazımdır ki, biz bütün işləri qeyd edək. Sadəcə olaraq, mən bu gün əsas məqamları ictimaiyyətin diqqətinə çatdırdım. Görülən bütün işlər və əldə edilmiş nəticələr deməyə əsas verir ki, Azərbaycan bu gün uğurla, sürətlə inkişaf edən ölkədir. Ancaq biz əldə edilmiş uğurlarla kifayətlənməməliyik, daim qabağa baxmalıyıq və növbəti illərdə görüləcək işlərlə bağlı fəaliyyətimizi düzgün qurmalıyıq.

## YEKUN NİTQİ

Qeyd etdiyim kimi, bu il üçüncü Dövlət Proqramı başa çatır. Bu il görüləcək işlər haqqında tapşırıqlar verəcəyəm. Bütün bu tapşırıqlar ilin sonuna qədər yerinə yetirilməlidir.

Yenə də həmişə olduğu kimi, ilk növbədə, bu il infrastruktur layihələri ilə bağlı görüləcək işlər bunlardır.

Qazlaşdırılma bu ilin sonuna qədər 95 faizə çatdırılmalıdır. Bu çox yüksək göstəricidir. Hesab edirəm ki, bu göstəriciyə görə də biz dünya miqyasında qabaqcıl yerlərdəyik. Relyefimizi nəzərə alsaq, bir daha görərik ki, bu nə qədər mürəkkəb işdir. Ona görə bu gün qazlaşdırılmanın səviyyəsi – 93 faiz yaxşı göstəricidir. Ancaq bilməliyik, hələ də bir çox kəndlər var ki, oraya qaz xətləri çəkilməyib. Dövlət büdcəsində bu məqsədlər üçün bu il Azərbaycan Dövlət Neft Şirkətinə 100 milyon manata yaxın vəsait nəzərdə tutulur. Azərbaycan Dövlət Neft Şirkəti bu işləri qısa müddət ərzində görməlidir və qazlaşdırılma 95 faizə çatmalıdır. Gələn il isə baxacağıq ki, ucqar dağ kəndlərinə qaz xətlərinin çəkilişi ilə bağlı hansı addımlar atılmalıdır.

Giriş sözümdə qeyd etdiyim kimi, bu gün Azərbaycan öz enerji təhlükəsizliyini tam təmin edir və digər ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsinə öz töhfəsini verir. İndi bizdə elektrik enerjisi ilə bağlı heç bir problem yoxdur və bu il yeni böyük elektrik stansiyası işə düşməlidir. Bu stansiya bir neçə ildir ki, inşa edilir, «Şimal-2» elektrik stansiyasının açılışı bu il nəzərdə tutulur. Stansiyanın generasiya gücü 400 meqavatdır. Çox böyük stansiyadır, bizə əlavə potensial verəcək və ilk növbədə, ixrac imkanlarımızı artıracaqdır. Çünki ölkə daxilində elektrik enerjisi ilə problemlər öz həllini tapıb, bizim əlavə ixrac imkanlarımız olacaqdır. Bununla belə, bu il bölgələrdə yeni yarımstansiyaların tikilməsi, elektrik xətlərinin çəkilməsi, onların və transformatorların dəyişdirilməsi, yəni elektrik təsərrüfatının

yenidən qurulması, müasirləşdirilməsi istiqamətində kifayət qədər böyük investisiya layihələri icra ediləcəkdir.

İçməli su və kanalizasiya layihələri ilə bağlı işlər davam etdiriləcək. Bu il ən azı 3 şəhərin içməli su və kanalizasiya problemi tam həll olunacaqdır. Mingəçevir, Qəbələ və Ağdaş şəhərlərində işlərin, layihələrin tamamlanması nəzərdə tutulur. Bununla paralel olaraq, daha 20 şəhərdə içməli su və kanalizasiya layihələri icra ediləcəkdir. İl ərzində baxarıq, bəlkə bu şəhərlər arasında da bu il başa çatacaq layihələr ola bilər. Giriş sözümdə qeyd etdiyim kimi, fasiləsiz su ilə təmin olunan əhali 67 faizdir – Bakı şəhərində 81, bölgələrdə isə 43. Bu məsələni həll etmək üçün eyni zamanda, çaylar boyu yerləşən kəndlərdə müasir sutəmizləyici qurğuların tikintisi nəzərdə tutulur. Əvvəlki illərdə də belə layihələr icra edilib və çaylar boyu yerləşən kəndlərdə yüz minlərlə əhali bu imkanlardan faydalanıbdır. Bu il də bu layihələrin icrası nəzərdə tutulur və ən azı 300 subartezian quyusu qazılmalıdır. Vətəndaşlar bundan həm məişətdə, həm də kənd təsərrüfatında istifadə edirlər.

Meliorasiya ilə bağlı deyə bilərəm ki, bu il ən azı 100 min hektar suvarılmayan torpaqlara su verilməlidir. Beləliklə, biz 2017–2018-ci illərdə 200 mindən çox hektara suyun təminatını təşkil edəcəyik. Bir neçə önəmli kanal layihələri icra ediləcək. Dövlət İnvestisiya Proqramında kifayət qədər vəsait nəzərdə tutulur. Dövlət İnvestisiya Proqramında bu məsələ ilə bağlı olan bütün layihələr ilin sonuna qədər icra edilməlidir. Meliorativ tədbirlərin yaxşılaşdırılması və sudan səmərəli istifadə edilməsi üçün pivot suvarma sistemlərinin geniş tətbiqi təmin olunmalıdır. Bu məqsədlə ölkəmizdə pivot qurğularının istehsalı təşkil olunur ki, artıq xaricə vəsaitin getməsinin qarşısını alaq və özümüzü bu qurğularla təmin edək. Fermer təsərrüfatlarında, xüsusilə böyük aqroparklarda bu sistemlərdən mütləq istifadə olunmalıdır. Çünki bu, məhsuldarlığı xeyli artırır və sudan səmərəli istifadə olunmasına imkan yaradır.

Bu il 2300 kilometr avtomobil yolu – həm magistral, həm şəhərlərarası, həm də kənd yolları çəkiləcəkdir. Keçən il şərti olaraq «40 yol» adlandırılan layihə çərçivəsində 500-dən çox kənd yolu tikildi, abadlaşdırıldı. Bu il isə minimum 600 kənd yolu tikilməlidir. Bu məqsədlə kifayət qədər vəsait nəzərdə tutulubdur. Bu il biz yeni magistral yolun tikintisi ilə ciddi məşğul olacağıq. Sumqayıt şəhərindən Rusiya sərhədinə qədər yeni yolun çəkilişi də nəzərdə tutulubdur.

Bu il sosial obyektlərin tikintisi ilə bağlı aşağıdakı tədbirlər nəzərdə tutulur. 6 şəhərdə – Qazax, Qobustan, Şəmkir, Quba, Naftalan və Goranboy şəhərlərində yeni rayon mərkəzi xəstəxanaların tikintisi başa çatmalıdır. Füzuli rayonunda və Qəbələ şəhərində rayon mərkəzi xəstəxanaların tikintisi aparılacaq ki, bu xəstəxanalar 2019-cu ildə istifadəyə verilsin. Ancaq onu da qeyd etməliyəm ki, həm Füzuli, həm də Qəbələ rayonlarında vaxtilə müasir diaqnostika mərkəzləri istifadəyə verilib. Yəni orada keyfiyyətli tibbi xidmət almaq üçün imkanlar var, sadəcə olaraq, yeni xəstəxanaların tikintisi təmin ediləcəkdir.

Keçən il 5 milyondan çox vətəndaş pulsuz tibbi müayinədən keçib. Bu da bildiyimə görə, dünya praktikasında yeganə hadisədir ki, biz bunu edirik. Əlbəttə ki, bu il də vətəndaşlar bu gözəl imkanlardan istifadə etməlidirlər və artıq edirlər. Mən əvvəlki illərdə rayon mərkəzi xəstəxanalarının açılışı zamanı, demək olar ki, həmişə vətəndaşlara üz tutaraq, onları bu məsələyə diqqət yetirməyə dəvət edirdim. Bu gün isə artıq bütün bölgələrdə keyfiyyətli tibbi xidmət almaq üçün müasir avadanlıqlar, müasir xəstəxanalar var və şadam ki, vətəndaşlar bu imkanlardan istifadə edirlər.

Təhsil sahəsinə gəlincə, bu il 137 modul tipli məktəb tikiləcək. Kəndlərdə 100-dən çox məktəb qazlaşdırılacaq, yüzlərlə məktəbdə təmir işləri aparılacaqdır. Bakı şəhərində isə 12 məktəb əsaslı təmir ediləcəkdir. Beləliklə, biz Bakı şəhərində məktəb tikintisi və təmiri problemlərinin həllinə nail olacağıq. Əlbəttə,

növbəti illərdə bütün bölgələrdə, rayonlarda yeni məktəblər tikiləcək, təmir olunacaq. Ancaq qarşıya məqsəd qoyulub ki, bu il biz qəzalı məktəblərin təmiri ilə bağlı bütün proqramı icra edək. Hesab edirəm ki, bu mümkündür.

4 şəhərdə olimpiya idman mərkəzləri tikilməlidir. Onlardan ikisi bu il, ikisi isə gələn il istifadəyə veriləcəkdir.

Məcburi köçkünlər üçün yeni binaların, evlərin tikintisi davam etdiriləcəkdir. Bu məsələyə çox böyük diqqət göstərilir. Bu günə qədər 265 min köçkün yeni evlərlə, mənzillərlə təmin edilib. Keçən il biz Cocuq Mərcanlı kəndinin bərpasını təmin etdik. Bu, tarixi hadisədir. Şıxarx qəsəbəsində böyük şəhərcik tikilib – 1170 ailəlik, Cocuq Mərcanlıda isə 150 ailəlik. Bu layihələrin xüsusi əhəmiyyəti vardır. Çünki bu layihələr vaxtilə işğal edilmiş və ordumuz tərəfindən azad olunmuş torpaqlarda icra edilibdir. Bu layihələrin icrası onu göstərir ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək və dağıdılmış bu ərazilərdə yeni şəhərlər, qəsəbələr, kəndlər, məktəblər, yaşayış binaları, bütün infrastruktur tikiləcəkdir. Cocuq Mərcanlının və Şıxarxın timsalında biz dövlətimizin, xalqımızın iradəsini göstəririk. Bir daha göstəririk ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq və Azərbaycan köçkünləri öz doğma torpaqlarına getməyə hazırdırlar. Bu gün ölkəmizin iqtisadi və hərbi potensialı heç kəsə sirr deyil və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli, beynəlxalq hüququn normalarına uyğun, ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edilməsi bizim əsas vəzifəmizdir. Bu məsələ ancaq ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bu il 20 min köçkün yeni evlərlə təmin ediləcəkdir. Keçən il biz 12 min köçkünü yerləşdirdik. Bu il 4000 ailəyə – ən azı 20 min köçkünə yeni evlər veriləcək. Beləliklə, evlərlə, mənzillərlə, yaxşı şəraitlə təmin ediləcək köçkünlərin sayı təqribən 290 minə yaxın olacaqdır. Ancaq bu, minimum proqramdır, əgər il ərzində imkan olarsa, biz bu sayı artıracağıq.

Mən giriş sözümdə iş yerlərinin yaradılması ilə bağlı fikirlərimi bildirdim. Bu, daimi proses olmalıdır. Əhalinin artımı daim yeni iş yerlərinin yaradılmasını tələb edir. Hesab edirəm ki, keçən il bu istiqamətdə rekord nəticə əldə edilmiş, 177 min daimi iş yeri açılmışdır. Bu il də, əlbəttə, bu istiqamətdə işlər görüləcək. Bizim planlarımız, bölgələrə və böyük şəhərlərə qoyulan investisiyalar əslində iş yerlərinin yaradılmasını təmin edir. Böyük tikinti və infrastruktur layihələri, sənaye obyektlərinin işə düşməsi, əlbəttə ki, iş yerlərinin açılmasına şərait yaradır.

Bu il biz özünüməşğulluq proqramını daha da böyük həcmdə icra edəcəyik. Bu proqramı biz, demək olar ki, keçən il icra etməyə başlamışıq. İlkin nəticələr müsbətdir. Bu il isə atılan addımlar, aparılan islahatlar nəticəsində kifayət qədər böyük – 30 milyon manatdan çox vəsait olacaq və 6000, bəlkə də 7000 ailə özünüməşğulluq proqramına cəlb ediləcəkdir. Bu həm iqtisadi, həm də psixoloji cəhətdən çox gözəl layihədir, gözəl təşəbbüsdür. Çünki bu gün hələ də ağır vəziyyətdə yaşayan, dövlətdən sosial yardım alan vətəndaşlar özləri pul qazanacaqlar, öz ailələrini halal zəhmətləri ilə dolandıracaqlar və öz həyatlarını quracaqlar. Dövlət isə öz dəstəyini göstərəcək, lazım olan texnikanı, vasitələri pulsuz verəcək ki, onlar öz işlərini qura bilsinlər. Əgər biz hər il 6-7 min ailə üçün belə şərait yaratsaq, onda sosial yardıma heç kimin ehtiyacı olmayacaqdır.

Bu il biz eyni zamanda, «Ailə Biznesinə Asan Dəstək» layihəsinin sürətli inkişafını görəcəyik. ABAD mərkəzlər artıq yaradılır və mən buradakı şəraitlə, imkanlarla tanış olmuşam. Bu da çox gözəl təşəbbüsdür. Bu, fermerlərə, ailə təsərrüfatlarına imkan verir ki, öz məhsullarını müasir formada yerli və xarici bazarlara çıxarsınlar. Yenə də dövlət bütün öhdəliyi, bütün yükü öz üzərinə götürür. Fermerlərə, ailələrə konteynerlər, metodik tövsiyələr verilir, şərait yaradılır ki, onlar öz həyatlarını daha da yaxşılaşdıra bilsinlər. Bu günə qədər bu imkanlardan yararlanan fermerlər yaxşı məhsul istehsal ediblər. Bal, mürəbbə, ət və süd məhsulları,

suvenirlər istehsal olunur. İndi ölkəmizə gələn turistlərin sayı kəskin şəkildə artır. Ona görə hər bir turist maraqlıdır ki, hansısa bir suvenir alsın. Əfsuslar olsun ki, bizdə bu günə qədər şəhərdə satılan, yəni şəhərimizi, ölkəmizi əks etdirən bu suvenirlər xaricdə istehsal edilir. Ona görə də bu, böyük bir qüsur, böyük bir boşluqdur. İndi çalışmalıyıq ki, bu suvenirlər Azərbaycanda istehsal olunsun və ABAD bu sahədə də öz işini görür. Ümumiyyətlə, mən sahibkarlara da müraciət etmək istəyirəm ki, bu sahəyə diqqət göstərsinlər. Çünki turistlərin sayı artacaq, suvenirlərə daha da böyük ehtiyac olacaqdır.

ABAD-la bağlı bildirməliyəm ki, dövlət öz üzərinə bu funksiyanı götürüb. Amma hesab edirəm ki, böyük biznes şirkətləri bu sahədə daha fəal olmalıdır. Mən həm dövlət, həm özəl şirkətlərə müraciət edərək, onları bu işlərə dəvət etmək istəyirəm. Ümumiyyətlə, mən biznesin sosial məsuliyyət məsələsi ilə bağlı dəfələrlə öz fikirlərimi bildirmişəm. Dövlət iş adamlarına bu qədər şərait yaradır, həm siyasi, həm də maliyyə dəstəyi göstərir, 2 milyard manatdan çox güzəştli kreditlər verilib. Fermerlərə bu qədər güzəştlər edilir, yanacaq, gübrə, subsidiyalar, texnika dövlət tərəfindən verilir. Fermerlər vergilərdən azaddırlar, təkcə torpaq vergisindən başqa. Ölkəmizdə biznes mühitinin yaxşılaşdırılması, islahatların aparılması istiqamətində bu qədər işlər görülür və beynəlxalq qurumlar da bunu qeyd edirlər. Bunun müqabilində iri biznes qurumları gərək öz sosial məsuliyyətini dərk etsin. Sosial məsuliyyət təkcə hansısa xeyriyyəçiliklə məşğul olmaq deyil. Sosial məsuliyyət kiçik biznesə, ailə biznesinə dəstək göstərməkdir. Ona görə mən Prezident Administrasiyasına, müvafiq nazirliklərə, İqtisadiyyat Nazirliyinə, Kənd Təsərrüfatı Nazirliyinə, digər aidiyyəti qurumlara tapşırıram ki, bu məsələ ilə bağlı təkliflər hazırlasınlar. Bəlkə böyük biznes şirkətləri ilə bir görüş keçirsinlər və onları ailə biznesinə dəstək üçün bu proqrama cəlb etsinlər. Bu, ədalətli olar. Böyük şirkətlər, xüsusilə dövlətdən, dövlət siyasətindən yararlanıb böyük vəsait əldə edən şirkətlər kiçik sahibkarlara dəstək verməlidir. Mən giriş sözümdə sərmayə

qoyuluşu ilə bağlı qeyd etdim ki, bu il ən azı keçən ilin səviyyəsində sərmayə nəzərdə tutulur. Bölgələrdə sərmayə qoyuluşu regional inkişaf proqramlarının icrası üçün çox önəmlidir. Dövlət öz rolunu oynayıb və oynayacaq. Əgər dövlət sərmayəsi olmasaydı, bölgələrdə heç bir inkişafdan söhbət gedə bilməzdi. Mən giriş sözümdə bu məsələyə kifayət qədər geniş toxundum. Dövlət investisiya siyasəti nəticəsində bölgələrimizdə, demək olar ki, bütün infrastruktur layihələri icra edilib və icra edilir. İndi isə vaxt gəlib çatıb ki, yerli icra orqanları bu işlərdə daha da fəal çalışsınlar və sərmayəni cəlb etsinlər.

Bu gün bölgələrə sərmayə qoyan daha çox yerli iş adamlarıdır. Burada təbii ki, iqlim amili də vardır. İndi hansısa məhsulu yetişdirmək üçün müəyyən bir regionda sərmayə qoyulmalıdır. Eyni zamanda, rayonlarda yaşanan mühit, mövcud olan ab-hava, investisiya iqlimi də rol oynayır. Ona görə yerli icra orqanları bu işlərdə daha fəal olmalıdır. Onlar iş adamlarını cəlb etməlidirlər ki, gəlib sərmayə qoysunlar. Ancaq iş adamı sərmayə yatırmaq istəyəndə bəzi hallarda onların qabağına müəyyən şərtlər qoyulur. Düzdür, belə hallar azalıb, amma hələ də var. Ona görə yerli icra orqanları sərmayəni cəlb etməlidir. O da həqiqətdir ki, ucqar rayonlar, kiçik rayonlar vardır. Oraya qoyulan sərmayə böyük rayonlara qoyulan sərmayə ilə müqayisə edilə bilməz. Burada biz vahid bir qrafik əsasında təhlil apara bilmərik. Ancaq hər bir rayonda özəl sərmayəni cəlb etmək, sahibkarlara şərait yaratmaq üçün yerli icra orqanları, onların rəhbərləri fəal işləməlidirlər.

Mən keçən il cəlb edilmiş sərmayələrlə bağlı birinci yerlərdə olan rayonları qeyd etmək istəyirəm. Həm keçən il qoyulmuş sərmayənin, həm də builki investisiya layihələrinin ümumi həcmi ilə bağlı. Beləliklə, keçən il sərmayə qoyuluşuna görə ilk onluğa aşağıdakı rayonlar daxil edilib – Salyan, Qəbələ, Qazax, Lənkəran, Abşeron, Ağstafa, Sumqayıt, Xaçmaz, Gəncə, İsmayıllı. Keçən il ən çox investisiyalar bu rayonlara qoyulub. Ancaq ümumi həcminə görə 100 milyon manatdan çox olan

sərmayə layihələri 5 rayonda icra ediləcəkdir. Onların arasında 1-ci yerdə Abşeron rayonudur. Qoyulacaq sərmayənin həcmi 250 milyon manat səviyyəsində gözlənilir. 2-ci yerdə Sumqayıt şəhəridir – 186 milyon manat. 3-cü yerdə Saatlı rayonudur – 152 milyon manat. 4-cü yerdə Salyan rayonudur – 126 milyon manat. 5-ci yerdə Qəbələ rayonudur – 116 milyon manat. Yəni həcmi 100 milyon manatdan artıq olan layihələr rayon üçün, əlbəttə ki, çox yaxşı rəqəmdir. 100 milyon manata bir qədər çatmayan – mən onu da qeyd etməliyəm – Gəncə şəhəridir, 98 milyon manat investisiya qoyuluşu nəzərdə tutulur. Yəni bunlar çox böyük rəqəmdir, çox yaxşı göstəricidir. Məndəki bu cədvəldə bütün rayonlara qoyulan və qoyulacaq sərmayənin həcmi vardır. Bu, geniş, ciddi təhlil ediləcəkdir. Ancaq deməliyəm ki, bu proses artıq başlandı. Burada həm dövlət qurumları, həm iş adamları, həm də yerli icra orqanları birgə işləyirlər və birgə işləməlidirlər.

Bu il nəqliyyatla, dəmir yolu nəqliyyatı ilə bağlı bir neçə önəmli layihə icra ediləcək. Qeyd etdiyim kimi, Bakı–Tbilisi–Qars dəmir yolu işə düşüb və artıq fəaliyyətə başlayır. Maraq da çox böyükdür, həm Davos Dünya İqtisadi Forumu çərçivəsində, həm digər forumlarda bu məsələ ciddi şəkildə müzakirə edilir. Demək olar ki, bu, dünyanın gündəliyində duran infrastruktur-nəqliyyat layihələri arasında xüsusi yer tutan layihədir. Şadam ki, təhlilçilər, ekspertlər bu layihənin icrasında Azərbaycan dövlətinin rolunu xüsusi qeyd edirlər və yüksək qiymətləndirirlər. İndi biz çalışmalıyıq ki, Bakı–Tbilisi–Qars dəmir yolunun uğurlu fəaliyyəti üçün lazımi tədbirlər görülsün və əlbəttə ki, görüləcəkdir. Yeni vaqonların, sisternlərin, gəmilərin istehsalı, konteynerlərin alınması istiqamətində müvafiq göstərişlər verilibdir. Artıq Asiyadan Qərb istiqamətinə yüklərin sayı gündən-günə artmaqdadır. Beləliklə, biz Şərq–Qərb nəqliyyat dəhlizinin reallaşmasına nail ola bilmişik.

Bu il Bakı–Böyük Kəsik dəmir yolunun yenidən qurulması istiqamətində işlər görüləcək. Təbii ki, bu yol fəaliyyətdədir. Ancaq biz bu yolu modernləşdirməliyik ki, sürət artsın. Çünki biz

Bakı–Tbilisi–Qars yolu ilə göndəriləcək çox böyük yüklər gözləyirik. Ona görə də qatarların sürəti yüksək olmalıdır və eyni zamanda, bu, vətəndaşlar üçün də çox önəmlidir. Sürət yüksək olduqda, əminəm ki, vətəndaşlar qərb istiqamətinə, qərb bölgəsindəki şəhərlərə qatarla getməyə üstünlük verəcəklər. Xüsusilə nəzərə alsaq ki, yeni, müasir sərnişin qatarları da alınır və alınacaq, çox rahat gediş-gəliş təmin ediləcəkdir.

Qeyd etdiyim kimi, Azərbaycan öz ərazisində Şimal–Cənub nəqliyyat dəhlizi ilə bağlı bütün işləri görüb. Ancaq növbəti illərdə biz bu xətti də ölkə ərazisində tədricən yenidən qurmalıyıq. Çünki bu istiqamət üzrə də böyük yüklər gözlənilir. Mövcud dəmir yolu infrastrukturu bu yükləri ötürə bilməyəcəkdir. Ona görə builki investisiya proqramında Bakı–Yalama və Bakı–Astara dəmir yollarının modernləşdirilməsi və yenidən qurulması, təmiri, çəkilişi nəzərdə tutulub, vəsait də ayrılıb və işlər dərhal başlanmalıdır. Hesab edirəm ki, bu il Bakı–Yalama istiqamətində tikinti işləri aparılacaq. Bakı–Astara istiqamətində isə bu il daha çox layihələndirmə işləri aparılmalıdır. Çünki yolun bir hissəsi sahil boyunca gedir. Bu həm vətəndaşlara narahatlıq yaradır, həm də cənub zonasının turizm imkanlarını məhdudlaşdırır, istədiyimiz həcmdə yüklərin daşınması üçün şərait yaratmır. Ona görə biz bu iki önəmli layihəni investisiya proqramımıza daxil etmişik. Bu il və gələn il bu işlər sürətlə aparılmalıdır.

Qeyd etməliyəm ki, bu il Bakı şəhərətrafı dairəvi dəmir yolunun çəkilməsi nəzərdə tutulur. Bu da şəhərin nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi üçün çox önəmli layihədir. Əminəm ki, Bakının və Bakıətrafı qəsəbələrin sakinləri bunun nə dərəcədə faydalı olacağını hiss edəcəklər.

Turizm sektorunun inkişafını nəzərə alaraq, bu il Qəbələ şəhərinə dəmir yolunun çəkilişi başlanmalıdır. Çünki Qəbələ Bakıdan sonra ölkəmizin ikinci turizm mərkəzidir və beynəlxalq turizm mərkəzinə çevrilir. Vaxtilə biz Qəbələdə beynəlxalq aeroport inşa etdik. Bu gün bu beynəlxalq aeroport müxtəlif

ölkələrə uçuşları təşkil etmək imkanı yaradır. Əgər onu vaxtında tikməsəydik, bəlkə Qəbələyə bu qədər turist gəlməzdi. Bakı–Yalama yolunun tikintisi ilə paralel olaraq, Qusar rayonuna da dəmir yolunun çəkilişi planlarımızda vardır. Yeni müasir vaqonlar, lokomotivlər alınacaq və beləliklə, dəmir yolu infrastrukturu tam müasirləşəcəkdir.

Ələt Dəniz Ticarət Limanının tikintisi bu il başa çatdırılmalıdır. Bu yaxınlarda mən orada oldum, işlərlə maraqlandım. İşlərin tamamlanmasına az vaxt qalır. Beləliklə, 15 milyon ton yükü aşıra biləcək Xəzər dənizinin ən böyük ticarət limanı fəaliyyətə başlayacaq. 100 min konteynerin daşınması nəzərdə tutulur. Baxarıq, əgər buna daha böyük tələbat olarsa, hesab edirəm ki, biz Ələt limanını qısa müddət ərzində genişləndirə bilərik. Bunun üçün bütün imkanlar var, texniki imkanlarımız da kifayət qədər böyükdür. Bu da tarixi layihədir. Çünki Azərbaycan açıq dənizə çıxışı olmayan ölkədir. Adətən, belə ölkələr nəqliyyat mərkəzi rolunu oynaya bilmir. Ancaq buna baxmayaraq, açıq dənizə, okeana çıxışımız olmaya-olmaya biz nəinki regionun, Avrasiyanın nəqliyyat mərkəzlərinin birinə çevrilirik və Şimal–Cənub, Şərq–Qərb nəqliyyat dəhlizləri Azərbaycan ərazisindən keçir. Bu dəhlizlər onlarla ölkəni bir-birinə bağlayır, onlarla ölkə üçün şərait yaradır. Bu ölkələr arasında yeganə ölkə Azərbaycandır ki, hər iki layihənin fəal iştirakçısı və üzvüdür. Bax, qapalı şəraitdə, açıq dənizə çıxışı olmayan ölkədə belə layihələri icra etmək tarixi xidmətimizdir.

Bu il 3 «ASAN xidmət» Mərkəzi açılmalıdır – Mingəçevir, Şəki, İmişli şəhərlərində. Beləliklə, bu mərkəzlərin sayı 15-ə çatacaqdır. 5 mərkəzin tikintisi isə bu il başlanmalıdır. Onların açılışı gələn il nəzərdə tutulur. Beləliklə, gələn il bizim 20 «ASAN xidmət» Mərkəzimiz olacaqdır.

Artıq keçən il Mənzil İnşaatı Dövlət Agentliyinin – MİDA-nın 2-ci layihəsinə Hövsanda start verilib. İşlər gedəcək, orada 10 min insan sosial evlərlə təmin ediləcəkdir. Yasamal layihəsi icra

edilir. Artıq bu il Yasamal layihəsinin evlərinin bir hissəsi vətəndaşlara təqdim ediləcəkdir.

Hesab edirəm ki, turizmin inkişafı ilə bağlı bölgələrdə yeni hotellərin tikilməsinə ehtiyac vardır. Bunu, əlbəttə ki, özəl sektor etməlidir. Özəl sektor, əlbəttə ki, hər şeyi yaxşı bilir. Bilir ki, haraya, nə vaxt sərmayə qoymaq olar. Ancaq rəqəmlər də kifayət qədər yaxşı mənzərə yaradır. Təkcə keçən il gələn turistlərin sayı 500 minə yaxın artmışdır. Əminəm ki, bu il də artım olacaqdır. Turistlər də gözəl yollardan, aeroportlardan istifadə edirlər. İndi sürətli qatarlarımız olacaq, onlardan istifadə edəcəklər. Bölgələrə daha da çox turist gələcək. Ona görə hesab edirəm ki, bölgələrdə hotellərin tikilməsi üçün yaxşı biznes imkanları var və bunu özəl sektor öz üzərinə götürməlidir.

Sənaye istehsalı ilə bağlı bu il çox önəmli açılışlar olacaqdır. Mən onların arasında Sumqayıt Kimya Sənaye Parkındakı müəssisələri qeyd etmək istəyirəm. Keçən ilin sonunda parkda 4 müəssisənin açılışı, 3 müəssisənin təməlqoyma mərasimi keçirilmişdir. Sumqayıt Kimya Sənaye Parkında rezidentlərin sayı 15-ə çatıb və qoyulan sərmayənin həcmi 2,7 milyard dollardır. Bu layihə, bu böyük təşəbbüs bir daha onu göstərir ki, biz nə qədər düzgün siyasət aparırıq. Əgər biz o sahəni dağılmış, çürümüş dəmirlərdən təmizləməsəydik və yüzlərlə hektar torpağa infrastruktur layihələri gətirməsəydik, bu şəraiti yaratmasaydıq, oraya heç kim bir manat da qoymazdı. İndi isə oraya 2,7 milyard dollar sərmayə qoyulur və bu hələ başlanğıcdır. Bax, budur dövlətin vəzifəsi və düzgün siyasəti. Biz şərait yaradırıq, kömək göstəririk, investisiya qoyuruq ki, sonra da özəl sektor və xarici şirkətlər sərmayə qoysunlar. Ona görə Sumqayıt Kimya Sənaye Parkının yaradılması hesab edirəm ki, bizim böyük uğurumuzdur. Bu il isə «SOCAR Polymer» və Gübrə zavodlarının açılışı nəzərdə tutulur. Bu 2 müəssisə nəinki daxili tələbatı tam ödəyəcək, eyni zamanda, böyük ixrac imkanlarına da malik olacaqdır. Bu 2 zavodun ümumi ixrac imkanları hər il 100 milyonlarla dollar həcmində

olacaqdır. Eyni zamanda, xüsusilə «SOCAR Polymer» zavodu kiçik və orta sahibkarlığın inkişafına təkan verəcək. Çünki məhsullar xammaldan Azərbaycanda istehsal olunacaq. Polimer elə bir məhsuldur ki, indi bir çox məişət və ya sənaye materialının yaradılmasında rol oynayır. Ona görə özəl sektor da diqqətli olsun. Zavod işə düşən kimi, dərhal yerli sənaye istehsalı yaradılmalıdır.

Digər şəhərlərdə də sənaye zonaları, sənaye məhəllələri, sənaye parkları yaradılır. Bu il Mingəçevir Yüngül Sənaye Parkının ilk zavodlarının açılışı gözlənilir. Neftçala Sənaye Məhəlləsi artıq fəaliyyətə başlayıb. Hesab edirəm ki, Masallı, Hacıqabul, Sabirabad sənaye məhəllələri bu il fəaliyyətə başlaya bilər. Dövlət investisiya proqramında kifayət qədər vəsait vardır. Özəl sektor da buna hazırdır və sifarişlər vardır. Beləliklə, hər bölgədə, hər rayonda müasir sənaye potensialı yaradılacaqdır.

Bildiyiniz kimi, bir müddət bundan əvvəl «Azərxalça» İstehsalat Birliyi yaradılmışdır. Göstəriş verilmişdir ki, xalçaçılıq sənətini yaşatmaq, gənc nəsli bu işlərə cəlb etmək, sənaye sahələrini və ixrac potensialını yaratmaq üçün biz bu sahəyə mütləq ciddi yanaşmalıyıq. Artıq biz bunu görürük. Mən bir neçə yeni Xalça fabrikinin açılışında şəxsən iştirak etmişəm, bu il isə 10 yeni fabrikin açılışı nəzərdə tutulur. Beləliklə, bu ilin sonuna qədər bizdə 20 Xalça fabriki fəaliyyət göstərəcəkdir. Bu fabriklərin hər birində 150-yə qədər işçinin çalışdığını və əksəriyyətinin də qadınlar olduğunu nəzərə alsaq, görün biz nə qədər iş yeri və güclü ixrac potensialı yaradırıq, özü də qadınlar üçün. Bütövlükdə isə birinci mərhələdə xalça fabriklərinin sayı 30-a çatmalıdır. Bu da yəqin ki, 2019-cu ildə öz həllini tapacaq. Xarici xammaldan asılılığı azaltmaq üçün ötən il Sumqayıtda Əyirici-Boyaq fabrikinin təməli qoyuldu. Beləliklə, biz özümüzü lazım olan bütün vasitələrlə, iplərlə, boyalarla təmin edəcəyik. Pambıq və barama istehsalı artır. Ona görə biz xalçaçılığı yerli xammal əsasında qururuq və quracağıq. Onu da qeyd etməliyəm

ki, bu il bölgələrdə bir neçə yun qəbulu məntəqəsi yaradılacaq. Əlbəttə ki, xalçaçılıq sənətinə bunun da böyük köməyi olacaqdır.

Kənd təsərrüfatı texnikası ilə bağlı bu il 160 milyon manat vəsait nəzərdə tutulub. Keçən il 10 min texnika gətirilmişdir. Bu il də bu proses davam etdiriləcək, müxtəlif texnikalar – taxılbiçən, pambıqyığan kombaynlar, traktorlar, qoşqular, digər xüsusi texnikalar alınacaqdır, vəsait də nəzərdə tutulubdur. Nisbətən yeni kənd təsərrüfatı məhsulları üçün də xüsusi texnika tələb olunur. Çəltikçilik, çuğundurçuluq, çayçılıq üçün indi müasir maşınlar, mexanizmlər var ki, insan əməyini yüngülləşdirir və məhsuldarlığı artırır. Bunlar da alınmalıdır.

Bu il gübrənin alınması üçün subsidiyaların həcmi artırılacaqdır. Bu göstəriş verilib, indi sənədlər hazırlanır. Çünki məhsuldarlığa çox təsir edən amillərdən biri də gübrənin verilməsidir. Biz bu məsələyə kompleks şəkildə yanaşırıq. Suvarma işləri, texnika, gübrələr və pestisidlər – hamısını biz gərək elə təşkil edək ki, məhsuldarlıq artsın. Keçən il Pestisid fabrikinin işə düşməsi nəticəsində biz özümüzü bu məhsulla təmin etdik və xaricə valyuta daha getməyəcək. Qeyd etdiyim kimi, pivot suvarma sistemlərinin də istehsalı ölkəmizdə başlanır.

Ərzaq təhlükəsizliyi məsələləri daim diqqət mərkəzindədir. Son illərdə bu istiqamətdə irəliləyiş var, amma hələ ki, bizi tam qane edə bilməz. Ona görə bu məsələyə xüsusi diqqət göstərilməlidir. Biz kənd təsərrüfatının ənənəvi olan və müəyyən dərəcədə unudulmuş texniki sahəsini inkişaf etdirməyə o vaxt başladıq ki, ərzaq təhlükəsizliyi məsələlərinə güclü təkan verildi. Ancaq biz yenə də bu məsələ ilə bağlı çox ciddi işləməliyik. Misal üçün, taxılçılıqla bağlı bəzi rəqəmləri ictimaiyyətə çatdırmaq istəyirəm. 2017-ci ildə 1 milyon 275 min ton buğda idxal olunub. Bu, 2016-cı illə müqayisədə 20 faiz azdır. Bu, yaxşı göstəricidir və onu göstərir ki, yerli istehsal artır. Ancaq görürsünüz ki, burada hələ nə qədər böyük iş həcmi vardır. Biz çalışmalıyıq ki, taxılçılıqda xaricdən asılılığı minimuma endirək. Heyvandarlıqla bağlı nəticələr də yaxşıdır. Ancaq hələ ki, biz özümüzü süd və

süd məhsulları ilə tam şəkildə təmin edə bilmirik. Kərə yağı, pendirlə tam təmin edə bilmirik. Ət və quş əti istehsalı artıq 100 faiz özümüzü təminetmə səviyyəsinə yaxınlaşır. Əlbəttə, növbəti illərdə açılacaq yeni fermalar, aqroparklar, quş fabrikləri, süd zavodları bu məsələni həll edəcək. Amma hələ ki, belə deyil. Baxmayaraq ki, bu sahədə çox böyük inkişaf vardır. Heyvandarlığın inkişafı üzrə Dövlət Proqramı hazırlanmalıdır və qəbul edilməlidir. Biz bu il dövlət xətti ilə xaricdən yenə də 10 min baş cins mal-qara alacağıq, yaxın keçmişdə Göygöl rayonunda açılmış Süni Mayalanma Mərkəzinin fəaliyyəti nəticəsində mal-qaranın cins tərkibini daxili imkanlar hesabına da yaxşılaşdıracağıq.

Hazırda 28 rayonda 43 aqroparkın yaradılması nəzərdə tutulur və bir neçəsi artıq fəaliyyətə başlayıb. Onlardan 27-si bitkiçilik, 16-sı isə heyvandarlıq üzrə aqroparklardır. Mən hesab edirəm ki, bu aqroparklar vasitəsilə biz ərzaq təhlükəsizliyi ilə bağlı olan əsas məsələləri həll edəcəyik. Bu aqroparklarda ət, quş əti, süd, yem, buğda, arpa, soya istehsalı da nəzərdə tutulur. Bu aqroparklara 183 min hektar torpaq ayrılıb. Burada biz çox yüksək məhsuldarlıq gözləyirik. Misal üçün, taxılçılıqda hektardan məhsuldarlıq 50 sentnerdən aşağı olmamalıdır. Belə də olacaq. Çünki indi bizim iri fermer təsərrüfatlarımızda – hansı ki, dövlət dəstəyi ilə yaradılıb – hektardan məhsuldarlıq 45–50 sentner və bəzən ondan da yüksəkdir. Ona görə biz buna nail olsaq, onda xaricdən asılılıq tamamilə aradan götürüləcəkdir.

Bu yaxınlarda Qida Təhlükəsizliyi Agentliyi yaradılıb. Bu da çox ciddi məsələdir. Bu xüsusi qurum həm idxal olunan qida məhsullarına nəzarət edəcək ki, keyfiyyətsiz, yaxud da insan orqanizmi üçün zərərli mallar gətirilməsin, eyni zamanda, Azərbaycanda daxili bazar və həmçinin ixrac üçün kənd təsərrüfatı və emal məhsulları sağlamlığa tam fayda verəcək səviyyədə istehsal olunsun. Çünki biz qeyri-neft ixracımızı artırırıq və məhsul da keyfiyyətli olmalıdır. İndi demək olar ki, ölkələrin əksəriyyətində

çox ciddi laboratoriya nəzarəti vardır. Əgər məhsul standartlara bir balaca uyğun deyilsə, onu heç kim almayacaq. Ona görə Qida Təhlükəsizliyi Agentliyi ilk növbədə, ölkə əhalisinin sağlam qida əldə etməsi və eyni zamanda, ixracımız üçün yaradılır.

Bu il bizdə tərəvəz istehsalı və ixracı kəskin artacaqdır. Ölkəmizdə 400 hektardan çox sahəsi olan istixanalar yaradılır. Onların bir neçəsi artıq fəaliyyətə başlayıb. Bu proses geniş vüsət alıb, çox böyük maraq, çox böyük gəlir vardır. Sahibkarlar da bundan çox faydalanırlar. İxracla bağlı bizim heç bir problemimiz yoxdur. Biz yeni ixrac bazarlarına çıxırıq və çıxacağıq. Ancaq unutmamalıyıq ki, ənənəvi ixrac bazarlarımız bizim üçün ən əlverişli bazarlardır. Ona görə istixanaların yaradılması prosesi sürətlə gedir. İxrac da ciddi şəkildə artır və artacaqdır. İndi biz özümüzü tərəvəzlə nəinki tam təmin edirik, hətta bizim böyük ixrac imkanımız vardır. 400 hektardan çox sahədə salınan istixanaların hamısı məhsul ixrac edəcək. Sahibkarlar indidən öz partnyorları ilə iş qursunlar, onları dəvət etsinlər, göstərsinlər, Azərbaycan məhsullarının üstünlüyünü izah etsinlər. Dövlət bu sahədə də öz dəstəyini göstərir, dövlət qurumları bu işlərlə məşğuldur. Qida təhlükəsizliyi qurumu da ciddi məşğul olmalıdır. Sahibkarlar özləri də məsuliyyətli olmalıdırlar. Onlar elə bir keyfiyyətli məhsul yetişdirməlidirlər ki, ixracla heç bir problem olmasın. Çünki  400 hektarda yaradılan bu istixanalar daxili bazar üçün hesablanmayıb. Ona görə burada bazarlara adekvat şəkildə məhsulların istehsalı da təşkil edilməlidir. Tövsiyəm ondan ibarətdir ki, burada sadəcə olaraq, bir məhsul deyil, çox çeşiddə məhsul yetişdirilməlidir.

Keçən il pomidor ixracı rekord həddə çatıb, ölkəyə 151 milyon dollar valyuta gəlib. Buna da böyük tələbat, böyük maraq vardır. Ancaq yenə də deyirəm, 400 hektarda salınan bu istixanaların hamısında pomidor yetişdiriləcəksə, bəlkə bu qədər bazar da tapmaq çətin olacaq. Ona görə həm dövlət qurumları, həm sahibkarlar özləri marketinq aparsınlar. Bazarların marketinqini aparsınlar ki, harada nə satmaq olar, harada hansı məhsullar üçün daha böyük tələbat var

və hansı ölkələrdə daxili istehsal artır. Biz onu da həmişə yadda saxlamalıyıq ki, əgər indi ənənəvi bazarımız olan ölkələrdə daxili istehsal bu və digər məhsullar üzrə artırsa, deməli, ixracımız üçün problem yarana bilər. Ona görə burada çox çevik siyasət aparılmalıdır, əlbəttə, dövlət qurumlarının nəzarəti altında və onların köməyi ilə.

Meyvə istehsalı bizdə artır və artacaq. Xurma ixracı keçən il 90 milyon dollar səviyyəsində olub. 2016–2017-ci illərdə 800 hektarda yeni xurma bağları salınıb. 2 il ərzində 1800 hektarda nar bağları salınıb. Ona görə xurma, nar istehsalı artacaq və artmalıdır. İntensiv bağçılığa çox böyük diqqət göstərilir. Alma bağları da sürətlə genişlənir və bu da ixrac üçün çox önəmli sahəyə çevrilibdir.

Pambıqçılığın inkişafı rekord templərlə gedir. 2015-ci illə 2017-ci ili müqayisə etsək görərik ki, 2015-ci ildə 35 min ton, 2017-ci ildə isə 207 min ton pambıq tədarük edilib. Pambıqçılıqla məşğul olan zəhmətkeşlərin sayı 200 minə çatıbdır. Bu, məşğulluq deməkdir. Hər gün bu insanlar halal zəhmətlə pul qazanıb evlərinə aparırlar. Ona görə mən bir daha demək istəyirəm ki, pambıqçılığın inkişafının çox böyük sosial tutumu vardır. Əlbəttə, bu, ixrac üçün də çox gəlirli bir sahədir. Bu il də biz pambıqçılıqla çox ciddi məşğul olmalıyıq. Baxmayaraq ki, keçən il 207 min ton pambıq tədarük edilib, ancaq məhsuldarlıq lazımi səviyyədə deyil. İndi bu məsələ ciddi təhlil edilir. Bəzi sahələrdə məhsuldarlıq yüksəkdir, bəzi sahələrdə yox. Bunun səbəbləri haqqında indi məlumat toplanılır ki, bu il biz məhsuldarlığı artıraq və pambıqçılığı intensiv yollarla inkişaf etdirək. Burada aqrokimyəvi xidmət, texnika ilə təminat, su, gübrələr, pestisidlər və aqronomların səmərəli işi əsas həlledici amillərdir.

Baramaçılıq da sürətlə inkişaf edir. Burada da müqayisələr aparmaq olar. 2015-ci ildə 236 kiloqram barama tədarük olunmuşdusa, keçən il bu rəqəm 244 tona çatıb. Bu il təqribən 400 ton barama tədarük edilməlidir. Beləliklə, «Şəki-İpək» kombinatı

daha böyük güclə işləyəcək, daha çox insan cəlb ediləcəkdir. Əminəm ki, 1-2 ilə «Şəki-İpək» kombinatı tam – sovet vaxtındakı gücü ilə işləyə bilər.

Tut tinglərinin əkilməsi prosesi uğurla gedir. Bizim mövcud tinglərimizin sayı 2 milyon 200 mindir. 2016–2017-ci illərdə 1 milyon 800 min ting əkilmişdir. 2018-ci ildə isə 3 milyon tingin əkilməsi nəzərdə tutulub. Bu da bizim kümçülərə olan dəstəyimizdir. Baramaçılıq indi geniş vüsət alır. Ailələr qısa müddət ərzində yaxşı pul qazanırlar, əlbəttə ki, dövlətin dəstəyi ilə.

Fındıqçılıq sürətlə inkişaf edir. 2016–2017-ci illərdə 30 minə yaxın hektarda yeni fındıq bağları salınıb. Ümumi fındıq bağlarının sahəsi 67 min hektardır. 2 il ərzində bağların sahəsini təxminən 2 dəfə artırmışıq və bu da son hədd deyil. Fındıq bağlarının sahəsi 80 min hektara çatmalıdır. Təbii ki, biz indikindən 2-3 dəfə çox məhsul götürməliyik. Onu da qeyd etməliyəm ki, fındıq pöhrələrinin alınmasını dövlət öz üzərinə götürüb. Fındığın ixracı da artır. Keçən il 114 milyon dollar həcmində fındıq ixrac etmişik.

Tütünçülük də sürətlə artır. 2016-cı ildə 3500 ton, 2017-ci ildə isə 5200 ton quru tütün tədarük edilibdir. Bir il ərzində istehsal 1,5 dəfə artıbdır. İndi qurutma kameraları alınacaq və bu məhsul ölkəmizdə istehsal olunacaqdır. Dekabr ayında yeni Siqaret fabrikinin tikintisinə start verildi. Ümid edirəm ki, bu Siqaret fabriki bu il işə düşəcək və beləliklə, xaricdən asılılıq azalacaq, ixrac potensialı yaranacaqdır.

Bu il yeni qoz bağlarının salınması nəzərdə tutulur, yerlər müəyyən edilib. Özəl sektor bu işə çox böyük maraq göstərir və təqribən 10 minə yaxın hektarda yeni qoz bağları salınacaqdır. Bir neçə ildən sonra bu da çox böyük gəlir gətirən ixrac sahəsi olacaqdır. 2016–2017-ci illərdə bizim tövsiyəmiz əsasında 200 hektarda yeni badam bağları salınıb. Məsələni təhlil etməyə başlayanda mən gördüm ki, Azərbaycanda cəmi 1000 hektarda badam bağları vardır, onların da təqribən 900 hektarı Naxçıvan

Muxtar Respublikasındadır. Abşeronda, Bakıətrafı yerlərdə, Xızı, Siyəzən, Şabran zonalarında badam yetişdirilməsi üçün çox gözəl təbii şərait var, ona görə belə bir tövsiyə verdik, çağırış etdik. 2 ildə 200 hektarda badam bağları salınıb. Əlbəttə ki, başlanğıc üçün bu, yaxşı göstəricidir, ancaq artmalıdır. Ölkəmizdə minlərlə hektarda badam bağları salınmalıdır, Badam Emalı fabriki tikilməlidir, paketləmə olmalıdır. Qısa müddət ərzində daxili bazarı təmin etməliyik və ixrac etməliyik.

Üzümçülüklə bağlı son rəqəmlər aşağıdakılardır: 2016-cı ildə 136 min ton üzüm tədarük edilmişdir. 2017-ci ildə bu rəqəm 152 min tona çatıb. İndi şərab istehsalı bizdə artmalıdır. Mövcud şərab zavodları tam gücü ilə işləməlidir. Çünki bu hələ ki, belə deyil. Bir çox zavodlar tikilib, ancaq onların biri 20 faiz, biri 30 faiz, digəri 50 faiz gücü ilə işləyir. Bu dözülməzdir. Tam gücü ilə işləmək üçün sahibkarlar gərək bu işə məsuliyyətlə yanaşsınlar. Yoxsa indi zavodları tikiblər, amma istifadə etmirlər. Bu çox qəribə haldır. Ona görə şərab istehsalı ilə bağlı dövlət ixrac imkanlarını genişləndirir, bütün sərgilərdə iştirak edirik, yeni kontraktlar bağlayırıq, sahibkarlara kömək göstəririk. Tezliklə bizdə şərab ixracı artmalıdır.

Zeytunçuluğa gəlincə, son 2 ildə 300 hektarda yeni zeytun bağları salınıb. Bu il və gələn il Bakıətrafı bölgələrdə, qəsəbələrdə minimum 3000 hektarda yeni zeytun bağları salınacaqdır. Yeni zeytun yağı fabrikləri yaradılacaq ki, onların istehsal gücü ildə 3000–4000 ton olacaq. Görün bizdə nə qədər böyük zeytun yağı ixracı gözlənilir. Bizim zeytunumuz çox keyfiyyətlidir, sadəcə olaraq, əvvəlki illərdə səmərəsiz istifadə olunurdu. Düzdür, bizdə zeytun yağı istehsalı var, ancaq biz özümüzü hələ də təmin edə bilmirik. Amma belə təbii imkanı olan bir ölkədə mütləq biz böyük ixracatçıya çevrilməliyik və çevriləcəyik.

Mən sahibkarların diqqətini bir sahəyə də cəlb etmək istəyirəm. Bu da çox perspektivli sahədir və tədricən Azərbaycanda inkişaf edir. Bu arıçılıqdır. Bizim arıçılıq üçün çox gözəl təbii şəraitimiz vardır. Cənubi Qafqazda biz arıçılığın inkişafı üçün

xüsusi bölgələrə malikik. Arıçılara indi dövlət dəstəyi də veriləcəkdir. Hər arı ailəsinə görə arıçılara subsidiyalar verilməlidir və veriləcəkdir. Deməli, ildə hər pətəyə dövlət tərəfindən 10 manat subsidiya veriləcək ki, bu sahəyə maraq daha da artsın və bal bizim böyük ixrac məhsulumuza çevrilsin. İndi ABAD konteynerlərində bal istehsalı təmin edilir. Əlbəttə, onun paketlənməsi, keyfiyyəti ən yüksək səviyyədə olmalıdır. Mənə verilən məlumata görə, Azərbaycan balı keyfiyyətinə görə dünya miqyasında fərqlənən məhsullardan biridir.

Şəkər çuğunduru ilə bağlı görülən işlər nəticə verir. İndi bu sahədə 15 min insan çalışır və 14 min hektardan 400 min tondan çox şəkər çuğunduru tədarük edilib, İmişli Şəkər zavoduna göndərilibdir. Azərbaycanda istehsal olunan şəkərin tərkibində yerli xammalın səviyyəsi artır. Biz buna da çalışmalıyıq. Çünki bizdə şəkər daha çox xaricdən gətirilən şəkər qamışı hesabına istehsal olunurdu. Şəkər çuğunduru hesabına bunu etməliyik və bölgələrdə də ciddi təhlil aparılmalıdır. Bugünkü çıxışlarda məhsuldarlıqla bağlı fikirlər səsləndirildi. Çuğundurda şəkərliliklə bağlı çox ciddi təhlil aparılmalıdır. Çuğundur o bölgələrdə əkilməlidir ki, orada şəkərlilik və məhsuldarlıq daha yüksəkdir.

Keçən il çayçılıq, çəltikçilik, sitrusçuluq üzrə müşavirələr keçirildi. Bu sahələrə də böyük diqqət göstəririk. İlk növbədə, daxili tələbatı təmin etməliyik və ixrac imkanlarımızı genişləndirməliyik. Kənd təsərrüfatı ilə bağlı bir məsələyə də toxunmaq istəyirəm. Elektron kənd təsərrüfatı informasiya sisteminin tətbiqi ilə bağlı işlər daha sürətlə və daha böyük səmərə ilə getməlidir.

İdxal və ixracla bağlı bir neçə söz demək istərdim ki, həm ictimaiyyət, həm də sahibkarlar bilsinlər ki, daxili tələbatı ödəmək və ixracımızı artırmaq üçün hansı sahələrə daha çox diqqət göstərilməlidir. Deməli, qida məhsulları üzrə ixracla bağlı 1-ci yerdə pomidor dayanır – 2016-cı ildə 94 milyon dollar, 2017-ci ildə 151 milyon dollar. Fındıq – 2016-cı ildə 105 milyon

dollar, 2017-ci ildə 114 milyon dollar. Xurma – 2016-cı ildə 69 milyon dollar, 2017-ci ildə 91 milyon dollar. Alma – 2016-cı ildə 23 milyon dollar, 2017-ci ildə 31 milyon dollar. Kartof – 2016-cı ildə 16 milyon dollar, 2017-ci ildə 26 milyon dollar. Albalı və gilas eyni səviyyədədir – 23 milyon dollar. 2016-cı ildə soğan ixracı, demək olar ki, olmayıb, 2017-ci ildə isə bu göstərici 15 milyon dollar səviyyəsində olub. Bitki yağları – 2016-cı ildə 10 milyon dollar, 2017-ci ildə 14,5 milyon dollar. Yəni bu rəqəmlər onu göstərir ki, ixracda müsbət dinamika və meyillər vardır. Sadaladığım layihələr icra olunduqda, bu dinamika daha da sürətlə gedəcəkdir.

Bizdə qeyri-qida məhsulları üzrə 1-ci yerdə qızıldır. 2016-cı ildə 76 milyon dollarlıq, 2017-ci ildə 140 milyon dollarlıq qızıl satılıb. Alüminium – 2016-cı ildə 98 milyon dollar, 2017-ci ildə 117 milyon dollar. Polad borular – 2016-cı ildə 43 milyon dollar, 2017-ci ildə 39 milyon dollar – bax, yeganə pozisiyadır ki, burada bir qədər azalma vardır. Pambıq mahlıcı – 2016-cı ildə 6 milyon dollar, 2017-ci ildə 33 milyon dollar. Pambıq iplik – 2016-cı ildə 18 milyon dollar, 2017-ci ildə bir qədər azdır – 16 milyon dollar. Tütün – 2016-cı ildə 8 milyon dollar, 2017-ci ildə 14 milyon dollar. Sement klinkeri – 2016-cı ildə 8 milyon dollar, 2017-ci ildə 12 milyon dollar. Armatur – 2016-cı ildə 2 milyon dollar, 2017-ci ildə 10 milyon dollar. Yəni qida və qeyri-qida məhsulları üzrə müsbət dinamika mövcuddur. Bu da çox gözəl göstəricidir və bizə imkan verir ki, qeyri-neft ixracımızı böyük dərəcədə artıra bilək.

İdxalla bağlı rəqəmlər ilk növbədə, sahibkarlar üçündür. Onlar bilsinlər ki, hansı pozisiyalar daha dinamik inkişaf edir və bu məhsullar üçün bazarlar da vardır. Ona görə bu məhsullarda artım olmalıdır. İdxal olunan məhsullar isə birbaşa sahibkarlara bir tövsiyədir ki, bax, biz burada idxalı əvəzləmək üçün daha da fəal işləməliyik. Deməli, keçən il buğdanın alınması üçün xaricə 227 milyon dollar valyuta gedib. İndi buğdanın böyük hissəsi Azərbaycanda istehsal olunacaq. Kərə yağı – 50 milyon dollar.

Yeni süd zavodlarının tikintisi və mövcud süd zavodlarında kərə yağı xətlərinin yaradılması mütləq təmin edilməlidir. İndi sahibkarlara kreditlər veriləndə də bu məsələ nəzərə alınsın. Mineral və qazlı sular – xaricə 48 milyon dollar gedir. Baxmayaraq ki, bizdə bu qədər gözəl bulaqlar, yeraltı sular var, istehsal edirik, ancaq çatmır. Nə etmək lazımdır? Mövcud su müəssisələrinin gücünü artırmaq lazımdır. Yenə də dövlət öz dəstəyini göstərsin, sahibkarlar da fəal olsunlar, Azərbaycanın daxilində 48 milyon dollarlıq bazar vardır. Əgər biz bunu istehsal etsək, əlbəttə ki, xaricdən az gələcək. Düyü – 36 milyon dollar xaricə gedir. İndi çəltikçiliyin inkişafı sürətlə gedir, hesab edirəm ki, biz bu rəqəmi azaldacağıq.

Maraqlı bir məsələ kartofla bağlıdır – 26 milyon dollar dəyərində satmışıq, 40 milyon dollar dəyərində almışıq. İndi kartofun istehsalı elə olmalıdır ki, ümumiyyətlə, idxaldan söhbət getməsin. Ancaq daxili tələbatı ödəməliyik və ixrac etməliyik. Bu məsələ ilə bağlı çox ciddi təhlil aparılmalıdır.

Soya və ondan alınan məhsullar – 38 milyon dollar xaricə gedir. İndi soya əkini başlayır. Mənə verilən məlumata görə, bəzi yerlərdə məhsuldarlıq o qədər də yaxşı deyil. Əlbəttə, birinci, ikinci ildən sonra təhlil aparmaq bir qədər çətindir. Ancaq hesab edirəm ki, bu sahədə də yerli istehsal üçün yaxşı potensial vardır.

Qeyri-qida məhsullarından dərman vasitələri 211 milyon dollar dəyərindədir. Düzdür, biz bunun hamısını Azərbaycanda istehsal edə bilmərik. Ancaq indi bir neçə Dərman zavodu tikilir və idxaldan asılılıq müəyyən dərəcədə azalacaqdır. Siqaret – 160 milyon dollar xaricə gedir. Həm insanlar zəhərlənir, həm də pul gedir. Ona görə bu məsələyə çox ciddi baxmaq lazımdır. Əminəm ki, indi qəbul edilmiş qanun siqaret çəkənlər üçün, əlbəttə, yeni bir tövsiyə olacaq ki, camaat bu pis vərdişdən əl çəksin. Bilirsiniz, bu, xəstəlikdir, bədbəxtlikdir, çox pis vərdişdir. Bunun insan orqanizminə heç bir faydası yoxdur, ziyandan başqa. Xaricə 160 milyon dollar gedir. İndi biz Siqaret fabriki tikirik ki, xaricdən asılılıq azalsın. Ancaq xaricdən

asılılığın azalmasında ən yaxşı hal o olar ki, Azərbaycanda siqareti az çəksinlər.

Trikotaj məhsulları – xaricə təxminən 100 milyon dollar gedir. Bizim fabriklərimiz, xammalımız vardır. Ona görə biz bu boşluğu doldurmalıyıq.

Sabun-yuyucu vasitələr – 100 milyon dollarlıq idxal olunub. Yuyucu vasitələrin də, sabunun da istehsalı Azərbaycanda təşkil olunmalıdır. Bu o qədər çətin məsələ deyil. Ona görə bu məsələyə mütləq baxmaq lazımdır.

Şüşə və ondan hazırlanan məhsullar – təxminən 80 milyon dollar xaricə gedir. Bu məsələ öz həllini tapacaq. Sumqayıt Kimya Sənaye Parkında müasir Şüşə zavodu tikilir. Burada inşaatda istifadə olunan ən gözəl, müasir şüşələr istehsal ediləcək, xaricə ehtiyac olmayacaq. Bizim Şüşə Qablar zavodumuz da vardır. İndi orada yeni xətlər qurulacaq ki, özümüzü həm məişətdə, həm də tikintidə istifadə olunan şüşə ilə təmin edək.

Gübrələr 55 milyon dollar həcmindədir. Karbamid zavodu işə düşəndən sonra bu məsələnin də həlli nəzərdə tutulur. Yəni ancaq sadaladığım bu pozisiyalar üzrə təqribən 1 milyarddan çox dollar xaricə gedir ki, getməyə bilər, getməməlidir və getməyəcək. Ona görə qeyd etdiyim bu məsələlər həm dövlət orqanları, həm özəl sektor tərəfindən icra edilməlidir. Bu il biz bunun icrası ilə bağlı fəal işləməliyik və beləliklə, idxal azalacaq, ixrac isə artacaqdır.

Deyə bilərəm ki, bütövlükdə ölkə iqtisadiyyatının inkişafı ilə bağlı heç bir problem yoxdur. Maliyyə vəziyyətimiz çox sabitdir, müsbətdir. Beynəlxalq qurumlar Azərbaycandakı islahatları yüksək qiymətləndirir. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, beynəlxalq reytinq agentlikləri bizdə aparılan islahatları yüksək qiymətləndirir. Davos Dünya İqtisadi Forumu rəqabətqabliyyətliliyinə görə Azərbaycanı 35-ci yerə layiq görüb. Dünya miqyasında 35-ci yeri tutmaq, MDB məkanında isə 1-ci olmaq çox böyük nəticədir.

İnklüziv inkişaf indeksinə görə, Azərbaycan inkişafda olan ölkələr arasında 3-cü yerdədir. Bu siyahıda cəmi 80-ə yaxın ölkə vardır. Onu da qeyd etməliyəm ki, biz MDB məkanında bu göstəriciyə görə də 1-ci yerdəyik. Ermənistana gəldikdə isə o, 45-ci yerdədir və buna görə də çox sevinir, toy-bayram edir. Biz isə 3-cü yerdəyik və bizdən qabaq ancaq inkişaf etmiş ölkələrdir, onların da sayı 30-dur. İnkişaf etmiş ölkələrin reytinqinə 30 ölkə daxil edilib və 80-ə yaxın ölkə inkişafda olan ölkədir. İnkişafda olan ölkələr arasında biz 3-cü yerdəyik. Deməli, dünya miqyasında inklüziv inkişaf indeksinə görə biz 33-cü yerdəyik. Rəqabətqabliyyətliliyə görə isə 35-ci yerdəyik.

Bu rəqəmlər hər şeyi əyani şəkildə göstərir. Biz düzgün yoldayıq, düzgün siyasət aparırıq. Siyasətimiz xalqımızın maraqlarını təmin edir, dövlətimizi gücləndirir. Sağ olun.

## QUSARDA «ŞAHDAĞ» QIŞ-YAY TURİZM KOMPLEKSİNİN NÖVBƏTİ İNKİŞAF PLANLARI İLƏ TANIŞLIQ

*30 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Qusarda «Şahdağ» Qış-Yay turizm kompleksinin növbəti inkişaf planları ilə tanış olmuşdur.*

*Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini Yaqub Eyyubov Prezident İlham Əliyevə «Şahdağ» Qış-Yay turizm kompleksinin hazırkı vəziyyəti və burada bu il ikinci mərhələdə görüləcək işlər barədə məlumat verdi. Qeyd edildi ki, burada dəniz səviyyəsindən 2350 metr yüksəklikdə 5 nömrəli lift meydançası inşa ediləcək və 4,2 kilometr uzunluğunda yeni eniş zolağı tikiləcək. Bu, ən uzun zolaq olmaqla yanaşı, mürəkkəbliyinə görə də qırmızı dərəcəli zolaq olacaqdır.*

*Həmçinin dövlət başçısına məlumat verildi ki, bu il kompleksin əsas meydanında əyləncə infrastrukturunun qurulması da planlaşdırılır. Burada boulinq, tennis və digər stolüstü oyunlar zalı, kinoteatr, musiqi mərkəzi, həmçinin suvenir mağazaları, iaşə və xidmət obyektləri inşa ediləcəkdir.*

*Kompleksin yay mövsümündə də xidmət göstərməsi üçün burada göl yaradılacaq. Yay mövsümündə turistlər bu göldə həm üzəcək, həm də qayıqlarla səyahət edəcəklər. Qış mövsümündə isə bu göldən qaryaratma üçün ehtiyat mənbəyi kimi istifadə olunacaqdır.*

*İkinci mərhələdə görülməsi planlaşdırılan işlərə bu ilin yaz aylarından başlanılacaq. Bunun üçün indidən hazırlıq işləri görülür.*

*Dövlət başçısına kompleksin yol infrastrukturu barədə də ətraflı məlumat verildi. Bildirildi ki, kompleksin ərazisindən keçən Qusar–Ləzə yolu onun kənarından inşa olunacaq. Bu da imkan verəcək ki, yuxarı kəndlərin sakinləri kompleksin ərazisinə daxil olmadan hərəkət etsinlər. Hazırda bu yolun yarısının torpaq yatağı hazırlanıb. Qalan işlərin ilin sonuna qədər tamamlanması nəzərdə tutulur. Bu yeni yoldan kompleks ərazisinə 2 giriş nəzərdə tutulub. Kompleksin girişində böyük avtomobil dayanacağının da istifadəyə verilməsi planlaşdırılır.*

*Məlumat verildi ki, kompleksin 3-cü mərhələsi ilə bağlı layihələndirmə işləri aparılır.*

*Kompleksin əsas meydanının ərazisi ilə tanış olan dövlət başçısı tapşırıq və tövsiyələrini verdi.*

*Sonra Prezident İlham Əliyev «Şahdağ» Qış-Yay turizm kompleksində xizək sürdü.*

**ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAYTRİPALA SİRİSENAYA**

Hörmətli cənab Prezident!

Şri-Lanka Demokratik Sosialist Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Şri-Lanka xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 yanvar 2018-ci il*

## TÜRKİYƏ RESPUBLİKASININ ƏMƏK VƏ SOSİAL MÜDAFİƏ NAZİRİ JÜLİDƏ SARIƏROĞLUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 fevral 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Türkiyə Respublikasının Əmək və Sosial Müdafiə naziri xanım Jülidə Sarıəroğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Ölkələrimizin sosial müdafiə sahəsində işbirliyinin razılıq doğurduğunu bildirən Prezident İlham Əliyev bu sahədə təcrübə mübadiləsinin, birgə proqramların həyata keçirilməsinin zəruriliyini qeyd etdi. Ümumilikdə Azərbaycan–Türkiyə dostluq və qardaşlıq əlaqələrinin çox uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı ölkələrimizin daim bir-birinin yanında olduğunu və bir-birini dəstəklədiyini dedi, münasibətlərimizin dünya miqyasında nümunəvi xarakter daşıdığını məmnunluqla qeyd etdi. Prezident İlham Əliyev Türkiyə Respublikasının Əmək və Sosial Müdafiə naziri xanım Jülidə Sarıəroğlunun başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin əlaqələrimizin daha da möhkəmləndirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi.*

*Xanım Jülidə Sarıəroğlu Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlət başçısına çatdırdı. O bu vəzifədə fəaliyyətə başladıqdan sonra ilk səfərini qardaş Azərbaycana etməsindən məmnunluğunu söylədi. Nazir Türkiyə ilə Azərbaycanın daim bir-birinin yanında olmasını və ölkələrimizin bütün sahələrdə uğurlu əməkdaşlıq həyata*

*keçirdiklərini vurğulayaraq, sosial müdafiə sahəsində də əlaqələrimizin dərinləşdirilməsinin vacibliyini qeyd etdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.*

## «SMART AFRİCA» TƏŞƏBBÜSÜNÜN İCRAÇI DİREKTORU HAMADUN TURE İLƏ GÖRÜŞ

*1 fevral 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də «SMART Africa» Təşəbbüsünün icraçı direktoru Hamadun Tureni qəbul etmişdir.*

*Hamadun Ture sonuncu dəfə 2014-cü ildə Beynəlxalq Telekommunikasiya İttifaqının baş katibi olarkən «BakuTel» Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisində iştirak etmək üçün ölkəmizə səfərini məmnunluqla xatırlatdı. 22 Afrika ölkəsinin üzv olduğu və 12 Afrika ölkəsinin dövlət başçısının idarə heyətinə daxil olduğu «SMART Africa» Təşəbbüsü və onun fəaliyyəti haqqında məlumat verən Hamadun Ture Təşəbbüsün Afrika qitəsi üçün vahid rəqəmsal platformanın yaradılması işində vacib rol oynadığını, işlərin artıq yaxşı nəticələr verdiyini, həmçinin layihələrdə peyk texnologiyalarının tətbiqi istiqamətində «Azərkosmos» ASC ilə əməkdaşlıqda maraqlı olduqlarını bildirdi.*

*Prezident İlham Əliyev Azərbaycan ilə «SMART Africa» Təşəbbüsü arasında gələcək əməkdaşlığı dəstəklədiyini və bu sahədə istiqamətlərin müəyyənləşdirilməsinin önəmini vurğuladı.*

## AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASININ V QURULTAYINA

Hörmətli qurultay iştirakçıları!

Sizi səmimi-qəlbdən salamlayır və növbəti ali toplantınızın öz işinə başlaması münasibətilə təbrik edirəm.

Böyük tarixi inkişaf yolu keçmiş Azərbaycan həmkarlar ittifaqları müstəqillik illərində genişmiqyaslı fəaliyyəti sayəsində cəmiyyətin aparıcı təsisatlarından birinə çevrilmişdir. Bu gün respublikamızda ən kütləvi ictimai təşkilat olan Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası vətəndaşların sosial hüquqlarının təmin olunmasında mühüm rol oynayır.

Müasir dövrdə hüquqi dövlət quruculuğu prosesini həmkarlar ittifaqları olmadan təsəvvür etmək qeyri-mümkündür. Azərbaycan hökuməti əmək münasibətlərinin tənzimlənməsi və insanların sosial məsələlərinin həlli sahəsində onların fəaliyyətini yüksək qiymətləndirir. Hazırda ölkəmizdə sosial tərəfdaşlıq sisteminin vacib subyektlərindən biri kimi çıxış edən həmkarlar təşkilatlarına öz işlərini zamanın tələbləri səviyyəsində qurması və funksional imkanlarının genişləndirilməsi üçün hərtərəfli şərait yaradılıbdır.

Azərbaycan Respublikasında dərin sosial-iqtisadi islahatların həyata keçirilməsi, vətəndaşların layiqli həyat şəraitinin təmin edilməsi istiqamətində dövlət proqramlarının və infrastruktur layihələrin uğurla reallaşdırılması yoxsulluq və işsizlik kimi ağır problemlərin səviyyəsinin minimuma endirilməsinə, əhalinin rifah halının yüksəldilməsinə imkan veribdir. Enerji resurslarından əldə edilən gəlirlər ilk növbədə, iqtisadiyyatın şaxələndirilməsinə, insan kapitalının və iqtisadi potensialın inkişafına yönəldilibdir. Aparılmış islahatlar nəticəsində

ölkəmizin ümumi daxili məhsulunda qeyri-neft sektorunun həcmi ildən-ilə artır, sahibkarlığın genişlənməsi üçün yaradılmış əlverişli mühit özəl bölmənin fəaliyyətinə müsbət təsir göstərir və çoxsaylı yeni iş yerləri açılır.

Əldə olunan bu uğurlar həm də vətəndaşların sosial mənafelərinin qorunması, əmək münasibətlərinin nizamlanması, cəmiyyətdə hüquqi mədəniyyətin yüksəldilməsi və ictimai həmrəyliyin möhkəmləndirilməsi ilə bağlı həmkarlar ittifaqlarının rolunu və məsuliyyətini daha da artırır. Həmkarlar təşkilatları bu reallıqdan çıxış edərək, müxtəlif mülkiyyət formasına malik olan müəssisə və şirkətlərdə öz fəaliyyətinin qurulması, işçilərin əmək, istirahət, müalicə və digər sosial tələbatlarının ödənilməsi üçün tədbirlərini ardıcıl davam etdirməlidir. Hesab edirəm ki, indiki dövrdə sahə həmkarlar təşkilatlarının işinin gücləndirilməsinə və tərəfdaşlarla səmərəli əməkdaşlığın dərinləşdirilməsinə daha çox diqqət ayrılmalıdır.

İnanıram ki, bugünkü mötəbər tədbirdə aparılacaq konstruktiv müzakirələr və qəbul ediləcək qərarlar ölkəmizin sosial-iqtisadi inkişafının müasir mərhələsində həmkarlar ittifaqlarının nüfuzunun artmasına, cəmiyyətimizin ahəngdar həyatının və vətəndaşların sosial rifahının təmin olunmasına sanballı töhfələr verəcəkdir.

Sizi bir daha ürəkdən təbrik edir, qurultayın işinə uğurlar arzulayıram!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 fevral 2018-ci il*

## BEYNƏLXALQ VƏ XARİCİ ÖLKƏLƏRİN HƏMKARLAR İTTİFAQLARININ NÜMAYƏNDƏ HEYƏTİNİN BİR QRUPU İLƏ GÖRÜŞ

*5 fevral 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının V qurultayında iştirak edən beynəlxalq və xarici ölkələrin həmkarlar ittifaqlarının nümayəndə heyətinin bir qrupunu qəbul etmişdir.*

*Qonaqları ölkəmizdə salamlayan və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının qurultayında iştirak etdiklərinə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev vurğuladı ki, bu, beynəlxalq və xarici ölkələrin həmkarlar ittifaqları ilə Azərbaycan həmkarlar ittifaqları arasında sıx qarşılıqlı fəaliyyəti, həmrəyliyi göstərir. Qurultay həmişə müəyyən işin nəticəsidir, görülən və görüləcək işlərlə bağlı fikir mübadiləsi aparmaq imkanıdır. Dövlətimizin başçısı bu sahədə qarşıda duran məsələlərin hamı üçün eyni olduğunu bildirərək, əminliyini ifadə etdi ki, qurultayda müzakirə ediləcək məsələlər və qəbul olunacaq qərarlar ölkəmizin uğurlu inkişafına öz töhfəsini verəcəkdir. Prezident İlham Əliyev qeyd etdi ki, hər bir cəmiyyətdə, o cümlədən Azərbaycanda həmkarlar ittifaqının rolu artır. Biz vətəndaşlar üçün sosial cəhətdən müdafiə edilmiş əmək şəraiti yaratmağa çalışırıq. Bu, son 15 ildə 5 dəfədən çox artırılan əməkhaqqında və əmək şəraitində də özünü göstərir. Daimi nəzarət və həllini tələb edən məsələlər də diqqət mərkəzindədir. Bu ilk növbədə, məşğulluqla əlaqədardır. Azərbaycanda son illərdə işsizliyin səviyyəsinin əhəmiyyətli dərəcədə azaldığını,*

*cəmi 5 faiz təşkil etdiyini vurğulayan dövlət başçısı bunu böyük nailiyyət kimi qiymətləndirdi. Təxminən son 15 il ərzində əhalinin sayı 1 milyon yarım nəfər artıb, 1 milyon 400 min isə daimi iş yeri yaradılıbdır. Buna görə də belə müsbət demoqrafik dinamika bizi həmişə işsizliyin daim aşağı səviyyədə olması üçün yeni iş yerlərinin yaradılması istiqamətində fəal işləməyə məcbur edir. Prezident İlham Əliyev vurğuladı ki, bu qədər iş yerinin yaradılması dövlətin əldə etdiyi ən böyük nailiyyətlərdən biridir, amma elmi-texniki tərəqqini, avtomatlaşdırmanı, yeni texnologiyaların inkişafını nəzərə alaraq, indi qarşıda yenidən ixtisaslaşma vəzifəsi durur. Qeyri-leqal məşğulluqla bağlı məsələ ətrafında da fikir mübadiləsi aparmaq faydalı olardı. Azərbaycanda işlə məşğul olanların hamısını qeydiyyata götürmək üçün həm inzibati, həm də sistem xarakterli tədbirlər görülür. Bununla paralel olaraq əməyin ödənilməsinin ölçüləri barədə dəqiq nəzarət və hesabatlılıq da diqqət mərkəzindədir.*

*Prezident İlham Əliyev bildirdi ki, yalnız həmkarlar ittifaqının qüvvəsi ilə bunları həll etmək mümkün deyil. Burada həm nəzarət, həm də fiskal, vergi, sosial müdafiə və əmək orqanları birgə işləməlidir. Dövlət başçısı qurultayda aparılacaq fikir mübadiləsinin faydalı olacağına əminliyini bildirdi və qurultayın işinə uğurlar arzuladı.*

*Qonaqlar adından çıxış edən Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının prezidenti Joao Felisio Azərbaycanda əldə olunan nailiyyətlər münasibətilə Prezident İlham Əliyevi təbrik etdi və Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyası olaraq, ölkəmizdə keçirilən bu tədbirdə iştirak etməklərindən məmnunluq duyduqlarını söylədi.*

*Sonra qonaq dünyada gedən mürəkkəb proseslər fonunda həmkarlar təşkilatlarının iş yerləri ilə bağlı fəaliyyətinin əhəmiyyətindən danışdı və bəzi ölkələrdə həmkarlar ittifaqlarının üzvlərinin sayının azalmasının narahatlıq doğurduğunu bildirdi. Zəhmətkeşlərin hüquqlarının müdafiə olunması Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının qarşısında duran əsas*

*vəzifələrdən biri olduğunu vurğuladı. Digər tərəfdən, dünya əhalisinin sayının artması da iş yerlərinin qorunması ilə bağlı qarşıya yeni çağırışlar qoyur.*

*Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının prezidenti vurğuladı ki, digər mühüm problemlərdən biri də miqrant məsələsidir. Bu da öz həllini tələb edən problemdir. Qonaq xüsusilə qeyd etdi ki, dünyada baş verən münaqişələr insanların, xüsusilə aztəminatlı təbəqənin rifah halına çox mənfi təsir edir. Sonra qonaq azərbaycanlı həmkarlarına Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının fəaliyyətinə verdikləri töhfəyə görə minnətdarlığını bildirdi və qurultay iştirakçılarının həmkarlar təşkilatları qarşısında duran vəzifələrin həlli istiqamətində fikirlərini bölüşəcəklərinə ümidvar olduğunu dedi.*

*Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının vitse-prezidenti, Ümumhəmkarlar İttifaqları Konfederasiyasının və Rusiya Müstəqil Həmkarlar İttifaqları Konfederasiyasının prezidenti Mixail Şmakov dövlətimizin başçısı ilə növbəti dəfə görüşməkdən böyük məmnunluq hissi keçirdiyini söylədi. O qeyd etdi ki, hər gəlişində müşahidə etdiyi irəliləyiş və tərəqqini vurğulamaq onun üçün olduqca xoşdur və işsizliyin 5 faiz təşkil etməsi böyük nailiyyətdir.*

*Mixail Şmakov Azərbaycanda ali dövlət orqanları ilə həmkarlar ittifaqı təşkilatları arasında mövcud olan səmərəli qarşılıqlı fəaliyyətin önəmini vurğulayaraq, bunun ölkədə ictimai-siyasi sabitliyin təmin olunması işinə böyük töhfə verdiyini qeyd etdi və əldə olunan nailiyyətlərin bir çox ölkələrə nümunə olduğunu bildirdi. Bizim hamımızın qarşısında ümumi problemlərin dayandığını qeyd edən qonaq bunlardan birinin də qeyri-formal və qanunsuz məşğulluq olduğunu vurğuladı. Qanunsuz məşğulluq hamıya ziyan vurur və iqtisadiyyatı daha səmərəli inkişaf etdirməyə imkan vermir. Ona görə də həmin məsələdə eyni mövqedən çıxış etmək və çalışmaq lazımdır ki, dövlətin qanunlarına riayət olunsun – əvvəla, hər kəs sosial sistem tərəfindən müdafiə edilsin, digər tərəfdən isə hər kəs bu sosial*

*sistemə öz töhfəsini versin ki, özü də müdafiə edilsin. Bu sahədə Azərbaycanın təcrübəsi bir nümunədir. Qonaq vurğuladı ki, bundan sonra da Azərbaycan hökuməti və ölkəmizin Həmkarlar İttifaqları Konfederasiyası ilə əməkdaşlığı davam etdirəcəklər.*

*Xoş sözlərə və Azərbaycanda görülən işlərə verilən qiymətə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev dedi ki, məqsədimiz vətəndaşların həyatını daha da yaxşılaşdırmaq, dövlətin daha güclü və uğurlu olması üçün çalışmaqdır. Buna görə də bizim iqtisadi sahədə apardığımız və indiyə qədər həyata keçirilmiş bütün islahatlar çox ciddi sosial siyasətlə tənzimlənir. Prezident İlham Əliyev bildirdi ki, bu islahatlar o vaxt səmərəli olur ki, ictimaiyyət onu dəstəkləyir. Buna görə də iş yerlərinin, işləyənlər üçün layiqli iş şəraitinin yaradılması hər zaman siyasətimizin gündəliyində durur.*

*Prezident İlham Əliyev qeyd etdi ki, ölkəmizdə çox müsbət demoqrafik dinamika nəzərə alınmaqla, yeni iş yerlərinin yaradılması istiqamətində səmərəli iş aparılır. Dövlət başçısı bildirdi ki, Azərbaycanda son 15 ildə əhalinin sayı 1 milyon yarım artıb və bu artım meyili hələ də davam edir. Bu da öz növbəsində, inkişaf etməkdə olan iqtisadiyyatın göstəricisidir. Son 15 il ərzində iqtisadiyyatımız, ümumi daxili məhsul 3,2 dəfə artıbdır. Hazırda Davos Dünya İqtisadi Forumunun son qiymətləndirməsinə görə, Azərbaycan rəqabətqabliyyətlilik baxımından dünyada 35-ci, inkişaf etməkdə olan ölkələr arasında isə – orada 80-dək inkişaf etməkdə olan ölkə var – 3-cü yerdədir. Bu bizim ölkəmizin potensialını nümayiş etdirir.*

*Prezident İlham Əliyev bildirdi ki, biz əldə olunan nailiyyətlərlə kifayətlənə bilmərik. Çünki dünyada vəziyyət dəyişir. Qeyri-sabitlik, müharibələr, münaqişələr, qaçqınlar, miqrasiya – bunlar insanlar üçün və bütün bəşəriyyət üçün böyük bəlalardır. Dövlət başçısı qeyd etdi ki, Azərbaycan bu problemlə 20 ildən artıqdır – Ermənistan tərəfindən işğala və etnik təmizləməyə məruz qaldığı dövrdən üzləşib. Bu işğal nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilib. Prezident*

*İlham Əliyev bildirdi ki, bu kateqoriyadan olan insanlar arasında yoxsulluq, işsizlik səviyyəsi çox yüksək idi. Biz bunu xeyli azalda bildik. Onları layiqli işlə, mənzillərlə təmin etdik. 265 min nəfər dövlət hesabına mənzillə təmin olunub. Bu proses indi də davam edir.*

*Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Möhbalıyev rəhbərlik etdiyi qurumun yaranmasının 25 illiyi münasibətilə medalın təsis olunduğunu bildirdi və bu qurumun İcraiyyə Komitəsinin qərarı ilə həmkarlar təşkilatlarının fəaliyyətinin inkişafına verdiyi dəstəyə görə ilk medalı Prezident İlham Əliyevə təqdim etdi.*

*«Türk-İş» Həmkarlar İttifaqları Konfederasiyasının baş direktoru Ergün Atalay da dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.*

## DÜNYA BANKININ CƏNUBİ QAFQAZ ÜZRƏ REGİONAL DİREKTORU MERSİ TEMBON İLƏ GÖRÜŞ

*6 fevral 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembonu qəbul etmişdir.*

*Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembon Azərbaycanda iqtisadi sahədə əldə edilmiş nailiyyətlər, həyata keçirilmiş uğurlu islahatlar münasibətilə təbriklərini dövlətimizin başçısına çatdırdı. Xanım Mersi Tembon bütün bu müsbət proseslərdə təmsil etdiyi qurumun ölkəmizlə əməkdaşlığından məmnunluq hissi keçirdiyini bildirdi. O, Azərbaycanda əldə olunan bu nailiyyətlərdən insanların faydalandığının şahidi olduqlarını dedi və qeyd etdi ki, iqtisadiyyatın şaxələndirilməsinin təmin edilməsi və iqtisadi inkişafın əldə olunması əhalinin rifah halını yaxşılaşdırır. Xanım Mersi Tembon bildirdi ki, ölkəmizin iqtisadi inkişafı əhalinin işlə təmin edilməsi və müxtəlif fəaliyyət növləri ilə məşğul olması üçün də yaxşı imkan yaradır.*

*Xoş sözlərə görə təşəkkürünü bildirən dövlətimizin başçısı son illər Azərbaycanda iqtisadi inkişafın yaxşı nəticələr verdiyini vurğuladı. Prezident İlham Əliyev bildirdi ki, bu özünü həm makroiqtisadi sahədə, həm real sektorun, həm də qeyri-neft sektorunun inkişafında göstərib. Dövlətimizin başçısı qeyd etdi ki, ötən il ölkəmizdə 177 min daimi iş yeri yaradılıb ki, bu da rekord göstərici olub. Qeyri-neft sektorunda 3 faizə yaxın artımın olduğunu deyən Prezident İlham Əliyev ölkəmizdə nəhəng infrastruktur layihələrinin uğurla həyata keçirildiyini bildirdi. Dövlət*

*başçısı bütün bu iqtisadi nailiyyətlərin, ölkəmizin davamlı inkişafı və ictimai-siyasi sabitliyin təmin olunması işinə xidmət etdiyini vurğuladı.*

*Azərbaycanın iqtisadi inkişafının Davos İqtisadi Forumunun hesabatlarında da öz əksini tapdığını qeyd edən Prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatının rəqabətqabliyyətliliyinə görə 2017-ci ildə iki pillə irəliləyərək, dünya miqyasında 35-ci yeri, eyni zamanda, ölkəmizin inkişaf etməkdə olan ölkələr sırasında inklüziv inkişaf indeksinə görə 3-cü yeri tutmasını məmnunluqla vurğuladı.*

## ABŞ DÖVLƏT KATİBİ MÜAVİNİNİN MÜŞAVİRİ BRİCET BRİNK İLƏ GÖRÜŞ

*6 fevral 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da ABŞ Dövlət katibi müavininin müşaviri xanım Bricet Brinki qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Azərbaycanın həyata keçirdiyi qlobal layihələrə toxunan Prezident İlham Əliyev «Cənub Qaz Dəhlizi» layihəsinə ABŞ-ın verdiyi dəstəyin önəmini vurğuladı. Dövlətimizin başçısı ABŞ Dövlət katibi müavininin müşaviri Bricet Brinkin ölkəmizə səfərinin əlaqələrimizin perspektivləri ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirdi.*

*Bricet Brink ABŞ rəhbərliyinin «Cənub Qaz Dəhlizi» layihəsinə dəstək verdiyini vurğuladı. O, ABŞ-ın ölkəmizin təhlükəsizlik sahəsində əməkdaşlığa, o cümlədən Əfqanıstandakı sülhməramlı əməliyyatlara verdiyi töhfəni yüksək qiymətləndirdiyini bildirdi.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında iqtisadi əməkdaşlıq məsələləri müzakirə edildi, bu yaxınlarda istifadəyə verilmiş Bakı–Tbilisi–Qars dəmir yolunun önəmi qeyd olundu, bunun Avropa ilə Asiya arasında yeni nəqliyyat marşrutu olması baxımından önəmi vurğulandı, ABŞ şirkətlərinin Azərbaycanda uğurlu fəaliyyəti, ticarət dövriyyəsinin artırılması və ixrac imkanlarının genişləndirilməsi ətrafında fikir mübadiləsi aparıldı.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsinə toxunuldu, Bakıda Minsk qrupunun həmsədrləri ilə görüş zamanı münaqişənin həlli ilə bağlı geniş müzakirələrin aparılacağı bildirildi.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*7 fevral 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 7-də ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, Rusiyadan olan həmsədri İqor Popovu, ABŞ-dan olan həmsədri Endrü Şoferi və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri müzakirə edildi.*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ**

Hörmətli cənab Prezident!

İran İslam Respublikasının milli bayramı – İslam İnqilabının Qələbəsi Günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Dövlətlərarası münasibətlərimizin yüksək səviyyəsi tarixən dostluq və mehriban qonşuluq şəraitində yaşamış xalqlarımızın iradəsini özündə bariz şəkildə əks etdirir. İnanıram ki, qarşılıqlı səylərimizlə bundan sonra da həm ikitərəfli qaydada, həm də regional layihələr çərçivəsində əməkdaşlığımızın müvəffəqiyyətlə davam etməsinə töhfələr verəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost və qardaş İran xalqına daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 fevral 2018-ci il*

## FRANSA RESPUBLİKASININ «THALES INTERNATİONAL» ŞİRKƏTİNİ BİRİNCİ VİTSE-PREZİDENTİ RAFAEL ESKİNAZİ İLƏ GÖRÜŞ

*8 fevral 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Fransanın «Thales International» şirkətinin Birinci vitse-prezidenti Rafael Eskinazini qəbul etmişdir.*

*«Thales International» şirkətinin Birinci vitse-prezidenti Rafael Eskinazi təmsil etdiyi təşkilatın AZAL ilə uzun illər səmərəli əməkdaşlıq etdiyini vurğuladı və Azərbaycanla bu əməkdaşlığı gələcəkdə də davamlı həyata keçirmək niyyətində olduqlarını qeyd etdi. Rafael Eskinazi «Thales International» şirkətinin dünyada ilk pilot layihəsi olan Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycanın hava məkanından istifadə, strategiya və inkişaf üzrə səmərəlilik mərkəzinin açılışı mərasiminin bu gün keçirildiyini məmnunluqla vurğuladı.*

*Dövlət başçısı «Thales International» şirkətinin Azərbaycanla əməkdaşlığından məmnunluğunu ifadə edərək, şirkətin bu günədək ölkəmizdə həyata keçirdiyi layihələrin önəmini qeyd etdi və bundan sonra da uğurlu əməkdaşlıq aparılacağına ümidvar olduğunu bildirdi.*

*Söhbət zamanı AZAL ilə «Thales International» arasında bu şirkətin məhsullarının istehsalı ilə bağlı Azərbaycanda birgə müəssisənin yaradılması ətrafında fikir mübadiləsi aparıldı.*

## YENİ AZƏRBAYCAN PARTİYASININ VI QURULTAYINDA İŞTİRAK

*Heydər Əliyev Mərkəzi*

*8 fevral 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Bakıda Heydər Əliyev Mərkəzində keçirilən Yeni Azərbaycan Partiyasının (YAP) VI qurultayında iştirak etmişdir.*

*YAP-ın 700 mindən çox üzvünü təmsil edən nümayəndələrin iştirak etdikləri qurultayda partiyanın sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev nitq söylədi.*

### Yeni Azərbaycan Partiyasının sədri, Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

Hörmətli Yeni Azərbaycan Partiyasının üzvləri, əziz dostlar!

Bu gün partiyamızın qurultayı keçirilir. Qurultay ölkəmizin ictimai-siyasi həyatında əlamətdar hadisədir. Çünki Yeni Azərbaycan Partiyası ölkəmizdə aparıcı siyasi qüvvədir. Partiyamızın ideyaları, siyasəti xalq tərəfindən dəstəklənir. Partiyamızın sıraları genişlənir, 700 mindən çox üzvümüz var və çox sevindirici hal ondan ibarətdir ki, gənclər partiyaya üz tuturlar. Gənclərin axını partiyamızın gələcək inkişafı üçün də əsas şərtlərdən biridir.

Keçən ilin noyabrında biz partiyamızın 25 illik yubileyini qeyd etdik. Bu 25 il ərzində partiyamız uğurlu və şərəfli yol keçmişdir. Bütün iştirak etdiyi seçkilərdə Yeni Azərbaycan Partiyası qələbə qazanmışdır və bu 25 il qələbələr salnaməsidir.

1992-ci ildə ulu öndər Heydər Əliyevin sədrliyi ilə Naxçıvan şəhərində keçirilmiş partiyamızın təsis konfransı tarixi hadisə idi və 25 ildən sonra biz bunu əyani şəkildə ölkəmizdə mövcud olan vəziyyətdə, əldə etdiyimiz uğurlarda görürük. O vaxt partiyamızın yaradılması dönüş nöqtəsi idi. Əgər o vaxt bu partiyamız yaradılmasaydı, bilmək olmazdı ölkə hansı istiqamətdə inkişaf edəcəkdi. Çünki o vaxt ölkəmizin qarşısında çox ciddi problemlər durmuşdu. Demək olar ki, Azərbaycan, onun gənc müstəqilliyi təhlükə altında idi. O vaxt hakimiyyəti 1992-ci ildə qanunsuz şəkildə zəbt etmiş AXC–Müsavat cütlüyü ölkəmizi uçuruma aparırdı. Azərbaycanda iqtisadi tənəzzül, sənayenin iflic vəziyyətə düşməsi, siyasi, iqtisadi, ondan sonra da hərbi böhran, demək olar ki, müstəqilliyimizi şübhə altına alırdı. Belə bir vəziyyətdə Azərbaycan xalqı öz liderinə üz tutdu və partiyamızın yaradılması burada həlledici rol oynadı. Biz onu da yaxşı xatırlayırıq və əlbəttə, partiya üzvləri, Azərbaycan ictimaiyyəti də bilir ki, o vaxt hakimiyyəti qanunsuz şəkildə zəbt etmiş hakimiyyət imkan verməmişdi ki, partiyamızın qurultayı Bakıda keçirilsin. Fəallar, vətənpərvər insanlar Naxçıvana gəlmiş və Heydər Əliyevin sədrliyi ilə partiyamızın yaradılması haqqında bəyanat verilmişdir. Ondan bir neçə ay sonra xalqın tələbi ilə Heydər Əliyev hakimiyyətə gəldi və ölkəmiz inkişaf yoluna qədəm qoydu. AXC–Müsavat cütlüyü tərəfindən başlanmış vətəndaş müharibəsi dayandırıldı, qanunsuz silahlı birləşmələr tərk-silah edildi, qayda-qanun yaradıldı, milli vətəndaş həmrəyliyi üçün əsas yaradıldı, azərbaycançılıq ideologiyası bəyan edildi və bu gün də bizim əsas ideoloji dayağımızdır. Ölkə Konstitusiyası qəbul edildi, iqtisadiyyatda, siyasi sahədə ciddi islahatlara start verildi, Azərbaycan beynəlxalq təcriddən çıxa bildi və ölkə ilə bağlı həqiqətlər dünya birliyinə çatdırıldı. Bir sözlə, 1993-cü ildən başlayaraq, Azərbaycan uğurlu inkişaf yolu ilə gedir və inkişaf üçün əsas şərt – sabitlik tam bərqərar olmuşdur. Çünki sabitlik olmadan heç bir inkişafdan söhbət gedə bilməz. Məhz o illərdə – ulu öndər ha-

kimiyyətə gələndən 1 il sonra «Əsrin kontraktı» imzalanmışdır. Bu, bu gün də və gələcək illərdə də ölkə iqtisadiyyatı üçün müstəsna rol oynayan kontraktdır. Keçən ilin sentyabrında ulu öndərin adını daşıyan bu möhtəşəm Heydər Əliyev Mərkəzində kontraktın 2050-ci ilə qədər uzadılması haqqında qərar verildi. Görün bu kontraktın nə qədər böyük əhəmiyyəti var ki, yarım əsrdən çox müddətdə Azərbaycan xalqına xidmət edəcəkdir.

Azərbaycana investisiyalar qoyulmağa və ölkəmiz sürətlə inkişaf etməyə başlamışdır. 2003-cü ildən sonra da Heydər Əliyev siyasəti Azərbaycanda davam etdirilir. 2003-cü ildə Prezident seçkiləri ərəfəsində bəyan etmişdim ki, əgər Azərbaycan xalqı mənə etimad göstərərsə, mən Heydər Əliyev siyasətini davam etdirəcəyəm. Şadam ki, Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır, davam etdirilir, zənginləşir və ölkəmiz uğurla inkişaf edir.

2003-cü ildən bu günə qədər keçən dövr haqqında geniş danışmaq istəmirəm. Mən müntəzəm olaraq həm görülmüş işlərlə, həm də planlarla bağlı Azərbaycan ictimaiyyətinə məlumatlar verirəm. Sadəcə, onu demək istəyirəm ki, bu illər Azərbaycanda sürətli inkişaf dövrü olub və Azərbaycan dünyada analoqu olmayan iqtisadi templərlə inkişaf edibdir. Ölkə qarşısında duran bütün vəzifələr icra edilib, 2003-cü ildə və ondan sonrakı illərdə verilmiş bütün vədlər həyatda öz əksini tapıbdır.

Bu gün mən gələcək planlar, gələcəklə bağlı fikirlər haqqında öz sözlərimi sizinlə və Azərbaycan ictimaiyyəti ilə bölüşmək istəyirəm ki, biz Azərbaycanı gələcəkdə daha da güclü dövlətə çevirmək üçün hansı işləri görməliyik.

Daxili siyasətlə bağlı bizim son illər apardığımız siyasət özünü tam doğrultdu, Azərbaycanda sabitlik mövcuddur. Qeyd etdiyim kimi, sabitlik hər bir inkişafın əsas şərtidir. Biz görürük ki, son 5-6 il ərzində dünyanın müxtəlif yerlərində, bizim regionumuzda çox ciddi, narahatedici proseslər gedir. Qanlı toqquşmalar, müharibələr, vətəndaş müharibələri, ölkələrin bir-birinin işinə kobudcasına qarışması, hərbi müdaxilələr – bütün

bunlar bizim gözümüzün önündə baş verən məsələlərdir. Biz görürük və bütün bəşəriyyət əyani şəkildə görür ki, sabitlik pozulduqda heç bir inkişafdan söhbət gedə bilməz. Bu, xalqlara, ölkələrə böyük bəlalar, faciələr gətirir. Bu gün dağılmış vəziyyətdə olan və daxili inteqrasiyanı tamamilə itirən ölkələrin gələcək taleyi böyük sual altındadır. Ona görə həyat və yaxın tarixin mənzərəsi göstərir ki, sabitlik əsas amildir və sabitlik necə təmin edilməlidir. Ancaq düzgün siyasətlə. O siyasət ki, onun mərkəzində xalq dayanır, ölkə vətəndaşı dayanır. Biz məhz bu siyasəti aparırıq. Mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri, onun qayğıları, onun rifahı dayanır. Xalq–iqtidar birliyi – Azərbaycanda sabitliyi şərtləndirən əsas amil – bu gün var və gündən-günə güclənir. Bu gün Azərbaycan dünya miqyasında ən sabit ölkələrdən biridir və o ölkədir ki, xalq–iqtidar birliyi onun uğurlu inkişafını müəyyən edir. Çünki bizim siyasətimiz ictimaiyyət tərəfindən dəstəklənir və ictimaiyyət də görür ki, bizim siyasətimiz real, konkret nəticələrə gətirib çıxarır.

Ölkəmizdə ictimai asayiş qorunur, kriminogen durum çox müsbətdir, Azərbaycan dünyanın ən təhlükəsiz ölkələrindən biridir. Bunu Azərbaycan vətəndaşları yaxşı bilirlər, ölkəmizə gələn çoxsaylı turistlər görürlər. Təhlükəsizlik və sabitlik bizi fərqləndirən müsbət amillərdir.

Ölkəmizdə bütün azadlıqlar təmin edilir və edilməlidir, bu da bizim siyasətimizdir. Gələcək illərdə də demokratik inkişafla bağlı yeni addımlar atılacaq, siyasi islahatlar davam etdiriləcəkdir. Son illər ərzində bu istiqamətdə gözəl nəticələr əldə edilib və bu, daimi prosesdir. Biz çalışmalıyıq ki, dünyanın demokratik baxımdan ən inkişaf etmiş ölkələrinin standartlarına yaxınlaşaq və bunu edəcəyik. Bu gün də vəziyyət çox yaxşıdır, müsbətdir. Bütün azadlıqlar – söz, mətbuat, sərbəst toplaşma azadlığı tam təmin edilir və ediləcəkdir. Bu bizim prinsipial siyasətimizdir. Mən tam əminəm ki, əgər biz Azərbaycanı

inkişaf etmiş ölkəyə çevirmək istəyiriksə – biz bunu istəyirik – mütləq siyasi və iqtisadi islahatlar paralel xətlə davam etdirilməlidir.

Azərbaycanda vicdan azadlığı tam təmin edilir və ediləcəkdir. Bundan sonra da Azərbaycan çoxkonfessiyalı, çoxmillətli ölkə kimi uğurla inkişaf edəcəkdir. Bundan sonra da ölkəmizdə bütün xalqların, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayacaqlar. Bu bizim böyük sərvətimizdir. Bu, ölkəmizin uğurlu inkişafı üçün əsas şərtlərdən biridir, vətəndaş həmrəyliyi, vətəndaş sülhü üçün əsas şərtdir. Azərbaycanda heç vaxt milli və ya dini zəmində heç bir qarşıdurma, anlaşılmazlıq olmamışdır, bundan sonra da olmayacaqdır. Bu, dövlət siyasətidir və bu siyasət Azərbaycan xalqı tərəfindən tam şəkildə dəstəklənir. Azərbaycanda yaşayan bütün xalqların, bütün dinlərin nümayəndələri dəyərli vətəndaşlar kimi, öz işi, əməyi ilə ümumi inkişafımıza böyük töhfələr verirlər.

Mən xüsusilə bu məsələyə toxundum. Bu bizim üçün adi haldır. Multikulturalizm bizim üçün həyat tərzidir. Əgər biz ətrafda gedən hadisələrə, Avropada, Yaxın Şərqdə, digər bölgələrdə ayrı-seçkiliyə, ksenofobiyaya rəvac verən, güclənən amillərə nəzər salsaq görərik ki, bizim bu sahədəki siyasətimiz təkcə ölkə daxili üçün deyil, dünya üçün də çox önəmlidir. Təsadüfi deyil ki, bu gün Azərbaycan dünya miqyasında multikultural ideyaların təbliği işində nümunəvi ölkə kimi tanınır. Təsadüfi deyil ki, məhz bizim təşəbbüsümüzlə Azərbaycanda bu mövzu ilə bağlı bir çox mötəbər beynəlxalq tədbirlər keçirilibdir. Bu il 10 illiyini qeyd edəcəyimiz «Bakı prosesi» bu gün BMT tərəfindən yüksək qiymətləndirilir və dəstəklənir. Onun da təşəbbüskarı biz olmuşuq. Avropa məkanını müsəlman aləmi ilə yaxınlaşdırmaq istəyimiz böyük nəticə verməsə də, hər halda, müsbət tendensiyalara təkan verir. Biz öz siyasətimizi bu istiqamətdə davam etdirəcəyik. Yenə də deyirəm, ölkə daxilində hər hansı bir əlavə addımların atılmasına ehtiyac yoxdur. Ancaq beynəlxalq miqyasda biz bu şərəfli missiyanı davam etdirəcəyik.

Bizim xarici siyasətimizlə bağlı apardığımız xətt özünü tam doğrultdu. Azərbaycan bu gün beynəlxalq birlik tərəfindən çox böyük rəğbətə layiq olan ölkə kimi tanınır. Bizim dostlarımızın sayı artır, bizi dəstəkləyən ölkələrin sayı artır. Təkcə bir misalı gətirmək kifayətdir ki, biz bunu sübut edək, o da 155 ölkənin bizim namizədliyimizi BMT Təhlükəsizlik Şurasına üzv kimi dəstəkləməsidir. Bu, beynəlxalq aləmin mütləq əksəriyyətidir. Bu dəstəyi biz öz siyasətimizlə qazanmışıq. O siyasət ki, beynəlxalq hüquqa və ədalətə əsaslanır. Bu iki vacib prinsip həmişə bizim üçün əsas olub. Biz bu prinsiplərə sadiqik. Bu prinsiplər bütövlükdə beynəlxalq münasibətlərin tənzimlənməsində üstünlük təşkil etməlidir.

Biz bundan sonra da beynəlxalq arenadakı rolumuzu fəal aparacağıq. Bizim bütün ölkələrlə qarşılıqlı hörmət və biri-birinin işinə qarışmamaq şərti ilə münasibətlərimiz qurulub. Bu münasibətləri biz möhkəmləndirəcəyik. Qonşu dövlətlərlə əlaqələrimiz daha da yüksək pilləyə qalxacaqdır. Mən buna əminəm. Çünki hazırda başladığımız və davam etdirdiyimiz iqtisadi və digər layihələr bunu deməyə əsas verir.

Azərbaycan müsəlman aləmində çox böyük dəstəyə malik ölkədir. İslam Əməkdaşlıq Təşkilatı dəfələrlə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədaləti əks etdirən qətnamələr qəbul edibdir. Baxmayaraq ki, müsəlman aləmində birlikdən danışmaq mümkün deyil, ancaq biz öz səylərimizlə bu birliyə aparan yolda çox fəal iş görürük. İslam Həmrəyliyi oyunlarının keçirilməsi, «İslam həmrəyliyi ili» elan edilməsi müsəlman aləmində çox yüksək qiymətləndirilib. Bu gün hesab edirəm ki, müsəlman aləmində Azərbaycan müəyyən dərəcədə barışdırıcı, əlaqələndirici missiyanı uğurla icra edir. Biz bundan sonra da çalışmalıyıq ki, həmrəyliyi möhkəmləndirək, xoşagəlməz tendensiyalar səngisin.

Avropa ölkələri ilə bizim yaxın münasibətlərimiz vardır. Keçən il Avropa İttifaqı ilə yeni saziş üzərində danışıqlar başlanmışdır. Avropa İttifaqına üzv ölkələr bizim əsas ticarət tə-

rəfdaşlarımızdır, əsas investorlardır. Əlbəttə, bizim siyasi, iqtisadi, enerji sahələrində əlaqələrimiz çox yüksək səviyyədədir. Bizim üçün də bu əməkdaşlıq çox önəmlidir. Çünki Azərbaycan müasirliyə gedən yoldadır. Biz inkişaf etməliyik, biz ən qabaqcıl standartları milli dəyərlərimizə uyğun olan şərtlə tətbiq etməliyik. Biz çox möhkəm milli köklər üzərində dayanmışıq və bu bizim üçün əsasdır. Biz həmişə dünyaya açıq olmalıyıq və ən qabaqcıl texnologiyaları ölkəmizə gətirməliyik. Hamı bilir ki, Azərbaycan prinsipial mövqedədir, müstəqil siyasət aparır. O siyasət ki, Azərbaycan xalqının maraqlarını təmin edir, o siyasət ki, bir çox tərəfdaşlar üçün də əlavə imkanlar yaradır. Beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyətimizi uğurla davam etdirəcəyik. Bütün mötəbər beynəlxalq təşkilatlar Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim mövqemizi dəstəkləyir. BMT, ATƏT, Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, «Qoşulmama Hərəkatı» – bu aparıcı təşkilatlar münaqişə ilə bağlı bizim mövqemizi dəstəkləyən qətnamələr, qərarlar qəbul ediblər. Beləliklə, münaqişənin həlli üçün siyasi əsaslar da qoyulub. Hüquqi əsaslar onsuz da vardır. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Heç bir ölkə bu qondarma qurumu tanımayıb və əminəm ki, heç vaxt tanımayacaqdır. Tarixi əsaslar da bizim mövqemizi gücləndirir. Çünki Dağlıq Qarabağ bizim əzəli, tarixi torpağımızdır. Beynəlxalq təşkilatların qərar və qətnamələri həm hüquqi, həm siyasi əsasları möhkəmləndirir. Münaqişənin həlli ilə bağlı bizim mövqemiz üstünlük təşkil edir, xüsusilə indiki şəraitdə. Dünyanın müxtəlif yerlərində, o cümlədən Avropada separatizm meyilləri artır. Avropa da görür ki, separatizm nə dərəcədə təhlükəli meyildir. Biz isə təcavüzkar separatizmlə üzləşmişik. Ona görə bütövlükdə münaqişələrlə bağlı dünyada gedən proseslər, yanaşma bizim mövqemizi daha da möhkəmləndirir. Təsadüfi deyil ki, keçən ilin noyabrında Avropa İttifaqının «Şərq Tərəfdaşlığı» Zirvəsində qəbul edilmiş qətnamə «Şərq Tərəfdaşlığı»na üzv ölkələrin suverenliyini,

ərazi bütövlüyünü, müstəqilliyini birmənalı şəkildə dəstəkləmişdir. Deyə bilərəm ki, ilk dəfə olaraq bu formada qətnamə qəbul edilmişdir. Bu, Ermənistan üçün növbəti zərbə, onların növbəti məğlubiyyəti, bizim isə növbəti qələbəmiz idi. Əslində bu, haqq-ədalətin növbəti qələbəsi idi. Ona görə bu müsbət meyillər güclənəcək. Biz sadəcə olaraq, bundan sonra da öz siyasətimizi aparmalıyıq və aparacağıq. Ermənistanı daha da sıxışdırmalıyıq və sıxışdıracağıq. Biz həqiqətlərimizi dünya birliyinə çatdırmalıyıq.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmizin ərazi bütövlüyü çərçivəsində BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. Biz heç vaxt imkan verə bilmərik ki, torpağımızda ikinci erməni dövləti yaradılsın. Ölkəmizin ərazi bütövlüyü danışıqlar mövzusu deyil və heç vaxt olmayacaqdır. Biz sadəcə olaraq, öz səylərimizi daha da artırmalıyıq və artırırıq. Əminəm ki, bu məsələ beynəlxalq hüququn norma və prinsipləri əsasında öz ədalətli həllini tapacaq, ölkəmizin ərazi bütövlüyü bərpa ediləcəkdir.

Onu da qeyd etməliyəm ki, biz tarixi torpaqlarımızı da unutmamalıyıq və unutmuruq. Bu, gələcək fəaliyyətimiz üçün istiqamət olmalıdır, necə ki, biz bu gün də bu istiqamətdə iş görürük. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır. Bunu gənc nəsil də, dünya da bilməlidir. Mən şadam ki, bu məsələ ilə bağlı – bizim əzəli torpaqlarımızın tarixi ilə bağlı indi sanballı elmi əsərlər yaradılır, filmlər çəkilir, sərgilər təşkil olunur. Biz növbəti illərdə bu istiqamətdə daha fəal olmalıyıq və dünyanın müxtəlif yerlərində sərgilər, təqdimatlar keçirilməlidir. Çünki İrəvan bizim tarixi torpağımızdır və biz azərbaycanlılar bu tarixi torpaqlara qayıtmalıyıq. Bu bizim siyasi və strateji hədəfimizdir və biz tədricən bu hədəfə yaxınlaşmalıyıq.

O ki qaldı Ermənistana, indi hər kəs görür ki, bu ölkə öz işğalçılıq siyasətinin girovuna, qurbanına çevrilib. Biz onları,

demək olar ki, bütün beynəlxalq layihələrdən təcrid etmişik, bütün enerji və nəqliyyat xətləri onlardan yan keçir və bunu biz etmişik. Baxmayaraq ki, bu o qədər də asan məsələ deyildi. Əfsuslar olsun ki, dünyadakı ermənipərəst qüvvələr, erməni lobbisi və erməni pullarına satılmış bəzi siyasətçilər daim çalışırlar ki, Ermənistanı da bizim təşəbbüsçüsü olduğumuz layihələrin tərkibinə daxil etsinlər. Biz həmişə buna çox ciddi etiraz etmişik, təşəbbüsümüzlə həyata keçirilən layihələr Ermənistanı tamamilə kənarda qoymuşdur. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, «Cənub Qaz Dəhlizi», Bakı–Tbilisi–Qars layihələri onlardan yan keçmişdir. Bizim siyasətimizə görə, Şimal–Cənub nəqliyyat dəhlizi də onlardan yan keçəcək. Biz bunu gizlətmirik. Baxmayaraq ki, bəziləri Ermənistanı təcriddə saxladığımıza görə çalışırlar bizi ittiham etsinlər. Bəli, saxlayırıq və saxlayacağıq. O vaxta qədər ki, torpaqlarımız işğaldan azad olunsun. Bu siyasət öz nəticələrini verməkdədir. İndi heç kim Ermənistana sərmayə qoymur. Çünki birincisi, orada hakimiyyəti zəbt etmiş kriminal, korrupsioner, qaniçən rejim imkan vermir ki, sərmayə qoyulsun, əvvəllər qoyulan və ianə şəklində verilən bütün pullar rejim tərəfindən oğurlanmışdır. Digər tərəfdən, bazarın və ixrac imkanlarının məhdudluğu imkan vermir ki, ciddi investor oraya gəlsin. Çünki ixrac üçün yollar olmalıdır, yollar olsa da, yenə də tam investisiyanın cəlb edilməsi üçün şərait yaratmır. Əlbəttə, bunu yüksək dərəcədə edən məhz biz olmuşuq və bu siyasəti davam etdirəcəyik. Onların özlərinin son statistik məlumatlarına görə, keçən il ölkəni 40 mindən çox insan həmişəlik tərk edib və bu tendensiya davam edir. Beləliklə, orada demoqrafik böhran yaşanır. Bizim səylərimiz nəticəsində Ermənistan siyasi, iqtisadi, enerji, nəqliyyat dalanına çevrilib və əlbəttə ki, bu ölkənin gələcək inkişafı çox qaranlıqdır. Biz isə öz siyasətimizi davam etdirəcəyik və bütün imkanlardan, artan gücümüzdən, iqtisadi potensialımızdan, siyasi imkanlarımızdan, hərbi gücümüzdən istifadə edib məsələni həll etməliyik ki, ölkəmizin ərazi bütövlüyü təmin

olunsun. Əlbəttə, hərbi sahədə apardığımız siyasət özünü tam doğrultdu. Biz bu siyasəti uzun illərdir ki, aparırıq. Bu məsələ ilə bağlı bəzən bizə iradlar ünvanlanır ki, nə üçün Azərbaycan silahlanır, nə üçün hərbi quruculuğuna, ordu quruculuğuna vəsait ayırır. Biz isə Ermənistandan fərqli olaraq, bu işləri öz imkanlarımız daxilində, öz vəsaitimiz hesabına, öz hesabımıza görürük. Həyat göstərdi ki, biz nə qədər düzgün siyasət aparırıq. Onu da qeyd etməliyəm ki, dünyanın aparıcı ölkələri də daim silahlanır və bu proses bir çox ölkələrə də xasdır. Biz isə son illər ərzində güclü ordu yaratmışıq. İndi bütün beynəlxalq reytinqlər ordumuzun gücünü əks etdirir. Bu güc bizə imkan verir ki, istənilən vəzifəni icra edək. 2016-cı ilin aprel döyüşləri bunu əyani şəkildə düşmənə və bütün dünyaya göstərdi ki, Azərbaycan Ordusu nəyə qadirdir. Döyüş meydanında bizim şanlı tarixi qələbəmiz məsələnin ədalətli həlli üçün də yeni imkanlar yaradır və yaradacaqdır. Növbəti illərdə hərbi potensialın gücləndirilməsi üçün, ordu quruculuğu üçün nə lazımdırsa edilləcək. Bizim güclü iqtisadi imkanlarımız vardır. Gündən-günə artan maliyyə resurslarımız ilk növbədə, ölkə qarşısında duran əsas vəzifələrin həllinə yönələcək və ordu quruculuğu bu məsələdə prioritetdir.

Məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması və mənzillərlə, evlərlə təmin edilməsi istiqamətində bundan sonra da uğurlu siyasət aparılacaqdır. Bu günə qədər 270 minə yaxın köçkün evlərlə təmin edilib. Bu il 20 minə yaxın, bəlkə də bundan da çox köçkünü biz yeni evlərlə təmin edəcəyik. Bu siyasət davam etdiriləcək. Torpaqlarımız işğaldan azad olunandan sonra biz erməni vəhşiləri tərəfindən dağıdılmış bütün şəhərləri, kəndləri yenidən quracağıq. Cocuq Mərcanlı kəndinin timsalında bütün dünya görür ki, biz buna qadirik, bunu qısa müddət ərzində edə bilərik. Bir daha bütün dünya əyani şəkildə görür ki, Azərbaycan xalqı, köçkünlər bir amalla yaşayırlar – tezliklə öz doğma torpaqlarına qayıtmaq arzusuyla. Hətta köçkün şəraitində doğulmuş, heç vaxt öz torpağını görməmiş uşaqlar, gənclər də bu arzu ilə yaşayırlar. Bu gün onların bir hissəsi artıq Cocuq

Mərcanlıda, öz dədə-baba torpağında məskunlaşıb. Bu da Azərbaycan xalqının yenilməz ruhunu bir daha bütün dünyaya göstərir.

Bütün planlarımızı həyata keçirmək üçün iqtisadiyyatımızı gücləndirməliyik. Növbəti illərdə bu istiqamətdə əlavə addımlar atılacaqdır. Deyə bilərəm ki, son 2 il ərzində çox ciddi iqtisadi islahatlar aparılıbdır. Əvvəlki illərdə də aparılmışdır. Ancaq son 2 il ərzində daha fəal və daha səmərəli islahatlar aparılıbdır. Bu islahatlar imkan verdi ki, biz ağır vəziyyətdən, neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi nəticəsində yaranmış vəziyyətdən çıxa bilək və çıxmışıq da. Bu gün ölkə iqtisadiyyatı öz templərini artırır. Növbəti illərdə islahatlar mütləq davam etdiriləcəkdir. İndi bəzi suallar səslənir və hətta beynəlxalq ekspertlər maraqlanırlar ki, indi neftin qiyməti bir qədər qalxıbdır, bəs bu, apardığımız islahatlara təsir edəcək, ya etməyəcək? Bəlkə siz indi islahatları o qədər fəallıqla aparmayacaqsınız? Qətiyyən belə deyil. Mən bir daha demək istəyirəm ki, neftin qiymətinin artması sadəcə olaraq, bizim valyuta ehtiyatlarımızı artıracaqdır. Ancaq bütün hökumət qurumları elə işləməlidirlər ki, sanki bizdə neft amili yoxdur. Biz gələcək iqtisadi inkişafımızı qeyri-neft sektorunun inkişafında görürük. Neft sektoru sadəcə olaraq, bizə əlavə maliyyə resursu yaradacaq ki, bu da öz növbəsində, bizim siyasi resurslarımızı gücləndirəcəkdir. Bu da təbiidir. Ölkə iqtisadiyyatının dayanıqlı inkişafını ancaq bu amillər – qeyri-neft sektoru, sahibkarlıq, idarəetmədə aparılan və aparılacaq islahatlar müəyyən edəcəkdir. Ona görə iqtisadiyyatın şaxələndirilməsi, mütərəqqi beynəlxalq təcrübənin Azərbaycana gətirilməsi, maliyyə, fiskal siyasətində ən qabaqcıl texnologiyalardan istifadə etməyimiz inkişafımız üçün əsas amillər olacaqdır. Deyə bilərəm ki, bu siyasət artıq öz nəticəsini veribdir. Keçən ilin iqtisadi göstəriciləri sübut etdi ki, biz düzgün yoldayıq. İqtisadiyyatın qeyri-neft sektoru 2,7 faiz, sənayedə qeyri-neft sektorunun artımı 3,7 faiz, kənd təsərrüfatı 4,1 faiz, valyuta ehtiyatlarımız 4,5 milyard dollar artıbdır. Bu ilin

yanvar ayının nəticələri də mənə məruzə edildi. Bu barədə də demək istəyirəm. Bu göstərir ki, mən əvvəlki aylarda dediyim kimi, 2018-ci il sürətli inkişaf ili olacaqdır. Beləliklə, yanvar ayında Azərbaycanda ümumi daxili məhsul 2 faiz, qeyri-neft iqtisadiyyatımız təxminən 4 faiz, sənaye istehsalı 1,5 faiz, qeyri-neft sektorunda sənaye istehsalı 8,7 faiz artıbdır. İnflyasiya birinci ayda 5,5 faizdir, əhalinin pul gəlirləri 11 faizdən çoxdur. Yəni əhalinin gəlirləri inflyasiyanı 2 dəfə üstələyir. Bu ilin yanvar ayında bizim valyuta ehtiyatlarımız 2 milyard dollar artıb və bu gün valyuta ehtiyatlarımız 44 milyard dollar səviyyəsindədir. Bu hələ ilin əvvəlidir. Mən əminəm ki, 2018-ci il sürətli inkişaf ili olacaq və ondan sonrakı bütün illərə çox güclü təkan verəcəkdir. Kənd təsərrüfatında, sənaye sahəsində indi həyata keçirilən layihələr tezliklə, 1-2 il ərzində öz bəhrəsini verəcəkdir.

Biz indi nəhəng enerji layihələrini icra edirik. Bu da qarşıda duran əsas vəzifələrdən biridir. Biz «Cənub Qaz Dəhlizi»ni vaxtında təhvil verməliyik və bunu edəcəyik. Bütün maliyyə resursları təmin edilib, həm Azərbaycan, həm beynəlxalq banklar tərəfindən. Müəyyən yubanmalar olubdur, onlar da aradan götürüldü. Çünki «Cənub Qaz Dəhlizi» həm bizim üçün, həm də Avropa üçün strateji əhəmiyyətə malik olan bir layihədir. Azərbaycan öz liderlik missiyasını uğurla icra edir. Biz bu tarixi layihəni – 7 ölkəni, qitələri birləşdirən, 3500 kilometr məsafəsi olan və dənizin altından, dağların başından keçən qaz kəmərini uğurla həyata keçiririk. «Şahdəniz-2» layihəsindən yaxın zamanlarda ilk qaz çıxarılacaqdır. Onu da deməliyəm ki, «Cənub Qaz Dəhlizi», yəni qaz kəməri artıq qazla təmin edilir. Bu, tarixi layihədir və ölkəmizin uğurlu, dayanıqlı inkişafı üçün əsas resurs bazasıdır.

Qeyd etdiyim kimi, «Azəri–Çıraq» neft yatağı ilə bağlı kontraktın uzadılması haqqında da tarixi qərar qəbul edilib. Bundan sonra da neft-qaz sektorunda Azərbaycan uğurla inkişaf edəcəkdir. Ancaq yenə də deyirəm, gələcək fəaliyyətimiz üçün bu bizdə bir rahatlıq hissi yaratmamalıdır. Biz fəal işləməliyik,

qeyd etdiyim kimi, bu sadəcə olaraq, bizim üçün əlavə maliyyə və siyasi resursdur.

Bu gün biz beynəlxalq arenada bütün məsələlərlə bağlı öz sözümüzü deyirik. Nəyə görə? Əlbəttə, güclü siyasi iradəyə görə, cəsarətli siyasətə görə, eyni zamanda, maliyyə imkanlarımıza görə. Əgər bu imkanlar olmasaydı, əgər biz bəzi ölkələr kimi, xarici donorlardan asılı olsaydıq, əgər biz yoxsul, səfil Ermənistan kimi ona-buna dilənsəydik, onda müstəqil siyasət aparmaq imkanında olmaya bilərdik, yaxud da ki, bu imkanlar məhdud ola bilərdi. Ona görə iqtisadi güc, maliyyə resurslarımız siyasi müstəqilliyimizi də möhkəmləndirir.

Növbəti illərdə önəmli, tarixi nəqliyyat layihələrini yenə də icra etməklə, Azərbaycan – açıq dənizə çıxışı olmayan bir ölkə Avrasiyada nəqliyyat mərkəzlərinin birinə çevriləcəkdir. Biz siyasətimiz, qətiyyətimiz, düzgün xarici siyasətimiz nəticəsində bunu da edəcəyik. Çünki xarici siyasət ilk növbədə, daxili problemlərin həllinə yönəlib. Xarici siyasət daxili siyasətin davamıdır. Biz uğurlu xarici siyasəti təkcə ona görə aparmırıq ki, dünyada bizə olan rəğbət artsın. Bu, real işlərə çevrilir. Uğurlu xarici siyasət bu beynəlxalq layihələri də həll etməyə şərait yaradır. Çünki tranzit ölkə olmaq üçün sən mütləq qonşularla işləməlisən. Qonşular olmadan heç bir ölkə tranzit ölkə ola bilməz. Bütün bunlar bir-birinə bağlı olan məsələlərdir. Bizim gələcək inkişafımızla bağlı çox aydın təsəvvürümüz, bütün sahələrdə proqramlarımız var – ictimai xidmət sahəsində, korrupsiya və rüşvətxorluğa qarşı mübarizə sahəsində, haqq-ədalətin bərqərar olması sahəsində – bütün istiqamətlər üzrə. Sadəcə olaraq, bir çıxışda bütün istiqamətlər haqqında geniş danışmaq mümkün deyil. Əminəm ki, Azərbaycan növbəti illərdə öz uğurlu, dinamik inkişaf tempini nəinki saxlayacaq, onu daha da möhkəmləndirəcəkdir.

Bizim əsas dəyərimiz, ən böyük nemətimiz müstəqilliyimizdir. Biz müstəqil ölkə kimi yaşayırıq. Müstəqilliyimizin də banisi ulu öndər Heydər Əliyevdir. Məhz onun hakimiyyətə

gəlməsindən sonra Azərbaycan, sözün əsl mənasında, müstəqillik yoluna qədəm qoydu.

1993-cü ilə qədər bizim müstəqilliyimiz şərti və yarımçıq xarakter daşıyırdı. Xarici ölkələr, onların Azərbaycandakı nümayəndələri burada hakimiyyətə göstərişlər, təlimatlar verirdi. Bu, tariximizin bəlkə də ən biabırçı səhifələrindən biridir. O ağır vəziyyətdə məhz Heydər Əliyevin cəsarəti, müdrikliyi – o vaxt bizim hələ ordumuz, iqtisadiyyatımız, pulumuz yox idi – onun dəmir iradəsi, xalqın ona olan sevgisi, rəğbəti Azərbaycanı bu müstəqillik yoluna çıxartdı. Biz də bu müstəqil yol ilə gedirik və gedəcəyik.

* * *

**Ə l i  Ə h m ə d o v** *(Yeni Azərbaycan Partiyasının sədr müavini-icra katibi, Baş Nazirin müavini)*: Hörmətli qurultay nümayəndələri!

Möhtərəm Prezidentimizin proqram xarakterli, geniş, ətraflı, gələcəyə ünvanlanmış çıxışından sonra hesab edirəm ki, qurultay nümayəndələrinin gündəliyimizin mühüm məsələsi ilə əlaqədar çıxışlara başlamaları üçün əsas yaranır. Buyurun, Yeni Azərbaycan Partiyasının VI qurultayı tərəfindən qarşıdan gələn Prezident seçkilərində partiyanın namizədinin irəli sürülməsi ilə əlaqədar təkliflərinizi bildirin.

**O q t a y  H ə z i y e v** *(İşğaldan azad olunmuş Cocuq Mərcanlı kəndinin sakini)*: Möhtərəm cənab Prezident!

Hörmətli sədr!

Hörmətli qurultay iştirakçıları!

Sizi ölkəmizdə olan 1 milyondan çox qaçqın və məcburi köçkünlər adından səmimi salamlayıram, qurultayın işinə uğurlar diləyirəm.

Mənim doğulduğum kəndin adı və hətta mənim adım cənab Prezidentin apardığı siyasət nəticəsində artıq bütün dünyada tanınır. Çünki Cocuq Mərcanlı işğal olunmuş ərazilərdən ilk azad edilən və bərpa olunan kənddir. Kəndimiz ulu öndərin rəhbərliyi ilə 1994-cü ildə azad olunsa da, burada yaşamaq mümkün deyildi. 2016-cı ilin aprel döyüşlərində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Lələtəpə yüksəkliyi azad olundu. Sonra dövlətimizin başçısının rəhbərliyi ilə qısa müddətdə kəndimizdə Şuşa məscidinin bənzəri olan gözəl məscid və 150 ev tikilib təhvil verildi.

Mən ailə üzvlərimlə birlikdə cəmi 5 ay köçkün həyatı yaşamışam. Ancaq köçkünlük həyatı ilə barışmayıb öz doğma kəndimə qayıdıb, 23 il atəş altında yaşamışam. Bütün çətinliklərə baxmayaraq, mən ailəmlə birlikdə torpağa bağlanıb, əkinçiliklə, heyvandarlıqla məşğul olub, təsərrüfat qurub, onu inkişaf etdirib ailəmi dolandırmışam. Əziyyətim də yerdə qalmayıb. Qurduğum

təsərrüfatda bu gün 700 baş xırdabuynuzlu, 70 baş iribuynuzlu mal-qara, arı təsərrüfatı vardır.

Cənab Prezident, mənə hədiyyə etdiyiniz 70 hektar torpaqda taxıl, çuğundur əkmişəm, 2 hektarda tut bağı salmışam. Lazım olan kənd təsərrüfatı texnikalarını almışam. Mən bu işlərə kənd sakinlərini də cəlb etmişəm.

Cənab Prezident, çox sağ olun ki, Siz kənd adamlarını torpağa qaytardınız. İnanıram ki, yeni texnologiyalar nəticəsində məhsuldarlıq keçən əsrin 70-ci illərindəkindən də yüksək olacaqdır. Biz torpaq adamıyıq, həmişə çörəyimiz torpaqdan çıxıb. Mən ətrafımda olan bütün insanlara həmişə deyirəm ki, torpağı sevin, onun dəyərini, qədrini bilin.

Cənab Prezident, Siz 2017-ci il iyunun 14-də Cocuq Mərcanlı kəndinin açılışı zamanı mənim ailəmə dördotaqlı mənzil hədiyyə etdiniz və birinci dərəcəli «Əmək» ordenini ilk dəfə mənə verdiniz. Kəndimizi bərpa etdiyinizə görə bütün Cocuq Mərcanlı sakinləri və cəbrayıllılar adından Sizə dərin təşəkkürümü bildirirəm. Sizə cansağlığı arzulayıram.

Hörmətli qurultay iştirakçıları, dövlətimizin başçısı cənab İlham Əliyevin, Birinci vitse-prezident, partiyamızın sədr müavini hörmətli Mehriban xanım Əliyevanın biz məcburi köçkünlərə diqqət və qayğısını xüsusi qeyd etmək istəyirəm. İnşa edilən müasir qəsəbələrin və mənzillə təmin olunan qaçqın və məcburi köçkünlərin 95 faizi son 14 ilin payına düşür. Beləliklə, bu gün ölkəmizdə nə çadır şəhərciyi, nə fin qəsəbəsi, nə də dəmir yolu vaqonlarında yaşayan yoxdur.

4 qəzalı binada yaşayan 935 ailə hörmətli Mehriban xanımın tapşırığı ilə cəmi 3-4 ay ərzində yeni mənzillərə köçürüldü. Dünyanın hansı ölkəsində qaçqın-köçkünə belə münasibət var? Heç birində. Əksinə, başqalarına nağıl danışan dövlətlər onlara pənah gətirən qaçqınlara arxa çevirir, onları insan yerinə belə, qoymurlar.

Məcburi köçkünlərə göstərdiyiniz diqqət və qayğıya görə, cənab Prezident, Sizə və Birinci vitse-prezident, partiyamızın

sədr müavini hörmətli Mehriban xanıma dərin minnətdarlığımı bildirirəm.

Cənab Prezident, bütün xalqımız kimi, biz məcburi köçkünlər də həmişə Sizinlə bir olmuşuq, bu gün də birik və sabah da Sizinlə bir olacağıq.

Hörmətli qurultay iştirakçıları, mən qarşıdakı Prezident seçkilərində cənab İlham Əliyevin namizədliyini irəli sürürəm.

**Sevda Quliyeva** (*Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının sədri):* Hörmətli Prezident!

Yeni Azərbaycan Partiyası xalqımızın və müstəqil dövlətçiliyimizin taleyində mühüm rola malikdir. Bu gün partiyamızın səmərəli fəaliyyətinin nəticəsidir ki, ölkəmiz sabitlik və inkişaf dövrünü yaşayır. Azərbaycanın müstəqillik tarixində partiyanın ən böyük missiyası onun ölkəmizin ağır və faciəli günlərində «Heydər–xalq, xalq–Heydər» birliyinin təzahürünə çevrilməsidir.

Cənab Prezident, Sizin də dediyiniz kimi, «Yeni Azərbaycan Partiyasının gücü ilk növbədə, onun əvəzsiz lideri Heydər Əliyevdir. Yeni Azərbaycan Partiyasının gücü ondadır ki, onun təməlində duran prinsiplər əməli surətdə həyata keçirilir».

2005-ci il mart ayının 26-da Yeni Azərbaycan Partiyasının III qurultayında yekdilliklə partiyanın sədri seçilən cənab İlham Əliyev bu gün ulu öndərimizin quruculuq və inkişaf xəttinin layiqli davamçısıdır. Xalqımız Prezident seçkilərində partiyanın lideri cənab İlham Əliyevi dəstəkləməklə, Azərbaycanda Heydər Əliyev yoluna özünün dərin inamını ifadə etdi. Bu gün bu yolun hörmətli Prezidentimiz tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, Azərbaycan müharibə şəraitində yaşamasına baxmayaraq, sabitlik və inkişafın, vətəndaş həmrəyliyinin təmin olunduğu güclü dövlətə çevrilibdir.

Naxçıvan Muxtar Respublikası da ölkə Prezidentinin rəhbərliyi altında böyük inkişaf yolu keçib, 2003–2017-ci illərdə ümumi daxili məhsul 17 dəfə, sənaye məhsulunun həcmi 55 dəfə, əsas kapitala yönəldilən investisiyalar 16 dəfə artıb. 71 mindən çox yeni

iş yeri açılıb ki, onun da 77 faizi daimi iş yerləridir. Əldə olunmuş nəticələr əhalinin rifah halını yaxşılaşdırıb, məskunlaşma səviyyəsinə müsbət təsir göstərib, əhalinin sayı artaraq, 453 min nəfərə çatıbdır.

Ölkə rəhbərinin muxtar respublikaya son 14 il ərzində etdiyi səfərlər zamanı 90-a yaxın müxtəlif təyinatlı obyektin istifadəyə verilməsi bu qədim diyarın inkişafına və müdafiəsinə göstərilən diqqət və qayğının ifadəsidir. Bu qayğının nəticəsidir ki, yeni bir rayon – Kəngərli rayonu yaradılıb, nümunəvi rayon mərkəzi formalaşdırılıbdır. Bu gün muxtar respublikada 372 növdə məhsul istehsal olunur və 344 növdə məhsula olan tələbat tamamilə yerli imkanlar hesabına ödənilir. Uzun illər fasilədən sonra blokada şəraitində yaşayan muxtar respublikaya hörmətli Prezidentimizin səyi və iştirakı ilə 2005-ci ildə təbii qazın verilməsi bərpa olunubdur.

Elektrik enerjisi ilə fasiləsiz təchizatı təmin etmək üçün ən müasir 4 yeni su-elektrik stansiyası, 1 Günəş elektrik stansiyası tikilərək, istifadəyə verilib. Görülmüş tədbirlər nəticəsində muxtar respublikanın enerji təhlükəsizliyi tam təmin olunubdur.

Yeni Azərbaycan Partiyasının Naxçıvan Muxtar Respublika Təşkilatı da ötən dövrdə böyük inkişaf yolu keçib. Əgər 2003-cü ildə muxtar respublikada partiya üzvlərinin sayı 30 min nəfər idisə, hazırda bu göstərici 54 min nəfərdir.

Azərbaycanın və onun ayrılmaz hissəsi Naxçıvan Muxtar Respublikasının inkişafına göstərdiyiniz diqqət və qayğıya görə, cənab Prezident, Sizə muxtar respublika əhalisi adından minnətdarlıq edirəm.

Ölkəmizdə Yeni Azərbaycan Partiyasına və onun qüdrətli liderinə böyük inam vardır. Azərbaycan xalqı qarşıdan gələn prezident seçkilərində yekdilliklə öz taleyini yenidən Yeni Azərbaycan Partiyasının liderinə həvalə edəcəkdir. Ötən 15 il aydın şəkildə göstərdi ki, cənab İlham Əliyev ulu öndərimizin müstəqillik yolunu davam etdirərək, Azərbaycanı dünyanın sayılıb-seçilən dövlətlərindən birinə çevirib. Məhz buna görə də

möhtərəm İlham Əliyevin namizədliyinin irəli sürülməsi təkcə bizim – Yeni Azərbaycan Partiyasının üzvlərinin deyil, bütövlükdə Azərbaycan xalqının seçimidir.

Muxtar respublikanın əhalisi və Yeni Azərbaycan Partiyasının 54 min nəfərlik üzvü adından 2018-ci ilin aprel ayında keçiriləcək Prezident seçkilərində partiyamızın sədri cənab İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikasının Prezidentliyinə namizədliyini irəli sürür, dəstəkləyir və müdafiə edirik.

Möhtərəm Prezident, Sizi əmin edirik ki, Azərbaycanın müstəqilliyi və tərəqqisi naminə həyata keçirdiyiniz qətiyyətli mübarizədə Naxçıvan Muxtar Respublikası daim Sizinlədir. Əvvəlki illərdə olduğu kimi, bu il keçiriləcək Prezident seçkilərində də Naxçıvan Sizə – ulu öndər Heydər Əliyevin layiqli davamçısına səs verəcəkdir.

**R ə ş a d  M a h m u d o v** (*Milli Məclisin üzvü*): Möhtərəm Prezident!

Hörmətli qurultay iştirakçıları!

Mən çıxışıma başlamazdan əvvəl həqiqətən, bir Azərbaycan vətəndaşı olaraq, belə mötəbər bir məkanda, belə tarixi qurultayda çıxış etdiyimə görə bütün tariximizin qarşısında baş əymək istəyirəm. Allah dövlətimizi – Azərbaycanımızı bu günə gətirən və bu yolda əziyyət çəkən hər kəsə yar olsun!

Möhtərəm Prezident, hörmətli Mehriban xanım, dəyərli qurultay iştirakçıları!

O xalq, o cəmiyyət xoşbəxtdir ki, onun idarəçiliyi dincliyə, əmin-amanlığa söykənir. O xalq xoşbəxtdir ki, onun dincliyi, əmin-amanlığı, rifahı, bir sözlə, bütün taleyi onu idarə edən nəhəng şəxsiyyətlərin, müdriklərin, dərin zəka sahiblərinin çiynindədir. Tarixi təcrübə göstərir ki, xalq hər zaman bu ağır yükü daşımağa qadir olan belə ləyaqətli tarixi şəxsiyyətlərini, liderlərini dəstəkləyir, onların ardınca gedir, onlara inanır və arxalanır. Biz fəxr edirik ki, dünyanın son yüzilliyinin ən nüfuzlu tarixi şəxsiyyətləri və liderləri sırasında yer tutanlardan biri də

bizim Azərbaycanımızın, partiyamızın qurucusu ulu öndərimiz Heydər Əliyevdir. Bugünkü dincliyimizin, əmin-amanlığımızın, bütün sahələrdə dinamik inkişafımızın möhkəm təməli məhz onun adı ilə bağlıdır. Bir də ona görə qürur duyuruq ki, ulu öndərin qurucusu olduğu müasir Azərbaycanı yüksək ləyaqətlə idarə edən möhtərəm Prezidentimiz İlham Əliyev vardır.

Möhtərəm Prezident, bu gün Yeni Azərbaycan Partiyası olaraq, gələcək düşüncələr, arzular, planlar, dövlətimiz barədə danışarkən bir vətəndaş, bir deputat kimi düşünürəm ki, ilk öncə keçmişimizi və bu günümüzü doğru dəyərləndirə bilmək lazımdır. Son 15 ildə keçdiyimiz yola ötəri nəzər salsaq, nələri görə bilərik: müstəqilliyimiz daha da möhkəmləndi, Azərbaycan dünya birliyində sivil, modern dövlət kimi, həm də yeni və özəl dəyərlərlə tanınmağa başlandı və tanındı. Onun həm kəmiyyət, həm də keyfiyyət göstəricilərinin bütün sahələrdə inkişaf dinamizmi, sözün əsl mənasında, qibtə doğurur. Bu gün Azərbaycan yalnız neft ölkəsi kimi deyil, həm də yeni mədəni və mənəvi dəyərləri ilə tanınır. Bu gün Azərbaycan multikultural ölkə, idman və turizm ölkəsi kimi tanınır. Bu gün Azərbaycan yeni iqtisadi və sosial çağırışların, nüfuzlu beynəlxalq qurumların tədbirlərinin keçirilməsi üçün əsas məkan kimi tanınır. Azərbaycan dünyaya özünü demokratik ənənələrə sadiq, eyni zamanda, hüquqi və sosial dövlət kimi təqdim edirsə, deməli, qarşıya qoyulan vəzifələr, qəbul edilən dövlət proqramları öz bəhrəsini verir. Artıq Azərbaycan iri və mürəkkəb infrastruktur layihələrinin reallaşdırılmasında böyük təcrübəsi olan bir dövlət kimi, nüfuz sahibidir. Bu gün Azərbaycanın səsi beynəlxalq təşkilatların kürsülərindən daha gur eşidilir. Dövlətimizin başçısı cənab İlham Əliyevin hər zaman qeyd etdiyi kimi, inkişafın Azərbaycan modelinin mövcudluğu ölkəmizin ən böyük uğurudur, dünyaya nümunədir. Bəli, Azərbaycan bu gün öz tarixinin ən güclü, ən qüdrətli dövrünü yaşayır. Respublikamızın bütün sahələrdə böyük uğurlar qazanması, maliyyə imkanlarının artması, ölkəmizin transmilli layihələrin təşəbbüskarı və əsas

iştirakçısı kimi çıxış etməsi, müasir tələblərə cavab verən infrastrukturun yaradılması, ən yeni texnologiyalara əsaslanan müəssisələrin fəaliyyətə başlaması Azərbaycanın beynəlxalq aləmdəki mövqelərini getdikcə möhkəmləndirir. Bütün təzyiqlərə baxmayaraq, Bakı–Tbilisi–Qars dəmir yolunun istifadəyə verilməsi, Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizində işlərin davam etdirilməsi, iri enerji layihələrinin, qlobal əhəmiyyətli iqtisadi zonaların yaradılması, «ASAN xidmət» kimi Azərbaycan brendinin dünyaya təqdim edilməsi məhz, cənab Prezidentimiz, Sizin əzminiz, iradəniz sayəsində həyata keçirilibdir.

Hörmətli qurultay iştirakçıları, «2007–2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı» çərçivəsində bu günədək minlərlə azərbaycanlı gənc xarici ölkələrin ali məktəblərində təhsil alıb və hazırda elmin, mədəniyyətin, iqtisadi və siyasi həyatımızın müxtəlif sahələrində uğurla çalışmaqdadır. Bu da insan kapitalına verilən dəyərin ən gözəl nümunələrindən biridir. Bu, əsl dövlət xadiminin strateji düşüncə məhsuludur.

Möhtərəm Prezidentimiz, bu imkanlarla Azərbaycan gəncliyinin gözünü dünya elminə və mədəniyyətlərinə açdığınıza görə Sizə təşəkkürümüzü bildiririk. Mən Milli Məclisin deputatı olmaqla yanaşı, həm də uzun illərdir səhiyyə sahəsində fəaliyyət göstərirəm. Son 15 ildə ölkəmizdə səhiyyənin inkişafı göz önündədir. Bu gün yaxın keçmişdə xəyala belə, gətirə bilmədiyimiz müasir tibb ocaqlarımız vardır. Ölkəmizdə yüksək texnologiyaya əsaslanan əməliyyatların keçirilməsi qürurvericidir. Bununla yanaşı, icbari tibbi sığortanın pilot layihəsinin başlanması, səhiyyədə Dövlət Proqramının uğurla icrası, ölkədə yeni farmaseptik zavodların inşası, gələcək nəsillərin sağlamlığına zəmanət verən Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətə başlaması, əlbəttə ki, dövlətin vətəndaşının sağlamlığına göstərdiyi diqqətin bariz nümunəsidir. Gələcəyimiz olan körpələrimizin ən ağır xəstəlikləri zamanı daim onların

yanında olan Mehriban xanıma bu gün bütün o xəstə uşaqlar adından, onların valideynlərinin adından həm təşəkkürümü bildirmək istəyirəm, həm də onillərdir ən çətin günlərində onlara yardım etdiyinizə görə şəxsən bir həkim olaraq, qarşınızda baş əyirəm.

Sənətimlə əlaqədar inandığım bir həqiqət vardır. Dünyamızı sülhlə yanaşı, sevgi, mərhəmət, xeyirxahlıq, elm və düşüncə xilas edə bilər. Amma Silahlı Qüvvələrimiz bizim güvənc yerimiz, qürur mənbəyimizdir. Sizin diqqət və qayğınız sayəsində bu gün Azərbaycan Ordusu dünyanın ən qüdrətli orduları sırasındadır. Aprel hadisələrində Azərbaycan xalqı da, dünya da bu həqiqətin şahidi oldu. Bu gün ordumuzun qarşısında duran əsas vəzifə torpaqlarımızın düşmən əsarətindən azad edilməsidir və qüdrətli ordumuzun bu işin öhdəsindən məharətlə gələcəyinə xalqımızın heç bir şübhəsi yoxdur.

Möhtərəm Ali Baş Komandan, qüdrətli ordu qurduğunuza, dövlətimizin və vətəndaşlarımızın müdafiəsini gücləndirdiyinizə görə Sizə bütün xalqımız adından, bütün insanlar adından təşəkkür edirəm.

Deputatı olduğum Astara rayonunun bir çox ucqar dağ kəndlərinə elektrik enerjisinin və qazın verilməsi, insanların xəyala belə, gətirə bilmədikləri uzaq dağ kəndlərinə asfalt örtüklü yolların çəkilməsi, məktəblər, uşaq bağçaları, xəstəxanalar, yeni emal müəssisələri, iş yerlərinin açılması – bütün bunlar Sizin rəhbərliyiniz dövründə mümkün olub və bu, ölkəmizin bütün rayon və şəhərlərinə xasdır. Cənub regionunun turizm potensialının genişləndirilməsi üçün dəmir yolu xəttinin dəniz kənarından götürülərək, yerinin dəyişdirilməsi barədə verdiyiniz tapşırıqlar, 2018-ci ildə Bakı–Astara magistral yolun istifadəyə verilməsi hər bir Azərbaycan vətəndaşının ürəyincədir və bu, regionun gələcək inkişafında yeni perspektivlərin başlanğıcıdır.

Möhtərəm Prezident, hörmətli qurultay iştirakçıları!

Əlbəttə ki, ulu öndərimizin Azərbaycan xalqına miras qoyduğu bu gözəl dövlətin, onun yaratdığı Yeni Azərbaycan Partiyasının yüz minlərlə üzvündən biri kimi, həm deputat, həm də bir

həkim kimi, tez-tez insanlarla təmasda oluram. Xüsusilə xarici ölkələrdə olanda Azərbaycanda gedən quruculuq işləri, inkişaf barədə müxtəlif səviyyələrdə xoş sözlər eşidəndə bu ölkənin vətəndaşı olduğuma görə qürur duyuram. Doğrudan da Azərbaycan inkişaf dinamikasına görə dünyada lider ölkələrdən sayılır, regionun güc mərkəzi və əsas söz sahibidir, Avropanın yeni enerji təhlükəsizliyi siyasətinin başlıca təminatçılarındandır. Düşünürəm ki, bütün bu faktlar Sizin fəaliyyətinizin sadəcə, kiçik bir hissəsidir. Əgər mənə desəydilər ki, Azərbaycanı təsvir et, bir həkim, bir insan kimi, bir söz tapa bilirəm: Azərbaycan öz rəhbərinə və dövlətinə güvənən xalqın vətənidir. Milli maraqlarımızı qorumaq yolunda bəzən əsassız təzyiqlərlə üzləşməyinizə baxmayaraq, yolunuzdan dönmədən, ardıcıl, qətiyyətli və dürüst addımlarınızı və siyasətinizi bütün Azərbaycan xalqı dəstəkləyir.

Hörmətli qurultay iştirakçıları, bu qurultayda iştirak edən nümayəndələr adından, Yeni Azərbaycan Partiyasının 700 minlik üzvü, seçicilərim və Milli Məclisdə Yeni Azərbaycan Partiyasını təmsil edən həmkarlarım adından Azərbaycanın gələcəyi naminə Yeni Azərbaycan Partiyasının sədri hörmətli İlham Heydər oğlu Əliyevin Prezident seçkilərində namizədliyini irəli sürürəm. İnanıram ki, bu, Azərbaycan xalqı tərəfindən birmənalı şəkildə qarşılanacaqdır.

Möhtərəm Prezident, hörmətli Mehriban xanım!

Partiya tərəfindən mənə verilmiş səlahiyyətlərdən əlavə, bir ürək həkimi kimi, peşəmin də mənə verdiyi imtiyazlardan istifadə edərək, bir həqiqəti diqqətinizə çatdırmaq istəyirəm. Azərbaycanda bir çox insanın ürəyinə yaxınlaşmaq imkanım olduğuna görə Sizə əminliklə bir həqiqəti bildirmək istəyirəm – Azərbaycan xalqı Sizi ürəkdən sevir. Azərbaycan xalqının ürəyi Sizinlə döyünür. Sağ olun.

**Elnur Camalxanov** (*gəncəli iş adamı*): Möhtərəm cənab Prezident!

Hörmətli qurultay nümayəndələri!

Bu ali kürsüdən sizləri sahibkarlar və gəncəlilər adından salamlamaq mənim üçün şərəfli və qürurverici bir haldır.

Hələ ötən əsrin sonunda ümummilli lider Heydər Əliyevin müəllifi olduğu sosial-iqtisadi inkişaf strategiyasının möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən çağdaş dövrün tələblərinə uyğun uğurla davam etdirilməsi Azərbaycanı sürətli iqtisadi artımına görə dünyanın lider ölkələrindən birinə çevirməklə yanaşı, özəl sektorun respublika iqtisadiyyatında təkanverici qüvvə kimi formalaşmasını təmin edib. Ölkəmizdə şəffaf biznes və sağlam rəqabət mühitində bazar infrastrukturunun və sahibkarlığın inkişafının dəstəklənməsi bizə əlavə stimul verib, yeni imkanlar açıbdır. Heç kimə sirr deyil ki, qlobal maliyyə böhranının neqativ təsirləri ölkəmizdən də yan keçməyib. Neft gəlirlərinin 2-3 dəfəyədək aşağı düşməsi maliyyə imkanlarımızı qismən məhdudlaşdırsa da, cənab Prezident, məhz Sizin siyasi iradəniz nəticəsində dövlətimiz qlobal şoklara məruz qalmayıb. Məhz bu vəziyyətdə iqtisadiyyatımızın onurğa sütunu sayılan kiçik və orta sahibkarlıq özünün yüksək inkişaf mərhələsinə qədəm qoyub. Vergi güzəştlərinin tətbiq edilməsi, imzaladığınız müxtəlif fərman və sərəncamlar biz sahibkarlara yeni imkanlar açmaqla yanaşı, həm də üzərimizə ciddi məsuliyyət qoyur. «Made in Azerbaijan» brendinin formalaşması və xarici bazarlarda təşviq olunması üçün biz sahibkarlar da əməli tədbirlər həyata keçiririk. Bütün sahibkarlar tam məsuliyyətlə anlayırlar ki, qlobal böhran şəraitində ölkəyə əlavə valyuta axınının cəlb olunmasında yaxından iştirak etməlidirlər. Bunun üçün idxalı əvəzləyən və ixrac yönümlü məhsulların istehsalının təmin olunması qarşımızda əsas vəzifə kimi dayanır. Əvvəl xarici bazarlara çıxış imkanlarımız məhdud idisə, artıq bu problem aradan qaldırılıb. «Azexport» portalının və bir sıra ölkələrdə ticarət evlərinin yaradılması biz sahibkarların üzünə yeni qapılar açıb desək, yanılmarıq. İnvestisiyaların Təşviqi sənədinin alınması ilə bağlı fərman yerli və xarici sərmayədarlar üçün də böyük bir fürsət

oldu. Təbii ki, bütün bunlar qeyri-neft sektorunun ümumi daxili məhsulda payını artırmaqla yanaşı, yeni iş yerlərinin açılmasına da münbit şərait yaradıbdır.

Cənab Prezident, ölkəmizdə Sahibkarlar Gününün təsis edilməsi haqqında 2016-cı il 21 aprel tarixli Sərəncamınız bizi çox sevindirdi. Hər il aprelin 25-də Sahibkarlar Gününü böyük fəxrlə qeyd edirik. Artıq bizim də öz günümüz vardır. Bu, sahibkarların respublikamızın sosial-iqtisadi tərəqqisində, həmçinin məşğulluğun təmin olunmasında fəal iştirakına yüksək səviyyədə verdiyiniz önəmin növbəti ifadəsidir, bizi çox ruhlandırır və yeni-yeni ideyalara yönləndirir. Sizin imzaladığınız fərmanla Azərbaycan Respublikasının Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyinin yaradılması isə sahibkarların maliyyə resurslarına çıxış imkanlarının daha da artırılmasına yeni təkan verib. Dövlət proqramlarının, fərman və sərəncamların icrası ölkədə gedən iqtisadi inkişafın sürətləndirilməsini uğurla təmin edir. Bu, tərəqqi prosesində özəl sektorun payını və rolunu davamlı şəkildə artırır. Postneft iqtisadiyyatının qurulması, idxaldan asılılığın azaldılması, ölkənin ixrac potensialının yüksəldilməsi üçün rəqabətqabliyyətli mal və məhsulların istehsal olunmasında sahibkarlara böyük imkanlar yaradır. Artıq biz sahibkarlara daha yaxşı işləmək və yeni nailiyyətlər əldə etmək qalıbdır.

Cənab Prezident, sahibkarlıq fəaliyyəti ilə bağlı imzaladığınız fərman və sərəncamlar Gəncədə də sahibkarlıq fəaliyyətinə geniş imkanlar yaradıb. Sizin Gəncə və gəncəlilərə olan diqqət və qayğınız sayəsində Gəncə şəhəri öz qədimliyini və tarixiliyini saxlamaqla gəncləşir, müasirləşir və gündən-günə gözəlləşir. Bunun nəticəsidir ki, 2017-ci ildə Gəncə şəhərinə ümumi dəyəri 338 milyon 700 min manat investisiya qoyulub. Əminliklə qeyd etmək istəyirəm ki, 2018-ci ildə bu rəqəmin 1,8 dəfə artması gözlənilir.

Ölkəmizdə özəl sektora göstərilən dövlət qayğısından bəhrələnən 14 sahibkarlıq subyekti tərəfindən 20-yə yaxın xarici öl-

kəyə 183 milyondan çox rəqabətqabliyyətli məhsul ixrac olunub və özəl sektorun ümumi daxili məhsuldakı payı artaraq, 81 faizə çatıbdır.

Möhtərəm cənab Prezident, biz bu gün gələcəyə ümidlə baxırıq. Sizin tövsiyə və tapşırıqlarınıza əsasən, Azərbaycan sahibkarları beynəlxalq standartlara uyğun məhsullar istehsal edə bilir. Sizin beynəlxalq aləmdə nüfuzunuz sayəsində dünya biznes mühitində Azərbaycan iş adamlarına böyük inam və etimad göstərirlər. Yürütdüyünüz sülhsevər siyasətiniz nəticəsində heç bir ölkə ilə işgüzar münasibətdə siyasi əngəllə qarşılaşmırıq. Ardıcıl siyasi əlaqələrin mövcudluğundan biz də uğurla istifadə edirik. Biz bunun davamlı olmasını istəyirik, Sizinlə irəliləmək istəyirik.

Hamıya məlumdur ki, iqtisadi tərəqqi, azad sahibkarlıq, sərbəst sərmayə qoyuluşu üçün ən başlıca amil ictimai-siyasi sabitlikdir. Cənab Prezidentimizin həyata keçirdiyi siyasət nəticəsində ölkəmizdə xalq–iqtidar vəhdəti, ictimai-siyasi və maliyyə sabitliyi tam bərqərar olub. Belə şərait iş adamları, sahibkarlar üçün tam əlverişli mühit yaradıbdır. Odur ki, indi Azərbaycanda biz iş adamlarının hərtərəfli fəaliyyətinə böyük imkanlar vardır.

Cənab Prezident, bizim üçün yaradılmış bu şəraitə görə iş adamları adından Sizə dərin minnətdarlığımı bildirirəm. Biz müstəqil, suveren, iqtisadiyyatı həmişə güclü olan Azərbaycan görmək istəyirik. Bəllidir ki, ölkənin iqtisadi qüdrətinin artması üzləşdiyimiz Qarabağ probleminin həllinə də çox ciddi və həlledici təsir göstərir. Ona görə də bütün sahibkarlar, o cümlədən partiyamızın Gəncədəki çoxminli üzvləri bu işə öz töhfələrini verməyə çalışırlar.

2018-ci il aprelin 11-də keçiriləcək Prezident seçkilərində partiyamızın sədri İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikasının Prezidentliyinə növbəti dəfə namizədliyinin irəli sürülməsini təklif edirəm. Sizi və qurultay iştirakçılarını əmin edirəm ki, biz sahibkarlar aprelin 11-də keçiriləcək növ-

bədənkənar Prezident seçkilərində Sizin namizədliyinizi dəstəkləyəcək və yekdilliklə Sizə səs verəcəyik. Yalnız Sizin rəhbərliyiniz altında ölkəmiz öz uğurlarının davamlılığını təmin edə bilər.

Çıxışımı ulu öndərin dərin fəlsəfi fikirlərini özündə ehtiva edən bir cümləsi ilə bitirmək istəyirəm: «Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır». Qurultayımız mübarək!

Yaşasın müstəqil Azərbaycan!

Yaşasın xalqımızı daim yüksəlişlərə aparan Prezidentimiz cənab İlham Əliyev!

**N e v a A b d u r a h m a n o v a** (*Qusarda Heydər Əliyev Mərkəzinin direktoru*): Möhtərəm cənab Prezident!

Hörmətli qurultay iştirakçıları!

Xanımlar və cənablar!

Bu gün sizin qarşınızda danışmaq mənim üçün olduqca qürurvericidir.

Cənab Prezident, icazə verin, Sizi bütün qusarlılar adından salamlayım və qurultayın işinə uğurlar arzu edim.

Bu gün Yeni Azərbaycan Partiyasının siyasi xəttini özünə mənəvi dəyər sayan hər bir sadə Azərbaycan vətəndaşı üçün böyük bir bayramdır. Çünki partiyamız yarandığı gündən sadəcə olaraq, öz həyatını deyil, bütövlükdə xalqın həyatını yaşayıb, onunla birgə inkişaf edibdir. Yeni Azərbaycan Partiyasının bütün uğurları Azərbaycan xalqının, Azərbaycan dövlətinin uğurlarıdır. Bu partiya ulu öndər Heydər Əliyevin ideyalarının gerçəkləşməsində bir mayak olmuş, respublikamızın inkişafı və tərəqqisi məhz bu siyasi dinamika ilə güclənmişdir.

Cənab Prezident, dahi şəxsiyyət Heydər Əliyevin xalqın təkidi ilə siyasi hakimiyyətə qayıtmasından öncəki Azərbaycanın düşdüyü vəziyyətdən danışarkən yaşadığım doğma Qusar rayonunun ozamankı ağır həyatı gözümüzün önündə canlanır. Həmin dövrdə siyasi səriştəsizlik, rəhbərlikdəki təcrübəsizlik, hərcmərclik bizi ağır nəticələrə gətirib çıxarmışdı. İnsanlar çaşqınlıq

içərisində idi. Siyasi və iqtisadi böhranla üzləşən xalqımız maddi və mənəvi çətinliklər yaşayırdı. 1993-cü ildən yenidən respublikaya rəhbərlik etməyə başlayan Heydər Əliyev həm xarici, həm də daxili təxribatları, münaqişələri aradan qaldıraraq, ölkədə sabitlik yaratdı. Həyata keçirdiyi qəti tədbirlərlə dahi siyasi xadim insanların gələcəyə inamını bərpa etdi, multikultural və tolerant ənənələrə sadiq qalaraq, bütün xalqları vahid bir məfkurədə, azərbaycançılıq ideologiyası ətrafında birləşdirdi.

Cənab Prezident, biz çox sevinirik ki, ulu öndərin əsasını qoyduğu bu siyasi və iqtisadi islahatlar Sizin tərəfinizdən daha müasir və yenilikçi prinsiplərlə davam etdirilir. Bu gün Azərbaycanda elə bir sahə yoxdur ki, inkişafdan kənarda qalsın.

Bu gün respublikamızın hər bir bölgəsinin sürətli inkişafı Sizin gərgin əməyinizin nəticəsidir. Sizin yorulmaz fəaliyyətiniz sayəsində doğma Azərbaycanımızın hər bir bölgəsi gündən-günə yeniləşərək, simasını dəyişir. Çox sevinirik ki, Vətənimizin bir parçası olan Qusar da yeniləşən rayonların sırasındadır. Uzun illər ərzində həsrətində olduğumuz arzularımız Sizin sayənizdə gerçəkləşir. Qusar bu gün yüksək qayğınız sayəsində ən gözəl illərini yaşayır, inkişaf edir, abad bir diyara, böyük turizm mərkəzinə çevrilir. Məhz Sizin təşəbbüsünüz və qətiyyətiniz sayəsində tikilərək, ərsəyə gətirilən «Şahdağ» Qış-Yay turizm kompleksi Qusarı bütün dünyaya tanıtdı. Vaxtilə kiçik bir əyalət şəhəri olan Qusar bu gün «Şahdağ» Qış-Yay turizm kompleksi sayəsində yüz minlərlə turisti qəbul etmək iqtidarındadır. Məhz Sizin diqqət və qayğınız Qusara yeni abhava, yeni nəfəs gətirdi. Vaxtilə ən elementar infrastruktur imkanlarından məhrum olan, lakin bu gün nəhəng turizm kompleksinin tikildiyi dağlara dəmir yolu xəttinin çəkilməsi təşəbbüsü biz qusarlılar tərəfindən sonsuz rəğbət və sevinclə qarşılanıb. İnanırıq ki, Sizin qətiyyətiniz sayəsində yaxın gələcəkdə bu layihə də gerçəkləşəcəkdir. Şübhəsiz ki, belə nəhəng nəqliyyat infrastrukturunun yaradılması Qusarın gələcək

inkişafına böyük təkan verəcəkdir. Bütün bunları bizə Siz bəxş etmisiniz, cənab Prezident.

Cənab Prezident, biz Azərbaycan qadınları, anaları olaraq, Sizin ailə-qadın problemlərinin həlli istiqamətində gördüyünüz işlərə böyük önəm veririk. Bu gün Azərbaycanda qadınların ictimai həyatda özlərini təsdiq etmələri üçün mükəmməl qanunvericilik bazası yaradılıb. Bu gün Azərbaycan qadınları ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətini ürəkdən dəstəkləyir, ona qəlbən inanırlar. Xeyriyyəçilik, humanistlik və digər yüksək insani keyfiyyətləri sayəsində ümumxalq məhəbbəti qazanmış Mehriban xanım Əliyeva son illərdə hüquqi və siyasi müstəvidə böyük uğurlara imza ataraq, Azərbaycanı dünyəvi və islam dəyərlərinə sadiq bir ölkə kimi yüksək səviyyədə təmsil edir.

Möhtərəm Prezident, bu gün hər bir Azərbaycan qadını kimi, biz qusarlı qadınları da narahat edən ən başlıca məsələlərdən biri Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlıdır. Hər birimizə məlumdur ki, Siz ölkəyə rəhbərlik etdiyiniz ilk gündən başlayaraq, bu günədək işğal altında olan torpaqlarımızın sülh yolu ilə azad edilməsi, tarixi ədalətsizliyin aradan qaldırılması, hər zaman münaqişənin danışıqlar masası arxasında həlli üçün məqsədyönlü siyasət həyata keçirmiş, dövlət maraqlarımıza, ərazi suverenliyimizə zidd olmayan sülhə hazır olduğunuzu bəyan etmisiniz. Təbii ki, Sizin ötən illər ərzində fasiləsiz olaraq Azərbaycan həqiqətlərini dünyaya sübut etmək istiqamətindəki uğurlu fəaliyyətiniz bu gün öz bəhrəsini verməkdədir.

Bununla belə, Sizi əmin edirik ki, sülh danışıqları bir nəticə verməyəcəyi halda, qusarlı gənclər hər zaman olduğu kimi, əldə silah Vətən torpaqlarının azad edilməsi uğrunda mübarizənin ön cərgəsində olacaqlar.

Cənab Prezident, inam böyük qüvvədir və insanı qələbəyə doğru aparan mühüm amildir. Bu inam isə xalqımızın ürəyində artıq möhkəm yer tutub. Qarşıdan hər birimizin həyatında

mühüm hadisə olan Prezident seçkiləri gəlir. Biz qusarlılar bu seçkilərdə yeganə namizəd olaraq Sizi görürük və xalqımızın yeganə layiqli namizədi kimi, yekdilliklə dəstəkləyirik. Sizi əmin edirik ki, qazandığınız və layiq olduğunuz ümumxalq məhəbbəti qarşıdan gələn Prezident seçkilərində də Sizin əzəmətli qələbənizi təmin edəcəkdir.

Möhtərəm cənab Prezident, bir daha Sizi əmin etmək istəyirəm ki, ölkəmizin şimal qapısı olan Qusarın əhalisi həmişə Sizinlədir. Biz qusarlılar doğma Azərbaycanımızın inkişafı və itirilmiş torpaqlarımızın geri qaytarılması naminə həyata keçirdiyiniz işlərdə Sizin ən yaxın yardımçınız olacaq və ətrafınızda daha sıx birləşəcəyik.

Çıxışımın sonunda Yeni Azərbaycan Partiyası Qadınlar Şurası və bütün qusarlılar adından Yeni Azərbaycan Partiyasının sədri İlham Heydər oğlu Əliyevin Prezidentliyə namizədliyini irəli sürür və yekdilliklə müdafiə olunmasına çağırıram.

Eşq olsun Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə! Yaşasın müstəqil Azərbaycan Respublikası! Çox sağ olun.

**Emil Aslanlı** (*ADA Universitetinin tələbəsi*): Möhtərəm cənab Prezident!

Hörmətli qurultay nümayəndələri!

Yeni Azərbaycan Partiyasının VI qurultayında sizin qarşınızda bu şərəfli kürsüdən çıxış etməkdən böyük qürur hissi keçirirəm.

Bu gün Azərbaycan xalqının həyatında əlamətdar və tarixi bir gündür. Cənab Prezident, biz ölkəmizdə aprelin 11-də keçiriləcək Prezident seçkilərində Sizin namizədliyinizin irəli sürülməsinin şahidi olmaqla, tariximizə yeni bir səhifə yazırıq. Bu gün Azərbaycan gəncliyi üçün də çox sevindirici və əlamətdar bir gündür. Mən də bir gənc kimi, bu tarixi günə şahidlik etdiyim üçün özümü çox xoşbəxt hiss edirəm.

Möhtərəm Prezidentimiz, şübhəsiz ki, bu namizədlik qurultay nümayəndələri tərəfindən yekdilliklə dəstəklənəcəkdir. Çün-

ki bu, xalqımızın, xüsusilə də Azərbaycan gənclərinin 2003-cü ildən dəyişməz seçimidir və Azərbaycan gəncliyi gələcəyə inamla və ilhamla getmək istəyir. Bu mənada əminik ki, aprelin 11-də Azərbaycan xalqı bir daha tərəqqiyə, sabitliyə və inkişafa səs verəcək. Bu, cəmiyyətimizin sosial sifarişi olmaqla, zamanın zərurətdən doğan tələbidir. Bu seçim təkcə bizim ölkəmiz üçün deyil, bütövlükdə regionumuzun gələcəyi üçün çox əhəmiyyətlidir. Ötən dövr ərzində respublikamızda bütün sahələrdə qazanılan misilsiz nailiyyətlər Sizin imzanızla gerçəkləşib. Ölkəmizdə uğurlu sosial-iqtisadi inkişafın nəticəsidir ki, son illərdə əhalinin sayı durmadan artır. Əslində bu, dayanıqlı inkişafın göstəricisi olmaqla, demoqrafik təhlükəsizliyin yüksək səviyyədə qorunmasına sübutdur.

Sizin rəhbərliyinizlə ölkəmizdə gənclərin inkişafı üçün mühüm məsələlərdən biri olan təhsilimiz də böyük inkişaf yolu keçir. Respublikamızda beynəlxalq standartlara cavab verən müxtəlif təhsil ocaqları yaradılır, gənclərimiz dünyanın nüfuzlu universitetləri ilə rəqabətə girə bilən universitetlərdə təhsilini davam etdirir. Mən də fəxr edirəm ki, dünyanın tanınmış təhsil ocaqlarından heç də fərqlənməyən ADA kimi universitetdə təhsil alıram. Bütün sahələrdə, xüsusilə təhsilimizdə inkişaf məhz Sizin xidmətiniz və ölkəmizin gələcəyi olan gəncliyə diqqətinizdir.

Fürsətdən istifadə edərək, qeyd etmək istəyirəm ki, Sizin və Heydər Əliyev Fondunun prezidenti möhtərəm Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanın dəstəyi ilə şərəfli tarixi keçmişimizin, milli-mənəvi dəyərlərimizin qorunmasında və dünyaya çatdırılmasında həyata keçirilən möhtəşəm layihələri Azərbaycan gəncləri çox yüksək dəyərləndirirlər. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin təntənəli şəkildə qeyd edilməsi ilə bağlı sərəncam imzalamaqla, qəhrəman xalqımızın tarixi nailiyyətlərinə, Milli Ordumuza, bayrağımıza, bütövlükdə dövlət atributlarına böyük qiymət verdiniz. Tarixi keçmişimizin nüfuzunu və şöhrətini daha da

yüksəltdiniz. Bu gün Sizin gərgin əməyinizə, uzaqgörən diplomatiyanıza, qətiyyətli siyasətinizə və xalqımıza olan sonsuz məhəbbətinizə görədir ki, Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan qüdrətli müasir müstəqil dövlətimiz dünya birliyində ləyaqətlə təmsil olunur. Sizin uca kürsülərdə – BMT-də, NATO-da, Davosda, Avropa Şurasında Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması ilə bağlı cəsarətli çıxışlarınızı dinlədikcə, Sizinlə bir daha fəxr edirik. Siz bizim liderimizsiniz və ölkə gəncliyi üçün örnəksiniz.

Bu gün Sizin məqsədyönlü və uğurlu siyasətinizin nəticəsi olaraq, rəhbərlik etdiyiniz Yeni Azərbaycan Partiyası ətrafında 700 mindən çox ölkə vətəndaşı sıx birləşib. Xalqımız ölkəmizin gələcəyini məhz müasir Azərbaycan dövlətinin qurucusu olan ulu öndər Heydər Əliyevin dühası ilə yaranan partiyanın iqtidarında görür. Mən də bir Azərbaycan gənci kimi, iftixar hissi ilə bildirirəm ki, bu gün ölkəmizin ən aparıcı gəncləri ümumxalq partiyasına çevrilmiş YAP-ın sıralarındadır. Heç də sirr deyil ki, bu gün partiya üzvlərinin 40 faizindən çoxu Azərbaycan gəncləridir.

Gənclərimizin sürətlə bu partiyaya qoşulmasına səbəb isə Sizin gənclərə olan etimadınız, diqqətiniz və ehtiramınızdır. Uğurla həyata keçirdiyiniz gənclər siyasəti sayəsində ölkəmizdə istedadlı, savadlı, bacarıqlı, vətənpərvər gənclər ordusu formalaşıb. Bu o gənclərdir ki, ulu öndər Heydər Əliyev siyasətinə sadiqdirlər, bu o gənclərdir ki, Ali Baş Komandanın bir əmri ilə öz qanları bahasına aprel zəfərini bizə yaşatdılar. Bu o gənclikdir ki, Leyla Əliyevanın rəhbərliyi ilə «Xocalıya ədalət!» kampaniyası çərçivəsində Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaqla, işğalçı və cinayətkar Ermənistanı ifşa edirlər, bu o gənclərdir ki, üçrəngli bayrağımızı dünyanın ən mötəbər arenalarında, Olimpiya oyunlarında, ölkəmizdə keçirilmiş birinci Avropa oyunlarında, IV İslam Həmrəyliyi oyunlarında yüksək zirvələrdə dalğalandırdılar.

Cənab Prezident, Siz hər çıxışınızda Azərbaycan gənclərinin yanında olduğunuzu deməklə, ölkəmizin həyatında gənclərin

danılmaz rolunun və iştirakının əhəmiyyətini, onların potensialından istifadə etməyin vacibliyini cəmiyyətin diqqətinə çatdırırsınız. Bütün bunlara görə, Sizə çox minnətdarıq. Biz, Nəsimi rayon təşkilatının 10 mindən çox gənci də bütün Azərbaycan gəncləri kimi, Sizin getdiyiniz bu çətin və şərəfli yolda daim yanınızda olacağımıza söz verir və hər zaman Sizin etimadınızı doğrultmağa çalışacağımızı bildirmək istəyirik. Biz gənclər söz veririk ki, hər zaman Heydər Əliyev yoluna, onun siyasətinə sadiq qalaraq, Sizin bizim üçün yaratdığınız bu şanslardan istifadə edib, Vətənimizin çiçəklənməsində əlimizdən gələni əsirgəməyəcəyik.

Lakin çox təəssüf ki, respublikamızda məkrli niyyətlərini həyata keçirmək istəyən bəzi ermənipərəst xarici dairələr və təşkilatlar ölkəmizin bu uğurlu inkişafına və beynəlxalq aləmdəki imicinə kölgə salmağa cəhd edirlər. Nə qədər acı olsa da, ölkəmizdəki bir qrup anti-milli siyasətbazlar uzun illərdir ki, bu məkrli planların alətinə çevriliblər. Bu möhtəşəm kürsüdən Azərbaycan gəncləri adından onlara səslənirəm: sizin bütün oyunlarınız elə ölkəmizin sərhədlərindən kənarda iflasa uğrayacaq. Çünki Azərbaycan xalqı öz gələcəyini və öz gəncliyini Azərbaycanda alternativi olmayan İlham Əliyev siyasətində görür.

Hörmətli qurultay nümayəndələri, belə bir gündə, bu ali məclisdə sizə Azərbaycan gəncliyinin cənab Prezidentə olan inamını, ehtiramını və sonsuz sevgisini ifadə etmək istərdim.

Yaşasın müstəqil Azərbaycan! Yaşasın cənab Prezident İlham Əliyev! Yaşasın Yeni Azərbaycan Partiyası!

**Əli Əhmədov:** Hörmətli sədr!

Hörmətli qurultay nümayəndələri!

6 nəfər partiyamızın sədrinin proqram xarakterli çıxışı ətrafında diskussiyada iştirak etdi və qarşıdan gələn növbədənkənar Prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədinin irəli sürülməsi haqqında təkliflərini bildirdi. Bütün çıxışlarda Prezident İlham Əliyevin növbədənkənar Prezident

seçkilərində namizədliyinin irəli sürülməsi haqqında təklif səsləndirildi. Hesab edirəm ki, bununla biz çıxışlara son qoya bilərik.

Növbəti məsələmiz Yeni Azərbaycan Partiyasının VI qurultayının aprelin 11-də keçiriləcək Prezident seçkilərində cənab İlham Əliyevin namizədliyinin irəli sürülməsi haqqında qərarının qəbul edilməsi ilə əlaqədardır.

İcazə verin, qurultayın qərar layihəsini təqdim edim.

Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin 2018-ci il aprelin 11-də növbədənkənar Prezident seçkilərində namizədliyinin irəli sürülməsi barədə Yeni Azərbaycan Partiyasının VI qurultayının qərarı:

Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyevin rəhbərliyi ilə 2003-cü ildən keçən müddət müasir tariximizə ölkənin iqtisadi, sosial, siyasi və mədəni inkişafının dönüş nöqtəsi kimi daxil olub. Bu illər ərzində uğurla həyata keçirilən islahatlar nəticəsində iqtisadiyyat 3 dəfədən çox artıb, Azərbaycan iqtisadiyyatı dünyanın ən dinamik inkişaf edən iqtisadiyyatı kimi tanınıb, özünün nadir iqtisadi inkişaf modelini təqdim edibdir.

Ölkənin iqtisadi potensialı əsaslı şəkildə artırılıb, maliyyə imkanlarımız tarixi maksimuma çatdırılıbdır. Azərbaycan bölgənin ən qüdrətli iqtisadiyyatına çevrilib, Cənubi Qafqazın və ətrafın coğrafiyasını dəyişdirməyə qadir olan möhtəşəm layihələrin təşəbbüskarı missiyasını qətiyyətlə öz üzərinə götürübdür. Qürur hissi ilə deyə bilərik ki, Azərbaycan regional iqtisadiyyatın lokomotivinə çevrilib, Avropanın enerji təhlükəsizliyinin etibarlı tərəfdaşlarından biri kimi özünü təqdim edib, beynəlxalq Şərq–Qərb, Şimal–Cənub nəqliyyat qovşağı kimi məsuliyyətli vəzifəni layiqincə yerinə yetirməkdədir. Bütün bunların nəticəsində təbii olaraq, Azərbaycanın regional və dünya iqtisadiyyatında rolu və əhəmiyyəti xeyli yüksəlibdir.

Ardıcıl və sistemli şəkildə həyata keçirilən sosial siyasət sayəsində insanların həyat şəraitinin yüksəldilməsi, rifahının yaxşılaşdırılması sahəsində möhtəşəm nailiyyətlər əldə edilib. Hər şeydən əvvəl yoxsulluq həddinin 50 faizdən 5 faizə endirilməsi, başqa sözlə, təxminən 10 dəfə azaldılması – 1 milyon 900 min yeni iş yerinin yaradılması nəticəsində işsizlik səviyyəsinin təxminən 5 faizə endirilməsi kimi tarixi nailiyyətlər qeyd olunmalıdır. Bu müddət ərzində maaşlar orta hesabla 5 dəfə, pensiyalar 8 dəfə, əhalinin real gəlirləri orta hesabla 2,6 dəfə artıbdır.

Sosial infrastrukturun yenilənməsi sahəsində əldə olunan nailiyyətlər, sözün həqiqi mənasında, möcüzə sayıla bilər. 2003–2017-ci illərdə 3100 məktəb tikilib və ya əsaslı surətdə təmir olunub, 642 xəstəxana qurulub istifadəyə verilib, 43 müasir idman kompleksi yaradılıbdır.

Məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə 92 qəsəbə və yaşayış kompleksi, 48,3 min mənzil və ya fərdi ev tikilib istifadəyə verilib, 245 min məcburi köçkün müasir mənzillərlə təmin olunubdur.

Ölkənin siması köklü surətdə yenilənib, modernləşmə Azərbaycanın müasir tarixinin fərqləndirici xüsusiyyətinə çevrilibdir. Bakı dünyanın ən gözəl şəhərlərindən biri kimi şöhrət qazanıb, bölgələrdə həyatın keyfiyyəti köklü surətdə dəyişdirilibdir. Əzəmətli infrastruktur layihələrinin miqyası inşa olunan 12,3 min kilometr müasir yollarda, 443 körpü və yol qovşağında, qazlaşdırılmanın 93 faizə çatdırılmasında, əhalinin içməli su ilə təminatının 67 faizə yüksəlməsində ifadə olunur.

Hərtərəfli siyasi islahatlar ölkənin siyasi sisteminin təkmilləşməsini və müasir standartlara uyğunlaşmasını əsaslı surətdə təmin edib. İnsan hüquq və azadlıqları, o cümlədən siyasi azadlıqlar, söz və mətbuat azadlığı tam təmin edilib, idarəetmənin optimallaşdırılması və səmərəliliyinin artırılması sahəsində ciddi addımlar atılıbdır.

2016-cı ildə keçirilən referenduma əsasən, baş tutan Konstitusiya islahatları, vitse-prezident institutunun yaradılması siyasi islahatların dərinləşməsi istiqamətində ən uğurlu addımlardan sayıla bilər. Bu islahatların nəticəsində Azərbaycan dövlətinin daha qüdrətli və möhtəşəm görkəm alması haqlı olaraq xalqın qürur və iftixar mənbəyinə çevrilibdir. 2012-ci ildə Azərbaycanın Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi, mötəbər beynəlxalq təşkilatlarda Azərbaycanın layiqincə təmsil olunması, tam müstəqil xarici və daxili siyasət yürütməsi dövlətimizin qüdrətinin və müstəqilliyinin ən bariz ifadələridir. Bu qüdrətin digər bir ifadəsi isə ordumuzun döyüş qabiliyyətinin heç zaman olmadığı qədər yüksəlməsi hesab edilməlidir. 2016-cı ilin aprel döyüşlərində düşmənə endirilən sarsıdıcı zərbə, düşmən işğalından azad olunaraq, yenidən qurulan Cocuq Mərcanlı, qəhrəman Azərbaycan Ordusunun döyüş şücaətinin unudulmaz səhifələri Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müdrikliyinin parlaq nümunəsidir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın inkişafı tam, bitkin, sistemli xarakter daşıyaraq, əsl mənada intibah kimi, müasir həyatımıza və tariximizə daxil olub. Bütün sahələrdə olduğu kimi, elm, mədəniyyət, idman sahələrində də əzəmətli layihələr həyata keçirilib və keçirilməkdədir. Azərbaycanın «Eurovision» mahnı müsabiqəsinə, ilk Avropa oyunlarına, İslam Həmrəyliyi oyunlarına, bir sıra mötəbər beynəlxalq təşəbbüslərə və tədbirlərə ev sahibliyi etməsi Azərbaycan intibahının miqyasının və beynəlxalq etiraf dərəcəsinin aydın göstəricisidir.

Yeni Azərbaycan Partiyasının VI qurultayı Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın sürətli sosial-iqtisadi inkişafını, dövlətçilik ənənələrinin və demokratik təsisatlarının gücləndirilməsini, ölkənin beynəlxalq nüfuzunun və müdafiə qabiliyyətinin ciddi şəkildə möhkəmləndirilməsini,

habelə Prezident İlham Əliyevin şəxsində Azərbaycanın inkişaf perspektivlərinə etibarlı təminatı nəzərə alaraq və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 54-cü maddəsinə istinad edərək, qərara alır:

**İlham Heydər oğlu Əliyev 2018-ci il aprel ayının 11-də keçiriləcək növbədənkənar prezident seçkilərində Azərbaycan Respublikasının Prezidentliyinə namizəd irəli sürülsün.**

Hörmətli qurultay iştirakçıları, sizin hərarətli və sürəkli alqışlarınız əslində qurultayın səsləndirilən qərarının birmənalı şəkildə dəstəklənməsidir. Amma eyni zamanda, mən prosedur qaydalarına görə qurultayın qərarını səsə qoymalıyam.

Kim Prezident İlham Əliyevin növbədənkənar Prezident seçkilərində namizədliyini dəstəkləyirsə, xahiş edirəm, səs versin.

Əleyhinə olan və bitərəf qalan yoxdur.

Beləliklə, Yeni Azərbaycan Partiyasının VI qurultayının İlham Əliyevin namizədliyinin irəli sürülməsi haqqında qərarı yekdilliklə qəbul olunur. Xeyirli olsun! Uğurlu olsun!

Cənab Prezident, Azərbaycan xalqı Yeni Azərbaycan Partiyasının VI qurultayının qəbul etdiyi bu qərarı ürəkdən dəstəkləyəcək. Buna qətiyyətlə inanırıq. Eyni zamanda, ona da inanırıq ki, aprel ayının 11-də hər bir seçicimiz böyük həvəslə, ürəkdən səsvermə məntəqəsinə gəlib Sizə səs verəcək və Sizə səs verməklə, növbəti 7 il ərzində Azərbaycanın inkişafına, tərəqqisinə, yüksəlişinə, sabitliyinə, əmin-amanlığına səs vermiş olacaqdır.

Cənab Prezident, Siz buna layiqsiniz. Azərbaycan xalqı Azərbaycanın bu gününü, sabahını, gələcəyini Sizinlə, Sizin həyata keçirdiyiniz siyasətlə bir yerdə görür. Alternativ yoxdur və hesab edirəm ki, biz bu gündən aprel ayının 11-də bizi gözləyən qələbə münasibətilə Sizi və partiya üzvlərini, bütün xalqımızı təbrik edə bilərik. Sağ olun, cənab Prezident.

**İ l h a m Ə l i y e v**: Hörmətli qurultay nümayəndələri, mənə göstərilən böyük dəstəyə görə sizə dərin təşəkkürümü bildirmək

istəyirəm. Sizi və bütün Azərbaycan xalqını əmin etmək istəyirəm ki, əgər Prezident seçkilərində Azərbaycan xalqı mənə yenidən yüksək etimad göstərərsə, doğma xalqıma ləyaqətlə xidmət edəcəyəm. Sağ olun.

* * *

*Yeni Azərbaycan Partiyasının VI qurultayı Dövlət himninin səsləndirilməsi ilə başa çatdı.*

## FUTBOL ÜZRƏ DÜNYA ÇEMPİONATI KUBOKUNUN ƏSLİNİ AZƏRBAYCAN PREZİDENTİNƏ TƏQDİMETMƏ MƏRASİMİ

*9 fevral 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə fevralın 9-da futbol üzrə dünya çempionatı ərəfəsində dünya turnesi çərçivəsində FİFA–Coca-Cola və AFFA tərəfindən Azərbaycana gətirilmiş çempionatın kubokunun əsli təqdim olunmuşdur. Kubok futbol üzrə dünya çempionatı kubokunun sahibi, Fransa yığma komandasının keçmiş oyunçusu, dünya futbol əfsanələrindən sayılan Kristian Karambo tərəfindən təqdim edildi.*

*Görüşdə çıxış edən Kristian Karambo Azərbaycanda olmağından şərəf duyduğunu qeyd edərək, dövlət başçımızın idmana həmişə dəstək verdiyinə görə ona minnətdarlığını bildirdi və dünya çempionatının kubokunun əslini Prezident İlham Əliyevə təqdim etdi.*

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. Mən bu tarixi kuboku Azərbaycan xalqına, azərbaycanlı azarkeşlərə təqdim etmək üçün Bakıya gəlişinizə görə FİFA-ya, şəxsən sizə və sizin həmkarlarınıza minnətdaram. Biz Azərbaycanın və Bakının turnenin keçirildiyi ölkə və şəhərlərdən biri kimi seçilməsindən qürur duyuruq. Bu bizim üçün həqiqətən də böyük şərəfdir. Bu gün bu, böyük bir hadisə olacaq və mən əminəm ki, azarkeşlər bu kuboka baxmaqdan çox məmnun olacaqlar. Mən sizin icazənizlə bu kuboka toxundum. Bilirəm ki, kuboka yalnız çempionlar və dövlət başçıları toxuna bilərlər. Əminəm ki, tariximizdə ilk dəfə qeyd etdiyimiz bu əlamətdar hadisə futbolumuzda, oyunçularımızda daha da böyük həvəs yaradacaq, dünyada bu ən məşhur idman növünün Azərbaycanda inkişafına kömək edəcəkdir. Biz

futbolun, idmanın inkişafına kömək etməyə çalışırıq. Azərbaycanın idman sahəsində yaxşı nəticələri vardır. Keçmiş Rio Olimpiya oyunlarında Azərbaycan yığması ümumi medal sayına görə dünyada 14-cü yeri tutmuşdur. Biz 2 mötəbər beynəlxalq idman yarışına – Avropa oyunlarına və İslam Həmrəyliyi oyunlarına ev sahibliyi etmişik və bu oyunlarda komandamız medal sayına görə müvafiq olaraq 2-ci və 1-ci yerləri tutmuşdur. Biz Bakıda futbol üzrə Avroliqanın finalına və futbol üzrə Avropa çempionatının dörddəbir finalına və bir neçə qrup oyunlarına ev sahibliyi etməyi səbirsizliklə gözləyirik. Biz artıq mötəbər beynəlxalq, Avropa idman və futbol yarışlarına ev sahibliyi edəcək dünya ölkələrinin birinə çevrilirik. Əlbəttə ki, bunu biz dostluq və FİFA-ya hörmət əlaməti hesab edirik. Sizdən bizim qonağımız olmuş FİFA-nın prezidenti cənab İnfantinoya salamlarımı çatdırmağı xahiş edirəm. Biz hamımız bu tarixi günü xatırlayacağıq.

* * *

*Sonra FİFA prezidenti Canni İnfantinonun ənənəsinə uyğun olaraq, FİFA-nın rəsmi nümayəndəsi xatirə hədiyyəsini Prezident İlham Əliyevə təqdim etdi.*

*AFFA-nın baş katibi Elxan Məmmədov Prezident İlham Əliyevə məlumat verdi ki, futbol üzrə dünya çempionatının kuboku xüsusi təyyarədə yeniyetmə azərbaycanlı futbolçuların müşayiəti ilə Bakıya gətirilib. Hətta uşaqlar təyyarədə Kristian Karambo ilə topla oynayıblar. Dünya çempionatının kuboku yerli azarkeşlərin görməsi üçün «Gənclik Mall»da nümayiş etdirilir.*

## MÜQƏDDƏS TAXT-TACIN XARİCİ DÖVLƏTLƏRLƏ ƏLAQƏLƏR ÜZRƏ KATİBİ ARXİYEPİSKOP POL RİÇARD QALLAHERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 fevral 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 10-da Müqəddəs Taxt-Tacın xarici dövlətlərlə əlaqələr üzrə katibi arxiyepiskop Pol Riçard Qallaherin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Müqəddəs Taxt-Tacın xarici dövlətlərlə əlaqələr üzrə katibi arxiyepiskop Pol Riçard Qallaher Roma Papası Fransiskin və Dövlət katibi, kardinal Pietro Parolinin salamlarını Prezident İlham Əliyevə çatdırdı. Azərbaycana ilk dəfədir ki, səfər etdiyini deyən arxiyepiskop Pol Riçard Qallaher göstərilən yüksək qonaqpərvərliyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Azərbaycan haqqında çox məlumatlı olduğunu qeyd edən qonaq ölkəmizə səfərindən məmnunluğunu ifadə etdi, buradakı inkişafı öz gözləri ilə görməyin maraqlı olduğunu vurğuladı. Roma Papası Fransiskin fərmanı ilə Azərbaycan Katolik kilsəsinin ordinarisi Vladimir Feketenin yepiskop rütbəsinə yüksəldilməsinin çox sevindirici hadisə olduğunu deyən arxiyepiskop Pol Riçard Qallaher bunun Müqəddəs Atanın ölkəmizdəki katolik icmasına və Azərbaycan ilə əlaqələrə verdiyi önəmin mühüm göstəricisi olduğunu bildirdi.*

*Roma Papası Fransiskin 2 il əvvəl Azərbaycana səfərinin tarixi hadisə olduğunu qeyd edən Prezident İlham Əliyev səfərlə bağlı xoş xatirələrinin olduğunu bildirdi. Dövlət başçısı, həmçinin özünün Vatikana rəsmi səfərini məmnunluqla xatırla-*

*daraq, Roma Papası Fransisk, o cümlədən Dövlət katibi kardinal Pietro Parolin ilə keçirdikləri görüşlərin əhəmiyyətini vurğuladı, belə yüksək səviyyəli qarşılıqlı səfərlərin Azərbaycan ilə Vatikan arasında sıx əlaqələrin göstəricisi olduğunu qeyd etdi. Prezident İlham Əliyev Müqəddəs Taxt-Tacın xarici dövlətlərlə əlaqələr üzrə katibi arxiyepiskop Pol Riçard Qallaherin Azərbaycana səfərinin səmərəli keçəcəyinə ümidvar olduğunu bildirdi, səfərin iki dövlət arasında mövcud tərəfdaşlıq əlaqələrini möhkəmləndirəcəyinə əminliyini ifadə etdi.*

*Söhbət zamanı Azərbaycanın nümunəvi multikultural və tolerant bir ölkə kimi, dinlərarası və mədəniyyətlərarası dialoqa böyük töhfə verdiyi qeyd edildi.*

*Prezident İlham Əliyev Roma Papası Fransiskin və Dövlət katibi kardinal Pietro Parolinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Roma Papası Fransiskə və Dövlət katibinə çatdırmağı xahiş etdi.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Moskva ətrafında baş vermiş və çoxsaylı insan tələfatına səbəb olmuş təyyarə qəzası barədə xəbər məni dərindən sarsıtdı.

Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün Rusiya xalqına Azərbaycan xalqı adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 fevral 2018-ci il*

**SERBİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ALEKSANDR VUÇİÇƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Əminəm ki, Azərbaycan–Serbiya münasibətlərinin inkişafı, ölkələrimiz arasındakı dostluq və əməkdaşlığın genişlənməsi bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Serbiya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 fevral 2018-ci il*

**LİTVA RESPUBLİKASININ PREZİDENTİ XANIM DALYA QRİBAUSKAYTEYƏ**

Hörmətli xanım Prezident!

Litva Respublikasının milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Litva arasındakı dostluq əlaqələrinin möhkəmlənməsi, ikitərəfli səviyyədə və beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımız bundan sonra da ölkələrimiz və xalqlarımız üçün hər cəhətdən faydalı olacaqdır.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost Litva xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 fevral 2018-ci il*

## «FORMULA-1» QRUPUNUN BAŞ İCRAÇI DİREKTORU ÇEYZ KERİ İLƏ GÖRÜŞ

*13 fevral 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də «Formula-1» Qrupunun baş icraçı direktoru Çeyz Kerini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanda «Formula-1» yarışlarının çox yaxşı təşkil olunduğu və yüksək səviyyədə keçirildiyi vurğulandı. Qeyd edildi ki, «Formula-1» yarışlarının Azərbaycanda təşkili xeyli sayda insanların paytaxtımızda gedən inkişafla yaxından tanış olması ilə bərabər, eyni zamanda, Azərbaycana turist axınının təmin edilməsi işinə də öz töhfəsini veribdir.*

*Söhbət zamanı Bakıda bu ilin aprel ayında keçiriləcək «Formula-1» yarışları ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## ALMANİYA İQTİSADİYYATININ ŞƏRQ KOMİTƏSİNİN SƏDRİ VOLFQANQ BÜHELENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 fevral 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Almaniya İqtisadiyyatının Şərq Komitəsinin sədri Volfqanq Bühelenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Xoş gəlmisiniz! Sizi görməyimə çox şadam. Almaniyadan belə böyük nümayəndə heyətini görməyə çox məmnunam. Əminəm ki, ölkəmizə çox məhsuldar və maraqlı səfəriniz olacaq. Sizin səfəriniz onu nümayiş etdirir ki, ölkələrimizin biznes dairələrində qarşılıqlı maraq var və biz yeni layihələr və yeni ideyalar haqqında düşünməliyik. İndiyədək alman şirkətləri Azərbaycanda infrastruktur və inşaat sahəsində vacib layihələr həyata keçirib. Həmçinin bizim müasir zavodlarımız istehsalatda Almaniya avadanlığından istifadə edir. Buna görə də müxtəlif sahələrdə iqtisadi əməkdaşlığımızın artırılması üçün böyük potensial vardır.

Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir. Ötən il və bu il biz çox yaxşı nəticələr göstərmişik. İqtisadiyyatımız daha çox rəqabətqabliyyətli olub. Davos İqtisadi Forumunun sonuncu qiymətləndirməsinə əsasən, Azərbaycan iqtisadiyyatı rəqabətqabliyyətliliyinə görə 35-ci yerdə qərarlaşıb. İnkişaf etməkdə olan ölkələr arasında inklüziv inkişaf indeksinə gəldikdə, Azərbaycan 3-cü yerdədir. Beləliklə, bu həqiqətən də islahatların aparılmasını nümayiş etdirir. Əlbəttə ki, bizim ixrac etdiyimiz çoxlu enerji resurslarımız var və bu ildən başlayaraq, «Cənub

Qaz Dəhlizi» ilə əlaqədar olaraq, biz onları daha da çox ixrac edəcəyik. Lakin bizim əsas prioritetimiz bizə iqtisadiyyatımızı şaxələndirməyə və neft-qazdan asılılığı azaltmağa imkan yaradan qeyri-enerji sektorudur. Qeyri-enerji sektorunda yanvar ayında iqtisadiyyatımızda, demək olar ki, 4 faizlik artım müşahidə olunub və qeyri-neft sektorunda sənaye istehsalı 8,7 faiz artıbdır. Beləliklə, bu, islahatları çox yaxşı əks etdirir, xüsusilə şaxələndirmə ilə bağlı olaraq.

Alman şirkətləri ilə əməkdaşlığımız əsasən qeyri-enerji sektorunda aparılır. Bu da hər iki tərəf üçün yaxşı haldır. Əlbəttə, mən ümid edirəm ki, səfərinizdən sonra əməli nəticələr olacaq və biz daha da fəal iqtisadi əməkdaşlıq aparacağıq.

**Volfqanq Bühele** (*Almaniya İqtisadiyyatının Şərq Komitəsinin sədri*): Cənab Prezident, açılış nitqinizə görə çox sağ olun. Azərbaycan bizim üçün çox maraqlı ölkədir. Çünki biz həqiqətən də ölkənizdə çoxlu potensial görürük. Bizim Sizin ölkənizə olan marağımızı göstərən bu böyük nümayəndə heyəti sadəcə, Azərbaycana səfər etmək üçün yox, ölkənizdə daha da fəal olmaq, qeyri-neft sektorunda alman müəssisələri üçün imkanları müəyyənləşdirmək məqsədilə gəlib. Çünki biz hesab edirik ki, uzunmüddətli perspektivdə bir tərəfdən, neft və qaz sektorunun inkişafı, digər tərəfdən isə qeyri-neft sektorunun inkişafı hər iki tərəf üçün faydalıdır. Bizim üçün ona görə ki, biz ən azından bu işə töhfəmizi verə biləcəyimizə ümid edirik. Azərbaycan isə uzunmüddətli perspektivdə iqtisadiyyatını daha da tarazlaşdıra bilər.

*Böyük nümayəndə heyəti ilə Azərbaycana gəldiklərini qeyd edən Volfqanq Bühele bu tədbirdə ölkəmizlə birbaşa əməkdaşlıq etmək arzusunda olan iri şirkət rəhbərlərinin təmsil olunduğunu bildirdi.*

*Almaniyanın tikinti sahəsində ixtisaslaşan «GP Günter Papenburg» şirkətinin İdarə Heyətinin sədri Günter Papenburg təmsil etdiyi şirkətin Azərbaycandakı fəaliyyəti barədə danışaraq, şirkət tərəfindən ölkəmizdə ixtisaslı kadrlar üçün təlimlərin*

*keçirildiyini bildirdi, ölkəmizlə əməkdaşlığın gələcəkdə də uğurla həyata keçiriləcəyinə əminliyini diqqətə çatdırdı. Günter Papenburg rəhbərlik etdiyi şirkətin Azərbaycan bazarında müxtəlif layihələrdə, o cümlədən tikinti materialları, tullantıların emalı sahələrində iştirak etməkdə maraqlı olduğunu bildirdi.*

*Prezident İlham Əliyev Azərbaycanda tikinti materialları sektorunun fəaliyyətinə toxunaraq, ölkəmizdə iri Sement zavodlarının inşa edildiyini vurğuladı, Azərbaycanın son 8 ildə sement idxal edən ölkədən ixrac edən ölkəyə çevrildiyini bildirdi. Bu sahəyə iri həcmdə investisiyaların cəlb edildiyini qeyd edən dövlətimizin başçısı Azərbaycanın artan iqtisadi potensialını, qəbul edilmiş regional inkişaf proqramlarının yerinə yetirilməsini nəzərə alaraq, növbəti beşillik proqramda da dövlət tərəfindən maliyyələşdirilən mühüm infrastruktur və inşaat layihələrinin əksini tapacağını, mənzil inşaatının genişlənməsinin, yeni zavodların tikilməsinin, əhali artımının gələcəkdə sementə böyük tələbat yaradacağını bildirdi. Bu baxımdan bu sahəyə investisiya qoymaq niyyətində olan xarici şirkətlər bundan yalnız faydalana biləcəklərini deyən Prezident İlham Əliyev vurğuladı ki, qarşıya qoyulan məqsədlərdən biri özümüzü bütün tikinti materialları ilə 100 faiz təmin etməkdir. Nəzərə almaq lazımdır ki, bizim kifayət qədər xammalımız var və tikinti materialları sahəsində yerli istehsal son 10 ildə xeyli artıbdır.*

*Almaniyanın tunelqazma texnologiyaları sahəsində aparıcı şirkətlərindən olan «Herrenknecht» şirkətinin İdarə Heyətinin sədri Martin Herrenknext Azərbaycanda fəaliyyətə başladıqlarını qeyd edərək, bu istiqamətdə görülən işlərdən danışdı. O, ölkəmizdə metro tikintisi sektorunda təmsil etdiyi şirkətin iştirak etməkdə maraqlı olduğunu və Azərbaycanda fəaliyyətlərindən böyük məmnunluq hissi keçirdiklərini bildirdi.*

**Martin Herrenknext:** Biz Bakıda özümüzü həqiqətən, təhlükəsizlik şəraitində hiss edirik. Bakı regionda fəaliyyət göstərən alman şirkətləri üçün bir mərkəz ola bilər. Bununla bağlı təbriklərimi çatdırıram. Mən Bakıya kifayət qədər hörmət

hissi bəsləyirəm. Bura yaşamaq üçün yaxşı yerdir. Əla mehmanxanalar da vardır.

*Martin Herrenknext Azərbaycanın rayonlarına səfərinin çox maraqlı keçdiyini qeyd edərək, bir daha ölkəmizin regionda iqtisadi mərkəzə çevrilməsi üçün hər cür imkanın olduğunu vurğuladı.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Azərbaycanın həqiqətən də həm iqtisadi, həm də siyasi baxımdan regional mərkəzə çevrildiyini dedi. Ölkəmizdə həm qonşu, həm də uzaq xarici ölkə nümayəndələrinin iştirakı ilə mühüm beynəlxalq tədbirlərin keçirildiyini qeyd edən dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan regionun mühüm enerji mərkəzinə çevrilməkdədir. Ölkəmizin təşəbbüsü ilə həyata keçirilən qlobal enerji layihələrinə çoxmilyardlı investisiyalar qoyulubdur.*

*Azərbaycanın regionun nəqliyyat mərkəzinə də çevrildiyini vurğulayan Prezident İlham Əliyev ötən il istifadəyə verilən Bakı–Tbilisi–Qars dəmir yolu ilə yüklərin artıq Asiyadan Avropaya və əks istiqamətdə daşındığını bildirdi. Azərbaycanın əlverişli coğrafi mövqeyinin, ölkəmizdə təhlükəsizliyin təmin olunmasının, insanlarımızın qonaqpərvərliyinin, ölkəmizdə hökm sürən dostluq və multikulturalizm mühitinin, yüksək standartlara cavab verən mehmanxanaların və istirahət mərkəzlərinin, müasir aeroportların Azərbaycanın gələcəkdə regionda önəmini daha da artırmaq üçün yaxşı imkanlar yaratdığını ifadə edən dövlətimizin başçısı bu il yenidən metro tikintisi sahəsində layihələrin həyata keçiriləcəyini bildirdi. Azərbaycanın neft-qaz sektorunun böyük perspektivlərə malik olduğunu və onun gələcək onilliklər üçün kifayət etdiyini qeyd edən Prezident İlham Əliyev bu sahədə də xarici şirkətlərin fəaliyyəti üçün geniş imkanların olduğunu diqqətə çatdırdı.*

*Dövlət başçısı ölkəmizdə turizmin inkişafının diqqət mərkəzində olduğunu bildirərək, bu sahənin təkcə Bakıda deyil, regionlarda da inkişaf etdiyini vurğuladı. Bildirdi ki, 2016-cı ildə Azərbaycana gələn turistlərin sayında 24 faiz, 2017-ci ildə 20 faiz, bu*

*ilin yanvarında isə artıq 17 faiz artım olubdur. Bu baxımdan Azərbaycanın vaxtilə almanların məskunlaşdığı bölgəsi də alman turistləri üçün maraqlı marşrut ola biləcəyini və bu istiqamətdə əməkdaşlıq üçün yaxşı imkanların olduğunu qeyd etdi.*

*Almaniya İqtisadiyyatının Şərq Komitəsinin sədri Volfqanq Bühele Azərbaycanla ticarət imkanlarının daha çox öyrənilməsinin vacibliyini söylədi. O, gələcəkdə Azərbaycan vasitəsilə digər ölkələrlə də iqtisadi əlaqələr qurmaq imkanlarının ola biləcəyini vurğuladı.*

*Almaniyanın nüfuzlu enerji şirkəti olan «Uniper Global Commodities» şirkətinin qaz təchizatı üzrə vitse-prezidenti Uve Fip təmsil etdiyi şirkətin «Cənub Qaz Dəhlizi» layihəsində iştirakından qürur duyduğunu vurğuladı. O, artıq 10 ildir ki, «Şahdəniz-2» layihəsi ilə bağlı danışıqlarda iştirak etməkdən məmnunluğunu bildirdi. SOCAR və digər qurumlarla uğurlu əməkdaşlıq etdiklərini, idarəetmə, menecment, texniki, uşaq proqramları mübadiləsi, «Azərikimya» şirkəti ilə birgə Kimya zavodunun, buxar turbinlərinin inşası sahələrində uğurlu layihələr həyata keçirdiklərini qeyd edən Uve Fip 2016-cı ildə ölkəmizdə birgə müəssisənin yaradıldığını vurğuladı, gələcəkdə də bir sıra layihələr, o cümlədən enerji səmərəliliyi layihələri ilə bağlı əməkdaşlıq planlarının olduğunu diqqətə çatdırdı.*

*Prezident İlham Əliyev «Uniper Global Commodities» şirkətinin ölkəmizdəki fəaliyyətindən məmnunluğunu ifadə edərək, bu şirkətin gələcəkdə də uğurlu əməkdaşlıq həyata keçirəcəyinə ümidvar olduğunu bildirdi. Azərbaycanda enerji sektorunun uğurla inkişaf etdiyini qeyd edən Prezident İlham Əliyev bu sahədə ölkəmizin qlobal layihələr həyata keçirdiyini, bu baxımdan «Cənub Qaz Dəhlizi» layihəsinin böyük əhəmiyyət kəsb etdiyini vurğuladı. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan bu layihənin təşəbbüskarı, həmçinin lideridir və bu yaxınlarda Bakıda «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin görüşü olacaqdır. Azərbaycanın enerji layihələrinin təkcə «Şahdəniz-2» ilə məhdudlaşmadığını vurğulayan Prezident İlham Əliyev yeni*

*yataqlar üzrə dünyanın bir sıra aparıcı şirkətləri ilə danışıqların aktiv fazaya daxil olduğunu diqqətə çatdırdı. Bununla da Azərbaycanda neft və təbii qaz hasilatının sabit qalacağını və gələcəkdə daha da artacağını vurğuladı. «Azəri–Çıraq–Günəşli» neft yataqları blokunun istismarını nəzərdə tutan müqavilənin müddətinin 2050-ci ilə qədər uzadılmasının əhəmiyyətinə toxunan dövlətimizin başçısı bildirdi ki, bu, bundan sonra ən azı 30 il müddətində Azərbaycanın dünyanın aparıcı şirkətləri ilə bu nəhəng yataqların birgə işlənilməsini həyata keçirəcəyini göstərir. Bütün bunlar isə əhalinin rifah halının yaxşılaşdırılmasına, ölkə iqtisadiyyatının güclənməsinə və tərəfdaşlarımızın enerji təhlükəsizliyinin təmin olunmasına xidmət edir. «Cənub Qaz Dəhlizi» layihəsinin Avropa Komissiyası tərəfindən güclü şəkildə dəstəklənməsinin önəmini qeyd edən Prezident İlham Əliyev «Uniper Global Commodities» şirkətinə ölkəmizdəki gələcək fəaliyyətində uğurlar arzuladı.*

*Almaniya–Azərbaycan Forumunun prezidenti Hanns-Eberhard Şleyer gələn həftə Berlində forumun konfransının keçiriləcəyini bildirdi. Hanns-Eberhard Şleyer bu qurum çərçivəsində müxtəlif tədbirlərin keçirildiyini, o cümlədən siyasi müzakirələrin aparıldığını ifadə edərək, hazırda peşə hazırlığı ilə bağlı məsələlərə diqqət yetirdiklərini bildirdi. İqtisadiyyatın, enerji və digər sahələrdə əməkdaşlığın genişləndirilməsinin ixtisaslı kadrların hazırlanmasını tələb etdiyini deyən qonaq Almaniyada bu sahənin inkişaf etdiyini və bu sahədə Azərbaycanla əməkdaşlığa dair konsepsiyanın işlənməsinin vacibliyini qeyd etdi.*

*Prezident İlham Əliyev peşə hazırlığının Azərbaycanda təhsilin mühüm istiqamətlərindən olduğunu diqqətə çatdıraraq, ümumilikdə təhsil sisteminin ölkədə ən mühüm prioritetlərdən birinə çevrildiyini vurğuladı. Azərbaycanda savadlılıq səviyyəsinin, demək olar ki, 100 faiz təşkil etdiyini deyən dövlətimizin başçısı bunun ölkənin inkişafı üçün bir təməl olduğunu bildirdi və qeyd etdi ki, ölkəmizdə iqtisadi, sənaye və digər sahələrdə böyük nailiyyətlərin əldə edildiyi bir dövrdə peşə hazırlığı heç*

*vaxt olmadığı qədər önəm kəsb edir. Bu baxımdan Azərbaycan peşə hazırlığı sahəsində əməkdaşlığın həyata keçirilməsini dəstəkləyir və bununla bağlı müvafiq qurumlar arasında əlaqələndirmənin həyata keçirilməsini vacib bilir. Bu baxımdan Azərbaycanın bir sıra ölkələrlə beynəlxalq əməkdaşlıq həyata keçirdiyini vurğulayan Prezident İlham Əliyev bu əməkdaşlığın gələcəkdə də davam etdiriləcəyinə əminliyini ifadə etdi. Ölkədə iqtisadi, o cümlədən enerji, infrastruktur, xidmət, turizm və digər sahələrin inkişafının ixtisaslı kadrların yetişdirilməsini və texniki heyətin hazırlanmasını zəruri etdiyini bildirdi.*

*Azərbaycanla əməkdaşlığı genişləndirmək niyyətində olan «AIRBUS Group International» şirkətinin Avropa üzrə vitse-prezidenti Marko Miklis ölkəmizlə aerokosmik sənayenin müxtəlif seqmentləri üzrə əlaqələr üçün yaxşı imkanların olduğunu nəzərə çatdırdı və bu baxımdan «Azərkosmos»la məhsuldar əməkdaşlığın həyata keçirildiyini vurğuladı. «Azərsky-1» peykinin çox yüksək səviyyədə fəaliyyət göstərdiyini qeyd edən qonaq Azərbaycanda Yer səthini müşahidə edən yüksək həssaslığa malik yeni peykin perspektivlərinin onlarda böyük maraq doğurduğunu və təmsil etdiyi şirkətin bu işə öz töhfəsini verməyə hazır olduğunu bildirdi.*

*Azərbaycanın «AIRBUS» şirkəti ilə uzun illər çox yaxşı əməkdaşlıq həyata keçirdiyini vurğulayan dövlət başçısı İlham Əliyev kosmik sənaye sahəsində də bu şirkətlə səmərəli əlaqələrin qurulmasından məmnunluğunu ifadə etdi. Azərbaycan peykinin müxtəlif sahələrin, o cümlədən kənd təsərrüfatı, meliorasiya və digər sahələrin inkişafına xidmət etdiyini bildirən Prezident İlham Əliyev mövcud peykin əsas iqtisadi və infrastruktur ehtiyaclarını ödədiyini vurğuladı.*

*Almaniyanın kənd təsərrüfatı maşınqayırması sahəsində ixtisaslaşan «CLAAS Global Sales» şirkətinin Azərbaycandakı fəaliyyətinə toxunan şirkətin regional prezidenti Nils Roitş artıq ölkəmizdə texniki xidmət üzrə şəbəkənin yaradılması və ixtisaslı kadrların hazırlanması ilə bağlı səylərin artırıldığını,*

*Azərbaycan fermerlərinin müasir texnikadan rahat istifadəsi üçün təlimlərin keçirildiyini bildirdi.*

*Azərbaycanın xarici ölkələrdən, o cümlədən Almaniyadan kənd təsərrüfatı texnikası aldığını deyən Prezident İlham Əliyev bildirdi ki, ölkəmiz bu texnikanın Azərbaycanda yığılmasında da maraqlıdır. Lakin bütün bunlar bazar tələbinin parametrləri nəzərə alınmaqla, həyata keçirilməlidir. Ölkəmizin böyük həcmdə kənd təsərrüfatı texnikası ilə təmin edilməsinin son illərdə aqrar sahədə nailiyyətlərin qazanılmasına imkan verdiyini vurğulayan dövlətimizin başçısı kənd təsərrüfatı istehsalının ötən il 4 faiz artdığını, bu il də bu sahənin yeni texnika ilə təmin ediləcəyinin planlaşdırıldığını bildirdi. Qeyd etdi ki, bu baxımdan texniki xidmət və peşə hazırlığı mühüm rol oynayır və texniki xidmət sahəsində Almaniya ilə əməkdaşlıq bu işlərə öz köməyini göstərə bilər.*

*Almaniya–Azərbaycan Ticarət Palatasının icraçı direktoru Tobias Baumann bildirdi ki, Azərbaycan Prezidentinin rəhbərliyi ilə ölkədə həyata keçirilən iqtisadi islahatlar qısa müddət ərzində artıq uğurlu nəticəsini verib. Bu özünü qanunvericilik, gömrük, inzibati və digər sahələrdə göstərib. O, Almaniya–Azərbaycan Ticarət Palatasının bu ilin iyununda keçiriləcək Azərbaycan–Avropa İttifaqı biznes-forumuna təqdim etmək üçün biznes mühiti ilə bağlı tədqiqat üzərində fəal iş apardığını bildirdi. Tobias Baumann həmkarları ilə birlikdə peşə hazırlığı sahəsində əməkdaşlıqla bağlı həyata keçirəcəyi işlərdən danışdı və sonda Ticarət Palatasının üzvlərinin sayının artdığını məmnunluq hissi ilə diqqətə çatdırdı.*

*İslahatlarla bağlı xoş sözlərə görə minnətdarlıq edən Prezident İlham Əliyev ölkəmizin bu islahatların bundan sonra da davam etdirilməsinə möhkəm sadiqliyini ifadə etdi. Bildirdi ki, iqtisadi sahədə, o cümlədən institusional, struktur, fiskal və digər sahələrdə aparılan islahatlar artıq uğurlu nəticələr verib və bu islahatlar davam etdiriləcəkdir. Qarşımızda duran əsas məqsəd qeyri-neft sektoruna əsaslanan dayanıqlı inkişafımızı təmin*

*etməkdən ibarətdir deyən Prezident İlham Əliyev bildirdi ki, bu baxımdan Azərbaycan şəffaflıq və hesabatlılıq prinsiplərinə nail olmaq niyyətindədir və biz buna nail olacağıq. Biz Azərbaycanda investisiya mühitinə böyük diqqət yetiririk. Son 15 ildə ölkəmizə 230 milyard dollardan artıq sərmayənin cəlb olunduğunu qeyd edən dövlətimizin başçısı bildirdi ki, bu sərmayənin ən böyük hissəsinin neft sektoruna qoyulmasına baxmayaraq, qeyri-neft sektoruna böyük həcmdə investisiyaların yatırılması bizə iqtisadiyyatımızın şaxələndirilməsinə və regional inkişafa nail olmağa imkan veribdir.*

*Bundan sonra uzun müddət davam edəcək enerji layihələrinin ölkəmizə əlavə gəlir gətirəcəyini ifadə edən dövlətimizin başçısı Azərbaycanda makroiqtisadi vəziyyətin çox müsbət olduğunu bildirdi, xarici valyuta ehtiyatlarının ümumi daxili məhsulun həcminə bərabər olduğunu, xarici borcumuzun çox aşağı səviyyədə – təxminən 20 faiz həcmində olduğunu dedi. İnflyasiyanın bu ilin ilk ayında 5,5 faiz təşkil etdiyini qeyd edən Prezident İlham Əliyev əhalinin gəlirlərinin isə 11 faizdən çox artdığını bildirdi. İnfrastruktur və kənd təsərrüfatı sahələrinə qoyulan investisiyaların artıq öz nəticələrini verdiyini diqqətə çatdıran dövlətimizin başçısı bu baxımdan bilik, texnologiya, yaxşı idarəetməyə və insan kapitalına əsaslanan çox güclü iqtisadiyyat yaratmaq məqsədilə islahatların bundan sonra da davam etdiriləcəyini bildirdi. Prezident İlham Əliyev dedi ki, neft-qaz sektoru bizə yalnız daha çox vəsait toplamaq və Neft Fondunun gəlirlərini artırmaq imkanı verəcəkdir.*

**LİVİYA MİLLİ BARIŞIQ HÖKUMƏTİNİN BAŞÇISI ZATİ-ALİLƏRİ CƏNAB FAİZ MUSTAFA ƏL-SƏRRACA**

Zati-aliləri!

Ölkənizin milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Liviya arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Liviya xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 fevral 2018-ci il*

## ABŞ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 fevral 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də ABŞ Dövlət Departamentinin Enerji Ehtiyatları Bürosunun beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi və əlaqələndiricisi vəzifəsini icra edən xanım Syu Saarnionun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının Bakıda keçiriləcək dördüncü iclasında iştirakına görə Syu Saarnioya minnətdarlığını bildirərək, ABŞ-ın bu tədbirdə yüksək səviyyədə təmsil olunmasının layihənin icrası baxımından önəmini vurğuladı. Prezident İlham Əliyev «Cənub Qaz Dəhlizi» layihəsinin həyata keçirilməsində ABŞ Hökumətinin verdiyi dəstəyi yüksək qiymətləndirdi. Dövlət başçısı bu layihənin yaxın zamanlarda reallaşacağından məmnunluğunu ifadə edərək, Məşvərət Şurasının sabah keçiriləcək iclasının görülən işlər və qarşıda duran planların müzakirəsi üçün yaxşı imkan yaratdığını vurğuladı. Layihə üzrə işlərin cədvələ uyğun getdiyini qeyd edən dövlət başçısı bütün bunları layihəyə cəlb olunmuş ölkələrin hökumətlərinin, şirkətlərinin, maliyyə institutlarının birgə səylərinin nəticəsi kimi dəyərləndirdi.*

*ABŞ Dövlət Departamentinin Enerji Ehtiyatları Bürosunun beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi və əlaqələndiricisi vəzifəsini icra edən Syu Saarnio Azərbaycana səfərindən böyük məmnunluq hissi keçirdiyini vurğuladı. O, ABŞ Prezidentinin, Dövlət katibinin, ABŞ Hökumətinin «Cənub Qaz Dəhlizi»*

*layihəsinə dəstək verdiyini və bu layihənin başa çatmaqda olmasının önəmini qeyd etdi.*

*Prezident İlham Əliyev ötən il Bakıda keçirilən Beynəlxalq «Xəzər neft və qaz–2017» sərgisinə ABŞ Prezidentinin təbrik məktubu göndərməsini məmnunluqla xatırladaraq, Birləşmiş Ştatların yeni administrasiyasının bu layihəyə dəstəyini yüksək qiymətləndirdi.*

## BÖYÜK BRİTANİYA BAŞ NAZİRİNİN TİCARƏT ELÇİSİ BARONESSA EMMA NİKOLSON İLƏ GÖRÜŞ

*14 fevral 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Böyük Britaniyanın Baş Nazirinin ticarət elçisi xanım baronessa Emma Nikolsonu qəbul etmişdir.*

*Dövlət başçısı baronessa Emma Nikolsonun «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının Bakıda keçiriləcək dördüncü iclasında iştirakına görə minnətdarlığını bildirdi.*

*Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, enerji və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, bp şirkəti ilə Azərbaycan arasında uzun illər səmərəli əməkdaşlığın həyata keçirildiyi qeyd edildi.*

*Söhbət zamanı Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə verdiyi töhfənin, «Cənub Qaz Dəhlizi» layihəsinin önəmi vurğulandı, layihə ilə bağlı Məşvərət Şurasının Bakıda keçiriləcək dördüncü iclasının əhəmiyyəti qeyd edildi.*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DONALD TRAMPA**

Hörmətli cənab Prezident!

Florida ştatının Parklend şəhərində məktəbdə törədilmiş silahlı hücum nəticəsində insan tələfatı və yaralananlar barədə xəbərdən olduqca kədərləndim.

Bu dəhşətli hadisə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Amerika xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 fevral 2018-ci il*

# «CƏNUB QAZ DƏHLİZİ» MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN DÖRDÜNCÜ TOPLANTISINDA İŞTİRAK

*Heydər Əliyev Mərkəzi*

*15 fevral 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də Bakıda Heydər Əliyev Mərkəzində keçirilən «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısında iştirak etmişdir.*

*Tədbirdə, həmçinin «Cənub Qaz Dəhlizi»nin iştirakçısı olan ölkələrin Energetika nazirləri və müxtəlif qurumların təmsilçiləri, o cümlədən Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti, Məşvərət Şurasının həmsədri Maroş Şefçoviç iştirak etdilər.*

*Əvvəlcə birgə foto çəkdirildi.*

*Azərbaycan Prezidenti İlham Əliyev toplantıda nitq söylədi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

Əziz xanımlar və cənablar!

Əziz dostlar!

Azərbaycana xoş gəlmisiniz! Şadam ki, təklifimizi qəbul edib «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısında iştirak edirsiniz. Bu gün biz ötən il ərzində görülən işləri nəzərdən keçirəcəyik və əlbəttə ki, gələcək planlarımız barədə danışacağıq. Şadam ki, qonaqlarımız arasında köhnə və yeni dostlarımız vardır. Mən xüsusilə «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının hər bir toplantısında iştirak edən Avropa Komissiyasının vitse-prezidenti cənab Şefçoviçi

salamlamaq istərdim. Avropa Komissiyasının bu layihənin həyata keçirilməsinə dəstəyi çox mühümdür.

Bu gün mən, həmçinin yüksək səviyyəli nümayəndələrə – burada bizimlə birlikdə olan ABŞ və Birləşmiş Krallıq hökumətlərinin nümayəndələrinə təkcə «Cənub Qaz Dəhlizi» layihəsinə deyil, keçən əsrin 90-cı illərində Azərbaycanın təşəbbüskarı olduğu enerji təhlükəsizliyi ilə bağlı digər layihələrə də verdikləri davamlı dəstəyə görə minnətdarlığımı ifadə etmək istərdim. Xüsusilə Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft-qaz layihələri ABŞ və Birləşmiş Krallıq hökumətləri tərəfindən güclü şəkildə dəstəklənibdir. Bu dəstək davam edir və onu göstərir ki, bu ölkələrlə yaxın tərəfdaşlığımız, əlaqələrimiz bizim hamımıza öz məqsədlərimizə çatmağa kömək edir. Əlbəttə, mən «Cənub Qaz Dəhlizi»nə üzv olan ölkələrdən – Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya, İtaliyadan olan tərəfdaşlarımızı, yüksək səviyyəli hökumət rəsmilərini, həmçinin tərəfdaşlarımızı, böyük komandanın gələcək üzvlərini salamlamaq istərdim. Mən onları böyük komandanın üzvləri hesab edə bilərəm, çünki biz artıq Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro ilə anlaşma memorandumları imzalamışıq. Şadam ki, bugünkü toplantıda bizə dost ölkələr olan Rumıniya və Türkmənistandan da nümayəndələr ilk dəfə olaraq iştirak edirlər. Onların bu toplantıda iştirakı, həmçinin bizim layihəmizə böyük əhəmiyyət verdiklərini nümayiş etdirir.

Sözsüz ki, «Şahdəniz», TANAP və TAP-a üzv olan şirkətlərin və maliyyə institutlarının güclü əzmi olmadan layihənin icrası mümkün olmazdı. Mən verdikləri töhfələrə, əzm və maliyyə dəstəyinə görə şirkətlərin və dünyanın aparıcı maliyyə institutlarının nümayəndələrini alqışlayıram. Əslində Şuranın toplantısında sizin iştirakınız onu göstərir ki, biz hamımız üçün mühüm əhəmiyyət kəsb edən qlobal layihələr, enerji təhlükəsizliyi, enerji şaxələndirilməsi layihələri və regionumuzda beynəlxalq əməkdaşlığı gücləndirəcək layihələr həyata

keçirən çox güclü və səmərəli komanda yaratmağa müvəffəq olmuşuq.

2015-ci ildə Azərbaycan «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının yaradılması təşəbbüsü ilə çıxış etdi, çünki biz səylərimizi əlaqələndirməyə böyük ehtiyacın olduğunu aydın başa düşürdük. Əvvəlki illərdə Azərbaycan qonşu ölkələr Gürcüstan və Türkiyə ilə birlikdə mühüm enerji layihələri həyata keçiribdir. Lakin bu dəfə daha çox ölkə və şirkət cəlb olunmuşdu, ona görə də bizim əlaqələndirməyə, maksimum səmərəliliyə ehtiyacımız var idi. Mən çox şadam ki, Avropa Komissiyası bu təşəbbüsü dərhal dəstəklədi və dördüncü toplantı Avropa Komissiyası və Azərbaycan tərəfindən təşkil olunub. Mən layihənin həyata keçirilməsinə verdiyi böyük töhfəyə görə bir daha cənab Şefçoviçə xüsusi minnətdarlığımı bildirmək istərdim.

Biz artıq dördüncü dəfədir görüşürük. Bu əməkdaşlıq formatı artıq səmərəli olduğunu və çox yaxşı nəticələrə yol açacağını sübut edib. «Cənub Qaz Dəhlizi» layihəsi Azərbaycanın indiyədək çox uğurlu olan və Azərbaycana öz iqtisadiyyatını şaxələndirməyə kömək edən enerji strategiyasının əsas elementlərindən biridir. Biz enerji ehtiyatlarından istifadə edərək, qeyri-neft sektoru, insan kapitalı və infrastruktura investisiya yatırmışıq, bununla da iqtisadiyyatımızın uzunmüddətli davamlı inkişafını təmin etmişik. Sözsüz ki, bizim əvvəlki illərdə Azərbaycanda həyata keçirdiyimiz layihələr «Cənub Qaz Dəhlizi»nin reallaşdırılması üçün güclü bünövrə yaradıb. Bizim enerji strategiyamız müstəqilliyimizin bərpasından bir qədər sonra başlanıb və artıq 3 il sonra – 1994-cü ildə Azərbaycan *bp*-nin rəhbərliyi altında dünyanın aparıcı neft şirkətləri konsorsiumu ilə müqavilə imzalamışdır. Layihənin və investisiyaların həcmini nəzərə alaraq, bu müqavilə dərhal «Əsrin müqaviləsi» adını aldı. Ötən ilin fevralında Bakıda sonuncu görüşümüzdən sonra keçən dövr ərzində biz eyni yataqla bağlı «Əsrin müqaviləsi»nin uzadılmasına dair yeni müqavilə imzaladıq. Hazırda layihənin müddəti 2050-ci ilədək uzadılıb. Qarşıdakı onilliklər

ərzində biz dünyanın ən böyük neft yataqlarından biri olan «Azəri–Çıraq–Günəşli»də sabit və davamlı inkişafdan faydalanacağıq.

1994-cü il faktiki olaraq, bizim tariximizdə, Azərbaycanda və dünyada neftin inkişafı tarixində dönüş nöqtəsi oldu. Bu həmçinin Azərbaycanı dünya ictimaiyyətinə təqdim etdi, iqtisadiyyatımıza, xüsusilə də ilkin mərhələdə neft-qaz sektoruna nəhəng investisiyaların qoyulması üçün qapı açdı və Azərbaycanın etibarlı tərəfdaş olduğunu, investorlar üçün maksimum dərəcədə əlverişli investisiya mühiti yaratmaq iqtidarında olduğunu nümayiş etdirdi. Mən sadəcə olaraq, xatırlatmaq istərdim ki, bizim bütün əsas neft və qaz müqavilələrimiz parlamentimiz tərəfindən ratifikasiya olunur və qanun kimi imzalanır. Bu da investorların investisiyalarına maksimum təminat verir. 2 il keçdikdən sonra – 1996-cı ildə «Şahdəniz qaz kondensatı» layihəsi üzrə müqavilə imzalandı və hazırda «Şahdəniz» hələ ki, «Cənub Qaz Dəhlizi» üçün yeganə resurs mənbəyidir. Bu da bizim tariximizdə mühüm hadisə oldu, çünki bu bizə yenidən milyardlarla investisiya cəlb etməyə kömək etdi. Azərbaycan neft istehsal və ixrac edən ölkədən, həm də qaz istehsal və ixrac edən ölkəyə çevrildi. Bu gün bu 2 əsas enerji layihəsi regional əməkdaşlıqla bağlı məsələlərdə mühüm rol oynayır. Bu, regionları və qitələri birləşdirən əsas kəmər infrastrukturunun tikintisini stimullaşdırdı. Bu gün bu 2 meqalayihə regionda və Avropada enerji təchizatını şaxələndirməyə kömək edir. Sonra dənizə çıxışı olmayan ölkə kimi, beynəlxalq bazarlara çıxışımız olmadığından, biz kəmərlər tikməli olduq və bunun üçün bizim artıq regional əməkdaşlığa ehtiyacımız yarandı. Düşünürəm ki, bu da planlarımızı yaxşı nümayiş etdirdi. Beləliklə, Bakı ilə Gürcüstanın Supsa dəniz limanını birləşdirən ilk kəmər keçən əsrin 90-cı illərinin sonunda açılaraq, xam neft nəql edən kəmərlə Xəzər dənizi ilə Qara dəniz arasında ilk bağlantı yaratdı. Lakin bu, yetərli deyildi, çünki bizim neft ehtiyatlarımızın tam şəkildə işlənməsi üçün bu kəmərin tutumu

kifayət etmirdi. Bu səbəbdən də əsas neft kəmərinin tikintisi planlaşdırıldı və 2006-cı ildə Xəzər dənizi ilə Aralıq dənizini birləşdirən Bakı–Tbilisi–Ceyhan neft kəmərinin uğurlu açılışı oldu. Hazırda Bakı–Tbilisi–Ceyhan neft kəməri təkcə Azərbaycandan deyil, Xəzər dənizinin o biri tərəfində olan – Xəzərin şərq sahillərindəki yataqlardan da neft nəql etməklə, artıq Azərbaycanı tranzit ölkəyə, tranzitdə etibarlı tərəfdaşa çevirir.

2007-ci il də bizim tariximizdə mühüm il olub. Çünki Azərbaycan ilk dəfə qaz ixracatçısı oldu. Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin açılışından sonra bizim qazımız Gürcüstan və Türkiyə bazarlarına ixrac olunmağa başladı və bu eyni zamanda, «Şahdəniz» yatağının işlənilməsinin 2-ci mərhələsi və «Cənub Qaz Dəhlizi» layihəsi üçün bünövrə yaratdı. Biz «Şahdəniz» yatağının işlənilməsinin yeni mərhələsi üçün yeni imkanların yaradılması yollarını müzakirə edirik. Əlbəttə ki, bizim qazımızı Türkiyə və Avropaya ixrac etmək üçün diametri daha böyük olan kəmərə ehtiyacımız var idi və 2012-ci ildə İstanbulda Azərbaycan və Türkiyə Trans–Anadolu – TANAP kəmərinin tikintisi üzrə tarixi sənəd imzaladılar. Düşünürəm ki, bu tarixi regional inkişaf, əməkdaşlıq bizim ölkələrimiz üçün iqtisadi faydalara güclü təsir göstərəcəkdir. Çünki bu, müasir tarixdə dönüş nöqtəsi oldu. TANAP «Cənub Qaz Dəhlizi»nin fundamental elementlərindən biridir və 2012-ci il faktiki olaraq, «Şahdəniz-2»yə əsas investisiyalara qapı açdı. Çünki bundan sonra – 2013-cü ildə «Şahdəniz-2»yə investisiya yatırmaqla bağlı qərar qəbul olundu. TANAP olmadan bu mümkün olmazdı. 2013-cü il Trans–Adriatik kəmərinin TANAP layihəsinin davamı kimi seçildiyi il oldu. Beləliklə, bu, görülən işlərin qısa tarixçəsidir. Bu tarixçə göstərir ki, biz 20 ildən çoxdur «Cənub Qaz Dəhlizi»nin həyata keçirilməsi istiqamətində irəliləyirik. Bu 20 il uğur, nailiyyətlər, inkişaf, transformasiya və regional əməkdaşlıq illəri olubdur.

Bu gün bizim təkcə Azərbaycan, Gürcüstan, Türkiyə kimi 3 ənənəvi müttəfiqi deyil, daha çox ölkəni əhatə edən güclü regi-

onal əməkdaşlıq formatımız vardır. Ötən görüşümüzdən sonra keçən dövr ərzində «Cənub Qaz Dəhlizi»nin həyata keçirilməsində əhəmiyyətli irəliləyiş əldə olunub. Mən sizin və Azərbaycan xalqının diqqətinə bəzi rəqəmləri çatdıracağam. Çünki bu masa arxasında əyləşənlər bizim hansı mərhələdə olduğumuzu yaxşı bilirlər. Lakin mən deməк istərdim ki, son bir ildə layihənin icrası çox uğurlu olub. Biz «Cənub Qaz Dəhlizi»nin 4 elementinin hamısı ilə bağlı yaxşı irəliləyişə nail olmuşuq. «Şahdəniz-2» yatağı üzrə işlərin 99 faizdən çoxunu tamamlamışıq. Müqayisə üçün, 1 il əvvəl bu rəqəm 90 faiz idi. «Cənubi Qafqaz» boru kəməri ilə bağlı işlərin təxminən 95 faizi tamamlanıb, 1 il əvvəl bu rəqəm də 90 faiz idi. TANAP-ın icrası 95 faizə yaxınlaşır, 1 il əvvəl bu, 70 faizə yaxın idi. TAP-ın icrası 1 il əvvəlki 34 faizlə müqayisədə 70 faizə yaxın, ola bilsin ki, 66-67 faiz tamamlanıbdır. Bu həqiqətən də çox mühüm inkişafdır. Bu onu göstərir ki, 2017-ci il bəlkə də layihənin icrasında həlledici il olub və hazırda biz yekun nəticəyə çox yaxınıq. Mən həmçinin bildirmək istərdim ki, 20 il bundan əvvəl Azərbaycan, Gürcüstan və Türkiyə arasında yaradılmış regional əməkdaşlıq həqiqətən də regionumuzda və Avropada enerji sahəsində inkişafda mühüm rol oynayıb. Çünki bu regional əməkdaşlıq təkcə nəhəng, genişmiqyaslı enerji layihələrinin həyata keçirilməsinə yol açmayıb, həm də regionumuzda sabitlik, proqnozlaşdırılma imkanı və çox səmimi əməkdaşlıq yaradıbdır. Bu bizə diqqəti digər nəqliyyat layihələrinə cəmləşdirməyə imkan verdi. 2017-ci ilin fevralında sonuncu görüşümüzdən sonra keçən dövrdə regionda başqa mühüm bir hadisə baş verdi. Ötən il oktyabrın sonunda Bakıda biz təkcə 3 ölkə arasında deyil, həm də Asiya və Avropa arasında yeni dəmir yolu layihəsinin – Bakı–Tbilisi–Qarsın açılışını etdik. Bu, artıq Asiyadan Avropaya ən qısa yoldur, yüklərin daşınmasına sərf olunan zamanı 2 dəfədən çox azaldır və artıq şirkətlərə xidmət göstərir. Əminəm ki, onlar bu layihəni ciddi şəkildə əsas prioritetlərindən biri hesab edəcəklər. Bu gün artıq yüklərin artması

onu göstərir ki, Bakı–Tbilisi–Qars yeni İpək yolu layihəsinin çox mühüm elementi olacaqdır. Sözsüz ki, burada – Qafqazda Gürcüstan, Türkiyə və Azərbaycan arasında güclü regional əməkdaşlıq olmasaydı, neft-qaz layihələri həyata keçirilməsəydi, Bakı–Tbilisi–Qars bəlkə də reallıq üçün deyil, sadəcə, tarix üçün bir layihə olacaqdı. Bu bizim əldə etdiyimiz real nəticədir. Bu gün biz artıq geniş komanda ilə bu masa arxasında əyləşərkən görürük ki, «Cənub Qaz Dəhlizi»nin üzvü olan ölkələr arasında eyni əməkdaşlığı yarada bilərik. Bu, artıq baş verir və tərəfdaş ölkələrdən yüksək səviyyəli nümayəndə heyətlərinin iştirakı həqiqətən də bunu nümayiş etdirir. Hələ ki, «Şahdəniz» «Cənub Qaz Dəhlizi» üçün yeganə resurs mənbəyidir. Lakin düşünürəm və əminəm ki, gələcəkdə biz Azərbaycanda əlavə həcmdə resurslara malik olacağıq. Çünki bu gün biz beynəlxalq tərəfdaşlarımızla fəal şəkildə yeni layihələr, Xəzər dənizinin Azərbaycan sektorundakı yeni qaz yataqları üzərində işləyirik. Tezliklə, ola bilsin ki, bir neçə ilə, bəlkə bundan da az müddətdə hasilata başlanacaq «Abşeron» yatağı, çox böyük qaz ehtiyatı olan «Ümid» və «Babək» yataqları ilə bağlı Azərbaycan xarici şirkətlərlə fəal danışıqlar aparır.

Tezliklə beynəlxalq əməkdaşlığa cəlb olunacağına ümid bəslədiyimiz başqa bir yataq «Qarabağ» adlanır. Həmçinin böyük qaz potensialı olan 2 yataq – «Dan ulduzu» və «Əşrəfi»dir. Beləliklə, Azərbaycanın təsdiq olunmuş qaz ehtiyatları «Şahdəniz» yatağından 2 dəfədən də çoxdur – 2,6 trilyon kubmetr qaza bərabərdir və əminəm ki, daha çox olacaqdır. Çünki bizim təcrübəmiz göstərir ki, ilkin olaraq gözlənilən ehtiyatlar əvvəlkindən xeyli çox olur. Məsələn, 1994-cü ildə «Əsrin müqaviləsi» imzalananda «Azəri–Çıraq–Günəşli» neft yataqları blokunun ehtiyatları 500 milyon tondan bir qədər çox qiymətləndirilirdi. Təvazökarlıqla desək, hazırda bu rəqəm 2 dəfə çox – 1 milyard tona yaxındır. Düşünürəm və ümid edirəm ki, qaz yataqlarında da eyni mənzərənin şahidi olacağıq. Ona görə də Azərbaycan qarşıdakı onilliklərdə dünya bazarlarına enerji ehtiyatlarının etibarlı, uzunmüddətli təchizatçısı

olacaqdır. Bu gün Azərbaycan nefti bəzi Avropa ölkələrinin neft istehlakının üçdəbirini və ya daha çox, hətta 40 faizini təşkil edir. Azərbaycan öz qaz ehtiyatları ilə Avropa bazarına daxil olmağa hazırdır.

«Cənub Qaz Dəhlizi» enerji təhlükəsizliyi layihəsidir. Biz milli təhlükəsizlikdən danışarkən, əlbəttə ki, hazırda enerji təhlükəsizliyi ən vacib elementlərdən biridir. «Cənub Qaz Dəhlizi» enerji şaxələndirilməsi layihəsidir, bizdə bu, marşrutların və mənbələrin şaxələndirilməsidir. Bu, əsl şaxələndirmədir. Çünki təkcə marşrutların şaxələndirilməsi bizimkindən bir qədər fərqlidir. «Cənub Qaz Dəhlizi» enerji sahəsində əməkdaşlıq layihəsidir və əməkdaşlığın necə olmalı olduğunu göstərir. Əməkdaşlıq yalnız o zaman mümkündür ki, bütün tərəflər ondan faydalansın. Bu səbəbdən, başlanğıcda bizim əsas məqsədimiz istehsalçılar, tranzit ölkə və istehlakçılar arasında yaxşı balansın tapılmasıdır. Yalnız bu halda biz uğur qazana bilərik və layihənin uğurlu icrası bizim doğru yolda olduğumuzu göstərir. İstehsalçıların və ya istehsalçının – hələ ki, cəmi bir istehsalçı var – Azərbaycan – tranzit ölkələrin və istehlakçıların maraqları tam şəkildə nəzərə alınır və «Cənub Qaz Dəhlizi» cəlb olunmuş bütün ölkələrdə bir neçə milyardlıq investisiyalara yol açır. Bu, minlərlə yeni iş yeri deməkdir. Bu, təkcə enerji deyil, həm də nəqliyyat infrastrukturu, nəqliyyat infrastrukturuna investisiya yatırılması deməkdir. «Cənub Qaz Dəhlizi» marşrut boyunca yerləşən və «Cənub Qaz Dəhlizi»nin üzvü olan ölkələrin bir çox hissələrinin qazlaşdırılmasına gətirib çıxaracaqdır. Bütün bunlar inkişaf, sabitlik, proqnozlaşdırılma imkanı deməkdir və əməkdaşlığa yol açır. Çünki bu gün «Cənub Qaz Dəhlizi»nin üzvü olan ölkələr Azərbaycanın çox yaxın tərəfdaşlarıdır. Azərbaycan artıq bu ölkələrin böyük əksəriyyəti ilə strateji tərəfdaşlığa dair bəyannamələr imzalayıb. Hazırda biz Avropa İttifaqı ilə danışıqlar aparırıq və yeni tərəfdaşlıq sazişi də Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlıq üçün yeni format yaradacaqdır.

Əlbəttə ki, əvvəlki layihələrlə yanaşı, «Cənub Qaz Dəhlizi» layihəsi ölkəmizə yeni faydalar verir. Azərbaycan iqtisadiyyatı şaxələndirmək, insan kapitalına investisiya yatırmaq, iqtisadiyyatı tamamilə dəyişmək üçün öz enerji ehtiyatlarından səmərəli şəkildə istifadə edib. Hazırda ümumi daxili məhsulun mütləq əksəriyyəti özəl sektorun payına düşür. Son 15 ildə iqtisadiyyatımız 3 dəfədən çox, ümumi daxili məhsul 3,2 dəfə artıb. Biz işsizlik və yoxsulluğu azaltmaq üçün enerji ehtiyatlarından düzgün şəkildə istifadə etməyə müvəffəq olmuşuq. Son 15 ildə əhalimizin 1,5 milyon nəfər artmasına baxmayaraq, işsizlik səviyyəsi çox aşağı – 5 faizdir. Yoxsulluq səviyyəsi 5,4 faizdir, savadlılıq səviyyəsi 100 faizə yaxındır.

Biz iqtisadiyyatı şaxələndirmək üçün insan kapitalına investisiya yatırmışıq, iş yerləri açmışıq, müasir infrastruktur layihələri yaratmışıq. 2018-ci il yanvar ayının nəticələri göstərir ki, iqtisadiyyatımız əsasən qeyri-enerji sektorunda inkişaf edir. Burada iqtisadi artım 4 faizə yaxın olub. Yanvarda sənayemizin qeyri-enerji sektorunda iqtisadi artım 8,7 faiz olub. Azərbaycanın valyuta ehtiyatları ümumi daxili məhsula bərabərdir. Düşünürəm ki, iqtisadiyyatın şaxələndirilməsinin ən yaxşı göstəricisi Davos Dünya İqtisadi Forumunun qiymətləndirməsidir. Son qiymətləndirmə göstərir ki, Azərbaycan rəqabətqabliyyətliliyinə görə dünyada 35-ci yerdədir. İnkişaf etməkdə olan ölkələr arasında inklüziv inkişaf indeksinə görə Azərbaycan 3-cü yerdədir. Bizdən əvvəl yalnız 30 inkişaf etmiş ölkə və 2 inkişaf etməkdə olan ölkə vardır. Bu o deməkdir ki, biz rəqabətlilik və inkişafa görə 33-cü və 35-ci yerdəyik. Bu bizim enerji amili ilə dəstəklənən siyasətimizin göstəricisi və siyasətimizin nəticəsidir. Sözsüz ki, biz Azərbaycanda yeni enerji inkişafı ilə bağlı tərəfdaşlarımızla fəal şəkildə işləməyə davam edəcəyik. Qonaqlarımıza məlumat vermək istərdim ki, bizim üçün ən vacibi qeyri-enerji sektorudur. Bütün bunlar qısaca olaraq ölkəmiz və tərəfdaşlarımız üçün layihənin faydaları haqqında məlumat idi və onu göstərir ki, Avropanın uzunmüddətli enerji layihəsi olan

«Cənub Qaz Dəhlizi» layihəsi ölkələrimizə müsbət nəticələr verəcəkdir.

Bir daha bizimlə birlikdə olduğunuza görə təşəkkür edirəm. Fürsətdən istifadə edərək, sizi gələn il Məşvərət Şurasının beşinci toplantısına dəvət etmək istərdim. Düşünürəm ki, həmin vaxta qədər «Cənub Qaz Dəhlizi»nin 3 mühüm seqmenti artıq işə salınmış olacaq və bizim qazımız öz bazarlarına çıxış əldə edəcəkdir.

* * *

**P ə r v i z  Ş a h b a z o v** (*Azərbaycan Respublikasının Energetika naziri*): Cənab Prezident, icazə verin, bizim üçün rəhbər prinsipləri ortaya qoyan hərtərəfli çıxışınız üçün Sizə «Çox sağ olun» – deyim. «Cənub Qaz Dəhlizi»nin Məşvərət Şurasının keçirilməsi təşəbbüsü ilə 4 il bundan əvvəl çıxış etdiyiniz üçün Məşvərət Şurasının adından Sizə dərin minnətdarlığımızı bildirmək istəyirəm. Bu forum iştirakçılara əməkdaşlığı inkişaf etdirmək və nəticələrə nail olmaq imkanı yaradıb. Cənab Prezident, biz Avropa, Azərbaycan və digər iştirakçı ölkələrin təhlükəsizliyini və inkişafını artıracaq «Cənub Qaz Dəhlizi»nin yaradılmasında Sizin baxışınızı xüsusilə qiymətləndiririk. İcazə verin, sözü çıxış etmək üçün Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti cənab Maroş Şefçoviçə verim.

## Avropa Komissiyasının vitse-prezidenti Maroş Şefçoviçin çıxışı

Çox sağ olun, cənab Prezident!

Nazirlər, zati-aliləri, xanımlar və cənablar!

Əvvəla, burada olmaq məni həqiqətən də məmnun edir. Ötən 4 ildə bu vaxt təqvimimizdə müntəzəm səfər vaxtı olmuşdur. Biz Məşvərət Şurasının toplantılarının çox faydalı olduğunu hesab edirik. İlk dəfə 4 il bundan əvvəl müzakirələr zamanı biz keçmişin səhvlərindən nəticə çıxarmağı və «Cənub Qaz Dəhlizi» kimi mühüm layihənin həm siyasi, həm də biznes müstəvisində daim diqqət tələb etdiyini qərara aldıq. Biz layihənin gedişatını qiymətləndirmək, problemləri vaxtında aşkar və həll etmək üçün

müntəzəm olaraq qarşılıqlı əlaqədə olmalıyıq və toplantılar keçirməliyik. Hesab edirəm ki, 4 il davam edən bu sıx əməkdaşlıq açıq-aydın sübuta yetirdi ki, bu çox düzgün seçim idi. Çünki layihənin gedişatı həqiqətən də çox təsirləndiricidir. Biz bilirik ki, bu 4 illik müddət asan olmamışdır. Biz qlobal enerji bazarında yeni dinamizmi müşahidə etdik, biz enerji qiymətlərinin dəyişdiyini gördük, biz İkinci dünya müharibəsindən bəri hələ də ən böyük iqtisadi böhranın öhdəsindən gəlirik. Biz həmçinin tarixi Paris müqaviləsinin imzalanmasına gətirib çıxaran iqlim dəyişikliyinin öhdəsindən gəlmək üçün yeni yolları nəzərdən keçiririk.

Beləliklə, biznes və enerji sektorunun ümumi ab-havası və dinamikası tamamilə yeni bir quruluşa malik idi və mən deyərdim ki, görünməmiş çağırışlar var idi və layihənin cədvəl üzrə vaxtında icrası faktı sıx əməkdaşlığı, yaxşı anlaşma və problemlərin vaxtında həllini çox yaxşı sübuta yetirir. Buna görə də, cənab Prezident, bizi bir daha gözəl Bakı şəhərində qəbul etdiyiniz üçün Sizə təşəkkürümü bildirmək istəyirəm. Həmçinin mən Energetika naziri Pərviz Şahbazova və onun sələfi, bizimlə uzun illər yaxından çalışmış, layihəyə sadiqliyi ilə bağlı çoxlu müsbət xatirələr qoymuş, yaxın dostumuz kimi daim qəlbimizdə yaşayan Natiq Əliyevə minnətdarlığımı bildirirəm. Həmçinin Avropa Komissiyası adından Avropa İttifaqı və Azərbaycan arasında ikitərəfli münasibətlərdə müsbət ab-havanın və yeni dinamizmin olduğunu təqdirəlayiq hesab edirəm. Bizim ötən il çox intensiv əməkdaşlığımız olub. Siz Brüsselə 2 dəfə səfər etdiniz, hərtərəfli çərçivə sazişi üzərində intensiv iş bərpa olundu və həmçinin keçən həftə Xarici İşlər naziri və Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik üzrə ali nümayəndəsi səviyyəsində çox uğurlu əməkdaşlıq Şurası keçirildi. Beləliklə, hesab edirəm ki, bu yeni əməkdaşlıq formatı bizə eyni zamanda, çox mühüm olan bu layihə üzrə təkcə enerji sahəsində əməkdaşlıq etmək yox, həmçinin digər siyasi və iqtisadi əməkdaşlıq formalarını müəyyən etmək üçün bu layihədən necə kənara çıxmaq yollarını göstərəcəkdir. Cənab Prezident, Siz layihənin

bütün əsas seqmentləri üzrə – istər «Şahdəniz-2» yatağının işlənilməsi, istər «Cənubi Qafqaz» boru kəmərinin genişlənməsi, istərsə də Trans–Anadolu və Trans–Adriatik boru kəmərləri üzrə bizim layihə boyunca üzləşdiyimiz bütün çağırışlara baxmayaraq, aparılan işlər barədə bizə çox yaxşı təsir bağışlamış işlərin gedişatını olduqca ətraflı təsvir etdiniz. Mən Sizinlə 100 faiz razıyam ki, bu gözəl ab-hava və regional əməkdaşlıq olmasaydı, buna nail olmaq mümkün olmazdı. Buna görə də mən layihədə iştirak edən bütün ölkələrin nümayəndələrinə, eyni zamanda, bu layihə çərçivəsində yerlərdə işləri təhvil verən şirkətlərin baş icraçı direktorlarına və nümayəndələrinə təşəkkürümü bildirirəm.

Deyərdim ki, bu layihəni ilk dəfə müzakirə etdikdən sonra onun əhəmiyyəti artdı. Biz bu layihənin Avropada çoxsaylı ölkələr üçün – istər Mərkəzi, istər Şərqi Avropa, istərsə də Qərbi Balkan ölkələri üçün necə cəlbedici olduğunu gördük. Ona görə bu layihənin ötən ilin noyabr ayında qəbul olunmuş «Şərq Tərəfdaşlığı» Sammitinin Bəyannaməsində strateji əhəmiyyət daşıyan layihə kimi göstərilməsi də çox aydın idi. Avropa İttifaqı adından biz bu uzun boru kəmərinin bütün əsas komponentlərinin ümumi maraq dairəsi statusna malik olan layihə çərçivəsində işlənilməsini və Avropa qurğularının birləşməsindən faydalanmasını təmin etməklə, bu layihənin strateji əhəmiyyətini vurğulamaq istəyirik.

Çox şadam ki, bir neçə gün bundan əvvəl Avropa İnvestisiya Bankının bu layihəyə maliyyə vəsaiti ayıracağı təsdiqləndi. Səhv etmirəmsə, bu, Avropa İnvestisiya Bankının tarixində bir layihəyə ayrılmış ən böyük maliyyə dəstəyidir. Lakin istərdim ki, Avropa İnvestisiya Bankı tərəfindən qəbul olunmuş bu çox vacib qərar barədə ətraflı məlumatı mənim həmkarım Avropa İnvestisiya Bankının vitse-prezidenti versin. Mən həmişə qeyd edirəm ki, bu layihəyə dəstək verən ən böyük dövlət bankı Avropa İnvestisiya Bankıdır. «Cənub Qaz Dəhlizi»nin Avropanın enerji təhlükəsizliyi üçün əhəmiyyəti çox vacibdir və bu, gələcəkdə daha da artacaqdır. Çünki hazırda Avropa İttifaqı istehlak etdiyi enerjinin yarıdan

çoxunu idxal edir, daha dəqiq desək, istifadə etdiyimiz təbii qazın 69 faizini və neftin 89 faizini idxal edirik. Hazırda biz enerji resurslarının əsas hissəsini Rusiya, Norveç və Əlcəzairdən alırıq. Lakin biz mənbələrimizi şaxələndirmək istəyirik və həqiqi şaxələnməyə üstünlük veririk. Yəni yeni mənbələrə, yeni tərəfdaşlara, yeni marşrutlara və Avropadakı enerji sistemlərinə daxil olacaq yeni təchizata üstünlük veririk. Biz Avropa İttifaqının hər bir üzvünün və ya tərəfdaşının ən azından 3 fərqli təbii qaz mənbəyinə çıxışının olmasını istəyirik. Çünki biz yüksək-keyfiyyətli enerji təhlükəsizliyinin belə olacağını başa düşürük. Buna görə də biz bir neçə il bundan əvvəl Bolqarıstanın Energetika naziri Temenujka Petkova və Baş Nazir Boyko Borisovla Mərkəzi və Şərqi Avropa üzv ölkələrinin əməkdaşlığına başladıq və biz onda belə bir qərara gəldik ki, daha da dayanıqlı bazar, daha münasib qaz qiymətləri üçün ən yaxşı variant bir neçə bağlayıcı qurğu vasitəsilə ölkələrimizi birləşdirməkdir. Bu, bağlayıcılarda 2 istiqamətli axın olacaq, bizim sistemlərə daha çox universallıq və Avropa İttifaqı daxilində təbii qazın çatdırılmasında daha da yaxşı imkan və seçimlər verəcəkdir. Çünki Mərkəzi və Şərqi Avropa ölkələri Qərbi Avropa ölkələri ilə müqayisədə təbii qaza görə hələ də bir az baha qiymət ödəyirlər. Bu məsələyə düzəliş edilməlidir və biz daha yaxşı infrastruktur inkişafı vasitəsilə bu problemi, əlbəttə ki, aradan qaldırmaq istəyirik. Buna görə də gələcəkdə biz Xəzər regionundan, Azərbaycandan gələn təchizata çox güvənirik və Avropa İttifaqına yekun mayeləşdirilmiş təbii qaz təchizatını qəbul etməkdən ötrü imkanlarımızı yaxşılaşdırmaq üçün gərgin çalışırıq. Biz qlobal bazarlara çıxışa təminat verəcək mayeləşdirilmiş təbii qaz infrastrukturumuzu tamamlayırıq və Şərqi Aralıq dənizi regionnunda bəzi müsbət irəliləyişləri müşahidə edirik. Buna görə də «Cənub Qaz Dəhlizi» çox mühüm rol oynayacaqdır. Çünki bu, yeni ərazidən, strateji əhəmiyyət daşıyan enerji regionundan qazı nəql edəcək ilk yeni boru kəməridir. Məhz buna görə biz bu ili çox səbirsizliklə

gözləyirik. Hesab edirəm ki, bu il layihənin tamamlanması üçün çox həlledici olacaqdır. Çünki bu ilin sonuna kimi biz ilk qazın Azərbaycandan Türkiyəyə nəql olunacağını gözləyirik. Ümid edirik ki, bu bizim yekun məqsədimizə zəmin yaradacaqdır. Məqsəd isə Xəzər hövzəsindən gələn qazın 2020-ci ilə qədər Avropaya çatdırılmasıdır. Sonra isə Azərbaycan qazına ehtiyacı olan bütün ölkələrə qazı çatdırmaq üçün Avropa İttifaqı daxilində və Avropadakı tərəfdaşlarımızla çalışmaqdır. Buna görə də biz yunan-bolqar bağlayıcı qurğusu üzərində xanım Temenujka və yunan tərəfdaşlarımız ilə çox sıx çalışırıq və mən burada qazın daha da Şimala nəql edilməsi imkanlarını müəyyən etmək üçün Bolqarıstanla çox sıx əməkdaşlıq edən Rumıniyadan olan dostlarımızı, həmçinin qazın yeni şaxələndirilmiş təchizatı sayəsində yeni imkanlar açılan Qərbi Balkan ölkələrindən olan dostlarımızı görməyimə çox şadam.

Beləliklə, cənab Prezident, cənab Nazir, belə bir intensiv və faydalı əməkdaşlıqda iştirak etmək üçün məni dəvət etdiyinizə görə sizə minnətdarlığımı bildirirəm. İnanıram ki, bugünkü toplantı bu tarixi layihədə yerdə qalan çətinlikləri aradan qaldırmağa imkan yaradacaq ki, biz də bu ilin sonuna kimi bu layihədə həqiqi sıçrayış və layihənin tamamlanmasının sübutu olan təbii qazın birinci olaraq Türkiyəyə, sonra da Avropaya çatdırılmasını görə bilək. Çox sağ olun.

* * *

*«Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısı işini plenar sessiya ilə davam etdirdi.*

## AVROPA KOMİSSİYASININ ENERJİ BİRLİYİ ÜZRƏ VİTSE-PREZİDENTİ MAROŞ ŞEFÇOVİÇ İLƏ GÖRÜŞ

*15 fevral 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti, «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının həmsədri Maroş Şefçoviç ilə görüşmüşdür.*

*Görüşdə Prezident İlham Əliyev «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısında iştirakına və tədbirdə dediyi xoş sözlərə görə Maroş Şefçoviçə minnətdarlığını bildirdi. Dövlət başçısı vurğuladı ki, bu toplantı «Cənub Qaz Dəhlizi» layihəsinin inkişafında yeni mərhələdir. Azərbaycan Prezidenti «Cənub Qaz Dəhlizi»nin icrasına verdiyi dəstəyə görə Maroş Şefçoviçə və eləcə də Avropa İnvestisiya Bankına layihənin maliyyələşməsində dəstəyi ilə əlaqədar minnətdarlığını ifadə etdi.*

*Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti, Məşvərət Şurasının həmsədri Maroş Şefçoviç bu toplantıda və «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində keçirilən əvvəlki toplantılarda iştirakından məmnunluğunu və layihənin icrasında böyük inkişafın olduğunu bildirdi.*

## TÜRKİYƏ RESPUBLİKASININ ENERJİ VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRİ BERAT ALBAYRAK İLƏ GÖRÜŞ

*15 fevral 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də Türkiyə Respublikasının Enerji və Təbii Sərvətlər naziri Berat Albayrak ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Azərbaycanın və Türkiyənin TANAP, TAP, Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, Bakı–Tbilisi–Qars kimi irimiqyaslı layihələri birlikdə uğurla həyata keçirdikləri qeyd olundu.*

*Türkiyənin Enerji və Təbii Sərvətlər naziri Berat Albayrak Prezident Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Prezident İlham Əliyev ötən ilin sentyabrında Bakıda «Əsrin müqaviləsi»nin müddətinin uzadılması mərasimində Berat Albayrak ilə görüşünü xatırlatdı və TANAP layihəsinin icrasının artıq yekunlaşmaqda olduğunu vurğuladı. Dövlətimizin başçısı tezliklə «Şahdəniz-2» yatağından qazın hasil olunmasına və borulara ötürülməsinə başlanılacağını bildirdi.*

*Nazir Berat Albayrak «Əsrin müqaviləsi»nin müddətinin uzadılmasının əhəmiyyətini xüsusi vurğulayaraq, «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısının önəmini qeyd etdi. O, ötən ay TANAP layihəsinin icrası çərçivəsində sınaq işlərinə başlanıldığını diqqətə çatdırdı.*

*Dövlətimizin başçısı Prezident Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.*

## GÜRCÜSTAN RESPUBLİKASI BAŞ NAZİRİNİN BİRİNCİ MÜAVİNİ DMİTRİ KUMSİŞVİLİ İLƏ GÖRÜŞ

*15 fevral 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də Gürcüstan Respublikası Baş Nazirinin birinci müavini, İqtisadiyyat və Davamlı İnkişaf naziri Dmitri Kumsişvili ilə görüşmüşdür.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Gürcüstanın uzun illər fəal əməkdaşlıq etdiklərini bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, bu əməkdaşlıq təkcə Azərbaycan və Gürcüstan üçün deyil, ümumilikdə bir çox ölkələr üçün geniş imkanlar açır. «Cənub Qaz Dəhlizi» layihəsi uğurla həyata keçirilir və bu, ölkələrimizin imkanlarının və tərəfdaşlığının göstəricisidir.*

*Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan və Gürcüstan nəqliyyat sahəsində də qlobal layihələr həyata keçirirlər. Neft-qaz sahəsindəki əməkdaşlıq ölkələrimizi bir-birinə daha da yaxınlaşdırır və dayanıqlı inkişaf üçün əsas yaradır.*

*«Cənub Qaz Dəhlizi» layihəsinin artıq 7 ölkəni əhatə etdiyini bildirən Prezident İlham Əliyev qeyd etdi ki, istehsalçı və tranzit ölkələr arasında maraqların uzlaşdırılması çox vacibdir. Biz buna nail olmuşuq və bu, gələcək uğurlarımızın zəmanətidir.*

*Gürcüstanın Baş Nazirinin birinci müavini, İqtisadiyyat və Davamlı İnkişaf naziri Dmitri Kumsişvili Baş Nazir Giorgi Kvirikaşvilinin salamlarını Prezident İlham Əliyevə çatdırdı. Gürcüstanın bu layihədə iştirakının önəmini vurğulayan qonaq «Cənub Qaz Dəhlizi»nin icrası nəticəsində ölkəsində minlərlə yeni iş yerinin açıldığını dedi.*

*Dmitri Kumsişvili vurğuladı ki, Azərbaycan və Gürcüstan birlikdə uğurlu qlobal layihələr həyata keçirirlər. Bu layihələr həm Azərbaycan, həm Gürcüstan, həm də Türkiyə və Avropa üçün böyük əhəmiyyətə malikdir.*

*Dövlətimizin başçısı Baş Nazir Giorgi Kvirikaşvilinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Gürcüstanın Baş Nazirinə çatdırmağı xahiş etdi.*

## İTALİYA RESPUBLİKASI İQTİSADİ İNKİŞAF NAZİRİNİN MÜAVİNİ İVAN SKALFAROTTO İLƏ GÖRÜŞ

*15 fevral 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də İtaliya Respublikası İqtisadi İnkişaf nazirinin müavini İvan Skalfarotto ilə görüşmüşdür.*

*İvan Skalfarotto İtaliyanın Baş Naziri Paolo Centiloninin salamlarını dövlətimizin başçısına çatdırdı. O, ölkəsinin «Cənub Qaz Dəhlizi»ndə iştirakından və bu tədbirdə təmsil olunmasından məmnunluğunu bildirdi. İvan Skalfarotto ölkələrimiz arasında əməkdaşlığın digər sahələrdə də uğurla inkişaf etdiyini bildirdi, Azərbaycanın İtaliyaya sərmayə yatırmasını dəstəklədiklərini vurğuladı. O, Azərbaycan–İtaliya əməkdaşlığının digər sahələrdə də inkişafı üçün səylərin gücləndirilməsinin önəmini ifadə etdi.*

*Ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın energetika, ticarət və digər sahələri əhatə etdiyini qeyd edən Prezident İlham Əliyev İtaliya şirkətlərinin Azərbaycanda uğurla fəaliyyət göstərdiklərini bildirdi. Dövlət başçısı vurğuladı ki, «Cənub Qaz Dəhlizi» ölkələrimizi birləşdirən önəmli layihədir və gələcək illərdə əməkdaşlığımızın inkişafında vacib rol oynayacaqdır. Prezident İlham Əliyev qeyd etdi ki, İtaliya qaz sahəsində Azərbaycanın ən böyük ixrac bazarlarından biri olacaqdır.*

*Dövlətimizin başçısı Baş Nazir Paolo Centiloninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İtaliyanın Baş Nazirinə çatdırmağı xahiş etdi.*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB HƏSƏN RUHANİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizdə sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İran xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 fevral 2018-ci il*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ TOİVO KLAARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 fevral 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığının uğurla inkişaf etdiyini bildirdi. Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şefçoviçin Bakıda keçirilən «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısında iştirakına toxunan Prezident İlham Əliyev onunla görüşü zamanı enerji və digər sahələrdə əlaqələrimizin inkişafı ilə bağlı səmərəli müzakirələrin aparıldığını bildirdi. Dövlətimizin başçısı özünün Avropa Komissiyasına son səfərindən keçən dövr ərzində əlaqələrimizin bütün sahələrdə çox yaxşı inkişaf dinamikası göstərdiyini vurğuladı. Prezident İlham Əliyev Azərbaycan–Avropa İttifaqı əməkdaşlığının təkcə enerji sahəsində deyil, digər sahələrdə də, o cümlədən siyasi, ticarət, investisiya, nəqliyyat, təhlükəsizlik, mədəniyyət sahələrində də genişləndirilməsinin vacibliyini qeyd edərək, bütün bunların hazırda üzərində iş aparılan Avropa İttifaqı ilə Azərbaycan arasında yeni sazişdə öz əksini tapdığını vurğuladı.*

*Avropa İttifaqı–Azərbaycan əlaqələrinin bütün sahələrdə müsbət istiqamətdə inkişaf etdiyini vurğulayan Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar əməkdaşlığımızın yaxşı perspektivləri olduğunu bildirdi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həlli ətrafında geniş fikir mübadiləsi aparıldı, bu istiqamətdə səylərin münaqişənin sülh və danışıqlar yolu ilə həllinə yönəldilməsinin vacibliyi qeyd olundu.*

*Prezident İlham Əliyev bildirdi ki, Ermənistanın riyakar və qeyri-konstruktiv mövqeyi danışıqlarda tərəqqinin əldə edilməsinə başlıca maneədir. Ermənistan öz işğalçılıq siyasətini davam etdirir və işğal edilmiş torpaqlarımızda Azərbaycanın milli, dini və tarixi abidələrini məhv edir. Dövlət başçısı vurğuladı ki, münaqişənin tezliklə həll edilməsi üçün Ermənistan işğal edilmiş torpaqlardan öz işğalçı qüvvələrini geri çəkməyə başlamalıdır və beynəlxalq hüququn norma və prinsipləri bərqərar olmalıdır.*

**BRUNEY-DARÜSSALAMIN SULTANI**
**ƏLAHƏZRƏT**
**HACI HƏSSƏNAL BOLKİAHA**

Əlahəzrət!

Bruney-Darüssalamın milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Bruney arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost xalqınıza daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 fevral 2018-ci il*

## ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ XANIM KERSTİ KALYULAYDA

Hörmətli xanım Prezident!

Estoniya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Estoniya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Estoniya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 fevral 2018-ci il*

## NİDERLAND KRALLIĞI SENATININ SABİQ SƏDRİ RENE VAN DER LİNDEN İLƏ GÖRÜŞ

*21 fevral 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 21-də Niderland Krallığı Senatının sabiq Sədri, Avropa Şurası Parlament Assambleyasının sabiq prezidenti, Azərbaycan–Niderland Dostluq Qrupunun sədri Rene Van der Lindeni qəbul etmişdir.*

*ADA Universiteti ilə Niderlandın Vaqeninqen Universitetinin birgə hazırladığı «Azərbaycanda aqrobiznes imkanlarının master planı» adlı layihənin təqdimatının əhəmiyyətinə toxunan Rene Van der Linden kənd təsərrüfatının Azərbaycanda dövlət siyasətinin əsas prioritetlərindən olması barədə məlumatlı olduqlarını diqqətə çatdırdı. Qonaq təqdim olunacaq layihənin gələcəkdə həyata keçirilməsinin Niderland şirkətlərinin Azərbaycana cəlb olunması, onların ölkəmizdə keçirilən «Caspian Agro» Beynəlxalq kənd təsərrüfatı sərgisində iştirakı və Azərbaycanın müvafiq təhsil ocaqları ilə əlaqələrin qurulması işinə öz töhfəsini verəcəyini bildirdi.*

*«Azərbaycanda aqrobiznes imkanlarının master planı» adlı layihənin uğurlu icrasına ümidvar olduğunu deyən Prezident İlham Əliyev onun ölkəmizdə həyata keçirilən kənd təsərrüfatının inkişafı və iqtisadiyyatın şaxələndirilməsi siyasətinə tam uyğun olduğunu diqqətə çatdırdı. Dövlət başçısı layihənin Azərbaycan və Niderland şirkətləri arasında fəal əməkdaşlıq üçün geniş imkanlar yaradacağını vurğuladı və ADA Universiteti və ölkəmizin digər təhsil ocaqları ilə yaradılmış əməkdaşlıq əlaqələrinin yaxşı nəticələr verəcəyinə ümidvar oldu-*

*ğunu bildirdi. Görüşdə Azərbaycan ilə Niderland Krallığı arasında əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı, Azərbaycan–Niderland Dostluq Qrupunun sədri Rene Van der Lindenin əlaqələrimizin inkişafındakı rolu qeyd edildi.*

## İRAN İSLAM RESPUBLİKASININ MÜDAFİƏ VƏ SİLAHLI QÜVVƏLƏRƏ DƏSTƏK NAZİRİ ƏMİR HATƏMİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*21 fevral 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 21-də İran İslam Respublikasının Müdafiə və Silahlı Qüvvələrə Dəstək naziri Əmir Hatəminin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı Azərbaycan ilə İran arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə, o cümlədən hərbi və hərbi-texniki sahədə uğurla inkişaf etdiyini bildirdi. Yüksək səviyyədə qarşılıqlı səfərlərin müntəzəm olaraq həyata keçirildiyini vurğulayan Prezident İlham Əliyev son illər ərzində İran İslam Respublikası Prezidenti ilə 10-a yaxın görüşün keçirilməsini əlaqələrimizin yüksək səviyyədə olmasının göstəricisi kimi dəyərləndirdi. Dövlətimizin başçısı İran İslam Respublikasına son səfərini məmnunluqla xatırladaraq, həm Ali rəhbərlə, həm də Prezidentlə məhsuldar müzakirələrin aparıldığını qeyd etdi. Dövlətimizin başçısı İran İslam Respublikasının Müdafiə və Silahlı Qüvvələrə Dəstək naziri Əmir Hatəminin Azərbaycana bu səfərinin ölkələrimiz arasında hərbi və hərbi-texniki sahədə əlaqələrin hazırkı vəziyyəti və gələcək birgə əməkdaşlıq perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaradacağına əminliyini ifadə etdi.*

*Müdafiə və Silahlı Qüvvələrə Dəstək naziri Əmir Hatəmi İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarını dövlətimizin başçısına çatdırdı. O qeyd etdi ki, İran İslam Respublikasının Ali rəhbəri öz çıxışlarında həmişə İranın*

*Azərbaycanla münasibətlərinin dostluq və qardaşlıq, bərabər qonşuluq münasibətləri olduğunu bildirib. O, İran İslam Respublikasının xarici siyasətində qonşu ölkələrə, xüsusilə Azərbaycana böyük önəm verdiyini diqqətə çatdırdı.*

*Dövlətimizin başçısı İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.*

*Görüşdə iki ölkə arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

**KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ
ƏLAHƏZRƏT ŞEYX SABAH
ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA**

Əlahəzrət!

Küveyt Dövlətinin milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram.

İnanıram ki, Azərbaycan ilə Küveyt arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı və genişlənməsi bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Küveyt xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 fevral 2018-ci il*

**KÜVEYT DÖVLƏTİ NAZİRLƏR KABİNETİNİN SƏDRİ ƏLAHƏZRƏT ŞEYX CABİR ƏL-MÜBARƏK ƏL-HƏMƏD ƏS-SABAHA**

Əlahəzrət!

Ölkənizin milli bayramı münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Küveyt münasibətləri bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Küveyt xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 fevral 2018-ci il*

# MİLLİ MƏCLİSİN ÜZVÜ FƏTTAH HEYDƏROVA «İSTİQLAL» ORDENİNİ TƏQDİMETMƏ MƏRASİMİ

*22 fevral 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 22-də Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin üzvü Fəttah Heydərova «İstiqlal» ordenini təqdim etmişdir.*

**İ l h a m Ə l i y e v:** Hörmətli Fəttah müəllim!

Sizi qarşıdan gələn yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm. Sizə cansağlığı və uğurlar arzulayıram.

Siz uzun illərdir ki, ölkəmizin ictimai-siyasi həyatında fəal rol oynayırsınız. 20 ildən çoxdur ki, Milli Məclisin üzvü kimi, ölkəmizin inkişafına böyük töhfə verirsiniz. Ondan əvvəl – keçən əsrin 90-cı illərinin əvvəllərində Naxçıvan Ali Sovetinin, sonra Ali Məclisinin üzvü kimi, ulu öndər Heydər Əliyevin rəhbərliyi altında işləmisiniz. Hazırda Azərbaycan Respublikası Ağsaqqallar Şurasının sədri kimi, çox fəal iş aparırsınız. Azərbaycan dövləti Sizin xidmətlərinizi yüksək qiymətləndirib. Siz 2008-ci və 2013-cü illərdə «Şöhrət» və «Şərəf» ordenləri ilə təltif olunmusunuz.

Bu gün yubileyiniz ərəfəsində mən Sizi Azərbaycan dövlətinin yüksək mükafatı olan «İstiqlal» ordeni ilə təltif etmişəm və bu yüksək ordeni Sizə təqdim edirəm.

* * *

*Dövlət başçısı İlham Əliyev «İstiqlal» ordenini Fəttah Heydərova təqdim etdi.*

**F ə t t a h  H e y d ə r o v:** Hörmətli cənab Prezident, çox sağ olun. Məni bu yüksək mükafatla təltif etdiyiniz, mənə çox yüksək qiymət verdiyiniz üçün Sizə səmimi təşəkkürlərimi bildirirəm. Bu mükafat mənə həyatımın ən xoş anlarından birində təqdim olunur. Siz Azərbaycanı Yer kürəsinin, demək olar ki, bütün nöqtələrində tanınan bir dövlətə çevirmisiniz. Hər bir hadisə, istər cəmiyyət həyatında, istər dövlət həyatında möhkəm əsaslara söykənəndə, möhkəm bünövrə üzərində qurulanda o, əzəmətli olur, əbədi olur, həmişəlik olur. Ulu öndər Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanın hansı səviyyədən hansı səviyyəyə gəldiyinin canlı şahidi olmuşam. Elə həmin dövrdə Azərbaycan, demək olar ki, İttifaqın 15 respublikası arasında ən axırıncı yerdən ən qabaqcıl yerə gəlib çatdı. Ulu öndər 300 milyonluq bir məmləkətin ən yuxarı eşelonunda rəhbərliyə dəvət olundu, bir şəxsiyyət kimi, dünyada tanındı. Ulu öndərdə yüksək humanizm, sülhə, əmin-amanlığa, insanların xoşbəxt yaşamasına gözəl münasibət var idi və arzuları da ondan ibarət idi. Amma hər cür insanlar var, bədxahlar var. Nəinki öz xalqını, öz millətini, öz torpağını istəməyən insanlar, hətta ümumbəşəri ziyankarlar var ki, bax, həmin dövrdə peyda oldular, ulu öndər rəhbərlikdən kənarlaşdırıldı və Azərbaycanın fəlakətli günləri həmin vaxt başlandı. Bu düşmənçilik prosesində Azərbaycan torpaqlarının beşdəbirini itirdi, 1 milyondan çox qaçqını, köçkünü yarandı, 20 mindən çox Azərbaycan insanı şəhid oldu. Səbəb bir idi – ulu öndər xalqımızın başı üzərində olmadı, onu kənarlaşdırmışdılar. Amma Allah böyükdür və ulu öndər o zaman Naxçıvana gəldi. Naxçıvan da təhlükə qarşısında idi. Biz o zaman bunu hiss edirdik və görürdük, faktlar da bunu göstərirdi – Naxçıvanın hər tərəfdən blokada şəraitində olması, insanların ərzaqdan, enerjidən və sairdən korluq çəkməsi. Ulu öndərin Naxçıvanda olması Naxçıvanı xilas etdi. Azərbaycan xalqının ona olan böyük inamı nəticəsində ulu öndərin ikinci dəfə ali hakimiyyətə qayıtması Azərbaycanımızı xilas etdi.

Bugünkü Azərbaycan, demək olar ki, ulu öndərin yaradıcılıq məhsuludur, şah əsəridir. Bu şah əsəri O yazdı və onun əbədiliyi

üçün bir yol qoydu. Bu, təkcə mənim deyil, Azərbaycanı, xalqını, millətini, torpağını, insanlığı qiymətləndirən yaşlı nəslin fikridir ki, ulu öndərin yolunu Siz davam etdirirsiniz. Biz həmişə fəxr edirik, ürəyimiz həmişə fərəh hissi ilə dolur ki, Siz mərdanəliklə, təmkinlə, biliklə, bacarıqla saatlarınızı, dəqiqələrinizi əsirgəmədən dövlətimizin siyasi, iqtisadi, mənəvi, mədəni sahələrdə inkişafını təmin etməklə yanaşı, Azərbaycanımızı bu bəd qüvvələrdən qoruyub saxladınız. Sizdə olan bu mətanət, Sizdə olan cəsarət, Sizdə torpağa, insanlara, Azərbaycan insanına olan məhəbbət məhz ulu öndərdən qalan yadigardır, onun yolunu uğurla davam etdirməyinizdir. Buna görə də mən Allahdan Sizə möhkəm cansağlığı arzu edirəm. Allah Sizi qorusun. Sizin qorunmağınız Azərbaycan xalqının qorunmağıdır, müstəqil Azərbaycanımızın qorunmağıdır. Sizin qorunmağınız sabahımızın, bizim böyüməkdə, artmaqda olan gəncliyimizin qorunmağı deməkdir. Mən Sizə minnətdarlığımı bildirirəm ki, mənim bu kiçik zəhmətimi çox böyük mükafatlarla qiymətləndirmisiniz və bu gün də yenə o qiyməti verdiniz. Çox sağ olun, təşəkkür edirəm. Ulu öndərimizin yolunda göstərdiyiniz bu fədakar əməyiniz qoy həmişə davam etsin!

Bir məsələni də xüsusilə qeyd etmək istəyirəm. Təkcə Siz özünüz yox, bütün ailəniz, hörmətli Mehriban xanım və övladlarınız öz əməklərini, öz zəhmətlərini əsirgəmədən Azərbaycanın mədəniyyətini, elmini, Azərbaycanın əldə etdiyi nailiyyətləri dünyada tanıtmaq üçün böyük fədakarlıq göstərirlər. Bu, yalnız xalqa, dövlətə bütün varlığı ilə bağlı olan bir ailənin işidir. Mehriban xanımın, Sizin övladlarınızın böyük əməyi nəticəsində Azərbaycanımızın problemləri dünyaya çatdırılır, xalqımızın mənəvi, mədəni dəyərlərinin dünyaya yayılması sahəsində çox böyük işlər görülür. Bunlar heç kəsin nəzərindən qaçmır. Qoy Allah-Taala Sizə və bütün ailənizə kömək olsun ki, Azərbaycan Sizin rəhbərliyiniz altında ulu öndər Heydər Əliyevin yolu ilə irəliləyərək, dünya dövlətləri içərisində həmişə öz uğurlarını göstərsin.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun.

**DOMİNİKAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB DANİLO MEDİNAYA**

Hörmətli cənab Prezident!

Dominikan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 fevral 2018-ci il*

## «BOEING» ŞİRKƏTİNİN PREZİDENTİ VƏ BAŞ İCRAÇI DİREKTORU KEVİN MAKALİSTERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 fevral 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 23-də «Boeing Commercial Airplanes» şirkətinin prezidenti və baş icraçı direktoru Kevin MakAlisterin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə «Boeing» şirkəti arasında uzun illər uğurlu əməkdaşlığın həyata keçirildiyini və bu şirkətin istehsal etdiyi 20-yə yaxın təyyarənin Azərbaycan mülki aviasiyası tərəfindən alındığını vurğuladı. Ölkəmizin hazırda çox müasir və keyfiyyətli hava donanmasına malik olduğunu qeyd edən Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan Hava Yollarının çox yaxşı reputasiyası vardır. Dövlət başçısı Azərbaycanın artıq beynəlxalq nəqliyyat qovşağına çevrilməkdə olduğunu dedi. Prezident İlham Əliyev Azərbaycanda nəqliyyat və infrastruktur sahəsində böyük nailiyyətlərin əldə edildiyini bildirərək, son illər ölkəmizdə 6-sı beynəlxalq aeroport olmaqla, 7 yeni aeroportun inşa edildiyini, ən müasir səviyyədə yükdaşıma və nəqliyyat təyyarələrinin fəaliyyət göstərdiyini vurğuladı. Prezident İlham Əliyev Azərbaycanda bütün növ müasir gəmilər istehsal edən Gəmiqayırma zavodu, müasir dəmir yolu infrastrukturu yaradıldığını və avtomobil yollarının inşa edildiyini diqqətə çatdırdı. Dövlət başçısı yüklərin hava nəqliyyatı vasitəsilə daşınmasına toxunaraq, Azərbaycanın təkcə regionda deyil, qlobal karqo trafikdə artıq mühüm rol oynadığını vurğuladı. Prezident İlham Əliyev Azərbaycanın «Boeing» şirkəti ilə əmək-*

*daşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə əminliyini ifadə etdi.*

*Qonaq Azərbaycanla, o cümlədən AZAL şirkəti ilə əməkdaşlıqdan böyük məmnunluq hissi duyduğunu və ölkəmizlə çox güclü əməkdaşlığın həyata keçirildiyini vurğuladı. O, «Boeing» şirkəti adından Azərbaycanın gələcək inkişafına böyük inamla yanaşdıqlarını bildirərək, əlaqələrimizin bundan sonra daha da genişlənəcəyinə əminliyi ifadə etdi.*

*Görüşdə Azərbaycan–ABŞ ikitərəfli münasibətlərin bir çox sahələri əhatə etdiyi bildirildi və əlaqələrimizin uğurlu inkişafı vurğulandı.*

## AMERİKA YƏHUDİ KOMİTƏSİNİN PREZİDENTİ CON ŞAPİRONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*25 fevral 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də Amerika Yəhudi Komitəsinin prezidenti Con Şapironun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Amerika Yəhudi Komitəsinin prezidenti Con Şapiro Azərbaycanda yəhudi icmasının nümayəndələri üçün çox yaxşı şəraitin yaradıldığını qeyd edərək, bunun digər ölkələrə də nümunə olduğunu vurğuladı.*

*Amerika Yəhudi Komitəsinin nümayəndə heyəti ilə görüşlərin ənənəvi xarakter daşıdığını bildirən Prezident İlham Əliyev bu görüşlərin səmərəli olduğunu qeyd etdi. Dövlət başçısı ölkəmizdə digər xalqların və icmaların nümayəndələri kimi, yəhudi icmasının nümayəndələrinin də azad və firavanlıq şəraitində yaşaması üçün hər cür şəraitin təmin edildiyini bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, yəhudi icmasının nümayəndələri Azərbaycan cəmiyyətinin fəal üzvləridirlər, öz ənənələrinə sadiqdirlər və ölkəmizin inkişafı, eləcə də Azərbaycan həqiqətlərinin dünyada yayılması işinə öz töhfələrini verirlər. Dövlət başçısı bu gün Azərbaycanda multikulturalizmin və tolerantlığın hökm sürdüyünü və bu mühitin ölkəmizdə yaşayış norması olduğunu vurğuladı.*

*Söhbət zamanı Azərbaycan–ABŞ və Azərbaycan–İsrail əlaqələrinin inkişafından razılıq ifadə olundu.*

## XOCALI SOYQIRIMI QURBANLARININ XATİRƏSİNİ ANIM MƏRASİMİNDƏ İŞTİRAK

*26 fevral 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 26-da Xocalı soyqırımı qurbanlarının xatirəsini anım mərasimində iştirak etmişlər.*

*1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətdilər. Bu faciədən 26 il keçir. Həmin kütləvi qırğın nəticəsində 106-sı qadın, 63-ü uşaq, 70-i qoca olmaqla, 613 nəfər amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin girov götürüldü, onlardan 150 nəfərin taleyi hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər 2 valideynini itirdi. Hər il dünya azərbaycanlıları və ədaləti uca tutanlar Xocalı soyqırımı qurbanlarının xatirəsini yad edirlər.*

*Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar anım mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşdı.*

*Abidənin yanında Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyev abidənin önünə əklil qoydu, soyqırımı qurbanlarının xatirəsinə ehtiramını bildirdi.*

*Birinci vitse-prezident Mehriban Əliyeva, Baş Nazir Artur Rasi-zadə, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev abidənin önünə gül dəstələri qoydular.*

*Mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin üzvləri, nazirlər, komitə və şirkət rəhbərləri, dini konfessi-*

*yaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri iştirak edirdilər.*

*Anım mərasiminin iştirakçıları abidənin önünə tər güllər düzdülər.*

*Azərbaycanın tarixinə qanlı hərflərlə yazılmış həmin gecə erməni silahlı dəstələri hələ SSRİ dövründə Xankəndi şəhərində yerləşən, şəxsi heyətinin xeyli hissəsi ermənilərdən ibarət olan 366-cı motoatıcı alayın zirehli texnikasının və hərbçilərinin köməyi ilə qədim Xocalı şəhərini yerlə yeksan etdilər.*

*Xocalı faciəsi 200 ilə qədər bir müddətdə erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasətinin davamıdır. Soyqırımı zamanı 56 nəfər xüsusi qəddarlıqla öldürülüb, 3 nəfər diri-diri yandırılıb, başlarının dərisi soyulub, bədən əzaları və başları kəsilib, gözləri çıxarılıb, hamilə qadınların qarnı süngü ilə yarılıbdır. Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi beynəlxalq hüquqa əsasən, Xocalı faciəsinin məhz soyqırımı olduğunu təsdiq edir.*

*İnsanlığa qarşı törədilmiş bu cinayət aktı beynəlxalq aləm tərəfindən öz hüquqi qiymətini almalıdır. Azərbaycan dövləti erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı faciəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün məqsədyönlü və ardıcıl iş aparır. Prezident İlham Əliyev Xocalı faciəsini təcavüzkar erməni millətçilərinin yüzilliklər boyu Azərbaycan xalqına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi kimi qiymətləndiribdir.*

*Erməni təcavüzkarlarının törətdikləri bu vəhşilik yaddaşlardan heç zaman silinməyəcək. Bu, təkcə Azərbaycan xalqına qarşı soyqırımı deyildi, bəşəriyyətə, insanlığa qarşı törədilmiş qanlı cinayət idi. Buna baxmayaraq, ozamankı Azərbaycan hakimiyyəti bu dəhşətli hadisəyə siyasi qiymət verilməsi, qanlı qırğın barədə obyektiv məlumatların dünya ictimaiyyətinə*

*çatdırılması üçün heç bir əsaslı iş görmədi. Yalnız ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəldikdən sonra həmin qanlı faciəyə hüquqi-siyasi qiymət verildi. 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı Soyqırımı Günü kimi elan etdi.*

*Hər il bu müdhiş faciənin ildönümü respublikamızda və dünyanın müxtəlif ölkələrində ürəkağrısı ilə qeyd olunur. Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva böyük xidmətlər göstərib. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə «Xocalıya ədalət!» beynəlxalq kampaniyası çərçivəsində də hər il silsilə tədbirlər reallaşdırılır. Həyata keçirilən ardıcıl və kompleks tədbirlərin məntiqi nəticəsi olaraq, yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü ifşa olunur. Artıq Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrin və beynəlxalq təşkilatların qərarlarında, qətnamələrində əksini tapır. Kanada, Meksika, Kolumbiya, Peru, Pakistan, Bosniya və Herseqovina, Rumıniya, Çexiya, İordaniya, Honduras və digər ölkələrin parlamentləri, eləcə də ABŞ-ın bir sıra ştatlarının qanunverici orqanları və İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanıyıb. Beynəlxalq hüquqa görə, soyqırımı sülh və bəşəriyyət əleyhinə yönələn əməldir və ən ağır beynəlxalq cinayət sayılır. BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 saylı Qətnaməsi ilə qəbul edilən və 1961-ci ildən qüvvəyə minən Konvensiyada soyqırımı cinayətinin hüquqi əsası təsvir edilib. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin Konvensiyada təsbit edilən soyqırımı cinayətinə aid bütün əməllər tətbiq olunubdur.*

*Xalqımız qəti əmindir ki, ədalət mütləq yerini tutacaq, Xocalı faciəsi soyqırımı kimi tanınacaq, eləcə də hazırda Cənubi Qafqazın iqtisadi güc mərkəzinə çevrilən, beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirən, hərbi qüdrəti ilə seçilən Azərbaycan düşmən tapdağı altında olan torpaqlarını azad*

*edəcək, şəhidlərimizin qanı yerdə qalmayacaq, günahkarlar isə layiqli cəzalarını alacaqlar.*

## «ROSSİYA-24» TELEKANALININ MÜXBİRİNƏ MÜSAHİBƏ

*26 fevral 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da «Rossiya-24» telekanalının müxbirinə müsahibə vermişdir.*

*Müsahibə fevralın 26-da «Rossiya-24» telekanalının Xocalı soyqırımı ilə əlaqədar efirə gedən reportajında yer almışdır.*

**M ü x b i r: İlham Heydər oğlu, ağır səhərdir. Hansı hisslərlə yuxudan oyanmısınız? Deməliyəm ki, Rusiyada rusiyalılar bu faciəni xatırlayırlar və bu günü ehtiramla yad edirlər. Hansı düşüncələrlə bu gün buraya gəlmisiniz?**

**İ l h a m  Ə l i y e v:** İlk növbədə, belə bir gündə bizimlə birlikdə olmaq və Azərbaycan xalqının faciəsinə münasibət bildirmək üçün Bakıya gəldiyinizə görə sizin telekanala təşəkkür etmək istəyirəm. Mən bunu çox yüksək qiymətləndirirəm və buna görə sizə minnətdaram. Bu gün Azərbaycan xalqının tarixində ən qanlı səhifələrdən biridir, azərbaycanlıların soyqırımı günüdür. Bu günü Azərbaycan xalqı həmişə yadda saxlayacaq və heç vaxt unutmayacaqdır. Ermənistan 26 il əvvəl azərbaycanlılara qarşı soyqırımı törədib. Bunun nəticəsində 613 dinc sakin öldürülüb, onlardan 106-sı qadın, 63-ü uşaqdır. 1200-dən çox dinc sakin əsir düşüb və işgəncələrə məruz qalıb, 500-ə qədər insan əlil olub, 150 dinc sakin barədə isə heç bir məlumat yoxdur. Onlar itkin düşmüş sayılırlar, amma onların öldürüldüyü ehtimalı daha çoxdur. Həmin müdhiş gün, həmin qanlı faciə barədə çox sayda video, fotomateriallar, möcüzə nəticəsində sağ qalmış insanların şahidliyi vardır. Bu, erməni faşizminin təzahürü idi. Bu, vəhşiliyin təzahürü idi.

Bu gün bütün dünyada «Xocalıya ədalət!» kampaniyası genişlənir. Bu günlər dünyanın bir çox ölkələrində matəm tədbirləri keçirilir. Bu günlər Azərbaycanın diaspor təşkilatları, ictimaiyyət «dəyirmi masa»lar, təqdimatlar, sərgilər keçirir. Bütün foto və videosənədlər bu böyük faciə haqqında şahidlik edir. Biz bunu xatırlayırıq. Bunu heç vaxt unutmayacağıq. Bu faciənin heç vaxt təkrarlanmaması üçün Azərbaycan daha güclü olmalıdır. Siz mənim bu matəm gününü hansı hisslərlə qarşıladığımı soruşdunuz – hər bir azərbaycanlının keçirdiyi hisslərlə, günahsız öldürülənlərə görə dərd, kədər, qurbanlara görə ağrı hissi, eyni zamanda, ölkəmizi möhkəmləndirmək qətiyyəti ilə. Azərbaycan xalqının gələcəkdə heç vaxt belə faciə ilə üzləşməməsi üçün ölkəmizin iqtisadi, hərbi potensialını möhkəmləndirməliyik.

**M ü x b i r:** İlham Heydər oğlu, bu müsahibəyə, bizimlə vaxt tapıb görüşdüyünüzə görə təşəkkür edirəm.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

**M ü x b i r:** Bu, dövlət üçün kədərlidir.

**İ l h a m Ə l i y e v:** Bu gün bizimlə burada olduğunuza görə bir daha sizə təşəkkür etmək istəyirəm. Çox sağ olun.

**M ü x b i r:** İştirak etməliydik.

## MİNGƏÇEVİR ŞƏHƏRİNƏ SƏFƏR

*27 fevral 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 27-də Mingəçevir şəhərinə səfərə gəlmişlər.*

*Dövlət başçısı və xanımı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsi önünə gül dəstəsi qoydular.*

*Mirgəçevir Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Mingəçevirdə görülən abadlıq-quruculuq işləri barədə Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya məlumat verdi.*

### Mingəçevir Su-Elektrik Stansiyasının əsaslı təmirdən sonra istismara verilməsi mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 27-də 424 MVt gücündə Mingəçevir Su-Elektrik Stansiyasının əsaslı təmirdən sonra istismara verilməsi mərasimində iştirak etmişdir.*

*«Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin prezidenti Etibar Pirverdiyev dövlət başçısına stansiyada görülən işlər barədə məlumat verdi.*

*Bildirildi ki, son illər Azərbaycanda enerji sahəsində çox mühüm layihələr icra olunub. Bu istiqamətdə həyata keçirilən işlər müsbət nəticəsini verməkdədir. Enerji sahəsinin inkişafı ilə bağlı görülən işlər sırasında müxtəlif gücə malik yeni elektrik stansiyalarının yaradılması, mövcudlarının isə əsaslı şəkildə*

*yenidən qurulmasını göstərmək olar. Bu sahədə aparılan islahatlar nəticəsində elektrik stansiyaları həm texniki, həm də görünüş baxımından müasirləşir, onların gücü artırılır. Son 14 ildə ölkədə 30 yeni elektrik stansiyası tikilərək istismara verilib, mövcud generasiya müəssisələri yenidən qurularaq modernləşdirilibdir. Elektrik enerjisinin istehsal potensialı ölkədaxili tələbatı tam ödəməklə yanaşı, ixrac imkanı da yaradıbdır.*

*Azərbaycanın enerji təminatında Mingəçevir Su-Elektrik Stansiyasının xüsusi yeri və çəkisi vardır. Son dövrlərdə stansiyanın müasir tələblər səviyyəsinə çatdırılması və texniki cəhətdən müasirləşdirilməsi istiqamətində olduqca mühüm işlər görülüb. Mingəçevir Su-Elektrik Stansiyası uzun illər Azərbaycan əhalisinin və ölkə iqtisadiyyatının elektrik enerjisinə tələbatının ödənilməsində mühüm rol oynayıb. Hələ 1941-ci ildə bu stansiyanın tikintisi və 1945-ci ildə birinci növbəsinin istismara verilməsi barədə qərar qəbul edilib. Lakin İkinci dünya müharibəsinin başlanması tikinti işlərinin təxirə salınmasına səbəb olub. Nəhayət, 1945-ci ildə Mingəçevir su qovşağının və onun üzərində elektrik stansiyasının tikintisinə başlamaq mümkün olubdur. 1951-ci ildə burada ilk aqreqat istifadəyə verilib, tikinti işləri isə 1955-ci ildə tamamlanıbdır. Beləliklə, Mingəçevir Su-Elektrik Stansiyası 360 meqavat tam gücü ilə işə salınıb. Tənzimlənən su qovşağı illik orta su axını 12,5 milyard kubmetr olduqda ildə 1,4 milyard kilovat-saat elektrik enerjisi istehsal edilməsinə, 1,2 milyon hektar məhsuldar torpağın suvarılmasına və balıqçılığın inkişafına imkan verib. Su qovşağına yuyulma üsulu ilə yaradılan torpaq bənd, su-elektrik stansiyasının suqəbuledicisi, suburaxıcıları, baş bina, elektrotexniki qurğular, Yuxarı Qarabağ və Yuxarı Şirvan suvarma kanallarının suqəbulediciləri daxildir. Stansiyanın su anbarı öz tutumuna görə uzunmüddətli istifadə üçün kifayət qədər su ehtiyatına malikdir.*

*Diqqətə çatdırıldı ki, müstəqillik illərində Mingəçevir Su-Elektrik Stansiyasında yenidən qurulma işlərinin aparılmasına*

*ulu öndər Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə başlanılıb. Bu prosesin davamı olaraq, 2010–2017-ci illərdə burada əsaslı yenidən qurulma işləri həyata keçirilib. Stansiyada maşın zalının aşağı səviyyəsində yerləşən və işçi heyətin təhlükəsizliyi baxımından standartlara uyğun olmayan idarəetmə mərkəzi müasir tələblərə tam cavab verən yeni idarəetmə mərkəzi ilə əvəz edilibdir.*

*Mərkəzin binasında ulu öndər Heydər Əliyevin büstü qoyulubdur.*

*Hidroaqreqatlarda və stansiyanın yarımstansiyalarında quraşdırılmış lokal idarəetmə sistemləri stansiyanın mərkəzi idarəetmə sistemi ilə inteqrasiya olunub və enerji sistemi mərkəzi idarəetmə sistemi ilə birbaşa əlaqələndirilibdir.*

*Dövlət başçısı Mingəçevir Su-Elektrik Stansiyasını əsaslı yenidənqurmadan sonra işə saldı.*

*Bildirildi ki, istismara yararsız 2 turbin və generator görülən işlər çərçivəsində gücü 71,5 meqavat olan turbin və generatorla əvəz edilib. 200 meqavat gücündə avtotransformator quraşdırılıb, gərginlikləri 330, 220 və 110 kV olan yarımstansiyalar yerli idarəetmə sistemləri ilə birlikdə yenidən tikilib istismara verilibdir. Bu yarımstansiyaların dayanıqlı istismarını və onların bir-biri ilə, eyni zamanda, stansiya ilə əlaqələrini təmin etmək üçün 100 kilometrdən artıq güc, nəzarət və ölçü kabelləri çəkilib. Görülən işlər nəticəsində stansiyanın gücü 284 meqavatdan 424 meqavata çatdırılıb. Burada, həmçinin müasir tələblərə cavab verən yeni inzibati bina inşa edilib, aşağıgərginlikli paylayıcı qurğular və sabit cərəyan avadanlıqları tamamilə dəyişdirilib. Suqəbuledici qurğuda 6 dəst sipər və onların hidravlik qaldırıcıları bütün avadanlığı ilə birlikdə yeni avtomatik tənzimlənən hidravlik qaldırıcılarla əvəz olunub. Stansiyada 6 dəst işçi sipər, 4 dəst təmir sipəri və 3 xüsusi qaldırıcı kran əsaslı təmir edilib, 5300 millimetr diametrli 4 disk bağlayıcısı yeniləri ilə əvəzlənib. Stansiyanın maşın zalında əsaslı təmir-bərpa işləri aparılıbdır.*

*Mingəçevir Su-Elektrik Stansiyası quraşdırılmış hidroaqreqatların manevr imkanlarına, tənzimlənmə diapazonuna və xarakteristikalarına görə tezliyin tənzimlənməsinin standartla müəyyən edilmiş normalar çərçivəsində aparılmasını təmin edən yeganə elektrik stansiyasıdır. Hazırda burada 130 işçi çalışır.*

*Ərazidə genişmiqyaslı abadlıq işləri həyata keçirilib, 5000-dən çox ağac əkilib, 15 min kvadratmetr sahəyə asfalt döşənibdir.*

## İçməli su təchizatı sisteminin istismara verilməsi mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 27-də Mingəçevir şəhərinin içməli su təchizatı sisteminin istismara verilməsi mərasimində iştirak etmişdir.*

*«Azərsu» Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov Mingəçevir şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi çərçivəsində görülən işlər barədə dövlət başçısına məlumat verdi.*

*Bildirildi ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində «Mingəçevir şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi»nin icrasına 2011-ci ilin oktyabrında başlanılıb. Dövlət büdcəsi vəsaiti hesabına həyata keçirilən layihə 2035-ci ilə qədər perspektiv inkişaf nəzərə alınmaqla, Mingəçevir şəhərində 151 min nəfərin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıbdır.*

*Şəhəri içməli su ilə təmin etmək üçün mənbə olaraq Mingəçevir su anbarı seçilib və onun yaxınlığında müasir sutəmizləyici qurğunun inşası layihələndirilibdir. İlkin mərhələdə burada təbii şəraitdə durulan suyun təmizləyici qurğuya ötürülməsi məqsədilə göldən təmizləyici qurğuya diametri 800 millimetr olan borularla 720 metr uzunluğunda əsas daşıyıcı kəmər inşa edilib. Təmizləyici qurğunun yeri elə seçilib ki, göldə suyun səviyyəsi minimum həddə düşəcəyi halda da buradan qurğuya su özüaxımlı rejimdə ötürüləcəkdir. İstehlakçıların*

*keyfiyyətli içməli su ilə təmin edilməsi üçün məhsuldarlığı sutkada 55 min kubmetr və ya saniyədə 636 litr olan müasirtipli qum süzgəcli təmizləyici qurğu tikilib. Burada suyun təmizlənməsi heç bir kimyəvi reagentlərdən istifadə olunmadan aparılır və onun keyfiyyət göstəriciləri Ümumdünya Səhiyyə Təşkilatının standartlarına tam cavab verir. Burada emal prosesi tam avtomatlaşdırılıb və SCADA sistemi ilə vahid mərkəzdən idarə olunur. Tam qapalı rejimdə işləyən qurğuda suyun giriş və çıxış parametrlərinə sensorların köməyi ilə avtomatik nəzarət olunur. Təmizlənmiş suyun relyef baxımından yüksəklikdə yerləşən anbara ötürülməsi məqsədilə məhsuldarlığı saatda 2100 kubmetr olan nasos stansiyası quraşdırılıb. Suyun optimal idarə olunması və özüaxımlı rejimdə paylanması məqsədilə dəniz səviyyəsindən 85 metr yüksəklikdə tutumu 10 min kubmetr olan su anbarı inşa edilib. Hazırda qurğuda təmizlənmiş su bu anbara ötürülərək, özüaxımlı rejimdə şəhər şəbəkəsinə verilir. Gələcəkdə bu qurğudan Yevlax şəhərinə və əhalisi 8500 nəfər olan 7 kəndə içməli suyun verilməsi nəzərdə tutulur. Bu məqsədlə Mingəçevir su anbarından Yevlax şəhərinə 35 kilometr uzunluğunda yeni magistral kəmərin və hər birinin tutumu 5000 kubmetr olan 2 anbarın tikintisi layihələndirilib. Artıq magistral kəmərin Kür çayının keçidinə qədər olan 2,8 kilometrlik hissəsi tikilərək, hazır vəziyyətə gətirilibdir.*

*Qeyd olundu ki, layihə çərçivəsində Mingəçevir şəhərində 344 kilometr uzunluğunda içməli su şəbəkəsinin inşası tam başa çatdırılıb, 30211 abonentin 14 mindən çoxu sayğacla təmin olunubdur. Sayğaclaşdırma işləri davam etdirilir. Hazırda şəhər əhalisi yeni qurğuda təmizlənən və yeni çəkilmiş şəbəkə vasitəsilə keyfiyyətli içməli su ilə təmin olunur.*

*Məlumat verildi ki, şəhərdə layihələndirilmiş 236 kilometr uzunluğunda kanalizasiya şəbəkəsinin 103 kilometrlik hissəsi və 21 kilometr uzunluğunda kanalizasiya kollektoru inşa edilib. Tullantı suların optimal idarə olunması məqsədilə ilkin mərhələdə kanalizasiya şəbəkəsi üzərində məhsuldarlığı saatda*

*1300 kubmetr olan 3 nasos stansiyası quraşdırılıb və işlək vəziyyətə gətirilibdir. Gələcəkdə şəbəkə üzərində müxtəlif nöqtələrdə məhsuldarlığı saatda 3256 kubmetr olan 4 yeni kanalizasiya nasos stansiyasının inşası da nəzərdə tutulur. Mingəçevir şəhərində yaranacaq tullantı suları Yevlax rayonunun Hacıselli kəndi ərazisində inşası nəzərdə tutulan və məhsuldarlığı sutkada 60 min kubmetr olacaq qurğuda təmizlənərək kənarlaşdırılacaqdır. 2015-ci ildə Azərbaycanda keçirilən birinci Avropa oyunlarına hazırlıq çərçivəsində Mingəçevir şəhərində 41 kilometr içməli su, 30 kilometr kanalizasiya xətləri, 3 kanalizasiya nasos stansiyası inşa olunub. Bu nasos stansiyaları hesabına Kür çayının sol sahilində 13, sağ sahilində isə 8 nöqtədə təmizlənmədən çaya axıdılan tullantı suların qarşısı alınıbdır.*

*Mingəçevir şəhərinin ilk mərkəzləşdirilmiş içməli su təchizatı və kanalizasiya sistemləri ötən əsrin 50–60-cı illərində mərhələlərlə yaradılıb. Şəhərin içməli su təchizatı Mingəçevir su anbarı, Kür çayı və Qarabağ kanalı hesabına aparılırdı. Şəhərdə mövcud olmuş 175 kilometr uzunluğunda içməli su şəbəkəsi bütün istehlakçıları əhatə etmirdi və istismara yararsız vəziyyətə düşmüşdü. İçməli su fasilələrlə verilirdi. Əhalinin qalan hissəsi tələbatını fərdi qaydada ödəyirdi. Mingəçevirdə mövcud olmuş kanalizasiya şəbəkəsi də şəhəri tam əhatə etmirdi və uzun müddət istismar olunaraq, yararsız vəziyyətə düşmüşdü. Məhsuldarlığı sutkada 15300 kubmetr olan tullantı su-təmizləyici qurğunun fəaliyyəti 1985-ci ildən dayandırılıbdır.*

*Prezident İlham Əliyev Mingəçevir şəhərinin içməli su təchizatı sisteminin istismara verilməsini bildirən düyməni basdı.*

## Mingəçevir şəhərinin elektrik paylayıcı şəbəkəsinin Avtomatik İdarəetmə və Nəzarət Mərkəzinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 27-də Mingəçevir şəhərinin elektrik paylayıcı şəbəkə-*

*sinin Avtomatik İdarəetmə və Nəzarət Mərkəzinin açılışında iştirak etmişdir.*

*«Azərişıq» Açıq Səhmdar Cəmiyyətinin sədri Baba Rzayev Prezident İlham Əliyevə Avtomatik İdarəetmə və Nəzarət Mərkəzinin fəaliyyəti və burada yaradılan şərait barədə məlumat verdi.*

*Azərbaycan regionlarının elektrik təsərrüfatında silsilə və kompleks yenidən qurulma tədbirləri uğurla davam etdirilir. Bu tədbirlər ilk növbədə, elektrik enerjisinə tələbatın ödənilməsinə, rayonların elektrik enerjisi ilə təchizatının əsaslı şəkildə yaxşılaşdırılmasına, elektrik şəbəkələrində yüklənmələrin azalmasına, texniki itkilərin minimuma endirilməsinə imkan yaradıb. Hazırda respublikamızın bölgələrindəki energetika qurğuları həm müasir görünüşü, həm də texniki üstünlükləri ilə əvvəlkilərdən qat-qat üstündür. Bütün bu yeniliklər regionların sosial-iqtisadi inkişafına əsaslı töhfələrdir. Aparılan yenidən qurulma tədbirləri elektrik enerjisinə durmadan artan tələbatın ödənilməsində də mühüm rol oynayır. Paylayıcı şəbəkələrin müasirləşdirilməsi gündən-günə sürətlənir və daha geniş ərazini əhatə edir. Ötən əsrin 60-cı illərindən istismarda olan və tamamilə yararsız vəziyyətə düşən elektrik təsərrüfatında hazırda, sözün həqiqi mənasında, inqilabi dəyişikliklər aparılır. Yeni qurğular təkcə rayon mərkəzləri və iri yaşayış məntəqələrinin deyil, eləcə də ətraf kəndlərin elektrik enerjisi ilə etibarlı təchizatında böyük rol oynayır. «Azərişıq» regionlarda sənaye və aqrar bölmənin, eləcə də turizmin inkişafı üçün nəzərdə tutulan tədbirlərin dolğun həyata keçirilməsinə hərtərəfli dəstək vermək üçün silsilə işlər görür. Reallıq göstərir ki, kommunal xidmətlərin inkişafına dair bu quruma aid 3 strateji hədəf, 3 prioritet istiqaməti əhatə edən 11 tədbir üzrə işlər maksimum diqqətdə saxlanılır. Aparılan yenidən qurulma tədbirləri qarşıdakı 10 il üçün müəyyənləşdirilən elektrik enerjisinə tələbatın proqnozuna və dinamikasına, yəni «Azərişıq» ASC üzrə 2015–2025-ci illəri əhatə edən fəaliyyət planına uyğun həyata keçirilir.*

*Bildirildi ki, Avtomatik İdarəetmə və Nəzarət Mərkəzində elektrik enerjisinin alış nöqtəsindən istehlak nöqtəsinə qədər bütün mərhələlərdə şəbəkənin idarə olunması, balansın real vaxt rejimində və texnoloji itkilər müəyyənləşdirilərək təhlil edilməsi, qabaqlayıcı tədbirlərin görülməsi, sayğacların oxunması və xətlər üzrə yük parametrlərinin virtual arxivləşdirilməsi, elektron xəritə vasitəsilə abonentlərin müraciətlərinə əsasən texniki şərtlərin verilməsi, istehlakçıların elektrik şəbəkəsinə qoşulması haqda sənədlərin hazırlanması işləri həyata keçiriləcəkdir. Bundan başqa, mərkəz yüksək və aşağıgərginlikli şəbəkələrdə fasiləsiz və keyfiyyətli elektrik enerjisinə nəzarətin təmin edilməsində, sərfiyyat göstəricilərinin monitorinqində, elektrik şəbəkələrində açılma və qoşulmaların real vaxt rejimində qeydiyyatının aparılmasında müstəsna rol oynayacaqdır.*

*Mərkəzdə işçilərin səmərəli fəaliyyəti üçün elektroenergetika sahəsinin avadanlıqlarla yanaşı, nəzarət-monitorinq, avtomat idarəetmə, həmçinin enerji satışı, qəza və müştəri xidmətləri üçün xüsusi otaqlar da yaradılıb. «Azərişıq» ASC-nin Mərkəzi Aran Regional Elektrik Təchizatı və Satış İdarəsi də ötən müddətdə Mingəçevir, Bərdə, Tərtər, Yevlax, Kürdəmir, Ağdaş, Naftalan, Goranboy, Ucar, Ağsu, Göyçay şəhər və rayonları üzrə 1 milyon 200 min nəfər əhalini əhatə edən 261 min abonentə xidmətin səviyyəsinin yüksəldilməsi üçün kompleks tədbirlər reallaşdırıbdır. Ağsu rayonunda 110 kilovoltluq 3 və Ağdaş rayonunda 35 kilovoltluq 8 yarımstansiya tikilib, 490 yeni transformator məntəqəsi quraşdırılıb, 5700 transformator məntəqəsi əsaslı təmir olunubdur. Həmçinin 10,2 kilometr 110 kilovoltluq, 127 kilometr 35 kilovoltluq, 870 kilometr 6–10 kilovoltluq, 710 kilometr 0,4 kilovoltluq hava xətləri, 2300 kilometr özünü daşıyan izolyasiyalı naqillər çəkilib. Habelə 11 min yeni sayğac quraşdırılıb və 51 min sayğac yenisi ilə əvəz edilibdir. Görülmüş işlər nəticəsində texniki itkilər 13,5 faizdən 11,1 faizə enib, elektrik enerjisinin satışında yığım 65,5 faizdən 94,1 faizə yüksəlibdir.*

*Prezident İlham Əliyev Mingəçevir şəhərinin elektrik paylayıcı şəbəkəsinin Avtomatik İdarəetmə və Nəzarət Mərkəzini işə saldı.*

## Mingəçevir–Bəhramtəpə avtomobil yolunun əsaslı şəkildə təmir edilmiş 26 kilometrlik Aran–Qarağacı hissəsinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 27-də Mingəçevir–Bəhramtəpə avtomobil yolunun əsaslı şəkildə təmir edilmiş 26 kilometrlik Aran–Qarağacı hissəsinin açılışında iştirak etmişdir.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov yolun texniki göstəriciləri və görülən işlər barədə Prezident İlham Əliyevə məlumat verdi.*

*Azərbaycanda yol-nəqliyyat sisteminin təkmilləşdirilməsi, yeni körpülərin və yolayrıcılarının tikilməsi, magistral yolların salınması sosial yönümlü tədbirlər olmaqla yanaşı, ölkəmizin iqtisadi qüdrətinin nümayişi baxımından da mühüm əhəmiyyət kəsb edir. Regionlarda yol-nəqliyyat infrastrukturunun daha da müasirləşdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Hazırda respublikamızda kənd yollarının inşası və yenidən qurulması geniş vüsət alıb. Rəmzi «40 yol» layihəsinin həyata keçirilməsi məqsədilə dövlət büdcəsindən və Prezidentin ehtiyat fondundan kifayət qədər vəsait ayrılır. Bununla yanaşı, ölkənin əsas yolları da müasir səviyyədə yenidən qurulur. Görülən işlər yüksək keyfiyyətlə, həm də qısa müddətdə icra olunur. Azərbaycanda həyata keçirilən yol layihələri avtomobillərin hərəkətinin təhlükəsizliyinə zəmin yaratmaqla, həm də kənd təsərrüfatının inkişafına təkan verir, məhsulun tez bir zamanda istehsalçıdan istehlakçıya çatdırılmasına hərtərəfli şərait yaradır. Ümumilikdə bu layihələr hər bir vətəndaşın sosial rifah halına müsbət təsir göstərir və bölgələrimizin müxtəlif istiqamətlər üzrə potensialını nümayiş etdirir. Bu istiqamətdə icra*

*olunan layihələrdən biri də Mingəçevir–Bəhramtəpə avtomobil yolunun əsaslı şəkildə yenidən qurulmasıdır.*

*Bildirildi ki, yolun ümumi uzunluğu 26 kilometr, eni isə 12 metrdir. Üçüncü texniki dərəcəli yol 2 hərəkət hissəlidir. Hərəkət hissələrinin hər birinin eni 3,5 metrdir. Layihə çərçivəsində 2 yeni körpü və 5 yeraltı keçid inşa olunub, 53 boru quraşdırılıbdır. İşlərin yüksək keyfiyyətlə həyata keçirilməsi üçün yolun yenidən qurulması zamanı Avtomobil Yolları Dövlət Agentliyi bütün qüvvəsini səfərbər edib. İnşaat işləri texniki ardıcıllığa uyğun aparılıb. Mingəçevir–Bəhramtəpə avtomobil yolu respublikamızın regionları, o cümlədən Yevlax, Bərdə, Beyləqan rayonları arasında iqtisadi əlaqələrin, həmçinin turizmin və regionların sosial-iqtisadi inkişafı, nəqliyyat xərclərinin azaldılması baxımından mühüm əhəmiyyətə malikdir. Bütün bu xüsusiyyətlərlə yanaşı, Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərini əlaqələndirən bir magistral olmaqla, tranzit xidmətlərinin səmərəliliyinin artırılmasında da bu yolun mühüm rolu vardır. Beləliklə, ölkədə yol infrastrukturunun müasirləşdirilməsi istiqamətində əsaslı dəyişikliklərin yer aldığı prosesi hər bir vətəndaş öz həyatında hiss edir.*

## «MİNGƏÇEVİR TEKSTİL» MMC-nin İPLİK İSTEHSALI ÜZRƏ İKİ MÜƏSSİSƏSİNİN AÇILIŞI ZAMANI ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*27 fevral 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 27-də Mingəçevir Sənaye Parkında «Mingəçevir Tekstil» MMC-nin iplik istehsalı üzrə iki müəssisəsinin açılışında iştirak etmişlər.*

*Azərbaycanda qeyri-neft sənayesinin davamlı inkişafında, yerli ehtiyatlardan istifadə etməklə, sənaye sahələrinin yaradılması, istehsal prosesinin təşkilində infrastruktur xərclərinin azaldılması, sahibkarlar arasında kooperasiya əlaqələrinin gücləndirilməsi, məşğulluqda sənayenin xüsusi çəkisinin artırılmasında sənaye parkları və sənaye məhəllələri mühüm əhəmiyyət kəsb edir. Belə sənaye parklarından biri də yeni yaradılan Mingəçevir Sənaye Parkıdır. 2016-cı il sentyabrın 21-də təməli qoyulmuş Mingəçevir Sənaye Parkında yüngül sənaye məhsulları, o cümlədən iplik, boyama, toxuma, tikiş, corab, ayaqqabı və tibbi kosmetika istehsalı üzrə 9 fabrikin yaradılması qərara alınıbdır. Sənaye parkında fəaliyyət göstərəcək müəssisələrin xammal təchizatının davamlılığını və etibarlılığını təmin etmək üçün ardıcıl tədbirlər görülür. Aqrar sektorun strateji və ölkəyə valyuta gətirən mühüm sahələrindən biri olan pambıqçılığın inkişafı ilə bağlı aparılan məqsədyönlü siyasətin nəticəsi olaraq imzalanmış fərman və sərəncamlar, pambıqçılığın inkişafı məsələlərinə dair keçirilmiş respublika müşavirələri, qəbul olunmuş Dövlət Proqramı, bu sahə üzrə müxtəlif dəstək və təşviq mexanizmlərinin tətbiq edilməsi pam-*

*bıqçılığın inkişafı üçün əlverişli şərait yaradıbdır. Görülən işlərin nəticəsidir ki, 2017-ci ildə pambıq istehsalı 2016-cı ilə nisbətən 2,3 dəfə artaraq, 207,5 min tona çatıb. Hazırda respublikada illik istehsal gücü 24,6 min ton olan 6 İplik fabriki fəaliyyət göstərir. Lakin pambıqçılığın sürətlə inkişafı, innovativ texnologiyaların tətbiqi və yüksək məhsuldarlığın əldə olunması nəticəsində qabaqcıl texnologiyalara əsaslanan yeni istehsal və emal sahələrinin təşkilinə ehtiyac yaranıb. Mingəçevir Sənaye Parkının ərazisində 14,5 hektar sahədə yaradılmış «Mingəçevir Tekstil» Məhdud Məsuliyyətli Cəmiyyətinin 2 İplik fabriki də belə müəssisələrdəndir.*

*Dövlət başçısı Pambıq-Poliester fabrikini işə saldı.*

*İqtisadiyyat naziri Şahin Mustafayev və layihə rəhbəri Mehriban Axundova dövlət başçısına və xanımına məlumat verdilər ki, ümumi dəyəri 144 milyon manat olan fabriklərin yaradılmasına İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 10 milyon manat güzəştli kredit verilib. Müasir texnologiyalar əsasında yaradılmış fabriklər Almaniya, İsveçrə, İspaniya və Yaponiyanın aparıcı şirkətlərinin avadanlıqları ilə təchiz edilibdir.*

*Fabriklərdə pambıq mahlıcından ildə 10 min tonu «Ring», 10 min tonu isə «Open End» üsulu ilə olmaqla, ümumilikdə 20 min ton müxtəlif cür iplik istehsalı nəzərdə tutulur. «Ring» üsulu ilə istehsal edilən pambıq-poliester iplik daha zərif və yumşaq olduğu üçün uzunlifli pambıqdan alınır və daha bahalıdır. Bu məhsuldan əsasən köynək istehsal olunacaqdır.*

*Daha sonra Prezident İlham Əliyev «Open End» üsulu ilə iplik istehsalı müəssisəsini işə saldı.*

*Bildirildi ki, «Open End» üsulu ilə alınan iplik daha kobud olduğundan əsasən cins və digər geyimlərin istehsalında istifadə olunur. Belə müəssisələrin istifadəyə verilməsi ölkədə toxuculuq sənayesinin inkişafına, yerli istehsal müəssisələrinin davamlı, keyfiyyətli və ucuz xammal ilə təmin olunmasına, eləcə də istehsal edilən pambığın hazır məhsul kimi ixracına imkan*

*verəcəkdir. Bunun da nəticəsində ölkəmizə əlavə valyuta daxil olacaqdır. Bu həmçinin sənaye sahəsində idxaldan asılılığın azaldılması, ixrac potensialının artırılması, milli tekstil brendlərin yaradılması, ixtisaslı kadrların hazırlanması və yeni iş yerlərinin açılması baxımından xüsusi əhəmiyyət kəsb edir.*

*Parkda sənaye məhsulları istehsalı üzrə müxtəlif ixrac potensiallı və rentabelli fabrik və zavodların yaradılması istiqamətində araşdırmalar aparılır. Diqqətəlayiq haldır ki, müəssisələr layihələndirilərkən, təkcə istehsal prosesi deyil, orada çalışanlar üçün yaradılan müxtəlif xidmət növlərinin təşkilinə də xüsusi önəm verilir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva yeməkxanada yaradılan şəraitlə də tanış oldular.*

*Yeni fabriklərlə tanışlıqdan sonra dövlət başçısı və xanımı müəssisələrin işçiləri və şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdülər.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Bu gün Mingəçevir şəhərinin həyatında çox əlamətdar bir gündür. Biz Mingəçevir Sənaye Parkının açılışını qeyd edirik. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm, sizə uğurlar arzulayıram.

Xatırlayıram, 2016-cı ilin sentyabr ayında biz bu ərazidə Mingəçevir Sənaye Parkının təməlini qoyduq. O vaxt bu ərazidə heç nə yox idi, boş ərazi idi. O vaxt təqdimat edildi və göstərildi ki, yaxın gələcəkdə burada bir neçə İplik fabriki və digər fabriklər yaradılacaqdır. Əlbəttə, bu çox böyük layihədir. Bu layihə həm Mingəçevirin və ümumiyyətlə, Azərbaycanın sənaye potensialını xeyli dərəcədə gücləndirəcəkdir.

Şadam ki, verilən bütün vədlər yerinə yetirildi. Hazırda Mingəçevir Sənaye Parkının ilk 2 fabriki açılır. Bu, dövlət–özəl sektor tərəfdaşlığının gözəl təzahürüdür. Çünki dövlət özəl

sektorun inkişafı üçün əlindən gələni əsirgəmir, sahibkarlara güzəştli şərtlərlə kreditlər, metodik tövsiyələr verilir, iş yerlərinin yaradılması istiqamətində böyük işlər aparılır. Dövlət sənaye parklarının yaradılması ilə özəl sektora şərait yaradır. Əgər dövlət bu funksiyanı öz üzərinə götürməsəydi, əlbəttə, özəl sektor, sahibkarlar üçün belə nəhəng fabrikləri yaratmaq o qədər də asan olmayacaqdı. Özəl sektor isə öz növbəsində, həm dövlətin güzəştli şərtlərlə verilmiş kreditlərindən yararlanır, eyni zamanda, öz vəsaitini qoymaqla, belə gözəl fabriklər yaradır. Ona görə Azərbaycanda son illər ərzində yaradılan sənaye zonaları, sənaye məhəllələri, sənaye parkları bu məqsədi güdür. Mən əvvəlki illərdə də demişəm ki, Mingəçevir ölkəmizin güclü sənaye mərkəzlərindən birinə çevrilməlidir və biz bunu artıq görürük.

Ölkəmizdə bir neçə şəhərdə sənaye məhəllələri, zonaları vardır. Onların ən böyüyü Sumqayıt Kimya Sənaye Parkıdır. Oraya yatırılan investisiyaların həcmi 2,7 milyard dollardır. Neftçala, Hacıqabul, Sabirabad, Masallı və digər şəhərlərdə sənaye zonaları yaradılacaq və yaradılır, o cümlədən Mingəçevirdə.

Bu fabriklərdə 700–750 insan işlə təmin edilir və burada çalışanların böyük əksəriyyəti qadınlardır. Bu da çox gözəl haldır. Çünki biz qadınları işlə təmin edirik və ümumiyyətlə, Mingəçevirdə işsizliyin aradan qaldırılması üçün bu fabriklərin çox böyük rolu olacaqdır. Burada 700–750 insan daimi işlə təmin edilir. Buraya böyük vəsait yatırılıb, 140 milyon manat sərmayə qoyulub. Bu da onu göstərir ki, Azərbaycan sərmayə qoyuluşu üçün çox əlverişli məkandır, gözəl ölkədir. Son 15 il ərzində ölkə iqtisadiyyatına 230 milyard dollardan çox sərmayə qoyulub. İndi bizim əsas məqsədimiz ondan ibarətdir ki, bu sərmayə daha çox qeyri-neft sektoruna qoyulsun.

Azərbaycanda hazırda 6 İplik fabriki fəaliyyət göstərir. Bu 2 fabrik bu gün istifadəyə verilir. Beləliklə, onların sayı 8-ə qalxır. 6 fabrikin istehsal gücü 24 min ton iplikdir. Bu 2 fabrikdə isə 20 min ton iplik istehsal olunacaqdır. Yəni bu müasir

fabriklərdə əvvəlki dövrlərdə istifadəyə verilmiş fabriklərlə, demək olar ki, eyni səviyyədə iplik istehsal olunacaq və həm daxili tələbatı təmin edəcək, həm də ixrac olunacaqdır.

Bu gün bizim əsas məqsədimiz qeyri-neft ixracının artırılmasıdır və bu istiqamətdə də çox gözəl işlər görülür. Bu fabrikin timsalında biz ölkəmizin hərtərəfli inkişafını görürük. Çünki bu, böyük sənaye mərkəzidir, sənaye müəssisələridir. Eyni zamanda, burada əsas xammal yerli pambıqdır, mahlıcdır. Son illər ərzində pambıqçılığın sürətli inkişafı bu fabriklərin yaranmasına zəmin oldu. Əgər biz 2 il bundan əvvəl pambıqçılığın dirçəldilməsi ilə ciddi məşğul olmasaydıq, bu fabriklər də yaranmayacaqdı. Çünki xaricdən mahlıc gətirmək, burada onu ipliyə çevirmək çox bahalı bir təşəbbüs ola bilərdi. Ona görə son 2 il ərzində Azərbaycanda pambıq istehsalı 35 min tondan 207 min tona qalxıb. Ümid edirəm ki, bu il daha çox pambıq yığımı nəzərdə tutulur. Pambığın, mahlıcın əsas hissəsi Azərbaycanda emal olunacaq, beləliklə, əlavə dəyər, iş yerləri yaranacaq və biz mahlıcı yox, hazırda ipliyi, gələcəkdə isə hazır məhsulu, tekstili, parçanı ixrac edə və daxili bazarı təmin edə bilərik.

Kənd təsərrüfatının sürətli inkişafına böyük dövlət dəstəyi göstərilir, texnika alınır, suvarma işləri aparılır, güzəştli şərtlərlə gübrələr, yanacaq, subsidiyalar verilir, o cümlədən pambıqçılığın inkişafı, sənaye müəssisələrinin yaradılması üçün dövlət öz dəstəyini göstərir. Özəl sektor da bu işlərdə çox fəaldır. Ona görə ölkəmizin hərtərəfli inkişafı üçün bu əsas istiqamət mütləq inkişaf edəcəkdir. Sənaye istehsalı, kənd təsərrüfatı məhsullarının istehsalı – Mingəçevirdə biz bu 2 önəmli sahənin birləşməsini görürük və beləliklə, Mingəçevir, dediyim kimi, Azərbaycanın ən güclü sənaye mərkəzlərindən birinə çevrilir.

Bu hələ başlanğıcdır. Bu 2 fabrikin işə düşməsi əminəm ki, yeni fabriklərin yaranmasına təkan verəcək və planlar da vardır. 2016-cı ildə göstərilən təqdimatda bildirilmişdi ki, yeni fabriklərin yaranması nəzərdə tutulur. Əminəm ki, yaxın gələcəkdə Mingəçevirdə minlərlə yeni iş yeri yaradılacaqdır.

Bütövlükdə Mingəçevirin inkişafına böyük diqqət göstərilir. Mənim Prezident kimi Mingəçevirə bu səfərim 7-cidir. Əvvəlki dövrlərdə bir çox açılışlarda iştirak etmişəm. Mingəçevirdə sosial sahədə böyük işlər görülür, 430 çarpayılıq Mərkəzi Şəhər Xəstəxanası əsaslı şəkildə təmir edilib, Kür Olimpiya Avarçəkmə bazası yenidən qurulub, ictimai binalar, mədəniyyət mərkəzləri, şahmat, gənclər mərkəzləri istifadəyə verilibdir. Mingəçevirin mədəni həyatı da zəngindir, bu istiqamətdə də işlər görülübdür. İnfrastruktur layihələri icra edilib, elektrik enerjisi ilə tam təminat vardır, qazlaşdırılma 97 faizdir, artıq Mingəçevirə içməli su verilir və bu gün içməli su layihəsinin rəsmi açılışı mərasimi keçirildi. Bu da çox böyük layihədir. İçməli su və kanalizasiya layihələri birlikdə təqribən 300 milyon manata yaxın vəsait tələb edib. İçməli su məsələsi artıq həll olunub. Əgər əvvəlki illərdə əhalinin 50 faizi içməli su alırdısa, indi əhalinin 100 faizi Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su ilə təmin edilir.

Bu gün eyni zamanda, Mingəçevir Su-Elektrik Stansiyasının əsaslı yenidən qurulmadan sonra açılışı oldu. Onun gücü 300 meqavatdan 420 meqavata çatdırıldı. Bu gün Mingəçevirdə «ASAN həyat» kompleksi açılır, bu da şəhər sakinləri üçün növbəti hədiyyədir. Yollar abadlaşdırılıb, yəni Mingəçevir hərtərəfli inkişaf edir. Mingəçevirin gələcək inkişafı üçün əlavə tədbirlər görüləcək ki, şəhər daha da sürətlə inkişaf etsin.

Eyni zamanda, son illərdə Mingəçevir turizm mərkəzinə çevrilir. Burada yeni hotellər açılır, turistlərin sayı artır, turizm hərtərəfli inkişaf edir. Amma, əlbəttə, Mingəçevir ilk növbədə, gözəl, müasir yüngül sənaye mərkəzi kimi inkişaf etməlidir. Şəhərin inkişafı üçün nə lazımdırsa, onu da edəcəyik. Bax, bu gün bu 2 fabrikin açılışı göstərir ki, nə demişiksə, nə söz vermişiksə, onu da edirik.

Sizi bu gözəl hadisə münasibətilə təbrik edirəm və uğurlar arzulayıram. Sağ olun.

* * *

*Müəssisənin işçisi Hüseyn Həşimov mingəçevirlilər üçün gözəl hədiyyə olan yeni fabriklərin inşasına verdiyi dəstəyə və bütövlükdə şəhərin inkişafına göstərdiyi diqqət və qayğıya görə dövlət başçısına minnətdarlığını bildirdi.*

**H ü s e y n  H ə ş i m o v:** Möhtərəm cənab Prezident!

İcazə verin, Sizi kollektivimiz və bütün şəhər ictimaiyyəti adından salamlayaq. Bu gün bizim üçün çox əlamətdar bir gündür. İl yarım bundan əvvəl Sizin xeyir-duanızla təməli qoyulan Mingəçevir Sənaye Parkının ilkin mərhələsinin açılışını edirsiniz. Bu gün respublikamızda yerli sənaye xammalından istifadə etməklə, sənaye müəssisələrinin yaradılmasına xüsusi diqqət yetirilir. Bu, sözsüz ki, Sizin düşünülmüş və uzaqgörən siyasətinizdir. Həmçinin son dövrlər Sizin tapşırığınızla pambıqçılığın inkişafı istiqamətində də çox böyük addımlar atılıbdır. Pambıqçılıq artıq öz əvvəlki şöhrətini qaytarır. Bu sahənin yüksək templə inkişaf etməsi yeni istehsal və emal müəssisələrinin qurulmasına xüsusi ehtiyac yaradır.

Bu gün açılışını etdiyiniz fabriklərdə Almaniya, İspaniya, İsveçrə, Yaponiyadan gətirilmiş ən müasir avadanlıqlar quraşdırılıb. Burada pambıq mahlıcından ildə 20 min ton müxtəlif ipliklərin hazırlanması nəzərdə tutulur. Bu ipliklər həm xarici bazara ixrac olunacaq, həm də sənaye parkının digər mərhələlərində yüngül sənaye məhsullarının istehsalında istifadə ediləcəkdir. Bu fabriklərin işə düşməsi nəticəsində artıq 700 nəfər burada işlə təmin olunacaqdır. Sənaye parkı tam gücü ilə işə düşəndən sonra isə şəhərin minlərlə sakini artıq burada daimi işlə təmin ediləcəkdir. Bu müəssisələrin işə düşməsi Mingəçevirimizə bir daha şəhər əhval-ruhiyyəsi gətirir və şəhərimiz üçün ənənəvi olan istehsal sahələrinin də inkişafına öz töhfəsini vermiş olur. Bu həmçinin əhalinin işlə təmin olunmasına, onların sosial rifahının yaxşılaşdırılmasına, eləcə də qeyri-neft sektorunun inkişafına və bölgə iqtisadiyyatının

şaxələndirilməsinə yönəlmiş siyasətinizin bariz nümunəsidir. Sizin qeyri-neft sektorunun inkişafına və neftdən asılılığın aradan qaldırılmasına yönəlmiş bu siyasətiniz hamımızın ürəyincədir.

Mən ali təhsilli mütəxəssisəm. Əvvəllər müxtəlif sahələrdə çalışmışam. Ötən ildən burada briqadir kimi əmək fəaliyyətinə başlamışam, hazırda isə İplik fabrikinin istehsalat rəhbəri vəzifəsində çalışıram. Tam əminliklə deyə bilərəm ki, Mingəçevir Sənaye Parkı Cənubi Qafqazın ən böyük yüngül sənaye parkına çevriləcəkdir.

Çox sağ olun, cənab Prezident, diqqət və qayğınıza görə biz mingəçevirlilər Sizə minnətdarıq. Həmçinin Sizinlə birlikdə Azərbaycan xalqının qayğısını çəkən Mehriban xanıma dərin minnətdarlığımızı bildiririk. Biz mingəçevirlilər əmin edirik ki, həmişə yalnız Sizin siyasi xəttinizi dəstəkləyəcəyik və həmişə Sizinlə olacağıq.

Möhtərəm cənab Prezident, bu gün çox əlamətdar bir gündür. Xalqımızın, elimizin gözəl bayramı olan Novruzun ilk çərşənbəsi – Su çərşənbəsidir. Bu gözəl bayram münasibətilə Sizi, ailə üzvlərinizi təbrik edirik. Qoy Novruzun bu bayram günləri xalqımıza xoş müjdələr gətirsin. Elə müjdələr gətirsin ki, Azərbaycanın hər bir vətəndaşı ondan faydalana bilsin. Sizə uzun ömür, cansağlığı və Azərbaycanımızın gələcəyi naminə aparacağınız işlərdə yeni-yeni uğurlar arzulayırıq.

**İlham Əliyev:** Sağ olun. Sizi də bayram münasibətilə təbrik edirəm, cansağlığı arzulayıram. Uğurlarınız çox olsun.

## «ASAN həyat» kompleksinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 27-də Mingəçevirdə «ASAN həyat» kompleksinin açılışında iştirak etmişlər.*

*Dövlət başçısı və xanımı kompleksin rəmzi açılışını bildirən lenti kəsdilər.*

*Azərbaycan Respublikası Prezidentinin hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi, şöbə müdiri Fuad Ələsgərov və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov Mingəçevir «ASAN həyat» kompleksi barədə dövlət başçısına və xanımına ətraflı məlumat verdilər.*

*Azərbaycanda dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində son illərdə əhəmiyyətli işlər görülüb, müvafiq hüquqi baza formalaşdırılıbdır. Əksər dövlət orqanlarında əhaliyə elektron xidmətlərin göstərilməsi təmin edilib. Bu xidmətlər bürokratik əngəlləri və mümkün korrupsiya hallarını aradan qaldırır. 2012-ci il iyulun 13-də bu sahədə daha mühüm islahata imza atıldı. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində olan «ASAN xidmət» mərkəzləri yaradıldı. Bu qurumun yaradılmasında məqsəd vətəndaşlara birbaşa xidmət göstərəcək «ASAN xidmət» mərkəzlərinin vahid şəkildə idarə edilməsi idi. Buraya xidmət mərkəzlərində fəaliyyət göstərən dövlət orqanları əməkdaşlarının işinin əlaqələndirilməsi, nəzarət və qiymətləndirmənin aparılması, dövlət orqanları informasiya bazalarının qarşılıqlı inteqrasiyası, elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsi və bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsi daxildir.*

*2012-ci ildən başlayaraq, Bakının bir neçə rayonunda «ASAN xidmət» mərkəzləri sakinlərin istifadəsinə verildi. Daha sonra bu proses regionları da əhatə etməyə başladı. Hazırda bu mərkəzlərə daxil olan müraciətlər arasında şəxsiyyət vəsiqələrinin alınması və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, notariat fəaliyyəti, eləcə də miqrasiya və əmlak məsələləri ilə bağlı olanlar üstünlük təşkil edir. Əgər əvvəllər «ASAN xidmət» mərkəzlərində 23 hüquqi xidmət həyata keçirilirdisə, indi 10 dövlət orqanı tərəfindən 32 növ xidmət göstərilir. Eyni zamanda,*

*özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə vətəndaşlara 250-yə yaxın müxtəlif xidmətlər göstərilir. Bütün bunlar dövlət qulluqçusu–vətəndaş münasibətlərində yeni yanaşmanın formalaşmasında Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin mühüm tərkib hissəsidir.*

*Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi beynəlxalq əlaqələrə də üstünlük verir. Bu gün «ASAN xidmət»in fəaliyyəti Avropa İttifaqı, Avropa Parlamenti, Böyük Britaniya Parlamenti, Fransa, Almaniya və digər ölkələrdə yüksək qiymətləndirilir. Özünəməxsus hüquqi strukturu olan bu model bir çox beynəlxalq əməkdaşlar və ekspertlər tərəfindən təqdirəlayiq hesab olunur. Artıq Azərbaycanın «ASAN xidmət» modeli əsasında Əfqanıstanda dövlət xidmətlərinin göstərilməsi sahəsində eyniadlı qurum «Asan Khedmat» təsis edilibdir. Bundan başqa, İtaliya, Koreya Respublikası, Fransa, İndoneziya, Monteneqro və İSESKO təşkilatı ilə əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. 2014-cü ildə «ASAN xidmət» İSO 9001:2008 və OHSAS 18001:2007 standartı üzrə beynəlxalq dərəcəli sertifikatlara layiq görülüb. «ASAN xidmət», həmçinin Britaniya Əməyin Mühafizəsi Şurası tərəfindən beynəlxalq müsabiqənin qalibi olub. «ASAN xidmət» 2015-ci ildə BMT-nin «Dövlət xidmətlərinin göstərilməsinin təkmilləşdirilməsi» kateqoriyasında birinci yerə layiq görülərək, xüsusi mükafat və diplomla təltif olunubdur. Bu faktların özü bir daha təsdiqləyir ki, Azərbaycan brendi olan «ASAN xidmət»ə dünyada böyük maraq vardır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva kompleksdə yaradılan şəraitlə tanış oldular.*

*Məlumat verildi ki, Mingəçevir «ASAN həyat» kompleksi Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sayca 13-cü mərkəzidir. Şəhərin Zərifə Əliyeva prospekti, 2 ünvanında yerləşən və öz möhtəşəmliyi ilə seçilən kompleksin binasının*

*tikintisinə 2017-ci ildə başlanılıb. İnşaat işləri 2018-ci ilin fevralında başa çatdırılıbdır. Kompleks üçmərtəbəli inzibati binadan və 3 ictimai iaşə obyektindən ibarətdir.*

*Kompleksin «ASAN xidmət» mərkəzində Ədliyyə, Daxili İşlər, Vergilər, İqtisadiyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Gömrük Komitəsi, Dövlət Miqrasiya Xidməti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Milli Arxiv İdarəsi, ümumilikdə 10 dövlət orqanı tərəfindən vətəndaşlara 32 növ xidmət göstəriləcəkdir. Eyni zamanda, mərkəzdə 112 növ funksional yardımçı xidmətlər, o cümlədən bank, sığorta, hüquqi yardım, tərcümə və digər xidmətlər təşkil ediləcəkdir. Mərkəzdə çalışacaq əməkdaşların sayı 154, könüllülərin sayı isə 45 nəfərdir. Bu mərkəz Mingəçevir şəhərinə, Yevlax və Ağdaş rayonlarında qeydiyyatda olan 337767 vətəndaşa xidmət göstərəcəkdir.*

*Dövlət başçısı mərkəzi işə saldı.*

*Bildirildi ki, bu günədək «ASAN xidmət» mərkəzlərinə daxil olan müraciətlərin sayı 20 milyona çatıb. Regionlarda 10 səyyar «ASAN xidmət» avtobusu və səyyar «ASAN qatar» vasitəsilə vətəndaşlara xidmətlərin göstərilməsi davam etdirilir. 2013-cü ilin iyunundan etibarən təqribən 1 milyon 329 mindən çox vətəndaşa səyyar formada xidmət göstərilib. Mərkəzdə kommunal xidmətlərin göstərilməsi üçün ayrıca bölmə yaradılıb. Burada «Azərişıq» ASC, «Azərsu» ASC və «Azəriqaz» İB tərəfindən xidmətlər təqdim olunacaqdır.*

*Paytaxt Bakıda fəaliyyət göstərən 2 «ASAN kommunal» xidmətində bu günədək 380 min vətəndaş müraciəti qeydə alınıbdır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva mərkəzdəki innovativ yeniliklərlə tanış oldular.*

*Dövlət başçısına və xanımına növbəti illərdə inşası və istifadəyə verilməsi nəzərdə tutulan digər «ASAN xidmət» mərkəzlərinin layihələri də təqdim olundu.*

*Elektron xidmətlərin qiymətləndirilməsi üzrə nəticələrin təqdimatı zamanı bildirildi ki, dövlət orqanları tərəfindən vətəndaşlara təqdim edilən elektron xidmətlərin keyfiyyətinin müəyyənləşdirilməsi və xidmətlərin təkmilləşdirilməsi məqsədilə Dövlət Agentliyi tərəfindən 2013-cü ildən başlayaraq, hər il elektron xidmətlərin qiymətləndirilməsi həyata keçirilir. Qiymətləndirmə çərçivəsində elektron xidmətlərin təqdim edilməsi üçün uyğunluğu müəyyən edilir və çatışmazlıqların aradan qaldırılması istiqamətində təkliflər verilir.*

*«İnnoLAND» layihəsi isə ölkədə innovasiya ekosisteminin bütün iştirakçılarının cəlb edilməsi yolu ilə innovasiya fəaliyyətinin stimullaşdırılması və uğurlu startapların yaradılmasını, beynəlxalq rəqabətədavamlı innovativ məhsul və xidmətlərin istehsalını təşviq edəcəkdir. Layihə çərçivəsində pilot olaraq yaradılacaq məkanda startapçılara ilkin ideyadan hazır innovativ məhsul və xidmət istehsalına qədər bütün mərhələlərdə dəstək göstərilməsi, innovasiya şirkətlərinin sayının və fəaliyyətinin səmərəliliyinin artırılması istiqamətində işlər həyata keçiriləcəkdir.*

*Diqqətə çatdırıldı ki, yeni layihələrdən biri də «Mobile Gov» aplikasiyasıdır. Mobil aplikasiya ölkədə telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair «Strateji Yol Xəritəsi»ndə müəyyən edilmiş «Gov 2.0» versiyasında «Mobil hökumət»in yaradılması tapşırığına uyğun olaraq hazırlanıb. Aplikasiya müxtəlif dövlət orqanlarının informasiya sistemlərinin inteqrasiyası vasitəsilə istifadəçilərə smartfonlarından istifadə etməklə, dövlət xidmətlərindən yararlanmaq imkanı verəcəkdir.*

*Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya «ASAN xidmət»lərin özünəxidmət terminalı vasitəsilə təqdim olunması barədə də məlumat verildi.*

*Qeyd edildi ki, məmur və vətəndaş arasında təmasın minimallaşdırılması məqsədilə hazırlanmış bu terminallar vasitəsilə vətəndaş müxtəlif xidmətlərdən vaxt itirmədən və əlavə heç bir yerə get-*

*mədən yararlana biləcəkdir. Vətəndaş əldə etmək istədiyi xidməti seçməklə, biometrik şəkil və digər məlumatları sistemə daxil edir, elektron ərizə formasını doldurur və xidmət üzrə müraciət edir.*

*Daha bir yenilik isə «ASAN ödəniş» sistemi üzərindən viza verilməsi prosesidir. Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycanın beynəlxalq aeroportlarında viza müraciəti prosesinin təmin edilməsi üçün «ASAN ödəniş» terminallarından istifadə ediləcək. Terminallara inteqrasiya edilmiş «ASAN viza» sistemi vasitəsilə əcnəbilər elektron müraciət formasını dolduraraq, viza rüsumunu terminaldan ödəyə biləcəklər. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər vizaya dair müraciətlərinin nəticələrini də «ASAN ödəniş» terminalından əldə edə biləcəklər.*

*Yeni layihələrdən biri də «ASAN turist» mobil aplikasiyasıdır. Bu layihə ölkəmizə gələn turistlərin bütün turizm xidmətlərindən yararlanmasına imkan verəcək vahid platformadır. Turistlər aplikasiyadan istifadə etməklə, öz maraq dairəsinə uyğun obyektləri naviqatordan rahatlıqla taparaq, xidmətlərdən istifadə edə, turizm şirkətlərinin regionlara təşkil etdikləri turlardan yararlana və özləri üçün səfərləri planlaşdıra bilərlər.*

*Diqqətə çatdırıldı ki, «Elektron hökumət» kabineti vətəndaşların xüsusi proqram təminatı və qurğular vasitəsilə dövlət xidmətlərindən yararlanmaları üçün modulyar kabinetdir. Kabinetə daxil olmaqla, vətəndaş dövlət orqanının nümayəndəsinin iştirakı olmadan müxtəlif xidmətlərə müraciət edə və xidmətlərdən yararlana bilər.*

*Mingəçevir «ASAN həyat» konsepsiyası Mingəçevir «ASAN xidmət» Mərkəzi ilə yanaşı, ictimai iaşə obyektlərinin istifadəyə verilməsini də nəzərdə tutur. Belə ki, vətəndaşlar operativ və gülərüz xidmətlə yanaşı, bu konseptin istirahət və əyləncə imkanlarından da istifadə edə biləcəklər. «ASAN həyat» kompleksi vətəndaşların rahatlığı üçün həyat standartlarının yaxşılaşdırılmasına xidmət edən müxtəlif həlləri əhatə edir. Kom-*

*pleksin kinoklubunda Azərbaycan filmləri ilə yanaşı, xarici ölkələrin ekran əsərləri də nümayiş etdiriləcəkdir.*

*Könüllülər «ASAN xidmət» fəaliyyətə başladığı ilk gündən etibarən bu konsepsiyanın komponentidir. Bu prosesə 14 min könüllü gənc qoşulub. Bu günə kimi könüllülər tərəfindən 1000 təlim, 300 layihə həyata keçirilib. Habelə 850-dən çox könüllü «ASAN kadr» portalı vasitəsilə işlə təmin olunub. «ASAN məktub» və «ASAN kadr» layihələri qabaqcıl təcrübələr kimi, BMT-nin «Cənub–Cənub Əməkdaşlığı çərçivəsində Qabaqcıl Mexanizmlər və Həllər» portalına daxil edilibdir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva «ASAN həyat» kompleksinə daxil olan «ASAN peşə» ilə də tanış oldular.*

*Təhsil Nazirliyinin və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə layihəsi olan «ASAN peşə» Mərkəzi yaradılıb. Layihə ixtisaslı kadrların hazırlanmasını və onların əmək bazarının dəyişən tələblərinə uyğun rəqabətqabliyyətliliyinin artırılmasını təmin etmək məqsədi daşıyır. «ASAN peşə» Mərkəzi bütün növ zəruri avadanlıq, təlim və tədris vəsaitləri ilə təchiz olunub. Layihəyə uyğun olaraq, «ASAN peşə» Mərkəzində 4 istiqamət üzrə – elektrik, mexanik, santexnik, tikişçi peşələri üzrə ən müasir maddi-texniki baza vardır və burada mütəxəssislərin iştirakı nəzərdə tutulubdur.*

*«ASAN həyat» kompleksinin yerləşdiyi ərazidə avtomobil dayanacağı da yaradılıb. Buradakı yerüstü keçid piyadaların təhlükəsiz hərəkətini təmin edir.*

**BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RUMEN RADEVƏ**

Hörmətli cənab Prezident!

Bolqarıstan Respublikasının milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan–Bolqarıstan əlaqələri, ölkələrimiz arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri bundan sonra da inkişaf edərək, xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Bolqarıstan xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 fevral 2018-ci il*

## MİSİR ƏRƏB RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ ADEL İBRAHİM ƏHMƏD İBRAHİM İLƏ GÖRÜŞ

*28 fevral 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Misir Ərəb Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Adel İbrahim Əhməd İbrahimin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Adel İbrahim Əhməd İbrahim Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Adel İbrahim Əhməd İbrahim etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Azərbaycanın çox gözəl ölkə olduğunu bildirən Adel İbrahim Əhməd İbrahim burada özünü evindəki kimi hiss etdiyini qeyd etdi, Misir xalqının Azərbaycana və Azərbaycan xalqına səmimi hisslər bəslədiyini bildirdi. Səfir hər iki ölkə rəhbərliyinin dəstəyi ilə ölkələrimiz arasında əlaqələrin daha da inkişaf edəcəyinə əminliyini ifadə etdi.*

*Prezident İlham Əliyev ölkəmizin Misirlə ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi və bu ölkə ilə daha yaxın tərəfdaşlıq əlaqələrinin qurulmasına önəm verdiyini diqqətə çatdırdı. Dövlət başçısı ölkələrimiz arasında qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunaraq, bu yaxınlarda Qahirə şəhərində Azərbaycan–Misir hökumətlərarası birgə Komissiyanın iclasının uğurla keçirilməsindən məmnunluğunu ifadə etdi. İki ölkənin beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlığının gələcəkdə də davam etdiriləcəyinə ümidvar olduğunu bildirən*

*Prezident İlham Əliyev Azərbaycan ilə Misirin BMT, İslam Əməkdaşlıq Təşkilatı və digər qurumlarda qarşılıqlı dəstək nümayiş etdirdiklərini bildirdi, mövcud siyasi dialoqun səmərəli şəkildə davam etdirilməsinin önəmini vurğuladı. İki ölkə arasında ticarət dövriyyəsinin artırılması üçün iqtisadi sahədə daha çox işlərin görülməsinin vacibliyini qeyd edən dövlət başçısı bu sahədə böyük imkanların mövcud olduğunu bildirdi. Ölkələrimizin qarşılıqlı idxal-ixrac potensialından faydalana biləcəyini vurğulayan Prezident İlham Əliyev, həmçinin sərmayə imkanlarının araşdırılmasının və hər iki ölkədən olan şirkətlərin fəaliyyəti üçün lazımi şərtlərin yaradılmasının əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı Azərbaycanın bütün sahələrdə Misirlə sıx əlaqələr qurmaq niyyətində olduğunu deyərək, iki ölkə arasında turizm sahəsində əməkdaşlıq imkanları ilə bağlı müzakirələrin aparıldığını, insanların daha müntəzəm səyahətlərinin təşkil edilməsi üçün birbaşa uçuşların yaradılmasının önəminə toxundu.*

*Prezident İlham Əliyev səfir Adel İbrahim Əhməd İbrahimin Azərbaycanda diplomatik fəaliyyəti müddətində ölkələrimiz arasında mövcud olan dost münasibətlərin inkişafına öz töhfəsini vermək üçün səylərini əsirgəməyəcəyinə əminliyini bildirdi.*

## RESPUBLİKA NARKOLOJİ MƏRKƏZİNDƏ BAŞ VERMİŞ YANĞININ FƏSADLARININ ARADAN QALDIRILMASI İŞLƏRİ İLƏ TANIŞLIQ

*2 mart 2018-ci il*

*Bakı şəhərinin Xətai rayonunda Respublika Narkoloji Mərkəzində martın 2-də yanğın baş vermişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dərhal hadisənin baş verdiyi Respublika Narkoloji Mərkəzinə gələrək, vəziyyətlə tanış olmuşdur.*

*Aidiyyəti qurumların rəhbərləri yanğının başvermə səbəbləri və nəticələri barədə dövlət başçısına məlumat verdilər.*

*Respublika Baş Prokurorluğunun, Fövqəladə Hallar, Daxili İşlər və Səhiyyə nazirliklərinin birgə məlumatına əsasən, yanğın martın 2-də saat 06.10-da 5 korpusdan ibarət Respublika Narkoloji Mərkəzin 1 korpusunda baş verib.*

*Hadisə yerinə dərhal Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidmətinin canlı qüvvəsi, texnikası, Səhiyyə Nazirliyinin Təcili Tibbi Yardım xidmətləri, prokurorluq və daxili işlər orqanlarının əməkdaşları cəlb edilib. Ərazinin mühafizəsi və xilasedicilərin maneəsiz fəaliyyəti Daxili İşlər Nazirliyinin Əlahiddə Çevik Polis Alayının və Xətai Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən təmin olunub. Operativ surətdə həyata keçirilən tədbirlərlə korpusda olan 55 nəfərdən 30-u xilas edilib, onlardan üçü Səhiyyə Nazirliyinin Respublika Toksikologiya Mərkəzinə yerləşdirilibdir. Yanğın saat 08:30-da söndürülüb. Hadisə yerinin müayinəsi zamanı 25 nəfərin cəsədi aşkar edilibdir.*

*Fakt üzrə Baş Prokurorluq tərəfindən dərhal cinayət işi başlanılıb, həmçinin Baş Prokurorluğun, Daxili İşlər və Fövqəladə Hallar nazirliklərinin təcrübəli əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu yaradılıbdır. İlkin araşdırmaların nəticələrinə görə yanğın binanın elektrik şəbəkəsində yaranan nasazlıq səbəbindən baş veribdir.*

*Dövlət başçısı hadisənin nəticələrinin tez bir zamanda aradan qaldırılması və yanğının səbəblərinin araşdırılması ilə bağlı təxirəsalınmaz tədbirlərin görülməsi ilə əlaqədar müvafiq tapşırıqlarını verdi.*

*Prezident İlham Əliyev Bakı Şəhər İcra Hakimiyyətinin başçısına və Səhiyyə nazirinə həlak olanların ailə üzvlərinə kömək göstərilməsi və zərərçəkənlərə təcili olaraq lazımi tibbi yardım edilməsi ilə bağlı göstərişlər verdi.*

## MƏRAKEŞ KRALLIĞININ XARİCİ İŞLƏR VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ NAZİRİ NASSER BOURİTANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 mart 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də Mərakeş Krallığının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq naziri Nasser Bouritanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Nazir Nasser Bourita Mərakeşin Kralı əlahəzrət VI Məhəmmədin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdıraraq, kralın Prezident İlham Əliyevlə olan çox yaxşı şəxsi münasibətlərini və ölkələrimiz arasında uğurla inkişaf edən əlaqələri yüksək qiymətləndirdiyini söylədi. Qonaq qeyd etdi ki, ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının ildönümü ərəfəsində Mərakeş tərəfi eyni zamanda, Mərakeşin mərhum Kralı ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Kasablankada tarixi görüşünün keçirilməsinin 25 illiyinin qeyd edilməsi ilə bağlı tədbirlərə hazırlaşır. Bu tarixi görüşü ölkələrimiz arasında çox yaxşı əlaqələrin qurulmasının əsası kimi dəyərləndirən Nasser Bourita bu gün Prezident İlham Əliyevlə Mərakeş kralının bu yolu uğurla davam etdirdiklərini vurğuladı. O öz səfəri zamanı keçiriləcək hökumətlərarası birgə Komissiyanın iclasının ikitərəfli münasibətlərin perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirdi. Mərakeş Krallığının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq naziri qeyd etdi ki, ölkələrimiz beynəlxalq aləmdə həmrəylik nümayiş etdirir, Mərakeş Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və öz növbəsində, Azərbaycanın da Mərakeşin ərazi bütövlüyünü müdafiə etdiyinə görə minnətdar-*

*lığını bildirir. Dünyada islamofobiyanın və radikalizmin gücləndiyini diqqətə çatdıran nazir ölkələrimizin beynəlxalq səviyyədə islam dəyərlərinin qorunması istiqamətində səylərin gücləndirilməsinin önəmini qeyd etdi.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin möhkəm əsaslar üzərində uğurla inkişaf etdiyini bildirərək, bu münasibətlərin təməlinin xalqımızın ümummilli lideri Heydər Əliyev və Mərakeşin mərhum Kralı tərəfindən qoyulduğunu vurğuladı. Ölkələrimizin beynəlxalq təşkilatlar, o cümlədən BMT və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində həmrəylik göstərdiyini deyən Prezident İlham Əliyev ölkələrimizin ərazi bütövlüyünün qarşılıqlı surətdə dəstəklənməsinin önəmini qeyd etdi. Azərbaycanın islam həmrəyliyi işinə öz töhfəsini verdiyini qeyd edən dövlət başçısı Azərbaycanda multikulturalizmin və dini tolerantlığın hökm sürdüyünü, ölkəmizin bu istiqamətdə mötəbər beynəlxalq tədbirlərin, o cümlədən İslam Həmrəyliyi oyunlarının, müxtəlif beynəlxalq sərgi və konfransların keçirildiyi bir məkana çevrildiyini vurğuladı. Bu baxımdan islam mədəniyyətinin qorunması ilə bağlı Azərbaycanın Avropada keçirdiyi təqdimatların, İSESKO tərəfindən Naxçıvanın bu il, Bakının isə bir neçə il bundan əvvəl «İslam mədəniyyəti paytaxtı» seçilməsinin önəmini qeyd etdi. Bu gün Azərbaycan dünyada vüsət alan islamofobiyaya qarşı fəal mübarizə aparır və bu baxımdan ölkələrimiz beynəlxalq aləmdə eyni mövqe nümayiş etdirir.*

*İqtisadi əlaqələrə toxunan dövlət başçısı bu sahədə əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu qeyd etdi, bu baxımdan qarşılıqlı ticarətin artırılmasının, investisiya imkanlarının araşdırılmasının önəmli olduğunu bildirdi.*

*Prezident İlham Əliyev Mərakeşin Kralı əlahəzrət VI Məhəmmədin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Mərakeş kralına çatdırmağı xahiş etdi.*

## PREZİDENTLİYƏ NAMİZƏDLİK VƏSİQƏSİNİ TƏQDİMETMƏ MƏRASİMİ

*5 mart 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə martın 5-də Prezidentliyə namizədlik vəsiqəsi təqdim edilmişdir.*

*Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov 2018-ci il aprelin 11-də Azərbaycanda keçiriləcək Prezident seçkiləri ilə bağlı qeydə alınmış ilk namizəd kimi, İlham Əliyevə təbriklərini çatdırdı və namizədlik vəsiqəsini ona təqdim etdi.*

*Dövlət başçısı qarşıdan gələn Prezident seçkilərinin şəffaf, ədalətli, Azərbaycan Respublikasının qanunlarına tam uyğun şəkildə keçiriləcəyinə və bu seçkilərin Azərbaycan xalqının iradəsini əks etdirəcəyinə əminliyini ifadə etdi, Mərkəzi Seçki Komissiyasının işinə uğurlar arzuladı.*

*Seçkilərə hazırlıq işlərinin lazımi səviyyədə həyata keçirildiyini vurğulayan Məzahir Pənahov seçkilərin Seçki Məcəlləsinin tələblərinə tam uyğun, demokratik və şəffaf şəkildə keçirilməsi üçün bütün şəraitin yaradılması ilə bağlı Azərbaycan Respublikası vətəndaşlarının konstitusion hüquqlarının qarantı kimi, Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.*

## 8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK

Hörmətli xanımlar!

Sizi, bütün Azərbaycan qadınlarını 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edirəm. Hər birinizə cansağlığı, səadət və işlərinizdə nailiyyətlər arzulayıram.

Sivilizasiyaların qovuşuğunda özünün misilsiz mədəni və mənəvi sərvətlər xəzinəsini yaratmış xalqımızın bu çoxəsrlik zəngin irsinin yaşadılmasında, milli düşüncəmizin parlaq ifadəçisinə çevrilmiş dilimizin saflığının qorunub saxlanılmasında analarımızın müstəsna xidmətləri vardır. Ədəbiyyatımızda daim gözəlliyin və zərifliyin mücəssəməsi, sədaqətin və ülviliyin rəmzi kimi vəsf olunan dərin mənəviyyatlı Azərbaycan qadını, həmçinin güclü iradəsi, vətənpərvərliyi və fədakarlığı ilə seçilərək, yurdun mübarizə salnaməsində silinməz izlər qoymuşdur. Keçmişimizin mürəkkəb sosial-siyasi dəyişikliklərə məruz qaldığı müəyyən dövrlərdə o həmişə təmkinlilik nümayiş etdirməklə, cəmiyyətin sarsılmaz mənəvi dayağı olduğunu sübuta yetirmişdir.

Yüzüncü ildönümünü təntənə ilə qeyd etməyə hazırlaşdığımız Azərbaycan Xalq Cümhuriyyətinin Şərq aləmində ilk dəfə qadınlara seçmək və seçilmək hüququ verməsi məhz ictimai-siyasi fikir və mədəniyyət tariximizin görkəmli simalarının cəmiyyətin ahəngdar inkişafında, taleyüklü məsələlərin ədalətli həllində qadınların fəaliyyətini layiqincə qiymətləndirmələrinin nəticəsidir. Ötən müddət ərzində Azərbaycan xanımları maarifpərvər sələflərinin ənənələrini şərəf və ehtiramla davam etdirmiş, müasirləşmə yolunda çoxsaylı müvəffəqiyyətlər

qazanmış və müstəqillik naminə ümumxalq hərəkatının ön sıralarında olmuşlar.

Dövlətçiliyimizin əsaslarının möhkəmləndirilməsinə və ölkəmizin hərtərəfli yüksəlişinin təmin olunmasına yönəlmiş yaradıcı potensialınızı siz bu gün də uğurla gerçəkləşdirməkdəsiniz. Dinamik sosial-mədəni həyatımızın fəal iştirakçıları olaraq, sizin milliliklə müasirliyin vəhdətində indiki yüksək nüfuzunuz və ictimai mövqenizlə fəxr edə bilərik. Əminəm ki, müqəddəs ailə dəyərlərimizin toxunulmazlığı keşiyində dayanmaqla bərabər, gənc nəslin doğma yurdumuza və milli ideallarımıza bağlılıq ruhunda tərbiyəsi üçün bundan sonra da qüvvənizi əsirgəməyəcək, ictimai mənəvi mühitimizin davamlı zənginləşməsinə yeni-yeni töhfələr verəcəksiniz.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 mart 2018-ci il*

## MOSKVA AKADEMİK SATİRA TEATRININ DİREKTORU MƏMMƏDƏLİ AĞAYEV İLƏ GÖRÜŞ

*6 mart 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Moskva Akademik Satira Teatrının direktoru Məmmədəli Ağayevi qəbul etmişdir.*

*Dövlət başçısı Moskva Akademik Satira Teatrının direktoru Məmmədəli Ağayevin keçən il qeyd olunan yubileyi münasibətilə təbriklərini çatdırdı və onun Azərbaycan Respublikasının yüksək ordeni olan – «Dostluq» ordeni ilə təltif edildiyini vurğuladı. Prezident İlham Əliyev Məmmədəli Ağayevin 25 ildən artıqdır ki, Moskva Akademik Satira Teatrının direktoru vəzifəsində işlədiyini qeyd edərək, onun Rusiyada teatr sənətinin inkişafına böyük töhfə verdiyini nəzərə çatdırdı. Moskva Akademik Satira Teatrının Rusiyanın aparıcı teatrlarından biri olduğunu deyən dövlət başçısı xalqımızın nümayəndəsinin uzun illər belə yüksək vəzifədə fəaliyyət göstərərək, böyük hörmət qazandığını vurğuladı. Prezident İlham Əliyev qeyd etdi ki, Məmmədəli Ağayev bu günə qədər həmişə Azərbaycanla yaxından əlaqə saxlayıb və vətənindən ayrılmayıb. Məmmədəli Ağayevin Rusiya–Azərbaycan əlaqələrinin inkişafında rolunu yüksək qiymətləndirən Prezident İlham Əliyev bildirdi ki, ikitərəfli münasibətlərimizin genişlənməsində mədəniyyət əlaqələri xüsusi rol oynayır. Ölkələrimizin humanitar sahədə çox uğurlu əməkdaşlıq etdiyini vurğulayan dövlətimizin başçısı qeyd etdi ki, Məmmədəli Ağayev bütün bu işlərə fəal töhfə verir. Prezident İlham Əliyev keçən il imzaladığı sərəncamla Məmmədəli Ağayevin Rusiya Federasiyası ilə Azərbaycan*

*Respublikası arasında mədəni əlaqələrin möhkəmləndirilməsində xidmətlərinə görə «Dostluq» ordeni ilə təltif edildiyini bir daha bildirdi və ordeni ona təqdim etdi.*

*Bir çox dövlət mükafatlarına layiq görüldüyünü qeyd edən Məmmədəli Ağayev Azərbaycan Respublikasının «Dostluq» ordeninin onun üçün xüsusi dəyər daşıdığını bildirdi. 38 ildir Moskvada yaşadığını vurğulayan Məmmədəli Ağayev bildirdi ki, bütün ömrünü teatr sahəsində Azərbaycan–Rusiya əməkdaşlığının möhkəmlənməsi işinə həsr edib və bundan sonra da Rusiya–Azərbaycan mədəni əlaqələrinin yüksək səviyyədə olması üçün səylərini əsirgəməyəcəkdir.*

*Məmmədəli Ağayev dövlət başçısına qarşıdan gələn Prezident seçkilərində uğurlar arzuladı.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Rusiyanın «An-26» hərbi-nəqliyyat təyyarəsinin Suriyada qəzaya uğraması nəticəsində insan tələfatı barədə xəbəri dərin kədər hissi ilə qarşıladım.

Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün Rusiya xalqına Azərbaycan xalqı adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 mart 2018-ci il*

## BAKI ŞƏHƏR STATİSTİKA İDARƏSİNİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*7 mart 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 7-də Dövlət Statistika Komitəsi Bakı Şəhər Statistika İdarəsinin yeni inzibati binasının açılışında iştirak etmişdir.*

*Dövlət başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılan şəraitlə tanış oldu.*

*Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov görülən işlər və binada yaradılan şərait barədə Prezident İlham Əliyevə məlumat verdi.*

*Bakı Şəhər Statistika İdarəsinin yeni inzibati binası Azərbaycan Prezidentinin 2012-ci ildə imzaladığı sərəncamla təsdiq edilən «2013–2017-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafı Dövlət Proqramı»na əsasən inşa edilibdir.*

*Dövlət başçısına Bakı Şəhər Statistika İdarəsinin rayon şöbələrinin mövcud vəziyyəti ilə bağlı məlumat verildi. Bildirildi ki, yeni inzibati binanın istifadəyə verilməsi Bakı Şəhər Statistika İdarəsinin icarə əsasında müxtəlif ünvanlarda müasir tələblərə cavab verməyən binalarda yerləşən rayon şöbələrinin vahid təşkilati-struktur formasında fəaliyyət göstərməsinə və əməkdaşların iş şəraitinin əsaslı surətdə yaxşılaşdırılmasına xidmət edəcək. Bu, son illər statistika sistemində aparılan islahatların sürətləndirilməsinə də imkan yaradacaqdır.*

*Prezident İlham Əliyevə son illər rəsmi statistikanın inkişafı sahəsində görülən işlər barədə məlumat verildi.*

*Bildirildi ki, Komitənin 2002-ci ildə yaradılan internet səhifəsi istifadəçilərin tələbatının maksimum təmin olunması üçün*

*2017-ci ildə yenilənib və əhəmiyyətli şəkildə təkmilləşdirilibdir. Hazırda hər gün orta hesabla 3000-ə yaxın istifadəçi Komitənin internet səhifəsindən istifadə edir. Onların 93 faizi yerli, 7 faizi isə xarici ölkələrdəndir. İstifadəçilərin statistik məlumatlarla təmin olunması, onların məlumatlara əlçatanlığının daha yüksək səviyyədə təşkili məqsədilə mütəmadi yayımlanan mətbu məlumatlarla, statistik cədvəllərlə, bülleten və məcmuələrlə yanaşı, internet səhifəsində interaktiv cədvəllərin tərtibinə imkan verən məlumat bazası da yaradılıb. Bununla yanaşı, Komitənin internet səhifəsi ilə iqtisadi rayonlar, rayon və şəhərlər üzrə məlumatların elektron xəritə vasitəsilə yayılması da həyata keçirilir. 2015–2016-cı illər üzrə iqtisadiyyatın əsas sahələrini əhatə edən 44 statistik göstəricinin əks olunduğu xəritə istifadəçilərə Azərbaycan və ingilis dillərində təqdim olunub. Komitə tərəfindən 5 adda elektron xidmət göstərilir. Onlardan ən çox istifadə edilәni «Rəsmi statistik hesabatların elektron təqdim olunması» xidmətidir. Bu gün rəsmi statistika hesabatlarının onlayn rejimdə elektron formada qəbulu səviyyəsi ölkə üzrə 95 faizi ötüb, Bakı şəhəri üzrə isə 100 faizə çatdırılıbdır. Bununla da vətəndaş–məmur təmasları minimuma endirilib. Statistik məlumatların işlənilməsi, yoxlanılması və təhlili imkanları yüksəlibdir.*

*Dövlət başçısına məlumatların keyfiyyətinə nəzarət cədvəllərinin və qiymət statistikası üzrə məlumatların hazırlanması prosesi barədə də məlumat verildi.*

*Keyfiyyətə nəzarət cədvəllərinin tətbiqində əsas məqsəd statistik vahidlər tərəfindən təqdim edilən ilkin məlumatlarda baş verən xətaları vaxtında aşkar etmək və onları aradan qaldırmaqdan ibarətdir. Proqram təminatı Dövlət Statistika Komitəsi tərəfindən hazırlanıb. Göstəricilərin müqayisə olunduğu keyfiyyətə nəzarət cədvəlləri statistikanın müxtəlif sahələrinə aid olan vacib 26 rəsmi statistika hesabatı formasını əhatə edir. Statistik məlumatların keyfiyyətinin onlayn yoxlanılması Komitənin rəsmi internet səhifəsi vasitəsilə «E-hesabatlar» və ya «E-xidmətlər» bölməsinə daxil olmaqla, həyata keçirilir. Sis-*

*temin tətbiqində keyfiyyətə nəzarət cədvəlləri xüsusi əhəmiyyət daşıyır. Bunun məntiqi nəticəsi olaraq, 2017-ci ilin martında bu sahədə dünya liderlərindən olan İsveçrənin SGS şirkətinin auditorlar qrupu tərəfindən aparılan auditdən sonra Dövlət Statistika Komitəsinin Aparatı və keyfiyyətin idarə edilməsi sisteminin tətbiq edildiyi 13 yerli statistika orqanı rəsmi statistika məlumatlarının istehsalı və yayılması sahəsində ISO 9001:2015 beynəlxalq uyğunluq sertifikatına layiq görülüb. Azərbaycanın Milli Statistika Sisteminin BMT-nin, Avropa İqtisadi Komissiyasının, Avrostatın, Avropa Azad Ticarət Assosiasiyasının ekspertləri tərəfindən aparılan auditin nəticələrinə dair hesabatda da keyfiyyətə nəzarət cədvəlləri yüksək qiymətləndirilib. Qiymət statistikası üzrə istehsal prosesi də beynəlxalq standartlar əsasında qəbul edilən metodologiyaya uyğun olaraq həyata keçirilir. İlkin mərhələdə qiymətlərin müşahidəsinin təşkili üçün məhsul növləri müəyyənləşdirilərək, istehlak səbəti formalaşdırılır. Hazırda bu iş 520 adda məhsul və xidmət növünü əhatə edən istehlak səbəti üzrə həyata keçirilir. İstehsal prosesinin növbəti mərhələsində müşahidəyə cəlb olunacaq ticarət məntəqələri müəyyənləşdirilir. Müşahidəyə ümumilikdə respublikanın bütün şəhər və rayonları üzrə 4000-dən çox ticarət məntəqəsi cəlb olunub. Sonra qiymətlərin qeydiyyatı mərhələsinə başlanılır. İlkin məlumatlar ölkənin bütün bölgələrini əhatə edir və hər rayon üzrə istehlak qiymətləri indeksi hesablanır. Yekun göstəricilər aylıq ekspres məlumatlar, interaktiv cədvəllər, bülletenlər, illik məcmuələr vasitəsilə yayımlanır. Bütün məlumatlar Komitənin internet səhifəsində yerləşdirilir.*

*Prezident İlham Əliyev Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədləri üzrə milli məlumatlandırma portalı ilə də tanış oldu. Portal BMT tərəfindən dayanıqlı inkişaf sahəsində müəyyən edilmiş 17 məqsəd, 169 hədəf və 244 göstərici barədə həm qlobal, həm də milli səviyyədə ətraflı məlumatın geniş auditoriyaya çatdırılması məqsədilə yaradılıb. Dayanıqlı İnkişaf Məqsədləri üzrə vahid milli*

*onlayn məlumat mənbəyi olacaq portal Azərbaycan və ingilis dillərində fəaliyyət göstərəcəkdir.*

*Sonra dövlət başçısı binada yaradılmış şəraitlə tanış oldu. Məlumat verildi ki, 166 nəfərin çalışacağı bina 6 mərtəbədən ibarətdir. Burada işçilərin rahatlığı üçün hər cür şərait yaradılıbdır.*

*Statistik məlumatların dəqiqliyinin və beynəlxalq müqayisəliliyinin təmin edilməsi üçün Azərbaycanın statistika sisteminin beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi, dünya statistika sisteminə inteqrasiyası ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin rəhbərliyi ilə həyata keçirilən və Prezident İlham Əliyev tərəfindən uğurla və yeni müstəvidə davam etdirilən islahatlar ölkəmizdə rəsmi statistikanın da inkişafına güclü təkan verib. Bu gün dünyada baş verən qlobal siyasi, sosial və iqtisadi proseslər fonunda adekvat qərarların qəbul edilməsi, onların icra vəziyyətinin qiymətləndirilməsi üçün statistik informasiya təminatının təşkili statistika sisteminin üzərinə yeni və daha mürəkkəb vəzifələr qoyur. Ölkədə müəyyən edilmiş sosial-iqtisadi siyasət kursuna uyğun çevik idarəetmənin həyata keçirilməsi üçün dəqiq və dolğun, beynəlxalq müqayisəliliyi təmin olunan statistik məlumatlara olan tələbat statistika sisteminin beynəlxalq standartlar əsasında daha da təkmilləşdirilməsini zərurətə çevirir.*

*Bakı Şəhər Statistika İdarəsinin yeni inzibati binasının inşası da bu istiqamətdə atılan mühüm addımlardan biridir. Yeni binanın istifadəyə verilməsi ilə müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi və əmək resurslarından daha səmərəli istifadə edilməsi yolu ilə Bakı şəhəri üzrə rəsmi statistika hesabatlarının onlayn rejimdə elektron təqdimatı 100 faizə çatdırılacaqdır. Bu eyni zamanda, BMT Baş Məclisinin 2015-ci il 25 sentyabr tarixli Qətnaməsi ilə qəbul edilmiş «Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf Gündəliyi»nin statistika potensialının gücləndirilməsinə dair 17-ci məqsədində və Azərbaycan Prezidentinin 2016-cı ildə imzaladığı fərmanla təsdiq edilmiş «Azərbaycan*

*Respublikasının milli iqtisadiyyat perspektivi üzrə «Strateji Yol Xəritəsi»ndə statistika infrastrukturunun təkmilləşdirilməsinə dair nəzərdə tutulan işlərin icrasına mühüm töhfədir.*

## YAPONİYA BAŞ NAZİRİNİN XARİCİ SİYASƏT MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ TOMOHİKO TANİQUÇİ İLƏ GÖRÜŞ

*8 mart 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 8-də Yaponiya Baş Nazirinin xarici siyasət məsələləri üzrə müşaviri Tomohiko Taniquçini qəbul etmişdir.*

*Tomohiko Taniquçi Yaponiyanın Baş Naziri Şinzo Abenin salamlarını dövlətimizin başçısına çatdırdı. Tomohiko Taniquçi Bakıda Respublika Narkoloji Mərkəzində baş vermiş yangın nəticəsində insanların həlak olması ilə bağlı başsağlığı verdi və Yaponiyada insanların bu hadisədən dərin kədər hissi keçirdiklərini qeyd etdi. O bildirdi ki, Yaponiya Azərbaycanın islam aləmində sabitlik, təhlükəsizlik və qarşılıqlı anlaşmada roluna xüsusi əhəmiyyət verir. Sonra Tomohiko Taniquçi Yaponiya hökuməti tərəfindən Azərbaycana təcrübəli səfirin göndərilməsini əlaqələrimizin inkişafına verilən önəm kimi dəyərləndirdi.*

*Prezident İlham Əliyev başsağlığına görə minnətdarlığını bildirdi və Azərbaycan–Yaponiya ikitərəfli münasibətlərinə toxunaraq, Yaponiya hökumətinin Azərbaycanın müstəqilliyini bərpa etdiyi ilk vaxtlardan bu günədək davam edən dəstəyini yüksək qiymətləndirdi. Həmçinin Yaponiya bank sektorunun ölkəmizdə infrastrukturun müasirləşdirilməsi işinə göstərdiyi köməyin önəmini qeyd etdi və bildirdi ki, bu gün ölkələrimiz arasında qarşılıqlı anlaşma və tərəfdaşlıq prinsiplərinə söykənən çox yüksək səviyyədə ikitərəfli münasibətlər mövcuddur.*

*Dövlətimizin başçısı Yaponiyanın Azərbaycanda təyin olunmuş səfirinin Azərbaycanın dostu olduğunu və Yaponiya höku-*

*mətinin dəstəyi ilə ölkəmizdə həyata keçirilən layihələrin reallaşmasında fəal rol oynadığını bildirdi.*

*Görüşdə ölkəmizdə infrastruktur layihələrinin həyata keçirilməsi, bank sektoru, iqtisadiyyatın şaxələndirilməsi, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Baş Nazir Şinzo Abenin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Yaponiyanın Baş Nazirinə çatdırmağı xahiş etdi.*

## GÜRCÜSTAN RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ LEVAN İZORİA İLƏ GÖRÜŞ

*9 mart 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 9-da Gürcüstan Respublikasının Müdafiə naziri Levan İzorianı qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında siyasi münasibətlərin uğurla inkişaf etdiyini bildirdi, müxtəlif sahələrdə, o cümlədən hərbi sahədə əməkdaşlığımızın uzun illər müvəffəqiyyətlə inkişaf etdiyini vurğuladı və Levan İzorianın Azərbaycana səfərinin bu sahədə əməkdaşlığın perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirdi.*

*Gürcüstanın Müdafiə naziri Levan İzoria Gürcüstan xalqının dövlətimizin başçısına şəxsən hörmətini bir daha ifadə edərək, ölkələrimiz arasında əlaqələrin uğurlu inkişafında Prezident İlham Əliyevin böyük xidmətlərinin olduğunu vurğuladı. Qonaq ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini qeyd etdi. Levan İzoria Gürcüstan–Azərbaycan–Türkiyə əməkdaşlığına toxunaraq, bunu regional sabitliyi möhkəmləndirən amil kimi dəyərləndirdi, 3 ölkənin birgə hərbi təlimlərinin uğurla keçirildiyini bildirdi.*

*Azərbaycan ilə Gürcüstan arasında iqtisadi, energetika, nəqliyyat sahələrində uğurlu qarşılıqlı fəaliyyətin olduğunu deyən dövlətimizin başçısı ölkələrimizin həyata keçirdiyi qlobal layihələrin əhəmiyyətini vurğuladı və Azərbaycanın Gürcüstanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini qeyd etdi.*

## AZƏRBAYCAN JURNALİSTLƏRİNƏ TƏBRİK

Hörmətli qurultay iştirakçıları!

Sizi Azərbaycan Mətbuat Şurasının VII qurultayının işinə başlaması münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Ötən əsrin 90-cı illərində dövlət müstəqilliyi əldə edildikdən sonra ölkəmizdə azad, demokratik mətbuatın təşəkkülü üçün geniş imkanlar açılıb. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin səyləri nəticəsində söz və mətbuat azadlığını məhdudlaşdıran süni maneələr aradan qaldırılıb, kütləvi informasiya vasitələrinin fəaliyyətini nizamlayan mükəmməl qanunvericilik bazası formalaşdırılıb, redaksiyaların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilib, mətbuat – hakimiyyət münasibətlərində mütərəqqi ənənələrin əsası qoyulubdur.

Azərbaycanda demokratikləşmə prosesinin təzahürü olaraq, 2003-cü ildə jurnalistlərin I qurultayında mətbuatın özünütənzimləmə funksiyasını yerinə yetirən Mətbuat Şurasının yaradılması media ilə dövlət və cəmiyyət arasında münasibətlərdə keçid dövrünün başa çatması və yeni keyfiyyət mərhələsinin başlanması kimi qiymətləndirilə bilər. Ötən 15 ildə Mətbuat Şurası ölkədə söz və məlumat azadlığının inkişafı, kütləvi informasiya vasitələrinin fəaliyyətinin təkmilləşdirilməsi və müstəqilliyinin gücləndirilməsi ilə bağlı səmərəli təklifləri ilə çıxış edib. Mətbuat Şurası dövlət orqanları və vətəndaşlarla mətbuat arasında münasibətlərin tənzimlənməsi, jurnalistlərin hüquqlarının müdafiəsi, peşəkarlığının artırılması, mediada neqativ halların aradan qaldırılması sahəsində ciddi səylər göstərib. Bu gün ardıcıl və məqsədyönlü fəaliyyəti ilə seçilən Mətbuat Şurası Azərbaycanın aparıcı ictimai təşkilatları sırasında özünə layiqli yer tutub və cəmiyyətdə böyük nüfuz

qazanıbdır. Jurnalistlərin mütləq əksəriyyətinin Mətbuat Şurasının fəaliyyətini yüksək qiymətləndirməsi bunun əyani sübutudur.

Hazırda güclü iqtisadi və maliyyə potensialına malik Azərbaycanda hər bir sahənin, o cümlədən də kütləvi informasiya vasitələrinin inkişafına hərtərəfli dövlət dəstəyi həyata keçirilir. Təsadüfi deyil ki, dünya miqyasında milli informasiya resurslarımızın çəkisi getdikcə artır, rəqabət qabiliyyəti yüksəlir. Düşünürəm ki, qlobal şəbəkənin genişləndiyi və transmilli medianın ayrı-ayrı ölkələrin daxili həyatına, beynəlxalq nüfuzuna ciddi təsir göstərdiyi müasir dövrdə Azərbaycan kütləvi informasiya vasitələri daha fəal və prinsipial olmalı, yüksək peşəkarlıq nümayiş etdirərək, milli maraqlarımızı hər şeydən uca tutmalı, cəmiyyətimizin tərəqqisi naminə öz qüvvə və bacarıqlarını əsirgəməməlidir. İnanıram ki, VII qurultay Azərbaycan mətbuatının hazırkı vəziyyəti və perspektivi ilə bağlı səmərəli müzakirələrin keçirildiyi mühüm platformaya çevriləcək və milli jurnalistikamızın gələcək inkişafına dair əhəmiyyətli qərarlar qəbul edəcəkdir.

Bu yolda hər birinizə, bütün Azərbaycan jurnalistlərinə möhkəm cansağlığı və qurultayın işinə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 mart 2018-ci il*

## ATƏT PARLAMENT ASSAMBLEYASININ SƏDRİ GİORGİ SERETELİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 mart 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də ATƏT Parlament Assambleyasının sədri Giorgi Seretelinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə ATƏT Parlament Assambleyası arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi. Martın 13-də ATƏT Parlament Assambleyasının İpək Yoluna Dəstək Qrupunun ilk beynəlxalq sessiyasının Bakıda keçiriləcəyinin önəmi vurğulandı və bunun əməkdaşlığın möhkəmlənməsi işinə töhfə verəcəyi bildirildi. Görüşdə eyni zamanda, ATƏT Parlament Assambleyası sessiyalarından birinin ölkəmizdə təşkil olunacağı məmnunluqla qeyd edildi.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunuldu. Dövlətimizin başçısı qeyd etdi ki, Ermənistanın Azərbaycana qarşı işğalına son qoyulmalı və bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.*

*Görüşdə Azərbaycanda qarşıdan gələn Prezident seçkilərinə də toxunuldu. Prezident İlham Əliyev bu seçkilərin ədalətli, şəffaf şəkildə keçiriləcəyinə və Azərbaycan xalqının iradəsini əks etdirəcəyinə əminliyini ifadə etdi.*

*Giorgi Sereteli Bakıda gördüyü inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını bildirdi, Azərbaycanın iqtisadi uğurlarının böyük maraq doğurduğunu və bunun ümumilikdə bütün regionun inkişafına töhfə verdiyini vurğuladı.*

*Söhbət zamanı, həmçinin əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## GÜRCÜSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ GİORGİ KVİRİKAŞVİLİ İLƏ GÖRÜŞ

*12 mart 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də ölkəmizdə rəsmi səfərdə olan Gürcüstan Respublikasının Baş Naziri Giorgi Kvirikaşvili ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev Baş Nazir Giorgi Kvirikaşvilini qarşıladı.*

*Sonra rəsmi foto çəkdirildi.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab Baş Nazir!

Mən sizi səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz! Əminəm ki, sizin səfəriniz Gürcüstan–Azərbaycan dostluq, qardaşlıq münasibətlərinin inkişafında mühüm rol oynayacaq. Biz bir çox sahələrdə uğurlu əməkdaşlıq edirik. Şadam ki, ticarət dövriyyəsi artır və Azərbaycan Gürcüstana sərmayə qoyan ölkələr sırasında birinci yeri tutur. 2012-ci ildən biz bu birinciliyi saxlayırıq, bizim əlaqələrimiz çox yüksək səviyyədədir. Bu onu göstərir ki, ölkənizdə çox gözəl sərmayə iqlimi vardır.

Əlbəttə, bizi birləşdirən bir çox önəmli qlobal layihələr vardır. Biz keçən ilin oktyabr ayında sizinlə birlikdə onlardan birinin açılışını qeyd etdik – Bakı–Tbilisi–Qars dəmir yolunun. Bu il «Cənubi Qafqaz» qaz kəmərinin, TANAP layihəsinin istifadəyə verilməsi nəticəsində əməkdaşlığımız daha da yüksək pilləyə qalxacaqdır. Bizim əməkdaşlığımız hətta regional formatdan çıxıb qlobal müstəviyə qalxır. Bütün bu uğurlu addımların təməlində bizim dostluğumuzdur, qardaşlığımızdır. Məhz həmin münasibətlər əminəm ki, bundan sonra da xalqlarımızın maraqlarına xidmət edəcəkdir.

Bir daha sizi salamlayıram. Əminəm ki, səfəriniz çox uğurlu olacaq və səfərin çox yaxşı nəticələri olacaqdır.

**G i o r g i  K v i r i k a ş v i l i:** Hörmətli cənab Prezident!

Səmimi qəbul üçün Sizə minnətdarlığımı bildirirəm. Şadam ki, bu səfər baş tutdu. Bu bizim üçün xüsusi bir hadisədir. Çünki Azərbaycan Gürcüstanın strateji tərəfdaşıdır. Sevindirici haldır ki, bizim iqtisadi əlaqələrimiz yüksələn xətt üzrə inkişaf edir. Keçən il ikitərəfli münasibətlər xüsusi inkişafla yadda qaldı.

Azərbaycan Gürcüstan üçün birinci investisiya tərəfdaşıdır. Bu yaxınlarda dərc olunmuş statistik məlumatlara əsasən, səfərlərin sayına görə də Azərbaycan Respublikası Gürcüstan üçün birinci yerdədir. Bakı–Tbilisi–Qars dəmir yolu, «Cənub Qaz Dəhlizi» layihələri çox mühüm əhəmiyyətə malikdir. Azərbaycan qazı «Cənub Qaz Dəhlizi» layihəsinin seqmentləri olan Trans–Anadolu və Trans–Adriatik kəmərləri ilə sonradan Avropaya nəql ediləcək. Bu layihələr iqtisadi və geosiyasi baxımdan çox mühümdür. Regional formatlarda əməkdaşlığımız çox vacibdir. Həm siyasi məsləhətləşmələr, həm də qlobal formatda əməkdaşlığımız mövcuddur. Gürcüstan hər zaman Azərbaycanın mövqeyini dəstəkləyir. Bu bizim strateji əlaqələrimizin göstəricisidir. Azərbaycanda ilk respublika elan olunmasının 100 illiyini təbrik edirəm. Bu həm Gürcüstan, həm də Azərbaycan Respublikası üçün çox mühüm tarixdir. Ümid edirəm ki, biz bunu layiqli şəkildə qeyd edəcəyik. Bir daha səmimi qəbul üçün minnətdarlığımı bildirirəm.

* * *

*Sonra Azərbaycan Prezidenti İlham Əliyevin adından Gürcüstanın Baş Naziri Giorgi Kvirikaşvilinin şərəfinə rəsmi nahar verildi.*

## AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN SƏDRİ XALQ YAZIÇISI ANARA

Hörmətli Anar müəllim!

Sizi – Azərbaycanın görkəmli yazıçısını və tanınmış ictimai xadimini anadan olmağınızın 80 illiyi münasibətilə ürəkdən təbrik edirəm. Sizə cansağlığı, yeni yaradıcılıq uğurları və gələcək fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

Sizin istedadlı nasir, publisist və dramaturq olaraq çoxəsrlik ənənələrə malik ədəbiyyatımızın daha da zənginləşməsində müstəsna xidmətləriniz vardır. Ən müxtəlif janrlarda qələmə aldığınız əsərlərdə Siz söz sənətkarlarına məxsus yüksək məharətlə müasirlərimizin mənəvi aləminin dolğun təsvirinə nail olmuş, ardıcıl ədəbi-fəlsəfi axtarışlarınızla bədii fikrimizin yeni inkişaf mərhələsinin yaradıcılarından biri kimi, səmərəli fəaliyyət göstərmisiniz.

Mövzu aktuallığı, üslub fərdiliyi, dil səlisliyi və dərin həyatiliyi ilə səciyyələnərək, yüksək əxlaqi keyfiyyətlər aşılayan nəsr əsərlərinizin geniş oxucu auditoriyasının zövqünün formalaşmasında təsiri təqdirəlayiqdir. Daim rəğbətlə qarşılanan səhnə əsərləriniz və dahi şəxsiyyətlərimizin ömür yolunu özünəməxsus parlaq boyalarla canlandıran kinossenariləriniz şöhrətinizi daha da artırmışdır. Hər biri uzunmüddətli araşdırmanın məhsulu olub ədəbi-mədəni fikir tariximizin bütün məqamlarını ehtiva edən məqalə və esseləriniz intellektual potensialınızın aydın təzahürüdür.

Dilimizin saflığının qorunması uğrunda mübarizə yaradıcılığınızın mühüm istiqamətlərindən birini təşkil etmişdir. Xalqımızın böyük sənətkarlarının övladı olmaqla, yeni tarixi şəraitdə azərbaycançılıq məfkurəsinin inkişafında xidmətləriniz danılmazdır.

Azərbaycan Yazıçılar Birliyinin sədri vəzifəsində Siz 30 ildən bəri uğurla çalışmaqdasınız. Ümidvaram ki, ölkəmizin mədəni və ictimai həyatında bundan sonra da fəal iştirakınızla gənc ədəbi nəslin milli ideyalara bağlılıq ruhunda yetişməsi üçün bilik və bacarığınızı əsirgəməyəcəksiniz.

*Ən xoş arzularla,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 mart 2018-ci il*

## MONTENEQRO PARLAMENTİNİN SƏDRİ İVAN BRAYOVİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 mart 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Monteneqro Parlamentinin Sədri İvan Brayoviçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Monteneqro arasında yüksək səviyyədə əməkdaşlığın mövcud olduğunu və mütəmadi qarşılıqlı səfərlərin əlaqələrin möhkəmlənməsi işinə töhfə verdiyini qeyd etdi. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan ilə Monteneqro müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlıq həyata keçirir, parlamentlərarası əlaqələr də ikitərəfli münasibətlərin inkişafında mühüm rol oynayır.*

*İqtisadi sahədə əməkdaşlığa toxunan dövlət başçısı ticarət, investisiya sahələrində yaxşı imkanların olduğunu dedi. Prezident İlham Əliyev özünün Monteneqroya və Monteneqro Prezidentinin və Baş Nazirinin Azərbaycana səfərlərinin əlaqələrimizin möhkəmlənməsində rolunu vurğuladı. Monteneqro Parlamentinin Sədri İvan Brayoviçin ölkəmizə səfərinin məhsuldar olacağına əminliyini bildirən dövlət başçısı bu səfərin əlaqələrimizin perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını söylədi.*

*Monteneqro Parlamentinin Sədri İvan Brayoviç Monteneqro Prezidentinin və Baş Nazirinin salamlarını dövlətimizin başçısına çatdırdı. O, Monteneqro ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin çox yüksək səviyyədə olduğunu vurğulayaraq, ölkəsinin Azərbaycan ilə əməkdaşlığın daha da möhkəmlənməsində maraqlı olduğunu dedi. Qonaq bildirdi ki, Monteneqro*

*Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn çərçivəsində həllinin tərəfdarıdır. İvan Brayoviç Azərbaycana səfəri çərçivəsində ATƏT Parlament Assambleyasının İpək Yoluna Dəstək Qrupunun təşkilatçılığı ilə Bakıda keçirilən «İpək yolu boyunca iqtisadi əməkdaşlıq və mədəni əlaqələrin inkişaf etdirilməsində parlamentlərin rolu» mövzusunda beynəlxalq konfransda iştirakından məmnunluğunu ifadə etdi.*

*Dövlətimizin başçısı Monteneqro Prezidentinin və Baş Nazirinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Monteneqronun Prezidentinə və Baş Nazirinə çatdırmağı xahiş etdi.*

## RUMINİYA RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ ANA BİRÇALL İLƏ GÖRÜŞ

*13 mart 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Rumıniya Respublikası Baş Nazirinin müavini xanım Ana Birçalı qəbul etmişdir.*

*Xanım Ana Birçall Bakıda Respublika Narkoloji Mərkəzində baş vermiş yanğın nəticəsində insanların həlak olması ilə bağlı Rumıniya rəhbərliyi adından və öz adından başsağlığı verdi.*

*Dövlətimizin başçısı başsağlığına görə minnətdarlığını bildirdi.*

*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçiriləcək VI Qlobal Bakı Forumunun önəmini qeyd edən xanım Ana Birçall forumda iştirakından məmnunluğunu bildirdi. O, 2017-ci ildə ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyinin qeyd edildiyini vurğuladı.*

*Dövlətimizin başçısı 2018-ci ilin ölkəmizdə «Azərbaycan Xalq Cümhuriyyəti ili» elan edildiyini diqqətə çatdırdı.*

*Xanım Ana Birçall bildirdi ki, Rumıniya Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın genişləndirilməsində maraqlıdır və bu istiqamətdə dəstəyini əsirgəməyəcəkdir. Avropa üçün strateji əhəmiyyətli layihələrin həyata keçirilməsində Azərbaycanın mühüm rol oynadığını qeyd edən Ana Birçall bildirdi ki, Rumıniya Azərbaycanı regionda sabitliyə və təhlükəsizliyə töhfə verən ölkə kimi dəyərləndirir. O, ölkəsinin Azərbaycan ilə əməkdaşlıq əlaqələrini bütün sahələrdə bundan sonra da genişləndirmək əzmində olduğunu dedi və bu işdə hökumətlərarası birgə Komissiyanın mühüm rol oynayacağına əminliyini ifadə etdi.*

*Görüşdə Azərbaycan–Rumıniya əlaqələrinin yüksək səviyyəyə çatdığı vurğulandı, ölkələrimiz arasında münasibətlərin strateji xarakter daşıdığı və əməkdaşlığımızın böyük potensialının olduğu qeyd edildi.*

*Söhbət zamanı beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin əhəmiyyət daşıdığı bildirildi.*

*Görüşdə, həmçinin qarşılıqlı sərmayə qoyuluşu və hər iki ölkədən olan şirkətlərin bu sahədə fəaliyyətinin genişləndirilməsinin vacibliyi vurğulandı.*

**İRLANDİYA PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MAYKL HİGGİNSƏ**

Hörmətli cənab Prezident!

İrlandiyanın milli bayramı – Müqəddəs Patrik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İrlandiya xalqına daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 mart 2018-ci il*

## TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ BİNƏLİ YILDIRIM İLƏ GÖRÜŞ

*14 mart 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də Türkiyə Respublikasının Baş Naziri Binəli Yıldırım ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev Baş Nazir Binəli Yıldırımı qarşıladı.*

*Sonra birgə foto çəkdirildi.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab Baş Nazir, mən sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz! Biz sizin səfərinizə böyük önəm veririk. Əminəm ki, səfər çox uğurlu olacaq və Türkiyə–Azərbaycan dostluq, qardaşlıq münasibətləri bundan sonra da uğurla inkişaf edəcəkdir. Biz dostuq, qardaşıq, bütün məsələlərdə bir-birimizin yanındayıq, bir-birimizi dəstəkləyirik. Bu, bu gün belədir və həmişə də belə olacaqdır. Bizi çox dərin əlaqələr bağlayır. Bu gün biz siyasi, iqtisadi, bütün başqa sahələrdə çox yüksək səviyyəli əməkdaşlıq edirik. Siyasi əlaqələrimiz ən yüksək zirvədədir, iqtisadi sahədə yaxşı nəticələr vardır. Keçən il ticarət dövriyyəsi artmışdır, qarşılıqlı sərmayə qoyulur. Türkiyə Azərbaycana və Azərbaycan Türkiyəyə 10 milyard dollardan çox sərmayə qoyubdur. Bu sərmayə qoyuluşu davam edir və daha da böyük rəqəmlərə çatacaqdır.

Bu il TANAP layihəsinin istismara verilməsini birlikdə qeyd edəcəyik. Bu, tarixi layihədir və uğurla başa çatır, ölkələrimizi bir-birinə daha da sıx bağlayacaq, eyni zamanda, bu layihədən faydalanan ölkələr üçün də yeni imkanlar açacaqdır. Keçən il biz Bakı–Tbilisi–Qars dəmir yolunun açılışını təntənəli şəkildə qeyd etdik və bu gün bu yol artıq uğurla fəaliyyət göstərir.

Bakı–Tbilisi–Ceyhan və TANAP-dan sonra bu, üçüncü tarixi layihəmizdir. Ölkələrimiz bu layihəni birlikdə icra edirlər. Yəni bütün sahələrdə bizim əməkdaşlığımızın çox gözəl nəticələri vardır. Bu nəticələr həm xalqlarımız, ölkələrimiz üçün çox əhəmiyyətlidir, həm də Avrasiya qitəsi üçün böyük əhəmiyyət daşıyır.

Biz bu gün bu və digər məsələləri müzakirə edəcəyik və Türkiyə ilə Azərbaycanın gələcək birgə fəaliyyəti haqqında danışacağıq. Bir daha xoş gəlmisiniz!

**B i n ə l i  Y ı l d ı r ı m:** Xoş gördük və çox təşəkkür edirəm, hörmətli cənab Prezident!

Sizin də ifadə etdiyiniz kimi, Türkiyə və Azərbaycan bir millət–iki dövlətdir. Ölkələrimiz arasındakı münasibətlər gündən-günə daha da inkişaf edir. Həm Türkiyədə, həm də Azərbaycanda qarşılıqlı investisiyalarımız, ticarətimiz artır, turizm sahəsində əməkdaşlığımız inkişaf edir. Biz bununla kifayətlənmirik. Eyni zamanda, region ölkələrinin də inkişaf etməsi üçün Türkiyə və Azərbaycan olaraq birlikdə çalışırıq. Qafqaz regionunda Gürcüstanın, Azərbaycanın və Türkiyənin həyata keçirdiyi layihələr – Bakı–Tbilisi–Qars dəmir yolu, Bakı–Tbilisi–Ceyhan neft, TANAP, Bakı–Tbilisi–Ərzurum təbii qaz layihələri təkcə bizim ölkələri maraqlandıran layihələr deyil, Avropanı da maraqlandıran, enerji təhlükəsizliyini təmin edən layihələrdir. Uzaq Şərqdən, Orta Asiyadan Azərbaycan ərazisindən Türkiyəyə və Avropaya daşımaları təmin edəcək tarixi İpək yolu – Bakı–Tbilisi–Qars layihəsi Sizin qətiyyətiniz və təşəbbüsünüzlə, cənab Prezidentimizin də töhfəsi ilə reallaşdı. Vaxtilə bir xəyal olan bu layihə indi bölgəyə xidmət etməyə başlayıb və eyni zamanda, Naxçıvana da ciddi logistik dəstək verir.

Bu gün qardaş və dost Azərbaycanda olmaqdan böyük məmnunluq duyuram. Bizə göstərdiyiniz səmimi münasibətə və qonaqpərvərliyə görə Sizə təşəkkür edirəm.

* * *

*Görüşdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Baş Naziri Binəli Yıldırım birgə nahar etdilər.*

## NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNİN HƏMSƏDRLƏRİ, SABİQ DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARI VƏ MƏRKƏZİN İDARƏ HEYƏTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*14 mart 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də VI Qlobal Bakı Forumunun işində iştirak edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri xanım Vayra Vike-Freyberqanı və İsmail Serageldini, sabiq dövlət və hökumət başçılarını, mərkəzin İdarə Heyətinin üzvlərini qəbul etmişdir.*

*VI Qlobal Bakı Forumunun önəmini vurğulayan dövlətimizin başçısı bu tədbirin mütəmadi olaraq keçirilməsindən, getdikcə daha çox iştirakçını özünə cəlb etməsindən və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin potensialının və beynəlxalq səviyyədə nüfuzunun artmasından məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri xanım Vayra Vike-Freyberqanın və İsmail Serageldinin, o cümlədən İdarə Heyəti üzvlərinin bütün bu işlərə verdikləri töhfəni yüksək qiymətləndirdi və mərkəzin İdarə Heyətinin üzvlərinin fəal iş aparmaları nəticəsində bu təşkilatın fəaliyyətinin gündəliyinin genişləndiyini bildirdi.*

*Xoş sözlərə və mərkəzin işinə verilən dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin Qlobal Bakı Forumunun böyük önəm daşıdığını və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin beynəlxalq səviyyədə nüfuzunun artdığını məmnunluqla vurğuladı. Nizami Gəncəvi Beynəlxalq*

*Mərkəzinin Çində, ABŞ-da və dünyanın bir sıra ölkələrində tədbirlər keçirdiyini bildirən qonaq bunu mərkəzin fəaliyyət coğrafiyasının genişlənməsinin və dünyada bu quruma olan marağın göstəricisi kimi dəyərləndirdi.*

*Görüş iştirakçıları Azərbaycanın beynəlxalq rolunun artdığını, ölkəmizin sabitliyə və təhlükəsizliyə töhfə verdiyini qeyd edərək bildirdilər ki, Qlobal Bakı Forumunun fəaliyyəti dünyada gedən proseslərə müsbət təsir göstərir və artıq beynəlxalq tədbirə çevrilibdir.*

*Söhbət zamanı bu tədbirin müxtəlif tərəflər arasında fikir mübadiləsinin və müzakirələrin aparılması üçün yaxşı imkan yaratdığı vurğulandı.*

## VI QLOBAL BAKI FORUMUNUN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*15 mart 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva martın 15-də Bakıda «İnklüziv cəmiyyətlərin qurulması üçün fərqliliklərin aradan qaldırılması» mövzusunda keçirilən VI Qlobal Bakı Forumunun açılışı mərasimində iştirak etmişlər.*

*Forumda, həmçinin Albaniya Prezidenti İlir Meta, Makedoniya Prezidenti George İvanov, Moldova Prezidenti İqor Dodon, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Mladen İvaniç, Türkiyənin Baş Naziri Binəli Yıldırım, Xarici İşlər naziri Mövlud Çavuşoğlu, Xarici İşlər nazirinin müavini Əhməd Yıldız, Fələstin Baş Nazirinin müavini Ziad Abu Amr, Bosniya və Herseqovinanın hökumət başçısının müavini Mirko Saroviç, Rumıniya Baş Nazirinin müavini Ana Birçall iştirak etdilər.*

*Əvvəlcə birgə foto çəkdirildi.*

*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin Prezident İlham Əliyevə bu foruma ev sahibliyi etdiyinə görə təşəkkürünü bildirdi.*

**İ s m a i l S e r a g e l d i n:** Zati-aliləri, xanımlar və cənablar! VI Qlobal Bakı Forumunun açılışı mərasimində sizi salamlamaq mənim üçün böyük şərəfdir.

Xanımlar və cənablar! Bütün dünyanın ən yaxşılarının ictimai maraqlara əsaslanan səmimiyyət və açıqlıqla dövrümüzün əsas məsələlərini müzakirə etmək üçün bir araya gəlməsi ənənəyə çevrilib. Bütün bunları mümkün edən və müzakirələrimizdə bizə yol göstərən şəxsi – zati-aliləri Azərbaycan

Respublikasının Prezidenti İlham Əliyevi dəvət etməklə, bu tədbiri açmaq mənim üçün böyük şərəfdir.

*Dövlətimizin başçısı VI Qlobal Bakı Forumunun açılışında nitq söylədi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Əvvəlcə mən bütün qonaqlarımıza bu gün bizimlə olduqlarına görə dərin minnətdarlığımı bildirmək istəyirəm. 50-dən çox ölkədən belə mötəbər nümayəndə heyətlərini qəbul etmək böyük şərəfdir. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi kifayət qədər qısa müddət ərzində çox böyük nüfuza, çox yüksək iş göstəricilərinə malik qlobal beynəlxalq təsisata çevrilib. Bakı Qlobal Forumu Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşəbbüslərindən biridir. Əvvəlcə mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrlərinə – xanım Vayra Vike-Freyberqaya və cənab İsmail Serageldinə bu təşkilatı ən mühüm beynəlxalq mərkəzlərdən birinə çevirmək üçün verdikləri böyük töhfəyə görə təşəkkürümü bildirmək istəyirəm. Bu mərkəz artıq altıncı dəfədir ki, Qlobal Bakı Forumunu təşkil edir. Forum qlobal gündəlikdə duran məsələlərin müzakirəsi məqsədilə kifayət qədər qısa müddət ərzində dünya platformalarından birinə çevrilibdir.

Qonaqlarımız arasında, artıq qeyd etdiyim kimi, 50-dən çox ölkənin nümayəndəsi vardır. Qonaqların sayı 450-dən çoxdur. Onların arasında 47 hazırkı və sabiq dövlət və hökumət başçıları, tanınmış siyasətçilər, dövlət xadimləri, alimlər, vətəndaş cəmiyyətinin təmsilçiləri vardır. Əminəm ki, forumun gedişi zamanı beynəlxalq münasibətlərin gündəliyində olan ən mühüm məsələləri müzakirə edəcəyik. Həmçinin inanıram ki, dünyada təhlükəsizliyin, sabitliyin, proqnozlaşdırmanın və əməkdaşlığın təmin edilməsi üçün mühüm tövsiyələr də olacaqdır.

Azərbaycan artıq bir çox beynəlxalq tədbirlərə ev sahibliyi edib. Onların sırasında Bakı Beynəlxalq Humanitar Forumunu, mütəmadi olaraq keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunu, Dünya Dini Liderlərinin Forumunu, BMT Sivilizasiyalar Alyansının Qlobal Forumunu qeyd etmək olar. Daha sonra – 2015-ci ildə ilk Avropa oyunları, 2017-ci ildə IV İslam Həmrəyliyi oyunları keçirilmişdir. Bütün bu tədbirlər əməkdaşlığa xidmət edir, körpülər salır, müxtəlif ölkələrin və dinlərin təmsilçiləri, fərqli fikirli insanlar arasında daha böyük anlaşmanı təmin edir.

Bu il biz «Bakı prosesi»nin 10-cu ildönümünü qeyd edəcəyik. BMT hazırda bu prosesi tam dəstəkləyir. O, Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatının üzv dövlətləri arasında əməkdaşlıq üçün nadir bir platformadır. Azərbaycan hər 2 təşkilatın üzvüdür və onların Mədəniyyət nazirlərinin 2008-ci ildə Bakıda toplantısını keçirmək təşəbbüsü ilə çıxış etmişdir. Bu proses davam edir. Hazırda «Bakı prosesi» beynəlxalq təşkilatlar və bütövlükdə xalqlar arasında daha yaxşı anlaşma üçün genişmiqyaslı fəaliyyətə əsaslanır. Qeyd etdiyim kimi, bütün səylərimiz təhlükəsizliyin, sabitliyin və proqnozlaşdırmanın, eləcə də xalqlar arasında sülh şəraitində birgə yaşamanın və anlaşmanın möhkəmləndirilməsinə yönəlibdir. Multikulturalizm Azərbaycanda dövlət siyasətidir, bizim həyat tərzimizdir. Biz çoxmillətli, çoxkonfessiyalı cəmiyyətimizlə fərəhlənirik. Bütün dinlərin və etnik qrupların nümayəndələri Azərbaycanda bir ailə kimi sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Hesab edirəm ki, bu, indiki dünyada böyük zənginlikdir. Biz həmçinin öz təcrübəmizi bölüşmək istərdik. Fikrimcə, müasir Azərbaycanın bugünkü inkişafı bunun yeganə düzgün siyasət olduğunu göstərir.

İnklüziv cəmiyyət hazırda qlobal gündəlikdə duran məsələlərdən biridir. Əlbəttə, bütün səylərimiz, qeyd etdiyim kimi, hamımızın dünyada, xüsusən də regionda ehtiyac duyduğu təhlükəsizliyin möhkəmləndirilməsinə yönəlib. Əfsuslar olsun ki, Azərbaycan ərazimizin, demək olar ki, 20 faizini işğal etmiş

qonşu Ermənistanın təcavüzündən əziyyət çəkir. Ermənistan beynəlxalq hüququn normalarını kobud surətdə pozur, azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparıb və bunun nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Ermənistan hərbi cinayətlər, o cümlədən Xocalı soyqırımını törədib. Həmin soyqırımı hazırda 10-dan artıq ölkə tərəfindən tanınıb. Bu soyqırımı nəticəsində 613 dinc, günahsız vətəndaş qətlə yetirilib. Onların arasında 106 qadın, 63 uşaq var idi. 1000-dən artıq şəxs itkin düşüb. Bu, insanlığa qarşı cinayətdir və Azərbaycana qarşı təcavüzün bir hissəsidir. Dağlıq Qarabağ bizim əzəli torpağımızdır. Əsrlərboyu azərbaycanlılar həmin ərazilərdə yaşayıb yaratmışlar. Hazırda işğal olunmuş ərazilərimizdə hər şey dağıdılıb, tarixi binalarımız, abidələr, qəbiristanlıqlar, dini abidələr yerlə yeksan edilib. Bunlar ATƏT-in 2 faktaraşdırıcı missiyası tərəfindən işğal olunmuş ərazilərdə qeydə alınıb. Bu eyni zamanda, mədəni irsimizə qarşı soyqırımıdır. Münaqişənin həlli beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əsaslanmalıdır. Ötən əsrin 90-cı illərinin əvvəllərində Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən 4 qətnamə qəbul edilibdir. Əfsuslar olsun ki, bu qətnamələr icra edilməyib və Ermənistana da heç bir sanksiya tətbiq olunmayıb. Bu o ölkədir ki, 20 ildən çoxdur BMT Təhlükəsizlik Şurasının qətnamələrini pozmaqda davam edir. ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurasının Parlament Assambleyası, «Qoşulmama Hərəkatı» kimi digər beynəlxalq təşkilatlar oxşar qətnamələr qəbul ediblər. Beləliklə, tarixi həqiqət, beynəlxalq hüquq bizim tərəfimizdədir. Münaqişənin hələ də həll olunmamasının yeganə səbəbi ondan ibarətdir ki, Ermənistan işğal etdiyi ərazilərdən çıxmaq istəmir. Nəinki Dağlıq Qarabağ, həmçinin onun ətrafındakı 7 rayon hazırda işğal altındadır. Orada bütün Azərbaycan əhalisi etnik təmizləməyə məruz qalmışdır.

Status-kvo qəbuledilməzdir, davam edə bilməz. Bu təkcə bizim yox, həm də dünyanın aparıcı dövlətlərinin, xüsusən də münaqişənin həllində ATƏT-in vasitəçi mandatına malik olan ölkələrin – Amerika Birləşmiş Ştatlarının, Fransanın və Rusiyanın mövqeyidir. Bu ölkələrin prezidentləri dəfələrlə açıq şəkildə bəyan etmişlər ki, status-kvo qəbuledilməzdir və dəyişilməlidir. Status-kvonu dəyişmək üçün Ermənistanın işğalçı qüvvələri zəbt olunmuş ərazilərdən dərhal çıxmağa başlamalıdırlar və Azərbaycan əhalisinə öz doğma yurdlarına qayıtmaq imkanı yaradılmalıdır. Bu münaqişə müasir tarixdə nəinki ən böyük ədalətsizlikdir, o cümlədən bizim o qədər də sabit olmayan regionumuzda daimi təhlükə və qeyri-sabitlik mənbəyidir. Buna görə də beynəlxalq hüququn prinsipləri, BMT Təhlükəsizlik Şurasının qətnamələri, Helsinki Yekun Aktı əsasında münaqişənin mümkün qədər tez həlli təmin edilməlidir. Bundan sonra regionumuzda sülh bərqərar ola bilər.

Münaqişəyə baxmayaraq, Azərbaycan inkişaf etməkdə davam edir. İqtisadi və sosial inkişafımız rəqəmlərdə, vətəndaşlarımızın bugünkü həyat tərzində, şəhərlərimizin simasında əks olunur. Biz insan kapitalına böyük həcmdə sərmayə yatırmışıq. Yeri gəlmişkən, hazırda «Bakı Ekspo–2025» üçün namizədliyini irəli sürmüş 3 şəhərdən biridir. Namizədliyimizin gündəliyi insan kapitalı ilə bağlıdır. Biz bu məsələyə diqqət yetiririk və açıq bəyan etmişik ki, siyasətimizin mərkəzində məhz Azərbaycan xalqı dayanır.

Son 15 il ərzində yoxsulluğun və işsizliyin azaldılması üçün çox işlər görülüb. Hazırda bu 2 göstərici təxminən 5 faiz səviyyəsindədir. Hesab edirəm ki, bu, hökumətimizin ən böyük nailiyyətlərindən biridir, çünki ötən əsrin 90-cı illərinin əvvəllərindəki çətin dövr hamımızın xatirindədir. Ölkəmizdə ciddi iqtisadi və sosial problemlər yaşanırdı. Hazırda Azərbaycan yoxsulluğun və işsizliyin səviyyəsinin az olmasına görə dünyada ən öncül ölkələr sırasındadır. Biz təhsilə, səhiyyə sahəsinə böyük

yatırımlar etmişik. Son 15 il ərzində 3100-dən artıq məktəb, 600-dən çox xəstəxana tikilibdir.

Azərbaycanda əhali ödənişsiz illik tibbi müayinədən keçir. Hər il 5 milyondan artıq insan bu imkana malikdir. Bu həmçinin sosial siyasətimizdir. O bizim mövqemizə, inkişaf edən iqtisadiyyata əsaslanır, çünki istək və siyasət kifayət deyil. Siz bu xidmətləri göstərmək üçün imkanlara malik olmalısınız. Bu səbəbdən biz əvvəlki illərdə nəinki əhalinin tələbatına cavab vermək, o cümlədən siyasi müstəqilliyimizi gücləndirmək üçün diqqəti iqtisadi müstəqilliyin təmin edilməsinə yönəltdik. Aydındır ki, ölkə iqtisadi baxımdan asılı vəziyyətdə olduqda, müstəqil xarici siyasət yürütmək imkanları məhdud olur. Bizə gəldikdə, sürətli iqtisadi artım Azərbaycan xalqının maraqlarına, universal dəyərlərə əsaslanan müstəqil xarici siyasət yürütmək imkanı yaratdı.

Son 15 il ərzində iqtisadi artım 3 dəfədən çox olub. Dəqiq desək, iqtisadiyyat 3,2 dəfə artıb. Fikrimcə, bu bir növ dünya rekordudur. İslahatlarımız Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, digər aparıcı beynəlxalq maliyyə təsisatları tərəfindən yüksək dəyərləndirilir. Davos Dünya İqtisadi Forumu Azərbaycanı qlobal rəqabətədavamlılıq baxımından 35-ci yerdə qərarlaşdırıb. Hesab edirəm ki, bu, tarixi nailiyyətdir – biz iqtisadiyyatın rəqabətqabliyyətliliyinə görə dünyanın 35 ən qabaqcıl ölkəsi sırasındayıq. Xatırlasaq ki, biz yalnız 26 ildir müstəqilik, bu həqiqətən də böyük nailiyyətdir. Davos Forumunun digər qiymətləndirməsi İnklüziv İnkişaf İndeksinə aiddir ki, burada da Azərbaycan inkişaf etməkdə olan ölkələr sırasında üçüncü yerdədir. Yəni bizdən öndə yalnız dünyanın 30 inkişaf etmiş ölkəsi və 2 inkişaf etməkdə olan dövləti yer alır. Bu, aparıcı beynəlxalq siyasi və maliyyə institutlarının bizim islahatlarla bağlı qiymətləndirməsidir. Bizim islahatlar yaxşı nəticələr verir. Həmin islahatlar sayəsində ölkəmiz adambaşına düşən birbaşa xarici investisiyaların həcminə görə dünyada aparıcı dövlətlərdən biridir. Son 15 ildə ölkəmizə yatırılan sərmayənin həcmi 230 milyard dollara bərabər olub və bu vəsaitin yarısını xarici, yarısını isə daxili

investisiyalar təşkil edib. Bir sözlə, Azərbaycan iqtisadi siyasətinin uğurlu olduğunu artıq sübut edib və təbii ki, bu bizə yalnız ölkə daxilində deyil, həmçinin regionda da sərmayə yatırmağa imkan, regional əməkdaşlıq üçün isə daha yaxşı platforma yaradır.

Əlbəttə, Azərbaycan enerji ehtiyatları ilə məşhurdur. Yeri gəlmişkən qeyd edim ki, dünyada ilk neft quyusu məhz Azərbaycanda, Bakıda qazılıb. O yer bu mehmanxanadan 15 dəqiqəlik məsafədə yerləşir və həmin tarixi quyu açıq havada salınmış muzeyin ərazisindədir.

Bu gün Azərbaycan özünün enerji potensialını dünyaya açmış dövlətdir. Biz xarici neft şirkətlərini Xəzər dənizində işləməyə dəvət edən ilk ölkə olmuşuq. Həmin əməkdaşlığın 24 illik tarixi var və bu həm bizim, həm də tərəfdaşlarımız üçün faydalı əməkdaşlıqdır. Qonşularımız və dostlarımız Türkiyə və Gürcüstan ilə birlikdə Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum qaz kəmərləri kimi mühüm enerji layihələrini həyata keçirmişik. Hər 2 kəmər vasitəsilə Azərbaycanın karbohidrogen ehtiyatları beynəlxalq bazarlara nəql edilir. Azərbaycan artıq Xəzər dənizinin digər tərəfində hasil olunan neftin daşınması üçün tranzit ölkəyə çevrilib. Azərbaycan öz tərəfdaşları ilə daha geniş formatda, enerji sektorunda dünyanın ən nəhəng layihəsi olan «Cənub Qaz Dəhlizi» layihəsi üzərində çalışır. Bu da öz növbəsində, tarixi layihədir. O, 7 dövləti birləşdirir və əlavə ölkələrin də cəlb edilməsi üçün yaxşı potensial vardır. Bu layihənin dəyəri 40 milyard dollardır və buraya Azərbaycanın təbii qazının hasilatı, nəqli və paylanması daxildir. Bakıdan başlayaraq, Avropada bitən vahid neft kəmərləri sisteminin ümumi uzunluğu 3500 kilometrə bərabərdir. Bu, regionun və Avropanın enerji təhlükəsizliyinə mühüm töhfədir. Enerji təhlükəsizliyi bir çox dövlətin milli təhlükəsizliyinin tərkib hissəsidir. Bu gün Azərbaycan nefti bəzi Avropa dövlətlərinin enerji balansının 40 faizini təşkil edir və Azərbaycanın təbii qazı da Avropa ölkələrinin enerji təhlükəsizliyini gücləndirəcəkdir.

Bu il biz «Cənub Qaz Dəhlizi» layihəsinin ən mühüm hissəsinin açılışını qeyd edəcəyik. Yəni «Şahdəniz» yatağından ilk qazın nəql olunmasını, Azərbaycanı Gürcüstan ilə birləşdirən «Cənubi Qafqaz» və Türkiyə ərazisindən keçən Trans–Anadolu kəmərlərinin istifadəyə verilməsini. Bunlar «Cənub Qaz Dəhlizi»nin mühüm seqmentləridir, işlər plan üzrə davam edir və ümidvaram ki, tezliklə biz həmin tarixi nailiyyətin – layihələrin istifadəyə verilməsini qeyd edəcəyik.

Azərbaycan, Gürcüstan və Türkiyə arasında mövcud olan əməkdaşlıq təkcə bizim ölkələrə xidmət etmir, eyni zamanda, bütün region üçün əhəmiyyət kəsb edir. Bizim illər boyu yaratdığımız enerji dəhlizləri artıq nəqliyyat dəhlizlərinə çevrilir və yenə də 3 dövlət həmrəylik, birlik və sadiqlik nümayiş etdirir. Ötən ilin oktyabrında biz daha bir tarixi layihənin açılışını etdik. Bu, 3 ölkəni, ancaq əslində qitələri birləşdirən dəmir yolu layihəsidir. Çünki bu dəmir yolu xətti Asiyadan Avropaya olan ən qısa marşrutdur. Onun sayəsində Asiyadan Avropaya və geriyə olan yükdaşımaları üçün tələb olunan vaxt 30 gün deyil, 2 həftəyə bərabər olacaqdır. Bakı–Tbilisi–Qars layihəsinin ötən ilin oktyabrında açılışı qlobal əhəmiyyət kəsb edən hadisədir. Çox şadam ki, açılışdan qısa bir zaman – 6 ay keçməsinə baxmayaraq, biz bu layihəyə artan marağın şahidi oluruq. Biz bu layihəyə böyük maraq və ümidləri olan Asiya, Mərkəzi Asiya və Avropadan olan yeni tərəfdaşları görürük. Hazırda biz əməkdaşlığın daha irəlidə olan mərhələsindəyik və burada səylərimizi əlaqələndiririk ki, bu marşrut yalnız vaxt baxımından deyil, iqtisadi cəhətdən də rəqabətli olsun. Yəni biz yükləri daşıma vaxtının qısa olması ilə bərabər, münasib qiymətlə də cəlb edə bilək. Biz həmin istiqamətdə olduqca fəal çalışırıq. Bu bizim fəaliyyətimizin mühüm beynəlxalq əhəmiyyət kəsb etdiyi bir sahəsidir.

Azərbaycanın beynəlxalq əməkdaşlığa verdiyi töhfə çoxşaxəlidir. Qeyd etdiyim kimi, onlardan biri mədəni körpülərin qurulmasına yönələn səylərimizdir ki, onlar Asiya və Avropa,

Avropa ilə müsəlman dünyası arasında daha yaxşı anlaşmanın yaradılmasına xidmət edir. Bizim enerji və nəqliyyat layihələrimiz xalqlara fayda gətirir, on minlərlə yeni iş yerləri yaradır və bununla da ölkələrin inkişafına töhfə verir. Bizim regionda sabitləşdirici amil rolumuz da yüksək qiymətləndirilir. Beləliklə, biz apardığımız siyasətin bəhrəsini görürük. Həmin siyasət ki, hər zaman təhlükəsizlik, sabitlik və proqnozlaşdırıla bilməyə yönəlmiş qarşılıqlı əməkdaşlıq və dəstək üzərində qurulub. Bizə lazım olan məhz budur və düşünürəm ki, Azərbaycanın qonşuları ilə qura bildiyi münasibətlər mehriban qonşuluğun yaxşı nümunəsidir.

Bu gün ilk dəfə olaraq Bakıda regionun 4 dövlətinin – Azərbaycanın, İranın, Gürcüstanın və Türkiyənin Xarici İşlər nazirlərinin görüşü keçiriləcəkdir. Bundan öncə biz üçtərəfli əməkdaşlıq formatlarını qurmuşuq – Azərbaycan–Türkiyə–Gürcüstan, Azərbaycan–İran–Türkiyə və Azərbaycan–İran–Rusiya. Bütün bu formatlar sabitliyə və sülhə, habelə iqtisadi inkişafa xidmət edir. Qeyd etdiyim kimi, həyata keçirdiyimiz enerji və nəqliyyat layihələri xalqlarımızın mənafeyinə xidmət edir. Biz uğura yalnız bu yolla nail ola bilərik. Siz nə qədər vəsait qoysanız belə, qonşularla yaxşı münasibətiniz olmasa, heç vaxt tranzit ölkəyə çevrilə bilməzsiniz. Mehriban qonşuluq münasibətləri hər bir ölkə üçün vacibdir.

Azərbaycan beynəlxalq təşkilatlarda da güclü mövqeyə sahibdir. Gələn həftə biz «Qoşulmama Hərəkatının» Xarici İşlər nazirlərinin toplantısına ev sahibliyi edəcəyik. Azərbaycanın bu mühüm beynəlxalq təşkilatın yeni üzvü olmasına baxmayaraq, ölkəmiz orada böyük dəstəyə malikdir və belə bir toplantının keçirilməsi onun təzahürüdür. Azərbaycan digər beynəlxalq təşkilatlarda – İslam Əməkdaşlıq Təşkilatında da, Avropa İttifaqının «Şərq Tərəfdaşlığı» çərçivəsində də fəaldır. Avropa İttifaqı ilə yeni Tərəfdaşlıq Sazişi üzərində çalışırıq. Həmin saziş olduqca geniş sənəd olacaq və siyasət, iqtisadiyyat, təhlükəsizlik,

enerji, nəqliyyat, mədəni müxtəliflik kimi sahələrdə əməkdaşlığı əhatə edəcəkdir.

Beləliklə, regiondakı və dünyadakı rolumuzun nədən ibarət olduğunu və həmin nəcib məqsədlərə nail olmaq yolundakı nailiyyətlərimizi qısaca olaraq diqqətinizə çatdırdım. Bir daha qeyd edirəm ki, bizim siyasətimiz əməkdaşlığa, dostluğa və tərəfdaşlığa nail olunmasına yönəlibdir. Dediyim kimi, müasir Azərbaycanın nailiyyətləri sübut edir ki, biz düzgün yoldayıq.

2 aydan sonra biz Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyini qeyd edəcəyik. Biz fərəhlənirik ki, müsəlman dünyasında ilk demokratik respublikanın baniləri məhz azərbaycanlılar olublar. Müsəlman aləmində ilk dəfə azərbaycanlılar azad, insanların bütün hüquqlarının qorunduğu cəmiyyətdə yaşamaq arzusunu ifadə ediblər. Bugünkü Azərbaycanın inkişafında Azərbaycan Xalq Cümhuriyyətinin rolu olduqca böyük olubdur. Eyni zamanda, biz bu gün onların 100 il bundan əvvəl qəbul etdiyi qərarlarla da fəxr edirik. Onlardan biri qadınlara səsvermə hüququnun verilməsi olub ki, o qərar bir çox Avropa dövlətlərindən öncə qəbul edilibdir. Təəssüf ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü 2 ildən bir az qısa olub və respublikanın faciəvi süqutu hamımız üçün dərs olubdur.

Həqiqi müstəqilliyin qorunub saxlanılması onu əldə etməkdən çox çətindir. Bugünkü Azərbaycan tam mənada müstəqil dövlətdir. O dövlət ki, gələcəklə bağlı aydın baxışa malikdir. Hesab edirəm ki, Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları müasir Azərbaycanın inkişafının şahidi ola bilsəydilər, bizimlə fəxr edərdilər. Biz isə onlarla fəxr edirik və həm özümüzə, həm də dünyaya nümayiş etdiririk ki, insanlar yalnız müstəqillik dövründə, öz taleyinin sahibi olanda uğura nail olurlar. Bu gün Azərbaycan bunun bariz nümunəsidir.

Mən foruma uğurlar diləyir və bu gün bizimlə olduğunuza görə sizə bir daha təşəkkür edirəm.

**İ s m a i l  S e r a g e l d i n:** Zati-aliləri, bizə yol göstərdiyinizə görə Sizə təşəkkür edirəm. İcazə verin, fürsətdən istifadə edərək, Sizi Azərbaycanın nail olduğu möhtəşəm nailiyyətlər və Sizin də qeyd etdiyiniz kimi, müsəlman Şərqində ilk demokratik respublikanın yaranmasının 100 illiyi münasibətilə təbrik edim. Auditoriya üçün qeyd edim ki, bu respublika ABŞ-dan əvvəl qadınlara səsvermə hüququ verib. Həmçinin bildirim ki, bu qədər gənc olmasına baxmayaraq, hazırda Azərbaycan dünyada 35 ən rəqabətqabliyyətli ölkədən biridir.

Zati-aliləri, bizim forumla bağlı bir sıra müraciətlərimiz vardır. İndi isə Türkiyə Respublikasının Baş Naziri Binəli Yıldırımı dəvət etmək mənim üçün böyük məmnunluq və şərəfdir.

**B i n ə l i  Y ı l d ı r ı m** (*Türkiyə Respublikasının Baş Naziri):*Hörmətli cənab Prezident İlham Əliyev!

Hörmətli Mehriban xanım!

Xanımlar, cənablar, digər ölkələrdən gəlmiş prezidentlər, Baş nazirlər, nazirlər, dəyərli qonaqlar!

Bu gün Bakıda bu mühüm forumla əlaqədar sizinlə bir yerdə olmaqdan son dərəcə məmnunluq duyuram. Bütün iştirakçıları hörmət və ehtiramla salamlayıram.

Azərbaycanın beynəlxalq məsələlərlə əlaqədar dialoqu inkişaf etdirmək məqsədilə yaratdığı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətini yaxından izləyir və təqdir edirik. 2012-ci ildə yaradılmasına baxmayaraq, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi son 6 il ərzində 20 ölkədə tədbirlər keçirib, 100-dən çox dövlət və hökumət başçısını öz sıralarında birləşdirməyə nail olubdur. Nizami Gəncəvi XII əsrdə yaşamış azərbaycanlı, türk elm xadimi, şair və mütəfəkkirdir. «Sirlər xəzinəsi», «Leyli və Məcnun», «Xosrov və Şirin», «Yeddi gözəl» və «İsgəndərnamə» kimi mühüm və əfsanəvi əsərləri ilə türk, fars və ərəbdilli ədəbiyyatda öz imzasını qoymuş önəmli şəxsiyyətdir. Fürsətdən istifadə edərək, böyük mütəfəkkir Nizami Gəncəvini hörmət və məhəbbətlə anırıq. Nizami Gəncəvi hazırda dünyada yaşanan problemlərin həlli üçün hələ

o dövrdə «qızıl açar» təqdim edir və deyir ki, bağlı bir qapının açarını yalnız alimlərdə axtardığın zaman tapa bilərsən.

Məhz bu baxımdan Qlobal Bakı Forumu hər il müxtəlif mövzu və devizlə dünyanın aktual problemlərinin müzakirə olunduğu mühüm platforma kimi qəbul edilməyə başlanılıb. Müzakirə olunan mövzularla bağlı tanınmış və nüfuzlu şəxslərin fikir mübadiləsi aparmaları bölgəmizin və dünyamızın ehtiyac duyduğu geniş üfüqlər açan düşüncələri ortaya qoyur. Forumun builki «İnklüziv cəmiyyətlərin qurulması üçün fərqliliklərin aradan qaldırılması» mövzusu getdikcə qütbləşən dünyada əhatəli və sülhsevər cəmiyyətlərin necə qurulması yollarını göstərmək baxımından son dərəcə əhəmiyyətli məsələdir.

Hər məsələnin mərkəzində insan amili vardır. Hamımız gələcək nəsillərə əmin-amanlıq, rifahın olduğu dayanıqlı dünya təqdim etməkdə məsuliyyət daşıyırıq. «İnsanı yaşat ki, dövlət yaşasın, insanı yaşat ki, dünya yaşasın» prinsipinə önəm verməliyik. Buna görə də qlobal sülhün qorunması, dayanıqlı inkişaf, ədalətli bölüşmə, regional rifah və inkişafda uçurumun azaldılması önəmli hədəflərimiz sırasında olmalıdır. Əlimizdəki rəqəmlər, təəssüf ki, bu baxımdan nikbin olmağa imkan vermir. Bu çətinliklərin öhdəsindən gəlmək üçün çox böyük əmək sərf etməliyik. Bir tərəfdən, dünyada yeni texnologiyaların, elmin, kommunikasiyanın inkişafı, «sənaye 4.0», süni intellekt kimi yenilikçi texnologiyaların həyatımıza daxil olması, digər tərəfdən də iş vərdişlərimizin, peşə və ixtisas növlərinin sürətlə dəyişməsi dünyanın gələcəyi üçün gözəl amillərdir. Ancaq bu yeniliklərin bütün dünya, bütün ölkələr üçün faydalı və səmərəli olmasından ötrü mütləq şəkildə daha güclü regional və qlobal əməkdaşlığa ciddi ehtiyac vardır.

Bir ölkənin çox inkişaf etməsi və onun qonşuluğundakı ölkənin inkişafda geri qalması qlobal qeyri-sabitliyin əsas səbəblərindən biridir. Cəmiyyətlərin qarşı-qarşıya qala biləcəkləri problemləri həll etmək qabiliyyətlərinin inkişaf etdi-

rilməsinin də mühüm əhəmiyyət daşıdığına inanırıq. Davamlı ictimai ahəng üçün müxtəlifliklərin ayırıcı yox, zənginləşdirici amil olduğunu görməliyik. Müasir dövrdə radikalizm, ksenofobiya, irqçilik, islamofobiya kimi problemlər barədə təəssüf ki, daha çox danışılmağa başlanılıb. Xüsusilə inkişaf etmiş ölkələrdə belə hallarla qarşı-qarşıya qalırıq. Sülh içində yaşayan plüralist, demokratik cəmiyyətlər qurmaq üçün belə dağıdıcı cərəyanlara qarşı birlikdə mübarizə aparmaq vacib şərtdir. İrq, cins, sinif, etnik mənsubiyyət fərqlərinə baxmayaraq, bütün insanlara bərabər imkanın təmin olunduğu, heç kimin özünü kənarlaşdırılmış hiss etmədiyi bir cəmiyyətdə sabitlik davamlı olacaqdır.

Türkiyə olaraq biz bu yanaşmadan hərəkət edərək, insana istiqamətlənmiş, sülhsevər, dostluğu artırmaq, düşmənçiliyi azaltmaq istiqamətində sabit siyasət yürüdürük. Bundan başqa, gənc nəslin təhsilində bəşəri dəyərlər, tolerantlıq və müxtəlifliklərin zənginlik olduğu ideyasını daim diqqət mərkəzində saxlayırıq. Bu dəyərlərin cəmiyyətdəki ədalətsizliyə, nifrətə və hətta terror kimi təhdidlərə qarşı təsirli mübarizə üçün şərt və lazımlı olduğunu düşünürük.

Ölkəmizin zəngin mədəni müxtəlifliyə malik keçmişə sahib olduğunu söyləmək istəyirəm. Türkiyə mədəniyyətlərin, dinlərin qovuşduğu yüz illər boyunca Asiya ilə Avropa arasında bir kəsişmə nöqtəsidir. Türkiyə yüz illər boyunca bu xüsusiyyəti ilə fərqli mədəniyyətlərə ev sahibliyi edib. Bunun izlərini mədəniyyətimizdə, dinimizdə, həyatın bütün sahələrində görmək mümkündür.

Hörmətli qonaqlar, ölkələrin get-gedə bir-birindən daha çox asılı olduqları bir dünyada yaşayırıq. Bu vəziyyətdə geniş bölgələri, iqtisadiyyatları və xalqları bir-birinə bağlayan layihələrlə regional və qlobal rifahı təmin etmək mümkün olacaqdır. Bir az əvvəl hörmətli Prezident İlham Əliyevin ifadə etdiyi kimi, Qafqaz bölgəsində Azərbaycan, Gürcüstan və Türkiyə olaraq, həqiqətən, regional əməkdaşlığa, hətta qlobal

rifaha mühüm töhfə verən önəmli layihələr həyata keçiririk. Mən bu layihələri yenidən sadalamaq istəmirəm. Amma bilavasitə özümün də məsul olduğum Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi təkcə Azərbaycanı, Gürcüstanı və Türkiyəni maraqlandırmır. Bu, Uzaq Şərqdən ta Qərbi Avropaya qədər böyük bir coğrafiyanı maraqlandıran və yüz illər ərzində tarixi İpək yolu olaraq, istifadə edilən müştərək dəhlizi müasir dəmir yolu xətti ilə birləşdirən bir layihədir. Bu layihə ilə Uzaq Şərq, Orta Asiya, Qafqaz, Anadolu və Yaxın Şərq coğrafiyası ilə Balkanlar və Avropa birləşdirilir. Eyni qaydada Trans–Anadolu təbii qaz boru kəməri də bu il tamamlanacaq və beləliklə, Azərbaycan qazı Anadolu ərazisindən Balkanlara və Avropaya nəql ediləcəkdir. Bu əslində regional və qlobal əməkdaşlığın ən gözəl nümunələrindən biridir. Bir tərəfdən, enerji təhlükəsizliyinin təmin olunması, digər tərəfdən isə ölkələrin bir-birinin ehtiyacını ödəməsi baxımından çox əhəmiyyətli bir layihədir.

Türkiyə müttəfiqləri və dostları üçün etibarlı, özünü regional sülhə və rifaha həsr etmiş ölkə olduğunu Yaxın Şərqdə, Balkanda və Qafqaz başda olmaqla, dünyanın bir çox yerində göstərib. Son 7 ildə Suriyada yaşanan vətəndaş müharibəsi və hakimiyyət boşluğundan yaranan miqrant axınını – 3,5 milyondan çox qaçqını qəbul edən, çörəyini, suyunu bölüşən ölkə Türkiyədir. Əgər bunlar edilməsəydi, bölgədə qarışıqlıq daha da artacaqdı və davam edən terror təhlükəsini nəzarət altına almaq bəlkə də mümkün olmayacaqdı.

Bu gün və sabah burada keçiriləcək panel iclaslarında natiqlər, ekspertlər, elm xadimləri müxtəlifliklər necə ortadan qaldırıla və ölkələr bir-birinə necə yaxınlaşdırıla bilər mövzularını ətraflı müzakirə edəcəklər. Bunun nail ola biləcəyi ən mühüm amil qarşılıqlı rəğbəti, dostluq əlaqələrini daha çox gücləndirmək və BMT-nin qlobal proseslərdə daha çox etibar artıran quruma çevrilməsidir. Rəqabətin deyil, problemlərin həllini əsas tutan BMT islahatlarının artıq vazkeçilməz zərurət olduğu da gün kimi

aydındır. Bir tərəfdə insanlar ölür, kimyəvi qazlar tətbiq edilir, uşaq, böyük, yaşlı, gənc məhv olur, amma BMT Təhlükəsizlik Şurası yalnız rəqabət – ölkələrin bir-biri ilə rəqabəti uğrunda bu insanlıq faciəsinə lazımi cavab verə bilmir, bu dəhşətin qarşısını ala bilmir. Qlobal sülhü, qardaşlığı təmin etmək yalnız və yalnız hər kəsin hadisələr qarşısında ikili standartlara yol vermədən, insanlığa, humanitar dəyərlərə əsaslanaraq, həll yolu təqdim etməsi ilə mümkün olacaqdır.

Çox da uzaqda olmayan Dağlıq Qarabağ problemi illərdir Azərbaycanın qanayan yarasıdır. Azərbaycan torpaqlarının 20 faizi hərb yolu ilə işğal edilib, 1 milyondan çox insan evsiz-eşiksiz qalıb, qaçqın və məcburi köçkün durumuna düşübdür. BMT, ATƏT-in Minsk qrupu, digər beynəlxalq təşkilatlar bunun ədalətsiz olduğunu bildirdiyi, işğalın aradan qaldırılmasının vacibliyini qeyd etdiyi halda, təəssüf ki, bu istiqamətdə lazımi addımlar atılmayıb. Əminəm ki, haqq gec-tez öz yerini tapacaq və təqsirkarlar layiq olduqları cavabı alacaqlar.

Bu hisslərlə çıxışımı bitirərkən, qlobal məsələlərlə bağlı mühüm həll variantları təqdim edən və dünyanın bir çox siyasətçisini, elm adamını, ekspertini bir araya gətirən belə bir nüfuzlu forumun tədbirlərindən birinə Türkiyə olaraq, ev sahibliyi etmək niyyətimizi bildirmək istəyirəm.

Bizi – dəyərli iştirakçıları bu mühüm tədbirə dəvət edərək, fikirlərimizi bölüşmək imkanı yaratdığına görə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə, onun həmsədrlərinə təşəkkürümü bildirirəm. Forumun bizə cəmiyyətlərimizin rifahı, daha gözəl bir dünya üçün gözəl nəticələrin və fikirlərin ortaya qoymasını arzu edir, hamınıza ehtiramımı bildirirəm.

**İsmail Serageldin**: Təşəkkür edirəm, cənab Baş Nazir. Zati-aliləri Prezident Əliyevin icazəsi ilə, düşünürəm ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi sizin gözəl Türkiyəyə gəlmək dəvətinizi qəbul etməkdən məmnun olacaqdır.

Bizə bu toplantı ilə bağlı bir neçə mühüm müraciət vardır. Müraciətlərdən biri İtaliya Respublikasının Prezidenti zati-aliləri Sercio Mattarella tərəfindən ünvanlanıbdır.

**A u q u s t o  M a s s a r i** *(İtaliya Respublikasının Azərbaycandakı səfiri):* Zati-aliləri Azərbaycan Prezidenti cənab İlham Əliyev!

Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva!

Əziz qonaqlar!

İcazənizlə, İtaliyanın Azərbaycandakı səfiri olaraq, İtaliya Respublikasının Prezidenti zati-ailəri Sercio Mattarellanın müraciətini oxumaq mənim üçün şərəfdir.

**«VI Qlobal Bakı Forumunun iştirakçılarına**

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin bir daha təşkil etdiyi Qlobal Bakı Forumu cəmiyyətlərimizin daha açıq, daha müxtəlif və daha da demokratik olmasını təmin etməklə bağlı konkret təkliflərə və təşəbbüslərə dair dərin müzakirələrə imkan yaradacaqdır. Builki tədbir üçün seçilmiş «İnklüziv cəmiyyətlərin qurulması üçün fərqliliklərin aradan qaldırılması» mövzusu gələcək addımları aydın şəkildə göstərir. Müxtəlifliyə hörmət, digər mədəniyyətlərlə mütəmadi şəkildə qarşılıqlı əlaqə, bütün insanların bərabər ləyaqətini qəbul etmək hər yerdə sülhün və sabitliyin təmin olunması, eyni zamanda, qeyri-tolerantlıq və ekstremizm riskinin qarşısının alınması üçün əsas elementlərdir. Terrorçuların törətdikləri vəhşiliklər bizi aktual və kompleks çağırışla üzləşdirir. Bu çağırışa cavab vermək üçün biz təhlükəsizliyi təmin etməliyik. Lakin biz eyni zamanda, birgəyaşayış və dialoq mədəniyyətini təşviq və inkişaf etdirməliyik. Qlobal Bakı Forumu kimi tədbir qarşılıqlı anlaşmanı təbliğ etməklə və gücləndirməklə məhz bu istiqamətdə irəliləyir. Buna görə də mən Qlobal Bakı

Forumunun təşkilatçılarını təbrik edirəm və bütün iştirakçılara ən xoş arzularımı çatdırıram.

**SERCİO MATTARELLA**
**İtaliya Respublikasının Prezidenti»**

**K a r o l K r o f t s** *(Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycandakı səfiri):* Zati-aliləri cənab Prezident!

Çox hörmətli xanım Birinci vitse-prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş Naziri xanım Tereza Meyin müraciətini sizin üçün oxumaq mənim üçün şərəfdir.

**«VI Qlobal Bakı Forumunun iştirakçılarına**

Mən altıncı ildir ki, Qlobal Bakı Forumunu təşkil etdiyinə və bu qədər görkəmli hazırkı və sabiq dünya liderlərini bir araya gətirdiyinə görə Azərbaycanı və zati-aliləri Prezident Əliyevi təbrik edirəm. Builki Qlobal Bakı Forumunun mövzusu – «İnklüziv cəmiyyətlərin qurulması üçün fərqliliklərin aradan qaldırılması» bütün iştirakçı ölkələrin rəğbətini qazanacaqdır. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi dialoqun inkişafı və bu gün dünyanın üzləşdiyi müxtəlif aktual problemlərlə bağlı təcrübə mübadiləsinin aparılması üçün əlverişli platformadır. 1918-ci ildə yaradılmış Azərbaycan Respublikasının 100 illiyi bu il tamam olur. Azərbaycanın bu əlamətdar günü tam suveren və müstəqil dövlət kimi qeyd etməsi təbiidir. Birləşmiş Krallıq və Azərbaycan 1992-ci ildə diplomatik münasibətlər yaradılandan bu günədək güclü və məhsuldar əlaqələr qurub. Uzunmüddətli enerji əlaqələrimizlə yanaşı, biz geniş spektrdə mühüm məsələlərdə sıx əməkdaşlıq edirik. Qarşıdakı illərdə biz

bu əməkdaşlığı dərinləşdirməyə və gücləndirməyə davam edəcəyik.

Mən Azərbaycana və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə bu tədbirdə və bütün dünyada inklüziv cəmiyyətlərin inkişafına imkan yaratmaqla bağlı mühüm müzakirələrinizdə uğurlar arzulayıram.

**TEREZA MEY**
**Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş Naziri»**

*Sonra İsmail Serageldin Roma Papası əlahəzrət Fransiskin Vatikandan göndərdiyi müraciətini oxudu.*

«VI Qlobal Bakı Forumunda iştirak edən hər kəsi salamlamaqdan çox məmnunam. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi forumun səmərəli olması və ümumi işə töhfə verməsi üçün xoş arzularımı çatdırıram.

*Çox böyük hörmətlə,*

**Roma Papası Fransisk»**

**A n a B i r ç a l l** (*Rumıniya Baş Nazirinin müavini)*: Zatialiləri Prezident Əliyev!

Birinci vitse-prezident xanım Əliyeva!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Rumıniya Baş Nazirinin müavini olaraq, Baş Nazir xanım Viorika Dençilenin bu müraciətini çatdırmaq mənim üçün şərəfdir.

**«VI Qlobal Bakı Forumunun iştirakçılarına**

Bu müraciəti son illərdə ümumi çağırışlarımızı müzakirə etmək, qiymətləndirmək və həll yolu tapmaq üçün əsl qlobal

platformaya çevrilmiş Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən təşkil olunmuş bu nüfuzlu tədbirin – VI Qlobal Bakı Forumunun bütün iştirakçılarına çatdırmaq mənim üçün şərəfdir. Son 6 ildə liderlər, mütəfəkkirlər və alimlər qlobal gündəlikdə duran ən aktual problemlərin həlli ilə bağlı fikir mübadiləsi aparmaq üçün Bakıda bir araya gəlirlər. Mən bu il belə yerinə düşən və aktual mövzu seçdiyinə görə Nizami Gəncəvi Beynəlxalq Mərkəzini təbrik etmək istərdim. İnklüziv cəmiyyətlərin qurulması üçün fərqliliklərin aradan qaldırılması bizim hamımız, xüsusilə də siyasətçilər üçün cəmiyyətimizin quruluşunun gücünə və çevikliyinə söykənən görülməli işlər siyahısında prioritet məsələ olaraq qalır. Bu gün biz dünyanın bir-biri ilə qarşılıqlı şəkildə əlaqəli və mürəkkəb təbiətindən irəli gələn çətin proseslərin öhdəsindən gələrkən geniş düşünməli və bütün mümkün ilham mənbələrinə müraciət etməliyik. Bu il həm Rumıniya, həm də Azərbaycan müstəqilliyinin 100 illiyini qeyd edir. 1918-ci ildən sonrakı illərdə Rumıniya o dövrün ən yaxşı standartlarına cavab verən plüralist və tolerant cəmiyyət qurmaq və inkişaf etdirmək üçün davamlı səylər göstərib. 100 il bundan əvvəl Azərbaycan da regionda parlamentli demokratiya və qadınların səs vermək hüququ sahəsində yüksək standartlar yaradıb. Bu, qeyd olunan cəmi bir neçə məqamdır. Bu rəmzi məqamda həmin nailiyyətləri xatırlatmağı məqsədəuyğun və ümidverici hesab edirəm. Cəmiyyətlərimizin inklüzivliyini daha da gücləndirmək istiqamətində səylərimizi davam etdirmək bu gün həmişə olduğundan daha vacibdir. Bu bəzən çətin, lakin hər zaman nəticə verən gündəlik səylərdir. Əks halda, tolerantlıq, müxtəlifliyə hörmət, harmoniya kök sala bilməz. Onları sadəcə, təqlid etmək olmaz. Onlar həmişə gənc nəslə aşılanmalıdır.

Xanımlar və cənablar, Şərq ilə Qərbin kəsişməsində yerləşən, dünyəvi və multikultural cəmiyyətə malik olan Azərbaycan bu gün etibarlı regional faktor kimi mühüm rol oynayır. Prezident möhtəşəm açılış nitqində nailiyyətləri xatırlatdı. Mən

hesab edirəm ki, Azərbaycanın bizim hamımızla bölüşəsi mühüm təcrübəsi vardır. Bizim Qara dəniz və Xəzər dənizi ilə həmsərhəd olan regionumuzun daha çox belə müsbət təcrübəyə ehtiyacı vardır. Bu günün və sabahın problemlərinə doğru cavabları yalnız birlikdə tapa bilərik. Əminəm ki, VI Qlobal Bakı Forumu bizi bu məqsədə bir addım da yaxınlaşdıracaqdır. Mən sizə səmərəli müzakirələr arzulayıram və təşəkkür edirəm. Mən Rumıniyanın belə möhtəşəm toplantıda iştirakına şərait yaratdığına görə təşkilatçılara minnətdaram. Sizin hamınıza uğurlar arzulayıram və sizi salamlayıram. Təşəkkür edirəm.

**VİORİKA DENÇİLE**
**Rumıniyanın Baş**
**Naziri»**

**Q u l a m İ s h a q z a i** *(BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi)*: Azərbaycan Respublikasının Prezidenti zati-aliləri İlham Əliyev!

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva!

Zati-aliləri, hörmətli qonaqlar, xanımlar və cənablar!

BMT-nin Azərbaycandakı nümayəndəsi olaraq, Baş katib Antonio Quterreşin «İnklüziv cəmiyyətlərin qurulması üçün fərqliliklərin aradan qaldırılması» mövzusunda VI Qlobal Bakı Forumuna müraciətini çatdırmaq mənim üçün şərəfdir.

**«VI Qlobal Bakı Forumunun iştirakçılarına**

Mən VI Qlobal Bakı Forumunun iştirakçılarını salamlamaqdan məmnunam. Böyük çağırışlar və qlobal ixtilafların olduğu bir zamanda mən cəmiyyətlər arasında körpülərin qurulmasında, tolerantlığın, mədəniyyətlərarası dialoqun və anlaşmanın təbliğində oynadığı rola görə Nizami Gəncəvi Beynəlxalq Mərkəzini təbrik edirəm.

Mən sizin builki tədbirdə əsas diqqəti sağlam planetdə hamı üçün daha yaxşı dünyanın qurulması istiqamətində universal və transformative «Strateji Yol Xəritəsi» olan «Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf Gündəliyi»nin əhəmiyyətli bir hissəsinə – inklüziv cəmiyyətlərin yaradılması hədəfinə yönəltməyinizi alqışlayıram.

Dayanıqlı inkişaf məqsədlərinin 16-cı maddəsi insan haqları, qanunun aliliyi, şəffaf, səmərəli və təhtəlhesab təsisatlara hörmətə əsaslanan sülhsevər və inklüziv cəmiyyətlərin təbliğinə çağırır. Bu məqsədə çatmaq və silahlı münaqişələrin qarşısını almaq üçün biz narazılıq, hüquqlardan məhrumetmə və bərabərsizliklərin kökündə duran səbəblərlə məşğul olmalı, hər bir fərdin ləyaqət və hüquqlarını müdafiə etməliyik.

Sizin gənclərə daha çox imkanların yaradılmasını və bugünkü təhdidlərlə mübarizədə elmin və texnoloji innovasiyaların rolunu əhatə edən müzakirələriniz bizim birgə səylərimizə töhfə verə bilər. Sülhməramlı və dayanıqlı gələcəyə sadiqliyinizə görə sizə təşəkkür edirəm.

**ANTONİO QUTERREŞ**
**BMT-nin Baş katibi»**

**V a y r a V i k e - F r e y b e r q a** *(Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Latviyanın sabiq Prezidenti):* Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev!

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Əliyeva!

Zati-aliləri, dövlət və hökumət başçıları, əziz qonaqlar!

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin və inklüziv cəmiyyətlərin əziz dostları!

Biz Bakı Forumunda sayı ildən-ilə artan iştirakçıları əhatə edən dostluq mühitində bir araya gəlmişik. Buna görə mən təşkilatçıların – Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrlərinin və İdarə Heyətinin adından artıq bir neçə ildir bizə sadiq olan hər kəsə dərin minnətdarlığımı bildirirəm. Mən bizə bu il ilk dəfə olaraq qoşulan hər kəsi səmimi-qəlbdən salamlayıram.

Bizim müzakirə etdiyimiz mövzu elə bir məsələdir ki, burada anlaşılmazlıqlar və fərqli interpretasiyalar fərqli baxışların əsas mənbəyidir. Bu da qruplar və millətlər arasında fikir ayrılığına, münaqişələrə, bəzən də zorakılığa gətirib çıxarır. Nizami Gəncəvinin hələ XII əsrdə yaxşı rəhbərin xüsusiyyətləri və ölkənin yaxşı idarə olunması ilə bağlı dərindən düşündüyü və bunu poetik şəkildə ifadə etdiyi ədalətli cəmiyyət konsepsiyasının yaradılması hər bir cəmiyyətin daxilində əsrlər və min illərlə vaxt tələb edib. Dünyanın istənilən ölkəsində vətəndaşların istədiyi təbiətin onlara verdiyi normal ömrü təmin edəcək sülh və təhlükəsizlikdir. Onlar həmçinin ən azı qənaətbəxş yaşayış və mümkün olsa, əgər işləyirlərsə və nə isə etməyə hazırdırlarsa gələcəkdə maddi rifah gözləyirlər. Lakin hər şeydən əvvəl birgə və inklüziv cəmiyyət təbiətin qaçılmaz olaraq hər növə bəxş etdiyi müxtəlifliklərə hörmət edir və insanlar istisna deyil. Bioloji aləmdə təkamülü mümkün edən də məhz bu müxtəliflikdir. İnsanın xüsusiyyətlərinin və istedadlarının müxtəlifliyi bir qrup adam üçün lazım olduğundan çox üstünlüklərə, bir çoxları üçün isə layiq olmadığı repressiyalara yol açan bütün maneələri, bütün şüşə tavanları, cəmiyyətin müxtəlif təbəqələrini ayıran bütün divarları aradan qaldırmaqla, cəmiyyətlərə inkişaf etməyə imkan verir. İnsan ləyaqətinə hörmət o demək deyil ki, biz cəmiyyətlərin eyniləşdirilməsini, qarışdırılmasını, onların ortaq aşağı

göstəriciyədək kiçilməsini istəyirik ki, Prokrustun yatağında olduğu kimi, heç kimə başqa birindən hündür olmağa icazə verilməsin və ölçülərə uyğun gəlməyənlər normaya uyğunlaşdırılmaq üçün qəddarcasına dartılıb uzadılsın. Ədalətli cəmiyyətin təməlində müxtəlifliyə hörmət, müxtəlifliyin ümumi işə müsbət töhfə kimi qəbul edilməsi, danışıqlar nəticəsində hər kəsi sevindirməsə belə, qane edəcək dialoqun axtarılması və bizim sülh içərisində yaşamaq imkanımız, Prezidentin qeyd etdiyi kimi, təbii ehtiyatlara sahib olan ölkələrdən bu ehtiyatları olmayan, lakin əvəzində ayrı şeylər verə biləcək ölkələrə onları nəql etməyə imkan verən, sərhədləri aşan infrastruktura malik olmaq dayanır.

Biz heç kəsin arxada qalmadığı, hər bir ölkənin qonşuları ilə dialoq apara bildiyi inklüziv cəmiyyətlərin olduğu dünyanın axtarışındayıq. Bu elə bir cəmiyyətdir ki, köhnə, dondurulmuş münaqişələr və davamlı ədalətsizliklər təkcə aidiyyəti olan tərəflərin deyil, hamımızın diqqət mərkəzində olsun. Çünki bizim planetimiz ani kommunikasiya vasitələrinə görə bəzi mütəfəkkirlərin dediyi kimi, sadəcə, hamar deyil, planetimizin ölçüləri planetin müxtəlif hissələrinə əlçatımlıq nöqteyi-nəzərindən azalır. Bu planetdə baş verən hər bir hadisənin bizə aidiyyəti var – iqlim, təbii müxtəliflik, dünyada hökm sürən ədalət. Çünki ədalətsizlikdən əziyyət çəkən istənilən ölkə qonşuları, həmin region və dünyanın qalan hissəsi üçün təhlükəyə çevrilir.

Xanımlar və cənablar, sizin hamınıza 3 gün ərzində səmərəli və maraqlı debat və müzakirələr keçirməyi arzulayıram. İndi isə sizi müzakirələrdə iştirak etməyə dəvət edirəm və tribunaya Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldini dəvət edirəm. Bizim sizinlə paylaşmaq istədiyimiz çox vacib bir mərasimimiz vardır. Bu da Nizami Gəncəvi mükafatının təqdim olunması mərasimidir.

**İsmail Serageldin**: Mərkəzin ideyalarını təcəssüm etdirən fəaliyyətinə görə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyəti tərəfindən verilən bir neçə mükafatımız var-

dır. Beləliklə, birinci beynəlxalq mükafatımız qlobal layihələrin, təhsilin, elmin və mədəniyyətin inkişafına verdiyi töhfələrə görə xanım Mehriban Əliyevaya təqdim olunur.

* * *

*Həmsədrlər Vayra Vike-Freyberqa və İsmail Serageldin Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin qızıl medalını Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya təqdim etdilər.*

**Mehriban Əliyeva**: Hörmətli cənab Prezident!

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin hörmətli həmsədrləri!

Xanımlar və cənablar, əziz qonaqlar və dostlar!

Əvvəla, məni qızıl medala layiq gördüyünüz üçün Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə dərin təşəkkürümü bildirmək istəyirəm. Ali ümumbəşəri dəyərləri, bəşəri ideyaları, qarşılıqlı anlaşmanı və sülhü təşviq edən mərkəzdən bu mükafatı almaq mənim üçün böyük şərəfdir.

Əsrlərboyu Azərbaycan müxtəlif dinlərin və xalqların nümayəndələrinin birlikdə sülh şəraitində yaşadığı diyar olub. Multikulturalizm və etnik zənginlik ənənələri bizim ən böyük sərvətimizdir. Biz adət-ənənələrimizi qoruyub saxlayırıq və dünyaya açığıq. Bu gün biz müasir Azərbaycandan, öz müstəqilliyini bərpa etdikdən sonra ölkəmizin təsirləndirici nailiyyətlərindən söhbət açdıq. Həyatını doğma Vətənimin inkişafına və çiçəklənməsinə həsr etmiş bir şəxs kimi, mənim və xalqımız üçün parlaq nümunə olan Azərbaycan Respublikasının Prezidentinə təşəkkürümü bildirmək istəyirəm. Çox sağ olun, cənab Prezident. Mən Sizin komandanızın bir üzvü olmaqdan qürur duyuram.

Mən bu mükafatı Heydər Əliyev Fondu tərəfindən görülən işlərə verilmiş qiymət hesab edirəm. Mən 14 ildə birlikdə çalışdığımız, elm, təhsil, mədəniyyət və sosial sahələrdə bütün

ideyalarımızı və layihələrimizi gerçəkləşdirməyə kömək edən hər bir insana «Çox sağ olun!» – deyirəm. Nəhayət, mən bir daha Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrlərinin böyük səylərini qeyd etmək istəyirəm. Sizin fəaliyyətiniz sayəsində mərkəz çox mühüm beynəlxalq platformaya çevrilib. Cənab Serageldin, Sizin təcrübəniz, biliyiniz gənc nəsli dünyaya daha da açıq olmağa və üfüqlərini genişləndirmək üçün təhsil və bilik dəyərlərindən istifadə etməyə ilhamlandırır. Xanım Vike-Freyberqa, Siz dünyada olan bir çox qadınlar üçün parlaq nümunəsiniz. Biz Azərbaycanda xalqlar və ölkələr arasında dialoqun qurulmasında fəaliyyətinizi və səylərinizi, məşhur Azərbaycan şairi Nizami Gəncəvinin irsinin təşviqinə verdiyiniz töhfələri yüksək qiymətləndiririk. Çox sağ olun, əziz xanım Vike-Freyberqa. Qeyd etməliyəm ki, Siz çox cazibədar xanımsınız.

Yekunda mən bütün qonaqlarımızı salamlamaq və onlara Azərbaycana «Xoş gəlmisiniz!» – demək istəyirəm. Ümid edirəm ki, bizim gözəl paytaxtımızın qonaqpərvərlik və dostluq abhavasından həzz alacaqsınız. Çox sağ ol, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi! Çox sağ ol, Azərbaycan!

**İsmail Serageldin**: İndi isə böyük məmnuniyyətlə digər mükafatın qalibini təqdim etmək istəyirəm – İordaniyanın Kralı II Abdullah. Bu mükafat əlahəzrətə sülhə, beynəlxalq təhlükəsizliyə və sabitliyə töhfələrinə görə verilir.

*İordaniya Kralının adından mükafatı qəbul etmək üçün əlahəzrət şahzadə Raad bin Zeid səhnəyə dəvət olunur.*

*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin mükafatı şahzadə Raad bin Zeidə təqdim olundu.*

**Şahzadə Raad bin Zeid**: Zati-aliləri Prezident İlham Əliyev!

Hörmətli Birinci vitse-prezident Mehriban Əliyeva!

Zati-aliləri Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri, VI Qlobal Bakı Forumunun iştirakçıları!

Bu əlamətdar anda ali mükafata layiq görüldüyü üçün İordaniyanın Kralı Əlahəzrət II Abdullahın adından zati-aliləri Prezident İlham Əliyevə və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Mükafat Komitəsinə dərin təşəkkürümü və minnətdarlığımı böyük məmnuniyyətlə çatdırıram. Bu mükafat dünyada sülh, beynəlxalq təhlükəsizlik, sabitlik, ədalət və dünya miqyasında insan iztirablarının aradan qaldırılması rəmzini daşıdığı üçün böyük əhəmiyyətə malikdir. Burada mən sosial və iqtisadi inkişafın bütün istiqamətlərini özündə ehtiva edən, İordaniya Haşimilər Krallığı ilə Azərbaycan Respublikası arasında uğurla davam edən qardaşlıq münasibətlərini vurğulamaq istəyirəm.

Mənim Bakıya ilk səfərim keçən əsrin 90-ci illərinə təsadüf edib. Lakin dünən gördüklərim məni çox heyrətləndirdi. Çünki mən zati-aliləri Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə qazanılan möhtəşəm tərəqqi və inkişafın şahidi oldum. Müasir dünyamızın mühüm məsələlərini müzakirə etmək üçün çox yaxşı təşkil olunmuş fəal, təşəbbüskar və dinamik forumun iştirakçılarına qoşulmaq məni məmnun edir.

Sonda mən zati-aliləri cənab Prezident İlham Əliyevə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə dəstək çərçivəsində atdığı addımlara görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Əmin ola bilərsiniz ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi rifaha, maariflənməyə, qarşılıqlı anlaşmaya, dialoqa və sülhə doğru müsbət meyillərin stimullaşdırılmasında öz rolunu oynamağa davam edəcəkdir. Təşəkkür edirəm.

**İsmail Serageldin**: İndi isə böyük məmnuniyyətlə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin mükafatına layiq görülmüş üçüncü və sonuncu qalibimizi təqdim etmək istəyirəm. Mükafat humanitar və mədəniyyət sahələrində göstərdiyi səylərə görə Marianna Vardinoyannisə təqdim olunur.

*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin mükafatı ELPIDA Assosiasiyasının və Marianna Vardinoyannis Fondunun prezidenti xanım Marianna Vardinoyannisə təqdim edildi.*

**M a r i a n n a V a r d i n o y a n n i s**: Zati-aliləri cənab Azərbaycan Respublikasının Prezidenti!

Xanım Mehriban Əliyeva!

Əlahəzrət, zati-aliləri, xanımlar və cənablar!

Bu xüsusi mükafata layiq görülməyim məndə böyük sevinc və şərəf hissi doğurur. Bu mükafat mənim üçün həm də ona görə dəyərlidir ki, o, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən verilir və Azərbaycanın sosial həmrəylik, beynəlxalq dialoq və humanizm dəyərlərinə verdiyi önəmi əks etdirir. Bu mükafat daha yaxşı dünya üçün ümidlərin rəmzidir, sülh, dostluq və harmoniya dünyasının qurulması üçün hamımızın işimizi və səylərimizi ithaf etdiyimiz ortaq baxışımızdır. Bu mükafatı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrlərindən – doktor Vayra Vike-Freyberqadan və cənab İsmail Serageldindən almaq şərəfi məni çox təsirləndirir. Onlara fəaliyyətimə qiymət verdikləri, mədəniyyətlər, ənənələr naminə yoldaşlarımla birlikdə işimi davam etdirmək məqsədilə mənə böyük dəstək olduqları üçün ürəkdən dərin təşəkkürümü bildirmək istəyirəm.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətinin üzvü kimi, mən mərkəzin fəaliyyətinə və xalqlar arasında əməkdaşlıq və dostluq körpülərini yaradan təşəbbüslərinə möhtəşəm dəstək göstərdiyi üçün zati-aliləri cənab Prezident İlham Əliyevə minnətdaram. Mən ölkələr arasında dostluq və dialoq naminə davamlı səylərinə və baxışlarına, habelə Azərbaycan xalqının həyatına inkişaf və rifah gətirmək məqsədilə gündəlik fəaliyyətinə, eləcə də ölkənin milli lideri olan mərhum atası Heydər Əliyevin irsini davam etdirdiyinə görə ona təşəkkürümü bildirirəm. Mən həmçinin böyük baxışa sahib olan, mənim UNESKO-da əziz dostum və həmkarım olan xanım Mehriban Əliyevaya dərin minnətdarlığımı və hörmətimi bildirmək istəyirəm. Görüşdüyümüz ilk andan o, ELPIDA Assosiasiyasına və onkologiya xəstəxanamıza səfər etməklə, təşəbbüslərimizə dəstək vermişdir. Onun yüksək humanistliyi, dərin həssaslığı, qəlbindən qaynaqlanan məhəbbət həqiqətən də bənzərsizdir.

UNESKO ilə uzunmüddətli əməkdaşlığımız ərzində mənə onun qətiyyətini görmək şərəfi nəsib olub və onun necə gözəl dost olması mənə çox dərindən təsir edibdir. Mən çox xoşbəxtəm ki, həyatımda belə bir insana rast gəlmişəm. Biz Bakıdakı Respublika Talassemiya Mərkəzi vasitəsilə xəstəxanaların birləşməsi proqramında iştirak edən ilk ölkələrdən biri olduğumuz üçün çox şadıq.

Hörmətli dostlar, mən bu xüsusi mükafatı həyatımın ən vacib və məndə dərin iz buraxan məqamı hesab edirəm. Bu məni daha çox ona görə sevindirir ki, mükafat Azərbaycanın gözəl paytaxtı Bakı şəhərində verilir. Mən bu mükafatı xərçəngdən əziyyət çəkən uşaqlara ithaf etmək istəyirəm. 28 il onlara yaxın olan bir insan kimi, uşaqlar mənim əqlimin və qəlbimin nadir ilham və qətiyyət mənbəyinə çevriliblər. Gəlin hamımız bütün dünya uşaqları üçün alqışlarımızı əsirgəməyək. Çox sağ olun.

**İsmail Serageldin:** Çox sağ olun, əziz dostlar. Zati aliləri, xanımlar və cənablar!

Cənab Prezident, bu açılış sessiyasında iştirakınızla bizə şərəf verdiyinizə görə çox sağ olun.

* * *

*Açılış mərasimindən sonra VI Qlobal Bakı Forumu işini panel iclasları ilə davam etdirdi.*

*3 gün davam edəcək bu mötəbər tədbirə 50-dən çox ölkədən 500-dək nümayəndə, o cümlədən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü olan sabiq dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri, tanınmış ictimai-siyasi xadimlər, alimlər qatılıblar.*

*Forum çərçivəsində martın 18–19-da VII Beynəlxalq Kitab Sammiti təşkil olunacaqdır. ABŞ Konqres kitabxanasının və Misirin İsgəndəriyyə kitabxanasının birgə təşəbbüsü ilə keçiriləcək sammitdə milli inkişafda, mədəni irsin qorunmasında və ötürülməsində, gələcəyin formalaşmasında kitabın əhəmiyyəti,*

*eləcə də milli kitabxanaların rolu, kitabxanaların gələcəyi mövzuları müzakirə olunacaqdır.*

## BEYNƏLXALQ TÜRK AKADEMİYASININ PREZİDENTİ DARXAN KIDIRƏLİYƏ «DOSTLUQ» ORDENİNİ TƏQDİMETMƏ MƏRASİMİ

*15 mart 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdırəliyə «Dostluq» ordenini təqdim etmişdir.*

*Azərbaycan və Qazaxıstan xalqları arasında dostluq əlaqələrinin inkişafındakı xidmətlərinə görə «Dostluq» ordeni ilə təltif olunan Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdırəli Azərbaycanın dünyada tolerantlığın gözəl nümunəsi olduğunu bildirdi. O, Azərbaycanın tarixi, mədəniyyəti, xalqımızın ümummilli lideri Heydər Əliyevin fəaliyyəti barədə müxtəlif kitablar üzərində çalışdığını bildirdi. Darxan Kıdırəli Prezident seçkilərində dövlətimizin başçısına uğurlar arzuladı və Novruz bayramı münasibətilə təbriklərini çatdırdı.*

*Prezident İlham Əliyev Darxan Kıdırəlinin türkdilli ölkələr arasında əməkdaşlıq istiqamətində fəaliyyətinin Azərbaycanda yüksək qiymətləndirildiyini vurğuladı və «Dostluq» ordenini ona təqdim etdi.*

## ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ İLİR META İLƏ GÖRÜŞ

*15 mart 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Albaniya Respublikasının Prezidenti İlir Meta ilə görüşmüşdür.*

*İki il əvvəl Albaniyanın spikeri kimi Azərbaycana səfər etdiyini xatırladan İlir Meta Prezident vəzifəsində ilk dəfədir ölkəmizə gəldiyini bildirdi. Bu səfərdən məmnunluğunu ifadə edən Albaniya Prezidenti VI Qlobal Bakı Forumunun əhəmiyyətinə toxundu. Bakının beynəlxalq əməkdaşlığa böyük töhfə verdiyini bildirən Prezident İlir Meta ikitərəfli münasibətlərin və əməkdaşlığın möhkəmləndirilməsi üçün dövlətimizin başçısı tərəfindən həyata keçirilən işlərə görə minnətdarlığını ifadə etdi.*

*İlir Meta Albaniyada TAP-ın icrası ilə bağlı işlərin uğurla getdiyini diqqətə çatdırdı. O qeyd etdi ki, Albaniyanın qazlaşdırılması üçün bu layihə çox önəmlidir.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Albaniyanın birgə həyata keçirdiyi layihələrin əməkdaşlığımızı daha da möhkəmləndirdiyini vurğuladı. TAP-ın icrası ilə bağlı işlərin Albaniyada qrafik üzrə getdiyindən məmnunluğunu ifadə edən dövlətimizin başçısı bu layihənin əhəmiyyətinə toxundu. Enerji sahəsində əməkdaşlığın yaxşı perspektivlərinin olduğunu bildirən Prezident İlham Əliyev bir ay əvvəl Bakıda «Cənub Qaz Dəhlizi»Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısında Albaniya nümayəndə heyətinin iştirakını xatırlatdı.*

## BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN ÜZVÜ MLADEN İVANİÇ İLƏ GÖRÜŞ

*15 mart 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Mladen İvaniç ilə görüşmüşdür.*

*Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Mladen İvaniçi salamlayan Prezident İlham Əliyev onunla ötən görüşünü məmnunluqla xatırlatdı. Söhbət zamanı VI Qlobal Bakı Forumunun mədəniyyətlərarası dialoqa və əməkdaşlığa verdiyi töhfə vurğulandı. Bildirildi ki, dünyada forumun nüfuzu getdikcə daha da artır.*

*Görüşdə iki ölkə arasında əməkdaşlıq əlaqələrindən məmnunluq ifadə olundu. Qeyd edildi ki, müxtəlif sahələrdə, o cümlədən enerji sahəsində əlaqələrin yaxşı perspektivləri vardır.*

*Söhbət zamanı ötən əsrin 70-ci illərindən Bakı ilə Sarayevonun qardaşlaşması məmnunluqla xatırlandı.*

# İRAN İSLAM RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MƏHƏMMƏD CAVAD ZƏRİFİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 mart 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də İran İslam Respublikasının Xarici İşlər naziri Məhəmməd Cavad Zərifin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*İranın Xarici İşlər naziri Məhəmməd Cavad Zərif Prezident Həsən Ruhaninin salamlarını dövlətimizin başçısına çatdırdı. O, Azərbaycan, İran, Türkiyə və Gürcüstanın Xarici İşlər nazirlərinin Bakıda keçirilən dördtərəfli görüşündən məmnunluğunu bildirdi.*

*Azərbaycan–İran hökumətlərarası birgə Komissiyasının işinə toxunan Məhəmməd Cavad Zərif bu Komissiyanın fəaliyyətinin çox yaxşı naticələr verdiyini bildirdi və yaxın vaxtlarda iqtisadi sahədə əməkdaşlığa dair mühüm sənədlərin imzalanacağını qeyd etdi.*

*Prezident İlham Əliyev Azərbaycan, İran, Türkiyə və Gürcüstanın Xarici İşlər nazirlərinin Bakıda keçirilən görüşünün regional əməkdaşlıq baxımından əhəmiyyətini qeyd etdi və Azərbaycan–İran hökumətlərarası birgə Komissiyasının işinin uğurlu nəticələrini məmnunluqla vurğuladı.*

*Görüşdə İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin yaxın zamanlarda Azərbaycana nəzərdə tutulan səfərinin əməkdaşlığımızın daha da möhkəmləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.*

*Prezident İlham Əliyev İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.*

## MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ GEORGE İVANOV İLƏ GÖRÜŞ

*15 mart 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Makedoniya Respublikasının Prezidenti George İvanov ilə görüşmüşdür.*

*Qlobal Bakı Forumunun beynəlxalq əhəmiyyətinin artdığını qeyd edən dövlətimizin başçısı Makedoniya Respublikasının Prezidenti George İvanovun bu tədbirdə iştirakının önəmini vurğuladı. Prezident İlham Əliyev Makedoniya Respublikasının Prezidenti ilə Bakıda və müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində görüşlərini məmnunluqla xatırlatdı.*

*Makedoniya Respublikasının Prezidenti George İvanov VI Qlobal Bakı Forumunun yüksək səviyyədə təşkil olunduğunu və uğurla keçirildiyini qeyd etdi. O bildirdi ki, bu tədbir əməkdaşlığın genişləndirilməsi, beynəlxalq aləmdə sabitliyin, təhlükəsizliyin və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsi işinə böyük töhfə verir.*

*Görüşdə iki ölkə arasında enerji, əczaçılıq və digər sahələrdə əməkdaşlıq əlaqələrinin vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

*Makedoniya Respublikasının Prezidenti George İvanov Prezident İlham Əliyevi ölkəsinə rəsmi səfərə dəvət etdi.*

## MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ İQOR DODONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 mart 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Moldova Respublikasının Prezidenti İqor Dodonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Moldova Prezidenti İqor Dodonun VI Qlobal Bakı Forumunda iştirakının önəmini qeyd etdi. Prezident İlham Əliyev Moldova Prezidentinin ötən il Bakıya səfərini və onunla beynəlxalq tədbirlərdə görüşlərini məmnunluqla xatırlatdı. Dövlətimizin başçısı İlham Əliyev İqor Dodonun Azərbaycana səfəri zamanı əldə olunmuş razılaşmaların artıq həyata keçirildiyini vurğuladı. Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə inkişaf etdirilməsi üçün yaxşı potensialın mövcud olduğunu və gələcəkdə siyasi, iqtisadi, humanitar, investisiya və digər sahələrdə birgə qarşılıqlı fəaliyyətin müəyyənləşdirilməsinin önəmini qeyd etdi. Prezident İlham Əliyev ölkələrimizin bir-birinə daha da yaxınlaşması ilə bağlı mühüm məsələlərin həll olunması istiqamətində gələcəkdə də mütəmadi təmasların davam etdiriləcəyinə əminliyini və ölkəmizin bu işdə maraqlı olduğunu vurğuladı.*

*Moldova Respublikasının Prezidenti İqor Dodon VI Qlobal Bakı Forumuna dəvətə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Tədbirin önəmini qeyd edən Moldova Prezidenti forumda ölkəsinin ilk dəfə təmsil olunduğunu söylədi.*

*Ölkələrimiz arasında ənənəvi dostluq münasibətlərinin mövcud olduğunu deyən Moldova Prezidenti yaxın zamanlarda hö-*

*kumətlərarası birgə Komissiyanın fəaliyyətə başlayacağına ümidvar olduğunu bildirdi. Ötən il Azərbaycana səfərini məmnunluqla xatırladan İqor Dodon bu səfər zamanı keçirilən görüşlərin artıq nəticələr verdiyini vurğuladı. O, bir neçə gün bundan əvvəl Qaqauziyada Heydər Əliyev Fondunun nümayəndələri ilə birlikdə mühüm sosial layihənin təməl daşının qoyulması mərasimində şəxsən iştirak etdiyini diqqətə çatdırdı.*

*Prezident İqor Dodon əlaqələrimizin möhkəmlənməsi işində Moldovada fəaliyyət göstərən Azərbaycan diasporunun rolunu xüsusi qeyd etdi.*

## ELPIDA ASSOSİASİYASININ VƏ MARİANNA VARDİNOYANNİS FONDUNUN PREZİDENTİNƏ «DOSTLUQ» ORDENİNİ TƏQDİMETMƏ MƏRASİMİ

*15 mart 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də ELPIDA Assosiasiyasının və Marianna Vardinoyannis Fondunun prezidenti, UNESKO-nun Xoşməramlı səfiri xanım Marianna Vardinoyannisə «Dostluq» ordenini təqdim etmişdir.*

*Dövlət başçısı keçən ilin dekabrında Azərbaycan və Yunanıstan xalqları arasında dostluq əlaqələrinin inkişafındakı xidmətlərinə görə ELPIDA Assosiasiyasının prezidenti, UNESKO-nun Xoşməramlı səfiri Marianna Vardinoyannisin «Dostluq» ordeni ilə təltif edildiyini bildirdi. Prezident İlham Əliyev Marianna Vardinoyannisin bəşəri dəyərlərin təşviqindəki fəaliyyətinin yüksək qiymətləndirildiyini vurğuladı və ordeni ona təqdim etdi.*

*Marianna Vardinoyannis bu mükafatın verilməsinin onda böyük qürur hissi doğurduğunu dedi. «Dostluq» ordeninə görə dövlətimizin başçısına minnətdarlığını bildirən Marianna Vardinoyannis Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın beynəlxalq əməkdaşlığın gücləndirilməsi istiqamətində fəaliyyətlərinin böyük maraqla izlənildiyini ifadə etdi. O, Mehriban Əliyevanın beynəlxalq layihələrə verdiyi dəstəyi yüksək qiymətləndirdi.*

## VI QLOBAL BAKI FORUMUNUN İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ İŞTİRAK

*15 mart 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva martın 15-də VI Qlobal Bakı Forumunun iştirakçılarının şərəfinə verilmiş ziyafətdə iştirak etmişlər.*

*Bir sıra ölkələrin dövlət və hökumət başçıları, eləcə də sabiq dövlət və hökumət başçıları, tanınmış siyasi və ictimai xadimlər ziyafətdə iştirak etmişlər.*

**İ l h a m Ə l i y e v:** Forumun açılışı sessiyasında və panel iclasları zamanı mənə müzakirələrin çox maraqlı və məhsuldar keçməsi barədə məlumat verildi. Əminəm ki, sizin təmaslarınız və qeydlərinizdən yaranan ideyalar bizim gələcək fəaliyyətimiz, onların xidmət etdiyi məqsədlər üçün çox dəyərli olacaqdır.

Mən bütün qonaqlarımızı Azərbaycanda görməkdən çox şadam. Mən çoxlu köhnə dostlarımı, həm fəaliyyətdə olan dövlət və hökumət başçılarını, həm də sabiq dövlət və hökumət başçılarını, uzun illər birlikdə işlədiyim rəhbərləri görürəm. Mən sizin ölkələrinizə səfərlərimi, sizin bizim ölkəmizə səfərlərinizi xatırlayıram. Bizim həqiqətən də çox yaxşı işçi münasibətlərimiz vardır və bu münasibətlər Azərbaycan və sizin ölkələriniz arasında daha sıx əlaqələrin qurulmasına çox kömək göstəribdir.

Bizimlə birlikdə olduğunuz, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə verdiyiniz töhfə və dəstəyiniz üçün sizə təşəkkür edirəm. Əlbəttə ki, mən bir daha xanım Prezident Vike-Freyberqaya və cənab Serageldinə bizim ümumi amalımız üçün möhtəşəm – fikrimcə, onların fəaliyyətinə belə qiymət vermək

düzgün olardı – töhfələrinə görə xüsusi minnətdarlığımı bildirmək istəyirəm. Çox sağ olun.

**V a y r a V i k e-F r e y b e r q a** *(Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Latviyanın sabiq Prezidenti)*: Cənab Prezident! Xanım Birinci vitse-prezident!

Əziz dostlar və həmkarlar!

Mən bizə göstərdikləri davamlı dəstəyə görə Prezidentə və Birinci vitse-prezidentə təşəkkürümü bildirirəm. Ümid edirəm ki, VI Qlobal Foruma toplaşmış köhnə və yeni dostlarımız mənimlə razılaşarlar ki, bu, görüşlərin keçirilməsi, fikir mübadiləsi, dinlənilmək və digərlərini dinləmək üçün nadir bir məkandır. Fürsətdən istifadə edərək, mən, həmçinin bu forumun ərsəyə gəlməsində çalışmış gənclərə də təşəkkürümü bildirmək istəyirəm. Bunun necə də böyük iş olduğunu təsəvvürünüzə gətirə bilərsiniz. Mən bizimlə öz təcrübələrinə başlayan, çox dəyərli təcrübəni əldə etmiş istedadlı gənclərə minnətdarlığımı bildirmək istəyirəm. Ümid edirəm, siz bu təcrübənin bəhrəsini görəcəksiniz.

Cənab Prezident, burada çox nadir bir təşkilat olan Nizami Gəncəvi Beynəlxalq Mərkəzi vardır. Bu elə bir məkandır ki, burada bütün dünya ölkələrini təmsil edən müxtəlif hökumət rəsmiləri və adətən, bir masa ətrafında təmsil olunmayan ölkələrin nümayəndələri dostluq ab-havasında görüşmək üçün bir araya gəlirlər. Bizə göstərdiyiniz yüksək qonaqpərvərliyə, xoş münasibətə və dəstəyinizə görə Sizə səmimi-qəlbdən təşəkkürümüzü bildiririk.

Xanımlar və cənablar, gəlin cənab Prezidenti alqışlayaq.

* * *

*Sonra VI Qlobal Bakı Forumunun iştirakçılarının şərəfinə verilən ziyafətdə Azərbaycanın incəsənət ustalarının ifasında konsert proqramı təqdim olundu.*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL KANSLERİ XANIM ANGELA MERKELƏ**

Hörmətli xanım Federal Kansler!

Almaniya Federativ Respublikasının Federal Kansleri vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi- qəlbdən təbrik edirəm.

Biz Azərbaycan–Almaniya əlaqələrinin hərtərəfli inkişafına xüsusi əhəmiyyət veririk. Ölkələrimizin siyasi, iqtisadi və humanitar sahələrdə fəal və səmərəli əməkdaşlığı məmnunluq doğurur.

İnanıram ki, dövlətlərarası münasibətlərimizin daha da möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada qarşılıqlı maraq doğuran əməkdaşlığımızın müvəffəqiyyətlə davam etdirilməsi üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Almaniya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 mart 2018-ci il*

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza cansağlığı, səadət və uğurlar diləyirəm.

Azərbaycan torpağında qədim tarixi köklərə malik Novruz bayramı uzaq keçmişlərdən mənəvi dünyamızın ən dərin qatlarınadək nüfuz etmiş, müqəddəs dəyərlərimizin təşəkkülünə töhfələr vermiş və milli düşüncə tərzimizin ayrılmaz tərkib hissəsi olmuşdur. Əcdadımızın nikbin həyat fəlsəfəsini dolğun nümayiş etdirən bu bayram uca Tanrının nemətlərinə minnətdarlıq duyğusunun təcəssümü, böyük hikmətlə yaradılmış təbiətin ilahi nizamına ehtiramın təzahürüdür. Yurdumuzun çoxəsrlik mədəni sərvətlər xəzinəsində Novruz şərəfli yer tutur.

Gələcəyə inamımızı sarsılmağa qoymayaraq, bizi ümidlərlə yaşadıb daim yolumuzu işıqlandıran Bahar bayramına fikir tariximizin görkəmli nümayəndələri həmişə rəğbət bəsləmişlər. Novruz bayramı azadlıq və istiqlal duyğularımızın ifadəsinə çevrilməklə, möhtəşəm yubileyi ərəfəsində olduğumuz Azərbaycan Xalq Cümhuriyyətinin gerçəkləşməsi və XX əsrin sonlarına doğru xalqımızın müstəqil dövlətçilik idealına yenidən qovuşması üçün zəmin hazırlamış milli özünüdərk amillərindəndir.

Qloballaşma dalğasının sürətlə yayıldığı və dəyişikliklərin qaçılmaz şəkil aldığı indiki dövrdə yazın ölkəmizə gəlişinin ənənəvi rəngarəng mərasimlərlə müşayiət olunması milli köklərə bağlılığımızın təntənəsidir. İnsanlığa xas ülvi dəyərləri yaddaşında toplamış bu əziz bayramın cəmiyyətimizin üzvlərinin vahid mənəviyyat ətrafında daha da yaxınlaşması baxımından müstəsna əhəmiyyəti vardır. Novruzun ümumdünya

qeyri-maddi mədəni irsinin şah əsərləri sırasına daxil edilməsi qəlbimizi fərəh hissi ilə doldurur.

Ahəngdar və dinamik yüksəlişə müvəffəq olmuş Azərbaycan bu gün sürətli modernləşmə mərhələsindədir. Ölkəmizin dayanıqlı inkişafına yönələn mühüm islahatlar və hər sahədə özünü göstərən davamlı müasirləşmə meyilləri yaz fəslinin qurub-yaratmaq əzmimizi artıran yeniləşdirici ovqatı ilə həmahəngdir. 2018-ci ilin ictimai-siyasi həyatımızda əlamətdar hadisələrlə zənginliyi bayramın Odlar yurduna builki gəlişinə xüsusi məna qazandırır. Əminəm ki, varlığımızdakı tükənməz yenilikçilik ruhu sayəsində ümummilli mənafelər naminə bütün sınaqlardan bundan sonra da alnıaçıq çıxacaq və taleyüklü məsələlərin layiqincə həllinə nail olacağıq.

Baharı azərbaycançılıq məfkurəsi işığında dünyanın müxtəlif guşələrində bizimlə birgə qarşılayan soydaşlarımıza təbriklərimi yetirirəm. Qoy həmrəyliyimizin rəmzi olan bu el bayramı hər evə xoş əhval gətirsin, hər ocağa bol sevinc, ruzi-bərəkət və firavanlıq bəxş eləsin.

Novruz bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *16 mart 2018-ci il*

**NEPAL FEDERATİV DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ XANIM BİDHYA DEVİ BHANDARİYƏ**

Hörmətli xanım Prezident!

Nepal Federativ Demokratik Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Nepal arasındakı münasibətlər dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Nepal xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 mart 2018-ci il*

## PARAQVAY RESPUBLİKASI SENATININ SƏDRİ FERNANDO LUQO MENDEZ İLƏ GÖRÜŞ

*16 mart 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 16-da Paraqvay Respublikası Senatının Sədri Fernando Luqo Mendezi qəbul etmişdir.*

*Paraqvay Senatının Sədri Fernando Luqo Mendez VI Qlobal Bakı Forumuna dəvətə görə minnətdarlığını bildirdi və tədbirdə iştirakından böyük məmnunluq hissi keçirdiyini qeyd etdi. Paraqvay Senatının Sədri vurğuladı ki, tədbir iştirakçılarının coğrafiyasının daha da genişlənməsi, dünyanın müxtəlif bölgələrindən olan nümayəndələrin iştirakı beynəlxalq əməkdaşlıq işinə töhfə verir və eyni zamanda, gündəlikdə duran aktual məsələlərin müzakirəsi üçün də yaxşı platformaya çevrilir.*

*Dövlətimizin başçısı Paraqvay Senatının Sədri Fernando Luqo Mendezin VI Qlobal Bakı Forumunda iştirakının önəmini qeyd etdi. Tədbirin beynəlxalq əhəmiyyətinə toxunan Prezident İlham Əliyev forumda müxtəlif səviyyəli nümayəndələrin iştirakının beynəlxalq məsələlərlə bağlı hərtərəfli müzakirələrin aparılması baxımından əhəmiyyətli olduğunu bildirdi.*

*Dövlətimizin başçısı Azərbaycanın Paraqvayla və eləcə də digər Cənubi Amerika ölkələri ilə əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu qeyd etdi.*

*Söhbət zamanı forumun həm də dinlərarası dialoqun və multikultural əməkdaşlığın genişləndirilməsi işinə xidmət etdiyi bildirildi.*

*Görüşdə Azərbaycanın beynəlxalq əməkdaşlığın möhkəmlənməsində rolu xüsusi qeyd olundu, ölkəmizin regionda gərginliyin azaldılması işinə müsbət təsir göstərdiyi vurğulandı.*

## ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB SI CİNPİNƏ

Hörmətli cənab Sədr!

Çin Xalq Respublikasının Sədri vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Biz tarixi ənənələrə malik Azərbaycan–Çin əlaqələrinin hərtərəfli inkişafına böyük əhəmiyyət veririk. Bu mənada dövlətlərarası münasibətlərimizin hazırkı yüksək səviyyəsi xüsusi məmnunluq doğurur.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra ölkələrimiz arasındakı münasibətlər keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Daim artan siyasi təmaslarımız iqtisadi, humanitar sahələrdə fəal və səmərəli əməkdaşlığımız ilə müşayiət olunur. Bizi həm də regionumuz üçün böyük əhəmiyyət daşıyan perspektivli infrastruktur layihələrinin gerçəkləşdirilməsində tərəfdaşlıq münasibətləri birləşdirir.

İnanıram ki, ölkələrimiz və xalqlarımız arasındakı dostluq əlaqələrinin daha da möhkəmləndirilməsi, ikitərəfli qaydada, eləcə də beynəlxalq və regional formatda qarşılıqlı etimad və dəstəyə əsaslanan əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Çin xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 mart 2018-ci il*

## ROMA PAPASI FRANSİSK HƏZRƏTLƏRİNƏ

Zati-müqəddəsləri!

Tacqoyma Gününüz münasibətilə Sizə və bütün həmməzhəblərinizə şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Biz Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasındakı münasibətlərə xüsusi əhəmiyyət veririk. Sivilizasiyalararası və dinlərarası dialoqun, multikulturalizm dəyərlərinin qorunub saxlanılması və daim inkişaf etdirilməsi yolunda fəal və səmərəli əməkdaşlığımız məmnunluq doğurur.

İnanıram ki, Azərbaycan ilə Vatikan arasında ümumbəşəri dəyərlərin təntənəsi naminə uğurla davam edən əməkdaşlıq, birgə atdığımız addımlar bundan sonra da dünyada sülhün və əmin-amanlığın, insanlar arasında qarşılıqlı anlaşma və həmrəyliyin bərqərar olmasına xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, ali mənəvi missiyanızda uğurlar, bütün həmməzhəblərinizə əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 mart 2018-ci il*

**TUNİS RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB BEJİ KAİD ƏS-SEBSİYƏ**

Hörmətli cənab Prezident!

Tunis Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Tunis arasındakı münasibətlər bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Tunis xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 mart 2018-ci il*

## OPEC-in BAŞ KATİBİ MƏHƏMMƏD BARKİNDO İLƏ GÖRÜŞ

*18 mart 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 18-də Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Barkindo ilə görüşmüşdür.*

*OPEC-in baş katibi Məhəmməd Barkindo səfərə dəvətə görə minnətdarlığını bildirdi və Azərbaycan Respublikasının Prezidenti ilə görüşündən məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev Məhəmməd Barkindo ilə Davosda görüşünü məmnunluqla xatırladaraq qeyd etdi ki, OPEC-in baş katibinin dünyada ilk dəfə neftin hasil olunduğu Azərbaycana səfəri böyük önəm daşıyır.*

*Məhəmməd Barkindo xoş sözlərə görə minnətdarlığını bildirərək, Azərbaycanın neft sənayesinin beşiyi olduğunu vurğuladı və dedi ki, hər bir neftçi gəlib öz gözləri ilə Bakını görməlidir.*

*Dövlət başçısı İlham Əliyev Məhəmməd Barkindonun səfərinin Azərbaycanın tarixi yerləri və müasir inkişafı ilə tanış olmaq üçün yaxşı imkan yaratdığını dedi.*

*Prezident İlham Əliyev Azərbaycan ilə OPEC arasında əməkdaşlığın uğurla inkişaf etdiyini bildirdi və ölkəmizin hasilatla bağlı üzərinə düşən öhdəlikləri tam şəkildə yerinə yetirdiyini vurğuladı. Dövlət başçısı neftin qiymətinin sabit saxlanması istiqamətində Məhəmməd Barkindonun və OPEC-in səmərəli, həmçinin koordinasiya edilmiş səylərini yüksək qiymətləndirdi, bunu eyni zamanda, birgə fəaliyyətin yaxşı nəticəsi kimi dəyərləndirdi.*

*Məhəmməd Barkindo OPEC və qeyri-OPEC üzvlərinin bir araya gəlməsində Prezident İlham Əliyevin rolunu xüsusi qeyd*

*etdi, Azərbaycanın OPEC və qeyri-OPEC üzvlərinin əməkdaşlığı üzrə bəyanatın formalaşmasına gətirib çıxaran yüksək səviyyəli texniki komitəyə həmsədrliyini yüksək qiymətləndirdi. Ölkəmizin üzərinə düşən bütün öhdəlikləri tam şəkildə yerinə yetirdiyini deyən qonaq bunun Azərbaycanın bu razılaşmaya nə dərəcədə sadiq qaldığının göstəricisi olduğunu bildirdi. Qeyd etdi ki, bu, təkcə neft hasil edən yox, hətta istehlakçı ölkələrin də marağındadır. Bu işin nəticələrini artıq neft sənayesində və dünya bazarlarında görmək mümkündür.*

*Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Rusiya Federasiyasının Prezidenti seçkilərində inamlı qələbə münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Bu qələbə Sizin yüksək siyasi nüfuzunuzun olduğunu və ölkədə sabitliyin, qanunçuluğun və hüquq qaydalarının təmin edilməsinə, irimiqyaslı islahatların həyata keçirilməsinə, xalqın rifahının yüksəlməsinə kömək edən uzunmüddətli sosial proqramların reallaşmasına yönəldilmiş kursunuzun fəal dəstəkləndiyini təsdiq edir. Azərbaycan ilə Rusiyanı çoxəsrlik möhkəm dostluq və mehriban qonşuluq münasibətləri bağlayır. Sevindirici haldır ki, bizim dövlətlərarası münasibətlər bu gün bu möhkəm təməl üzərində uğurla inkişaf edir. Bu münasibətlərin, bütövlükdə Azərbaycan ilə Rusiya arasında hərtərəfli əməkdaşlığın və qarşılıqlı fəaliyyətin genişlənməsinə Sizin şəxsi töhfənizi xüsusi qeyd etmək istəyirəm. Əminəm ki, Azərbaycan ilə Rusiya arasındakı strateji tərəfdaşlığın daha da möhkəmlənməsi üzrə birgə səylərimiz xalqlarımızın və ölkələrimizin maraqlarına, regionda sülhün, təhlükəsizliyin və tərəqqinin təmin olunmasına bundan sonra da kömək edəcəkdir.

Hörmətli Vladimir Vladimiroviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər arzu edirəm.

*Dərin hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 mart 2018-ci il*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏMNUN HÜSEYNƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Pakistan Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan–Pakistan əlaqələri ortaq mənəvi dəyərləri bölüşən qardaş xalqlarımızın iradəsindən qaynaqlanır. Qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan dövlətlərarası münasibətlərimizin hazırkı yüksək səviyyəsini xüsusi qeyd etmək istəyirəm.

İnanıram ki, strateji tərəfdaşlığımızın və müttəfiqliyimizin, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın inkişafı və möhkəmlənməsi yolunda birgə addımlarımız bundan sonra da xalqlarımızın və ölkələrimizin mənafelərinə xidmət edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Pakistan xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 mart 2018-ci il*

**BANQLADEŞ XALQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜL HƏMİDƏ**

Hörmətli cənab Prezident!

Banqladeş Xalq Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Banqladeş xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 mart 2018-ci il*

**YUNANISTAN RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB PROKOPİS PAVLOPULOSA**

Hörmətli cənab Prezident!

Yunanıstan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Yunanıstan xalqına əmin-amanlıq, sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 mart 2018-ci il*

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ ÜMUMXALQ ŞƏNLİYİNDƏ İŞTİRAK

*İçərişəhər*

*19 mart 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva martın 19-da Bakıda Azərbaycan xalqının milli bayramı – Novruz münasibətilə keçirilən ümumxalq şənliyində iştirak etmişlər.*

*Dövlət başçısı və xanımı əvvəlcə Qız qalasının qarşısındakı meydana gəldilər.*

*Milli geyimli uşaqlar meydanda rəqs edirdilər. İncəsənət ustalarının baharı, Azərbaycanı tərənnüm edən mahnılarının sədaları ətrafa yayılır, bayram şənliyinin iştirakçılarında xoş ovqat doğururdu.*

*Bahar qız dövlət başçısına səməni təqdim etdi.*

*İçərişəhərin qala divarları üstündə və meydanda qədim tariximizi xatırladan qılınc və qalxanlı döyüşçülər dayanmışdılar.*

*Ulu Dədə Qorqud xeyir-dua verərək, Novruz bayramının xalqımıza ruzi-bərəkət gətirməsini arzuladı.*

*Prezident İlham Əliyev Novruz tonqalını alovlandırdı.*

*Dövlət başçısı bayram şənliyində nitq söylədi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

Əziz dostlar, mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm. Novruz bayramı bizim sevimli bayramımızdır. Əsrlərboyu Azərbaycan xalqı bu bayramı qeyd edir, öz qəlbində yaşadır. Milli-mənəvi dəyərlərimiz müasir Azərbaycan dövlətinin əsas

dayağıdır. Azərbaycan dövləti müasir dövlətdir, ancaq eyni zamanda, bizim dövlətimiz dərin milli-mənəvi dəyərlər, köklər üzərində qurulubdur. Elə etməliyik ki, gənc nəsil də milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə alsın. Onlar da bizim kimi Vətənə bağlı olsunlar, milli maraqlarımızı hər şeydən üstün tutsunlar.

Azərbaycan Novruzu gözəl nəticələrlə qarşılayır. Ölkəmiz hərtərəfli inkişaf edir. Aparılan quruculuq işləri ölkəmizi gücləndirir, Azərbaycanın beynəlxalq nüfuzunu artırır. Daxili vəziyyət sabitdir. Bu sabitliyin əsas təminatçısı Azərbaycan xalqıdır. Xalq–iqtidar vəhdəti sabitliyin əsas təminatçısıdır. Daxili siyasətlə bağlı görülən işlər, aparılan islahatlar öz gözəl nəticələrini verməkdədir. Dünyada gedən proseslər bir daha onu göstərir ki, ancaq sabit olan ölkələr uğurla inkişaf edə bilər. Ancaq sabit olan ölkələrə xarici sərmayə qoyulur, insanlar rahat, təhlükəsizlik şəraitində yaşayırlar. Bu gün dünyanın müxtəlif yerlərində sabitlik pozulur, qanlı toqquşmalar baş verir, müharibələr alovlanır, yeni risklər yaranır. Bu gün dünya gündəliyinin əsas məsələsi məhz təhlükəsizlik məsələsidir. Azərbaycan bu istiqamətdə apardığı siyasətlə dünyada böyük rəğbət qazanmış ölkələrdən biridir. Ölkəmizdə daxili risklər üçün heç bir mənbə yoxdur. Xarici risklərdən isə biz özümüzü qoruyuruq və bundan sonra da qoruyacağıq, Azərbaycan xalqının rahat yaşamasını təmin edəcəyik.

Bizim beynəlxalq əlaqələrimiz genişlənir. Bu gün Azərbaycan dünya miqyasında çox yüksək reputasiyaya malik olan ölkədir və bizim təşəbbüslərimiz regional əməkdaşlığa təkan verir. Bir neçə gün bundan əvvəl VI Qlobal Bakı Forumu keçirilmişdir. Bu forumda 50-dən çox ölkədən 50-yə yaxın fəaliyyətdə olan və sabiq dövlət və hökumət başçısı iştirak etmişdir. Deyə bilərəm ki, Qlobal Bakı Forumu dünyada keçirilən ən mötəbər forumların sırasında qısa müddət ərzində özünə layiq yer tuta bilmişdir. Bu gün Bakı Forumunda müzakirə olunan məsələlər, hesab edirəm ki, dünya üçün çox əhəmiyyətlidir. Gələn ay Bakıda «Qoşulmama Hərəkatı»nın Xarici

İşlər nazirlərinin konfransı keçiriləcəkdir. Bu da qlobal, mötəbər beynəlxalq tədbirdir. Bu tədbirin Azərbaycanda keçirilməsi «Qoşulmama Hərəkatı» və təşkilata üzv ölkələr tərəfindən bizə verilən növbəti dəstəyin təzahürüdür.

Azərbaycan regional əməkdaşlıq məsələlərində bir çox hallarda təşəbbüskar kimi çıxış edir. Bir neçə gün bundan əvvəl tarixdə ilk dəfə olaraq Bakıda Azərbaycan, İran, Gürcüstan və Türkiyənin Xarici İşlər nazirlərinin birinci görüşü keçirilmişdir. Hesab edirəm ki, bu, tarixi hadisədir, tarixi görüşdür. Bundan əvvəlki dövrlərdə yenə də bizim təşəbbüsümüzlə bir neçə regional format yaranıb və uğurla fəaliyyət göstərir. Azərbaycan–İran–Gürcüstan, Azərbaycan–İran–Türkiyə, Azərbaycan–Gürcüstan–Türkiyə, Azərbaycan–İran–Rusiya üçtərəfli və nəhayət, Azərbaycan–İran–Gürcüstan–Türkiyə dördtərəfli formatlar yaranmışdır. Qeyd etməliyəm ki, bütün bu çoxtərəfli formatların təşəbbüskarı Azərbaycandır. Bu, bölgədə sabitliyi möhkəmləndirir, əməkdaşlığı gücləndirir və bu formatlarda iştirak edən ölkələrin iqtisadi maraqlarını təmin edir. Müzakirə olunan məsələlər siyasi, iqtisadi, mədəni, nəqliyyat və digər sahələri əhatə edir. Bildiyiniz kimi, bizim təşəbbüsümüzlə regionda çox böyük nəqliyyat layihələri icra edilir. Şərq–Qərb nəqliyyat marşrutu artıq reallaşıb. Keçən il Bakı–Tbilisi–Qars dəmir yolunun açılmasından sonra artıq bu marşrut fəaliyyətdədir. Yaxın gələcəkdə Ələtdə Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tam gücü ilə işləməsi nəticəsində Azərbaycan ərazisindən keçən yüklərin həcmi bir neçə dəfə artacaqdır. Hazırda biz Şimal–Cənub nəqliyyat dəhlizinin yaradılması ilə məşğuluq. Azərbaycan ərazisində bu marşrutla bağlı bütün işlər görülübdür. Eyni zamanda, Azərbaycan bu marşrutun tam həyata keçirilməsi üçün əlavə tədbirlər də görəcəkdir. Həmçinin bu iki önəmli nəqliyyat dəhlizi yeni təşəbbüslərlə çıxış etmək üçün bizə imkan yaratdı və Bakıda 4 ölkənin Xarici İşlər nazirlərinin görüşündə eyni zamanda, Cənub–Qərb nəqliyyat marşrutu müzakirə edildi. İlk dəfə

olaraq, yenə də bizim təşəbbüsümüzlə. Beləliklə, baxmayaraq ki, Azərbaycanın açıq dənizə çıxışı yoxdur, biz Avrasiyanın önəmli nəqliyyat mərkəzinə çevriləcəyik və bu istiqamətdə artıq gözəl nəticələr vardır.

Bir daha demək istəyirəm ki, regional əməkdaşlıq sabitliyi möhkəmləndirir. Biz bu regionda yaşayırıq və əlbəttə ki, regional dövlətlərlə uğurlu əməkdaşlığımızı davam etdirəcəyik.

Biz digər beynəlxalq təşkilatlarla, Avropa İttifaqı ilə fəal əməkdaşlıq edirik. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. Bu gözəl mənzərə fonunda Ermənistan bütün regional əməkdaşlıq formatlarından tamamilə kənarda qalıbdır. Bu da təbiidir. Çünki bizim siyasətimiz məhz bundan ibarətdir. Ermənistan bütün məsələlərdən təcrid olunmuş vəziyyətdədir, bir dənə də olsun regional əməkdaşlıq formatında iştirak etmir. Təkcə ona görə yox ki, biz buna imkan vermirik – halbuki hesab edirəm, bu, əsas amildir – ona görə ki, Ermənistan nə siyasi, nə iqtisadi, nə nəqliyyat baxımından heç bir maraq doğurmur. Siyasi baxımdan bu ölkə müstəqil deyil, bu, satellit ölkədir. Ermənistanın gələcəyi ilə bağlı ölkə daxilində qəbul edilmiş qərarlar böyük məna daşımır. Bu ölkəyə iqtisadi cəhətdən heç bir investisiya qoyulmur, investorlar maraqlı deyillər. Burada bir neçə amil rol oynayır, birinci növbədə, baş alıb gedən rüşvətxorluq, oğurluq, korrupsiya halları, digər tərəfdən, vətəndaşların kütləvi surətdə Ermənistandan çıxması, yəni köç kütləvi xarakter alıbdır. İnvestisiya iqlimi çox bərbaddır və bazar məhdudluğu imkan vermir ki, bu ölkəyə investisiya qoyulsun. Belə bir mənzərə ilə üzləşən Ermənistan xalqı bir daha çox ciddi fikirləşməlidir və anlamalıdır ki, Ermənistan rəhbərliyinin Azərbaycana qarşı işğalçı siyasətinin gələcəyi yoxdur. Azərbaycan öz ərazi bütövlüyünü onsuz da bərpa edəcəkdir. Ancaq Ermənistan son illər ərzində bölgədə gedən regional əməkdaşlıq proseslərindən tam təcrid olunmuş vəziyyətdədir. Onlar siyasi səhnədə məğlub olublar, bütün aparıcı beynəlxalq təşkilatlar Azərbaycanın mövqeyini dəstəkləyir.

BMT, BMT Təhlükəsizlik Şurası, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, AŞPA, digər təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasını tələb edən çoxsaylı qərar və qətnamələr qəbul etmişlər. Yəni bu, Ermənistanın siyasi məğlubiyyətidir. Onlar diplomatik cəbhədə məğlubiyyətə uğrayıblar. Dağlıq Qarabağda keçirilmiş qondarma «referendum» heç bir ölkə tərəfindən tanınmayıb, beynəlxalq təşkilatlar da bunu tanımayıb. Bu bir daha təsdiqləyir ki, Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır və Azərbaycanın ayrılmaz hissəsidir.

Nəqliyyat siyasəti ilə bağlı Ermənistan dalan ölkədir və açıq deməliyik ki, bunu biz etmişik.

Ermənistan 2 il bundan əvvəl döyüş meydanında üzləşdiyi məğlubiyyətdən bu gün də özünə gələ bilmir. Bu gün Azərbaycan bayrağı Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının vaxtilə işğal altında olan torpaqlarında dalğalanır. Gün gələcək ki, bizim bayrağımız Şuşada və Xankəndidə dalğalanacaqdır.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ancaq və ancaq ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Bunun başqa yolu yoxdur. Dəfələrlə demişəm, bir daha demək istəyirəm, bunu hamı bilsin ki, Azərbaycan heç vaxt imkan verə bilməz ki, bizim tarixi torpaqlarımızda ikinci erməni dövləti yaradılsın. Dəfələrlə demişəm və bir daha demək istəyirəm ki, bugünkü Ermənistanın ərazisi tarixi Azərbaycan torpaqlarıdır. Bunu təsdiqləyən çoxsaylı kitablar, xəritələr vardır. O xəritələrdə indiki Ermənistan ərazisindəki toponimlərin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. Tarixi kitablarda göstərilir ki, XIX əsrin əvvəllərində İrəvan xanlığının əhalisinin mütləq əksəriyyəti, daha doğrusu 80 faizi azərbaycanlılar olub. Bu tarixdir, tarixi həqiqətdir. Bunu bilməyənlər də bilsinlər və ən önəmlisi Azərbaycan gəncləri bunu bilsinlər. Bilsinlər ki, indiki Ermənistanın böyük hissəsi

Azərbaycanın tarixi torpağıdır. Biz bunu heç vaxt unutmuruq və unutmayacağıq. Biz uğurla inkişaf edirik. Azərbaycan iqtisadi sahədə də böyük uğurlara imza atıb. Biz bu bayramı gözəl iqtisadi nəticələrlə qarşılayırıq. İki ayda ümumi daxili məhsul 1,3 faiz, qeyri-neft sektorunda isə 2,3 faiz artıb. Sənaye istehsalı 1,4 faiz, qeyri-neft sektorunda isə 8,4 faiz artıbdır. Kənd təsərrüfatı məhsullarının istehsalı təxminən 4 faiz, əhalinin gəlirləri isə 10,2 faiz artıbdır. İnflyasiya 4,7 faizdir. Yəni bizim nəzərdə tutduğumuz vəzifələr icra edilir. İki ayda valyuta ehtiyatlarımız 2,1 milyard dollar artıbdır və hazırda 44 milyard dollara bərabərdir. Bu, böyük rəqəmdir. Biz valyuta ehtiyatlarımızı il ərzində daha da artıracağıq. Manatın məzənnəsi sabitdir. Bütün infrastruktur layihələri uğurla icra edilir. Bir sözlə, son müddət ərzində iqtisadi siyasətlə bağlı aparılan ciddi islahatlar öz gözəl nəticələrini veribdir. Biz bu islahatları dərinləşdirəcəyik, bundan sonra da aparacağıq və Azərbaycan iqtisadiyyatının dayanıqlılığını bundan sonra da təmin edəcəyik.

Bu rəqəmlər özlüyündə bir göstəricidir və təbii ki, bizim siyasətimizi, aparılan işləri göstərir. Eyni zamanda, Azərbaycan ictimaiyyəti bunu bilir. Bir daha demək istəyirəm ki, beynəlxalq maliyyə qurumları da bizim islahatlarımızı yüksək qiymətləndirir. Aparıcı beynəlxalq maliyyə institutları bizim islahatlarımıza yüksək qiymət verir. O ki qaldı dünyanın bir nömrəli iqtisadi forumunun – Davos Forumunun hesablamalarına görə – bu rəqəmlər dəfələrlə səsləndirilib, bir daha səsləndirmək istəyirəm – bu gün Azərbaycan dünyanın 35 ən rəqabətqabliyyətli ölkələrinin sırasındadır.

Bizim uğurlu iqtisadi islahatlarımız çox ciddi sosial siyasətlə tamamlanır. Həmişə demişik ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Köklü iqtisadi islahatlar bəzən sosial sahəyə mənfi təsir göstərir. Ona görə hətta əvvəlki illərdə – 1-2 il bundan əvvəl iqtisadi böhran dövründə bir dənə də olsun sosial proqram ixtisara düşmədi, bütün sosial öhdəliklər vaxtında yerinə yetirildi. İmkanlarımız artdıqca, biz dərhal sosial

məsələlərə daha da böyük diqqət göstərməyə başladıq. Daha doğrusu, daha böyük maliyyə vəsaiti ayırmağa başladıq. Bu il büdcədən maliyyələşən təşkilatlarda əməkhaqqı 10 faiz artıbdır. Əgər biz dünya xəritəsinə baxsaq görərik ki, indiki dövrdə nadir ölkələrdə maaşlar artır. Biz imkan daxilində bunu edirik və bundan sonra da edəcəyik. Bir daha demək istəyirəm ki, iqtisadi göstəricilərimiz müsbətə doğru getməyə başlayandan dərhal sonra biz ilk növbədə, sosial məsələlərin həllinə o maliyyəni ayırdıq. Maaşların, müavinətlərin, pensiyaların artırılmasına bu il büdcədən yüz milyonlarla manat vəsait ayrılır. Bu bizim niyyətimizi, siyasətimizi göstərir. Onu göstərir ki, bizim əsas vəzifəmiz ondan ibarətdir ki, Azərbaycan vətəndaşları daha yaxşı yaşasınlar, onların rifah halı yaxşılaşsın, Azərbaycanda iqtisadi və sosial islahatlar bir-birini tamamlayaraq, ölkəmizin inkişafına xidmət etsin.

Regionlarda böyük abadlıq-quruculuq işləri görülür. Bu il icra edilən Dövlət İnvestisiya Proqramı imkan verəcək ki, bölgələrdə bir çox məsələlər öz həllini tapsın – sosial infrastruktur, məktəblər, xəstəxanalar, idman kompleksləri, yollar, digər infrastruktur layihələri. Keçən il 500 kənd yolu salınmışdır, bu il də ən azı 600-dən çox kənd yolu salınacaqdır. Rayonlarımızın siması gözəlləşir, abadlaşır.

Artıq bu həqiqətdir, Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrilib. Bakıya gələn hər bir qonaq bunu qeyd edir. Bu gün Bakı doğrudan da gözəlliyi, tarixi, insanların qonaqpərvərliyi baxımından turistlər üçün ən cəlbedici istiqamətlərdən birinə çevrilibdir. Ölkəmizə gələn turistlərin artan sayı bunun gözəl sübutudur. Gələn qonaqların sayı 2016-cı ildə 24 faiz, 2017-ci ildə 20 faiz, bu ilin iki ayında isə 12 faiz artıbdır. Hər gələn qonaq, əlbəttə ki, Bakının gözəlliyini etiraf edir, bunu görür, sonra sosial şəbəkələrdə öz çəkdiyi kadrları paylaşır. Bakı bizim qürur mənbəyimizdir, bizim tarixi şəhərimizdir, qədimliyi ilə müasirliyi özündə birləşdirən nadir şəhərlərdən biridir. Bakının

inkişafı, gözəlləşdirilməsi, müasir infrastrukturunun yaradılması üçün bundan sonra da əlavə tədbirlər görüləcəkdir.

Biz indi qədim Qız qalasının önündə bu bayramı qeyd edirik. Qız qalası Bakının qədim rəmzidir və bizim böyük tarixi abidəmizdir. Ancaq eyni zamanda, bu gün Bakının müasir rəmzləri də vardır. Onların sırasında Heydər Əliyev Mərkəzi dünyanın ən gözəl binalarından biridir və bunu müxtəlif sorğular, reytinqlər təsdiqləyir. Alov qüllələri həm Bakının rəmzini – alovu əks etdirir, həm də göylərə ucalan binalar Azərbaycanın inkişafını göstərir və Bakıya əlavə gözəllik verir. Vaxtilə 3,5 kilometr olan bizim tarixi bulvarımızın uzunluğu indi 16 kilometrə çatıb və hər yer abadlaşıb, gözəlləşibdir. Hesab edirəm ki, bu, dünya miqyasında nadir istirahət və gəzinti zonasıdır. Yeni yollar, parklar, xiyabanlar salınır. Bakı bu gün parklar, bağlar şəhəridir.

Bakının ekoloji vəziyyəti yaxşılaşır. Vaxtilə şəhərimizin havasını çirkləndirən Balaxanı zibilxanası tamamilə aradan götürülübdür, indi orada park salınıbdır. Böyükşor gölünün bir hissəsi, birinci mərhələsi tamamlanıb və təmizlənibdir. Bibiheybət buruqları ekoloji fəlakət mənzərəsi idi. Bu gün orada park, idman şəhərciyi salınıbdır. Bakının o hissəsi ilə bağlı bizim əlavə planlarımız vardır. Yeni yollar salınıb. Vaxtilə tikilmiş və yararsız vəziyyətə düşmüş binalar sökülür, vətəndaşlara kompensasiya ödənilir və həmin binaların yerində yeni ictimai zonalar yaradılır. Yəni Bakının gələcək inkişafı ilə bağlı bizim böyük planlarımız vardır. Bakının nəqliyyat problemləri də həll olunur. Bakıda onlarla körpü, yol qovşağı tikilibdir. Əgər vaxtilə tikilməsəydi, biz indi tıxacdan hərəkət edə bilməzdik. Şəhərimizin gələcək hərtərəfli inkişaf planı da diqqət mərkəzindədir. Şəhərimizin hər bir yerində abadlıq işləri getməlidir və əminəm ki, gedəcəkdir.

Əziz dostlar, bir daha demək istəyirəm ki, biz bu gözəl bayramı gözəl nəticələrlə, yaxşı əhval-ruhiyyə ilə qarşılayırıq. Əminəm ki, 2018-ci il də, ondan sonrakı illər də ölkəmiz üçün

uğurlu olacaq. Azərbaycan uğurla inkişaf edəcək, qarşıda duran bütün vəzifələr icra ediləcək və ölkəmiz bundan sonra da bir çox ölkələr üçün nümunə olacaqdır.

Sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn gözəl bayram münasibətilə bir daha təbrik edirəm, bütün Azərbaycan xalqına uğurlar, cansağlığı, əmin-amanlıq və sülh arzulayıram. Sağ olun.

* * *

*Sonra Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Dənizkənarı Milli Parka gəldilər.*

*Dövlət başçısını və xanımını Novruz bayramının əsas personajları olan Kosa və Keçəl bayram münasibətilə təbrik etdilər.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva bayram konsertinə baxdılar.*

*Dövlət başçısı, xanımı və ümumxalq şənliyinin digər iştirakçıları Novruz bayramı münasibətilə təşkil olunmuş Şərq bazarı ilə tanış oldular.*

*Burada bərəkətli Azərbaycan torpağında yetişdirilmiş məhsullar nümayiş etdirilir. Paytaxtla yanaşı, regionların da fəal qoşulduğu yarmarkada kənd təsərrüfatı məhsulları ilə yanaşı, əl işləri, sənətkarlıq nümunələri, milli mətbəximizə dair müxtəlif məhsullar təqdim olunur. Yarmarkada yaradılan şərait göstərir ki, son dövrlərdə ölkəmizdə aparılan siyasət nəticəsində digər sahələrdə olduğu kimi, kənd təsərrüfatında da mühüm nailiyyətlər qazanılıb. Bu gün Azərbaycan özünü keyfiyyətli kənd təsərrüfatı məhsulları ilə təmin edir. Bu isə ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Bundan əlavə, ekoloji cəhətdən təmizliyi ilə seçilən məhsullarımıza dünyada da böyük maraq və tələbat vardır.*

*Xalqımızın qədim ənənələrini, dəyərlərini, mətbəxini, məişətini əks etdirən stendlər Milli Parkda təşkil olunmuş bayram şənliyinə xüsusi çalar qatırdı. Burada ölkəmizin müxtəlif bölgə-*

*lərini təmsil edən özfəaliyyət kollektivlərinin çıxışları və hazırlanmış sənətkarlıq nümunələri maraqla qarşılandı. Bir tərəfdə isə gənc pəhləvanlar qurşaq tutur, idmançılar məharətlərini göstərirdilər. Ulu babalarımızdan bugünkü nəslə yadigar qalan qədim el sənətlərinin nümayiş etdirildiyi şənlikdə, həmçinin Novruz bayramının rəmzi olan müxtəlif şirniyyat nümunələri də yer almışdı.*

*Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və şənliyin digər iştirakçıları bu səhnələri maraqla izlədilər, qədim el sənətlərinin nümunələrinə, Azərbaycan xalçalarına baxdılar, pəhləvanların, güləşçilərin çıxışlarını izlədilər, «Nənələr», «Rəfti», «Əvəsor» folklor özfəaliyyət kollektivlərinin, «Natiq» ritm qrupunun, aşıqların, Azərbaycan Dövlət Kukla Teatrının nəzdindəki «Oyuq» teatr-studiyasının kollektivinin ifalarını dinlədilər.*

*Çay süfrəsinə qonaq olan dövlət başçısı və xanımı milli mətbəximizin müxtəlif nümunələrindən daddılar.*

*Azərbaycan Milli Kulinariya Mərkəzinin direktoru Tahir Əmiraslanov məlumat verdi ki, Novruz bayramı münasibətilə milli mətbəximizə aid xüsusi olaraq 27 poçt markası hazırlanıbdır.*

*Prezident və xanımı poçt markalarını imzaladılar.*

*Novruz xalqımızın tarixi yaddaşından süzülüb gələn ənənələri yaşadan, keçmişimizi və gələcəyimizi bir-biri ilə bağlayan bayramdır. Elə bu səbəbdəndir ki, sovet hakimiyyəti illərində həyata keçirilən siyasət digər milli-mənəvi dəyərlərimiz kimi, Novruzu da Azərbaycan xalqının şüurundan silə bilmədi. Hər bir xalqın milli-mənəvi dəyərlərinin qorunmasında və inkişafında tarixi şəxsiyyətlərin də üzərinə böyük vəzifələr düşür. Ulu öndər Heydər Əliyevin tariximiz qarşısındakı xidmətləri sırasında Novruzun yenidən xalqımıza qaytarılması kimi ümummilli məsələ də vardır. Çünki məhz Heydər Əliyevin sayəsində ümumi mədəni hərəkatın tərkib hissəsi kimi, milli bayramımız olan Novruz ötən əsrin 70–80-ci illərində əvvəlki dövrlərlə müqayisədə kütləvi qeyd olunmağa başlandı. Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövründə isə Novruz ənənələri xalqımızın həyatına birdəfəlik daxil oldu. Bu gün Prezident İlham*

*Əliyev də mədəni və mənəvi irsimizə xüsusi diqqətlə yanaşır. Novruzun gəlişi ilə bağlı dövlət başçısının hər il xalqa ünvanladığı təbriklər də onun milli-mənəvi dəyərlərimizə böyük ehtiramla yanaşdığını göstərir.*

*Xalqımız özünün milli və tarixi ənənəsinə çevrilən Novruzu həmişə olduğu kimi, bu il də böyük sevinclə qarşılayır. Yazın gəlişi, təbiətin, bütün canlıların oyanışı, gecə ilə gündüzün bərabərləşdiyi bir günlə bağlı olan bu bayram Azərbaycan xalqının milli düşüncəsini və milli ruhunu özündə əks etdirir.*

*2010-cu ildə BMT-nin qərarı ilə martın 21-i Beynəlxalq Novruz Günü elan olundu. Bu, böyük bir arealda yaşayan 200 milyondan çox insanın milli-mənəvi yaddaşına dünyanın ən mötəbər qurumu səviyyəsində verilən dəyərin təzahürü idi. Qədim tarixə malik Novruz həm də əcdadlarımızın bizə töhfəsi, onlardan qalan dəyərli mirasdır. Tarixən milli düşüncə tərzinin və məfkurəsinin formalaşmasında, insanların yüksək əxlaqi dəyər və normalar çərçivəsində yaşamasında böyük rol oynayan Novruz bayramı özündə paklığı, nəcib insani dəyərləri təcəssüm etdirir. Varlığın yenidən canlanmasını müjdələyən Novruz əsrlərboyu həm də insanlarımızı işıqlı sabaha, xoşbəxt gələcəyə səsləyir. Bu bayram insanlar arasında birlik və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam təməllər yaradıbdır.*

*Dövlət başçısı və xanımı Azərbaycan Gimnastika Federasiyasının stendində bədii, aerobika, akrobatika və idman gimnastlarının nümunəvi çıxışlarına baxdılar. Diqqətə çatdırıldı ki, martın 15–18-də Milli Gimnastika Arenasında Beynəlxalq Gimnastika Federasiyasının idman gimnastikası üzrə dünya kuboku yarışları uğurla təşkil olunub. Bundan başqa, Azərbaycan Gimnastika Federasiyasının təşkilatçılığı ilə aprelin 12–15-də batut gimnastikası, tamblinq və ikili mini-batut üzrə 26-cı Avropa çempionatı, aprelin 27–29-da bədii gimnastika üzrə dünya kuboku, iyunun 22–23-də isə yeniyetmələr arasında*

*Olimpiya oyunlarına vəsiqə qazandıracaq idman gimnastikası üzrə təsnifat yarışları keçiriləcəkdir.*

*Son illər ölkəmizdə sürətlə inkişaf edən idman növlərindən biri də velosiped idmanıdır. 2016-cı ilin avqustunda İsmayıllı rayonunda «ISMA Bikes» Velosiped İstehsalı zavodunun fəaliyyətə başlaması ölkəmizdə bu idman növünün inkişafına böyük təkan verib. Hazırda bu müəssisədə istehsal olunan velosipedlərə daxildə və xaricdə böyük maraq vardır.*

*Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva «ISMA Bikes» zavodunun istehsalı olan velosipedlərə baxdılar.*

*Qeyd olundu ki, 2018-ci il iyunun 5–9-da Azərbaycanda BMX velosipedi üzrə dünya çempionatı keçiriləcəkdir. Çempionatda təxminən 2000 velosipedçinin iştirakı nəzərdə tutulur. Bu çempionatın keçiriləcəyi BMX treki beynəlxalq standartların dəyişməsi ilə əlaqədar ötən il tamamilə yenidən qurulubdur.*

*Prezident İlham Əliyevə BMX velosipedi üzrə dünya çempionatının ilk bileti təqdim olundu.*

*Son illər inkişafda olan idman növləri arasında cüdo xüsusilə seçilir. Sentyabrın 20–27-də Bakıda cüdo üzrə dünya çempionatı keçiriləcək. Çempionatda 150-dək ölkədən 800-ə yaxın idmançının iştirakı gözlənilir. Azərbaycan milli komandası dünya çempionatında tam heyətlə iştirak edəcək. Yarışlar Milli Gimnastika Arenasında keçiriləcəkdir.*

*Dövlət başçısına cüdo üzrə dünya çempionatının ilk bileti təqdim edildi.*

*Azərbaycanda qılıncoynatma idmanının inkişafına da xüsusi diqqət yetirilir. İdmançılarımız bu il bir sıra beynəlxalq yarışlarda iştirak edəcəklər. Artıq 2005-ci il təvəllüdlü idmançılarımız Türkiyədə təşkil olunacaq beynəlxalq yarışa hazırlıq keçirlər. Bundan başqa, apreldə İtaliyada kadetlər və gənclər arasında dünya çempionatı, həmçinin şpaqa və sablya üzrə dünya kuboku yarışları baş tutacaqdır. İdmançılarımızın bu yarışlara hazırlığı çərçivəsində təlim-məşq toplanışları təşkil olunur.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva kəmər güləşi üzrə idmançıların çıxışlarını izlədilər. Kəmər güləşi türkdilli xalqlar arasında tarixən mövcud olmuş qədim qurşaq güləşinin müasir versiyasıdır. Hazırda kəmər güləşi idman növündə müasir qaydalar tətbiq edilir. Azərbaycan idmançıları kəmər güləşi üzrə dünya və Avropa çempionatlarında bir sıra mükafatlar qazanıblar. İyulda idmanın bu növü üzrə Azərbaycan çempionatı keçiriləcək. Çempionatın qalibləri sentyabrda təşkil olunacaq dünya oyunlarında iştirak edəcəklər.*

*Ümumxalq şənliyində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin «Azərmarka» Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Novruz bayramına həsr olunmuş xüsusi stend hazırlanıb. Stenddə ulu öndər Heydər Əliyevin portreti əks olunmuş, «Müslüm Maqomayev», «Tofiq Quliyev», «Qara Qarayev», «Bakı–2017 IV İslam Həmrəyliyi oyunları», «Standart buraxılış–2018», «Novruz», «2017», «Formula-1», «XXI Yay Olimpiya oyunları – Rio–2016»ya həsr olunmuş markalar, «Avropa oyunları – 2015», «Azərbaycan», «İçərişəhər», «Qarabağ», «Eurovision – 2012» kitabları, habelə «Turizm», «Avropa» adlı bukletlər və s. poçt məhsulları nümayiş etdirilir.*

*Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya məlumat verildi ki, «Azərmarka» MMC tərəfindən Azərbaycanın müstəqilliyinə, dövlət atributlarına, iqtisadi inkişafına, milli bayramlarına, memarlıq abidələrinə, görkəmli ictimai-siyasi xadimlərinə, beynəlxalq əhəmiyyətli mühüm tədbirlərə, Qarabağa aid poçt markaları çap olunaraq, dövriyyəyə buraxılıb. Həmin markaların beynəlxalq aləmdə də yayımı təşkil edilibdir.*

*Dövlət başçısı və xanımı Novruz bayramına həsr olunan markanın ilk nüsxəsini imzalayaraq möhürlədilər. Bununla da tarixi əhəmiyyət qazanan bu marka «Azərpoçt» MMC vasitəsilə dövriyyəyə buraxıldı.*

*Hazırda Bakı üçüncü dəfə «Formula-1» yarışına hazırlaşır. Aprelin 27–29-da keçiriləcək Azərbaycan Qran-prisinə hazırlıq işləri sürətlə davam etdirilir. Azərbaycanın bölgələrində gənc-*

*lər, xüsusilə orta məktəblərin yuxarı sinif şagirdləri arasında «Formula-1» yarışları, yol hərəkəti təhlükəsizliyi və avtomobil idmanı haqqında məlumatın artırılması məqsədilə «Bakı Şəhər Halqası» Əməliyyat Şirkəti və Azərbaycan Avtomobil Federasiyası regionlarda avtoidman üzrə maarifləndirmə ayı çərçivəsində «Sənin sürət formulan» şüarı altında 6 regionda simulyatorda «Formula-1» çempionatı keçiribdir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva «Bakı Şəhər Halqası» Əməliyyat Şirkətinin nümayəndələri ilə görüşdülər.*

*Azərbaycan Prezidenti onun pişvazına və bayram gəzintisinə çıxmış Bakı sakinlərinə və paytaxtımızın qonaqlarına Novruz münasibətilə bir daha xoş arzularını yetirdi.*

*Novruz bayramı münasibətilə keçirilən ümumxalq şənliyində Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.*

*Bayram şənliyi incəsənət ustalarının, el sənətkarlarının ifasında rəngarəng konsert proqramı ilə davam etdi.*

## BƏRDƏ RAYONUNA SƏFƏR

*25 mart 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 25-də Bərdə rayonuna səfərə gəlmişdir.*

*Dövlət başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Bərdə şəhərinin mərkəzində ucaldılmış abidəsi önünə gül dəstəsi qoydu.*

*Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev rayonda görülən abadlıq-quruculuq işləri barədə dövlət başçısına məlumat verdi.*

### Cəyirli kəndində fermer Musa Quliyevin pambıq tarlası ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 25-də Bərdə rayonunun Cəyirli kəndi ərazisində fermer Musa Quliyevin 20 hektarlıq pambıq tarlası ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, fermer Musa Quliyev 3 ildir pambıqçılıqla məşğul olur. Ötən il bu fermer təsərrüfatı tərəfindən 15 hektar sahədə pambıq əkilib və 40,5 ton məhsul götürülübdür. Məhsuldarlıq hər hektara 27 sentner təşkil edib. Bu il isə 20 hektarda pambıq əkilməsi nəzərdə tutulub. Qarşıya hər hektardan 35 sentner məhsul götürülməsi hədəf qoyulubdur.*

*Diqqətə çatdırıldı ki, təsərrüfatda 25 işçi çalışır.*

*Azərbaycan Prezidenti pambıqçılarla görüşdü.*

**Sədaqət Ağayeva** *(pambıqçı)*: Xoş gəlmisiniz, cənab Prezident! Sizinlə hər dəfə görüşəndə çox şad oluruq. Ölkə-

mizdə pambıqçılığın inkişafına göstərdiyiniz diqqət və qayğıya görə Sizə minnətdarlığımızı bildiririk.

Çox sevinirik ki, iş yerlərimiz artır. Ayda 300–350 manat maaş alırıq. Yaxşı dolanırıq, çox sağ olun. Allah Sizin, Mehriban xanımın canını sağ eləsin, Novruz bayramınız da mübarək olsun.

**İlham Əliyev:** Çox sağ olun. Mən də sizi Novruz bayramı münasibətilə təbrik edirəm. Səpin başlayır. Sizə bol məhsul arzulayıram.

Şadam ki, Bərdə rayonunda pambıqçılığın şöhrəti bərpa olunur. Vaxtilə böyük işlər görülmüşdü. Siz yaxşı bilirsiniz ki, ötən əsrin 70–80-ci illərində ulu öndərin təşəbbüsü ilə ölkəmizdə, o cümlədən Bərdə rayonunda pambıqçılıq geniş vüsət almışdı. Bərdə o vaxt pambıqçılıq sahəsində aparıcı rayonlardan biri idi. O vaxt, əlbəttə ki, Azərbaycanda daha çox pambıq yığılırdı, 1981-ci ildə təxminən 1 milyon tona çatmışdı. Təkcə Bərdə rayonu o vaxt 120 min ton pambıq təhvil verirdi. Əfsuslar olsun ki, son illər ərzində pambıqçılıq tənəzzülə uğramışdı. Ona görə ciddi tədbirlər görüldü, dövlət bu işə lazımi dəstəyi göstərdi və qısa müddət ərzində pambıqçılıq sürətlə inkişaf etməyə başladı, o cümlədən Bərdə rayonunda. Məndə olan məlumata görə, 2015-ci ildə Bərdədə cəmi 3000 ton pambıq yığılmışdır. Keçən il isə 22400 ton. Görülən tədbirlər nəticəsində 2 il ərzində pambığın tədarükü təxminən 7-8 dəfə artmışdır. Bax, bu texnika təzədir. Özü də bu traktorlar Azərbaycan istehsalıdır. Vaxtilə biz bu istehsalı «Belarus» şirkəti ilə birlikdə Gəncə şəhərində qurmuşuq. İndi də fermerlərin tələbatını yerli texnika ilə tam ödəyirik. Digər qoşqular xaricdən gətirilib, gübrələr lazımi həcmdə verilir, suvarma işləri təşkil olunur. Yəni pambıqçılığın inkişafı üçün bütün lazımi tədbirlər görülür. Yerli və mərkəzi icra orqanları, fermerlər, şirkətlər bu işlərdə çox fəal çalışırlar. Əlbəttə ki, vətəndaşlar üçün yeni iş yerləri yaradılır.

Bərdədə pambıqçılığın çox böyük ənənələri vardır. Burada yaşayan insanlar bu işi yaxşı bilirlər. İndi isə biz pambıqçılığı,

demək olar ki, bərpa etmişik. Əminəm ki, növbəti illərdə daha yüksək nəticə olacaq, məhsuldarlıq daha da artacaqdır. Buna imkan vardır. İndi fermer məlumat verdi ki, keçən il hektardan 27 sentner məhsul götürüb. Bu il isə öhdəlik götürüb ki, 35 sentner götürəcək. Məncə, tam realdır. Bu texnikanı, bu gübrələri, buraya gələn su xətlərini görəndə inam yaranır ki, məhsuldarlıq daha da yüksək ola bilər.

Beləliklə, həm iş yerləri yaradılır, həm ölkə iqtisadiyyatına, yerli istehsala təkan verilir. Çünki indi pambıqçılıq üçün lazım olan bir çox texnikanı, o cümlədən suvarma texnikasını biz özümüz istehsal edirik. Əgər bütün aqrotexniki tədbirlər düzgün təşkil olunarsa, hesab edirəm ki, ölkə üzrə hektardan məhsuldarlıq ən azı 20 sentner olmalıdır. Keçən il bir qədər aşağı idi. Biz bu məsələ ilə məşğuluq. Sabah keçiriləcək müşavirədə bu il görüləcək işlər haqqında danışacağıq. Ancaq məhsuldarlığın artırılması bizim üçün əsas hədəf olmalıdır.

Mən göstəriş vermişdim ki, daha çox iş yeri yaratmaq üçün ilk növbədə, gərək vətəndaşlar bu işlərə dəvət olunsunlar, yaxşı məvacib verilsin. Biz pambığın satınalma qiymətini artırmışıq, indi 60 qəpikdir. Biz 45 qəpikdən başlamışdıq, sonra 50 qəpik oldu, indi 60 qəpikdir. İndi hər şey sizdən asılıdır. Nə qədər çox pambıq yığsanız, məvacibiniz də o qədər çox olacaqdır. Mən istəyirəm ki, çox yığasınız, çox qazanasınız və ailə büdcənizə də yaxşı töhfə verəsiniz. Xüsusilə nəzərə alsaq ki, pambıqçılıqda kişilərlə bərabər daha çox qadınlar işləyir. Belə olan halda, ailə büdcəsinə hər 2 tərəfdən vəsait daxil olacaqdır.

Görülən işlərlə bağlı sizi təbrik edirəm. Gələcək işlərinizdə sizə uğurlar arzulayıram. Sağ olun.

* * *

*Sonra çiyid səpininə start verildi.*

*Prezident İlham Əliyev təsərrüfatda istifadə olunan texnikalara baxdı.*

*Məlumat verildi ki, səpin işlərinə lazımi texnikanın cəlb edilməsi üçün «Azərpambıq» MMC ilə müqavilə imzalanıb. Yeni texnikalar fermerlərin işini asanlaşdırmaqla yanaşı, məhsuldarlığın da artmasına geniş imkanlar açır.*

## Bərdə türbəsində və Torpaqqala kompleksində əsaslı yenidən qurulmadan sonra yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 25-də əsaslı şəkildə yenidən qurulan Bərdə türbəsində və Torpaqqala kompleksində yaradılan şəraitlə tanış olmuşdur.*

*Azərbaycandakı tarixi dini abidələr ölkəmizin tarixinin zənginliyini sübut edir. Belə abidələrdən biri də Bərdə türbəsi və Torpaqqala kompleksidir. Bu məkanın əsaslı şəkildə yenidən qurulması Azərbaycan dövlətinin mədəni irsimizə qayğıkeş münasibətinin bariz nümunəsidir. Tarixi kompleksin əsaslı yenidən qurulması ilk növbədə, zəngin mədəni irsimizin qorunması, inkişafı və bərpası istiqamətində atılan addımların ardıcıl olduğunu göstərir. Bu layihənin icrası bölgələrimizin qədimliyini, tarixi, dini, mədəni abidələrlə zənginliyini dünyaya çatdırmaq baxımından da böyük əhəmiyyət daşıyır, turistləri ölkəmizə cəlb etmək nöqteyi-nəzərindən mühüm rol oynayır. Bərdədə bu layihənin həyata keçirilməsi bir daha sübut edir ki, Azərbaycanda tarixi, dini, mədəni abidələrin qorunub saxlanılaraq, gənc nəsillərə ötürülməsi istiqamətində həyata keçirilən tədbirlər ölkəmizin bütün bölgələrini əhatə edir və bu prosesdə islam abidələrinin, onun müqəddəs dəyərlərinin mühafizəsi xüsusi əhəmiyyət daşıyır.*

*Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Zakir Sultanov Prezident İlham Əliyevə məlumat verdi ki, Bərdə türbəsi 1322-ci ildə Əcəmi memarlıq məktəbinin nümayəndəsi Əhməd ibn Əyyub əl-Hafiz tərəfindən tikilib. Türbə eramızdan əvvəl inşa*

*olunmuş Torpaqqala adlı müdafiə divarlarının ərazisində yerləşir. Qülləvarı quruluşa malik türbə yeraltı və yerüstü hissələrdən ibarətdir. Yeraltı hissəni o dövrdə xarakterik olan dəfn üçün ayrılmış sərdabə təşkil edir. Yerüstü qat isə xatirə abidəsidir və monumental xarakter daşıyır. Türbə xarici fasad üzrə kürsüdən, gövdə və günbəzdən ibarətdir. Hündürlüyü 13 metr olan türbənin bayır tərəfdən diametri 10 metrdir. Kürsüdən başlayaraq, yuxarıdakı haşiyəyə qədər hissəni örtən və firuzəyi kaşı ilə qırmızı kərpicin əlaqələndirilməsindən yaranan bir kompozisiyadan əmələ gələn kitabədə «Allah» sözü mütənasib surətdə təkrarlanır. Məhz bu səbəbdən abidəyə el arasında «Allah-Allah» türbəsi də deyilir. Abidənin kimin şərəfinə tikildiyi məlum deyil. Ehtimal olunur ki, Elxanilər sülaləsindən olan bir şəxs üçün inşa edilibdir.*

*Bildirildi ki, uzun illər baxımsız vəziyyətdə olan türbənin bərpasına ötən əsrin 60-cı illərində başlanılıb. Lakin səhv aparılan bərpa işləri nəticəsində türbənin görkəmi dəyişib, kitabələr silinib, üzərinə qoyulan ağır beton konstruksiya isə çatların əmələ gəlməsinə səbəb olubdur. Türbənin və əhatəsində olduğu Torpaqqala divarlarının bərpasına 2012-ci ildə başlanılıb və hazırda tam başa çatdırılıbdır. Türbənin betondan quraşdırılmış qəzalı günbəzi tam sökülərək, yenidən hörülüb və kaşılı kərpiclə üzlənib. Burada 427 kvadratmetr sadə və mürəkkəb formalı kaşı elementləri hazırlanaraq, tətbiq edilib. Quranın «Ayətül-Kürsü» ayəsi və kufi əlifbası ilə kitabələr bərpa olunub, kaşılararası hörgü tikişləri təmizlənərək, xüsusi məhlul qarışığı ilə yenidən doldurulub, divarlardakı çatlar tam regenerasiya edilibdir. Sərdabənin pilləkəni şüşə örtüklə bağlanıb və burada mərmər sənduqə quraşdırılıbdır.*

*Türbənin yerləşdiyi 2 hektar ərazini əhatə edən Torpaqqala divarları da bərpa olunub. Bərpa işləri Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin sifarişi ilə «Azərbərpa» Elmi-Tədqiqat Layihə İnstitutu tərəfindən həyata keçirilibdir.*

## Yeni Daşkənd–Umudalılar avtomobil yolunun əsaslı təmirdən sonra açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 25-də Yeni Daşkənd–Umudalılar avtomobil yolunun təmirdən sonra açılışında iştirak etmişdir.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov yeni yolun texniki göstəriciləri barədə Prezident İlham Əliyevə məlumat verdi.*

*Bildirildi ki, yol 15 min əhalinin yaşadığı 17 yaşayış məntəqəsini birləşdirir. Ümumi uzunluğu 25 kilometr olan 4-cü texniki dərəcəli yolun hərəkət hissəsinin eni 6 metrdir. 2 hərəkət zolaqlı yol üzərində müxtəlif diametrli 45 suötürücü boru tikilib, zəruri yerlərdə yol nişanları, göstərici lövhələr quraşdırılıbdır. Yolun inşası bütün texniki tələblərə və ardıcıllığa uyğun olmaqla, yüksək səviyyədə yerinə yetirilibdir.*

*Diqqətə çatdırıldı ki, Yeni Daşkənd–Umudalılar avtomobil yolunun tikintisi ilə vətəndaşların gediş-gəlişi xeyli rahatlaşıb, yük və sərnişin daşınması asanlaşıbdır. Yeni yolun tikintisi yolboyu yaşayan vətəndaşların həyat şəraitinin yaxşılaşmasına birbaşa təsir edən kənd təsərrüfatının inkişafına da təkan verəcək. Bununla yanaşı, belə yolların istifadəyə verilməsi ümumilikdə bölgədə turizmin inkişafına geniş imkanlar yaradacaqdır.*

*Dövlət başçısı Yeni Daşkənd–Umudalılar avtomobil yolunun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Qeyd edək ki, bu gün Azərbaycanda icra edilən sosial yönümlü siyasətin tərkib hissələrindən biri də ölkədə yol infrastrukturunun yenidən qurulması, bu sahədə əsaslı islahatların aparılmasıdır. Hazırda respublikanın yol infrastrukturunun yenidən qurulması, müasir səviyyəyə çatdırılması ilə bağlı uğurlu layihələr hər bir bölgəni, rayonu və kəndi əhatə edir. Son dövrlərdə respublikanın kənd və qəsəbələrini birləşdirən yolların inşası, müasir tələblər*

*səviyyəsində yenidən qurulması ümumilikdə ölkəmizin iqtisadi potensialını artırır. Bu layihələrin icrasında əsas məqsəd ilk növbədə, vətəndaşların sosial məsələlərinin həllini, nəqliyyat vasitələrinin maneəsiz və rahat hərəkətini təmin etməkdir.*

## QEYDLƏR

**1. İsveçrə,** İ s v e ç r ə K o n f e d e r a s i y a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 8,6 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı Prezidentdir, Prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident, həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 5–11, 15–22.

**2. Dünya İqtisadi Forumu,** D a v o s İ q t i s a d i F o r u m u – İsveçrənin kurort şəhəri Davosda hər il Dünya İqtisadi Forumu keçirilir. 1995-ci il yanvarın 26–30-da Azərbaycan Prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti ilk dəfə bu Forumda iştirak etmişdir. – 5–11, 15–22, 50, 64, 77, 80, 116, 131, 153, 256.

**3. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 5, 41, 50, 81, 93, 104, 134, 150, 151, 160, 237, 238, 246, 247, 258, 264, 306.

**4. Gürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 5, 33, 146, 161–162, 233, 237, 238, 259.

**5. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçiril-

məsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanmasını, səmərəli idarə edilməsini, gələcək nəsillər üçün saxlanılmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 6, 16.

**6. «VTB Bank»** – sovet və Rusiya universal kommersiya bankı. Ölkədə aktivlərin çoxluğuna görə 20-ci, nizamnamə kapitala görə birincidir. Əsas qərargahı Moskvada yerləşir. – 6.

**7. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min km$^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan ibarət parlamentdir. İcra hakimiyyəti Prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 7, 82, 84, 255.

**8. GDF S.A. Suez** – Fransada ən böyük enerji və qaz şirkəti 2008-ci ildə «Gaz de France» və «Suez» şirkətlərinin birləşməsi nəticəsində yaranmışdır və əsasən Fransa hökumətinə (35,7% səhmlərinə) məxsusdur. Şirkət elektrik enerjisinin ötürülməsi, neftin çıxarılması, təbii qazın nəqli ilə alternativ enerji mənbələrinin fəaliyyətini həyata keçirir. Hal-hazırda şirkət Engie S.A. adlanır. – 7.

**9. Mikrosoft** – müxtəlif hesablama texnikası – şəxsi kompüterlər, oyun konsolları, KPK, mobil telefonlar, dünyada daha çox yayılmış platforma proqramları, Vindovs əməliyyat sistemləri istehsal edən ən böyük transmilli kampaniya. 1975-ci ildə yaradılmışdır. Texnikası 80-dən çox ölkəyə ixrac, proqramları isə 45 dilə tərcümə edilmişdir. Mənzil-qərargahı Redmondda yerləşir. – 8.

**10. Səudiyyə Ərəbistanı,** S ə u d i y y ə Ə r ə b i s t a n ı K r a l l ı ğ ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon

km$^2$, əhalisi 31,5 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı kraldır. Ölkədə bütün hakimiyyət krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası vardır. Müsəlmanların 2 müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. Paytaxtı Ər-Riyad şəhəridir. – 9.

**11. Salman ibn Əbdüləziz Al Səud** (d.1935) – 2015-ci ildən Səudiyyə Ərəbistanının Kralıdır. – 9.

**12. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** (ARDNŞ; beynəlxalq adı SOCAR – State Oil Company of Azerbaijan) – Azərbaycan Respublikası ərazisindəki neft sərvətlərindən istifadəni vahid siyasəti əsasında həyata keçirən, neft sənayesinin idarəetmə strukturunu təkmilləşdirən, yanacaq enerji kompleksinin inkişafını təmin edən şirkət. ARDNŞ respublikanın bütün ərazisində (quru və dənizdə) neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi, emalı və nəqli, həmçinin onlardan alınan məhsulların daxili və xarici bazarlarda satışı ilə məşğul olur. ARDNŞ 1992-ci ildə «Azərneft» Dövlət Konserninin və «Azərneftkimya» İstehsalat Birliyinin bazasında yaradılmışdır. ARDNŞ Azərbaycan Respublikasının təmsilçisi kimi, dünyanın tanınmış neft şirkətləri ilə «Hasilatın Pay Bölgüsü» sazişi üzrə 30-a qədər neft müqaviləsi imzalamışdır.

ARDNŞ 2008-ci ildən mühasibat hesablarının beynəlxalq standartlarına keçmişdir. – 9, 12, 26, 42, 135.

**13. Avstraliya,** Avstraliya İttifaqı – Avstraliya qitəsində dövlət. Sahəsi 7,7 milyon km$^2$, əhalisi 24 milyon nəfərdir. Avstraliya İttifaqı inzibati cəhətdən 6 ştata və 2 əraziyə bölünür. Dövlət başçısı Böyük Britaniya Kraliçasıdır. Ölkədə kraliçanı General-Qubernator təmsil edir. Qanunverici orqanı ikipalatalı (Se-

nat və Nümayəndələr Palatası) parlamentdir. Paytaxtı Kanberra şəhəridir. – 12.

**14. Piter Koşqrov** (d.1947) – general. 2014-cü ildən Avstraliya İttifaqının General-Qubernatorudur. – 12.

**15. Hindistan,** Hindistan Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 3,3 milyon km$^2$, əhalisi 1 milyard 330 milyon nəfərdir. Hindistan inzibati cəhətdən 22 ştata və 7 müttəfiq əraziyə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Nyu-Dehli şəhəridir. – 13.

**16. Ram Natx Kovind** (d.1945) – Hindistanın dövlət və siyasi xadimi. 2017-ci ildən Hindistan Respublikasının Prezidentidir. – 13.

**17. Bakı Ali Neft Məktəbi** (BANM) – Azərbaycanda dövlət ali təhsil müəssisəsi. 2011-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin tərkibində yaradılmışdır. Bu ali məktəb beynəlxalq standartlara uyğun ən müasir tədris proqramları və tədris texnologiyaları əsasında sənayenin müasir tələblərinə cavab verən yüksəkixtisaslı mütəxəssislər hazırlayır.

BANM 3 ixtisas üzrə – Neft-qaz mühəndisliyi; Kimya mühəndisliyi; Proseslərin avtomatlaşdırılması mühəndisliyi üzrə mütəxəssislər hazırlayır. – 15.

**18. Alen Berse** (d.1972) – İsveçrə siyasətçisi. 2018-ci ildə İsveçrə Konfederasiyasının Prezidenti olmuşdur. – 22.

**19. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarını Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəql edir. – 17, 41, 81, 93, 96, 132, 135, 136, 141, 143, 145–158, 159–163, 238, 257, 258.

**20.** «**Azəri–Çıraq–Günəşli**» – Xəzərin Azərbaycan sektorunda ən iri neft yataqları bloku. Bakıdan təxminən 120 km şərqdə yerləşən bu yataqlar Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) adından *bp* şirkəti tərəfindən işlənilir. – 19, 21, 148, 151.

**21.OPEC** (Neft ixrac edən ölkələr təşkilatı) – 1960-cı ildə yaradılmışdır. Tərkibinə İran, Venesuela, Küveyt, Səudiyyə Ərəbistanı, Qətər, İndoneziya, Əlcəzair, Nigeriya, Ekvador, Qabon, Anqola, Liviya, İraq, BƏƏ, Konqo, Ekvatorial Qvineya daxildir. Mənzil-qərargahı Vyanada yerləşir. – 9, 298.

**22. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon $km^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 6, 33, 82, 127, 187–188, 223–224, 225, 255, 300

**23. Türkiyə,** T ü r k i y ə C ü m h u r i y y ə t i – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min $km^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 33, 69–70, 146, 149, 150.

**24. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş Nazir təşkil, Prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 33, 83, 164, 171, 172, 259, 283.

**25. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı iki-palatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı Prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 11, 16, 81–82, 141–142, 144, 146, 180–181, 182, 250, 255.

**26. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin inteqrasiya birliyi. Avropa İttifaqına 28 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın

mənzil-qərargahı Brüsseldə yerləşir. – 27, 91, 92, 155, 156, 157, 158, 165–166, 259, 260, 307.

**27. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Enerji naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara Bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 41, 93, 149, 160, 247, 257.

**28. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq, Dağlıq Qarabağın işğalına başladılar. Dağlıq Qarabağın və ətraf rayonların işğaldan azad edilməsi üçün BMT-nin 822, 853, 874, 884 saylı qətnamələri olmasına baxmayaraq, erməni işğalçıları hələ də Azərbaycan torpaqlarını işğal altında saxlayırlar. – 46, 81, 82, 90, 91, 92, 166, 236, 255, 265, 308.

**29. Blackstone** – beynəlxalq investisiya kompaniyası. Dünyada aktivlərinin həcminə görə ən böyük kompaniyalardan biridir. 30 ölkədə 22 investisiya mərkəzi, 70 ofisi, 100 ölkədə isə müştəriləri vardır. Mənzil qərargahı Nyu Yorkda yerləşir. – 11.

**30. Avropa Komissiyası** (AK) – Avropa İttifaqının (Aİ) dövlət strukturundan üstün siyasi institutlarından biri, ümumi idarəetmə orqanı. 1958-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaranmışdır.

Komissiya Avropa komissarlarından, sədrdən, sədrin iki müavinindən və üzvlərdən ibarətdir. Avropa İttifaqına hər bir üzv dövlət Avropa Komissiyasında 1 yerə malikdir.

Avropa Komissiyasının hazırladığı aktların və qərarların layihələri kitab formasında dərc olunur və geniş müzakirəyə təqdim edilir. Avropa Komissiyası Avropa İttifaqının büdcəsinin layihəsini hazırlayır və onun yerinə yetirilməsini təmin edir. – 17, 27, 145, 146, 154–158, 165.

**31. «Şahdəniz-2»** – Xəzər dənizində çox zəngin qaz yatağı. Burada ilk qazın hasilatına 2018-ci ildə başlanılmış, 2019-cu ildə isə 2 milyard $m^3$ qazın çıxarılması nəzərdə tutulur. *bp*-nin ən böyük layihəsidir. Bu yataqdan qazın Gürcüstan və Türkiyə ərazisi ilə Avropa ölkələrinə nəql edilməsi üçün mövcud infrastrukturun genişləndirilməsi və yeni qaz kəmərlərinin inşa edilməsi nəzərdə tutulur. – 17, 19, 149, 160.

**32. *bp*,** «B r i t i s h P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 19, 147.

**33. Robert Dadli** (d.1955) – mühəndis. 2009-cu ildən *bp*-nin icraçı direktoru, 2010-cu ildən isə baş direktorudur.

Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif edilmişdir. – 19.

**34. Koreya,** K o r e y a  R e s p u b l i k a s ı – Şərqi Asiyada dövlət. Sahəsi 100,2 min $km^2$, əhalisi 51,4 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə və mərkəzə tabeli 6 və 1 xüsusi statuslu şəhərə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Seul şəhəridir. – 25.

**35. Mun Ce-İn** (d.1953) – Cünubi Koreyanın siyasi və dövlət xadimi. 2017-ci ildən Koreya Respublikasının Prezidentidir. – 25.

**36. Əfqanıstan,** Ə f q a n ı s t a n  İ s l a m  R e s p u b l i k a- s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min $km^2$, əhalisi 31,6 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı Prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 26.

**37. Məhəmməd Qani,** Ə ş r ə f  Q a n i (d.1949) – Əfqanıstanın siyasi xadimi. 2014-cü ildən Əfqanıstan İslam Respublikasının Prezidentidir. – 26.

**38. Bakı–Tbilisi–Ərzurum** – «Cənubi Qafqaz» qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə Türkiyə ərazisindən keçir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. – 41, 93, 146, 160.

**39. Füzuli rayonu** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386

km$^2$, əhalisi 125,4 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 44, 308.

**40. Cocuq Mərcanlı –** Azərbaycan Respublikasının Cəbrayıl rayonu Çaxırlı inzibati ərazi vahidində kənd. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. 1994-cü ilin əvvəlində kənd Azərbaycan Ordusu tərəfindən erməni işğalından azad edilmişdir. Cocuq Mərcanlı cəbhə xəttinə çox yaxın olduğuna görə əhali kəndə qayıda bilməmişdir. 2016-cı ildə Cocuq Mərcanlı kəndinə yaxın yerləşən Lələtəpə yüksəkliyi Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilmişdir. Kənd tamamilə bərpa olunmuş, azərbaycanlılar öz doğma kəndlərinə qayıtmışlar. – 45, 46, 94, 98–100, 120.

**41. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında təsis olunmuşdur. İdarə Heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 64, 79–80, 256.

**42. Avropa Yenidənqurma və İnkişaf Bankı –** Qərbi və Şərqi Avropa, MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası bank. 1990-cı ildə yaradılmışdır. Mənzil-qərargahı Londonda yerləşir. Bankın 61 üzvü var, eləcə də Avropa İnvestisiya Bankı və Avropa İttifaqı ora daxildir. – 64, 256.

**43. Asiya İnkişaf Bankı** – Asiya və Sakit okean ölkələrinə uzunmüddətli kredit verən dövlətlərarası regional bank. 1966-cı ildə yaradılıb. Banka 50-yə yaxın ölkə daxildir. Ən böyük aksionerləri Yaponiya, ABŞ, Çindir. Mənzil-qərargahı Manilada yerləşir. – 64.

**44. Müstəqil Dövlətlər Birliyi**(MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları Saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə Azərbaycan, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş Nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 64, 65.

**45. Şri-Lanka,** Ş r i - L a n k a S o s i a l i s t D e m o k r a- t i k R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 65,6 min km$^2$, əhalisi 22 milyon nəfərdir. İnzibati

ərazisi 25 əyalətə bölünür. Dövlət və hökumət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Şri-Cayavardenepura-Kotte şəhəridir. – 68.

**46. Maytripala Sirisena** (d.1951) – Şri-Lankanın dövlət və siyasi xadimi. 2015-ci ildən Şri-Lanka Respublikasının Prezidentidir. – 68.

**47. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş Naziri, 2014-cü ilin sentyabrında və 2018-ci ilin aprelində yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 69, 70, 160.

**48. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası** (AHİK) – Azərbaycanda ilk dəfə 1905-ci ildə Bakı konka fəhlə və qulluqçularının həmkarlar ittifaqı yarandı. 1920-ci ildə isə Azərbaycan Həmkarlar İttifaqları Şurası (AHİŞ) yaradıldı.

Azərbaycan müstəqillik əldə etdikdən (1991) sonra 1993-cü ildə AHİŞ özünü buraxaraq, səlahiyyətlərini Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasına (AHİK) verdi. Konfederasiyaya 22 sahə, 2 federativ tipli

həmkarlar ittifaqı və Naxçıvan Həmkarlar İttifaqları Şurası daxildir.

AHİK-in tərkibində olan həmkarlar ittifaqlarının öz Nizamnaməsi və Fəaliyyət proqramı vardır. AHİK-in ali orqanı 5 ildən bir çağırılan qurultaydır. Qurultaylararası konfederasiyanın ali orqanı bütün üzv təşkilatların bərabər sayda təmsil olunduqları Məclisdir. AHİK-in sədri və müavinlərindən ibarət olan İcraiyyə Komitəsi isə Məclisin iclaslararası dövründə onun funksiyasını yerinə yetirir. – 76–73.

**49. Mixail Şmakov** (d.1949) – 1993-cü ildən Rusiya Federasiyası Müstəqil Həmkarlar İttifaqının sədridir. – 76–77.

**50. Səttar Möhbalıyev,** Səttar Suliddin oğlu (d.1955) – mühəndis-iqtisadçı. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Azərbaycan Respublikası Milli Məclisin üzvü, İqtisadi Siyasət daimi Komitəsinin üzvüdür. – 78.

**51. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun 3 – Rusiya, ABŞ və fransalı həmsədrləri vardır. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 81, 82.

**52. Həsən Ruhani** (d.1948) – hüquqşünas. 2013-cü ildən İran İslam Respublikasının Prezidentidir. – 83, 164, 171–172, 283.

**53. İran İslam İnqilabı** – İranın daxilində Milli Cəbhənin, xaricdən isə ruhanilərin Fransada mühacirətdə olan başçısı ayətullah Ruhullah Xomeyninin rəhbərlik etdiyi ümumxalq hərəkatı. Bu hərəkat getdikcə gücləndi və 1979-cu ildə şah Məhəmməd Rza Pəhləvi ölkəni tərk etdi. Mühacirətdən vətənə qayıtmış imam Xomeyni İran İslam Respublikasını elan etdi. – 83.

**54. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5000-ə yaxın ilk partiya təşkilatı vardır. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Üzvlərinin sayına görə parlamentdə çoxluq təşkil edir. Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP-ın təsis konfransında (1992) mərhum Prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdir. 2005-ci ilin mart ayından isə YAP-ın sədri Prezident İlham Əliyevdir. – 105.

**55. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər, Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 191,8 $km^2$, əhalisi 82,5 min nəfərdir. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan Qədim, Antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal etmişlər. Naxçıvan Azərbaycan Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olub. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirilib və qəza mərkəzinə çevrilibdir. 1924-cü il fevralın 9-da isə Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtıdır. – 40, 86.

**56. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil

dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın ozamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin

Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon Sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən Prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 86, 87, 97, 101, 103, 111, 116, 175, 176, 178, 191, 234, 280.

**57. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 90, 92, 120, 254, 255, 265, 308.

**58. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədə yerləşir. Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 90, 91, 253, 254, 308.

**59. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Avropa Şurasının əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və

insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. Qərargahı Strasburqda yerləşir. – 91, 118, 253, 254.

**60. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. «Soyuq müharibə»nin qurtarmasından sonra ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in Zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 91, 254, 308.

**61. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən

fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə UNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 100, 103, 105, 107, 113, 115, 177, 183, 185, 189, 199, 201, 206, 209, 210, 251, 261, 266, 274–275, 277, 287, 288, 312, 319, 315, 316, 317.

**62. İrəvan xanlığı** – XVIII əsrin ortalarında Cənubi Qafqazda, keçmiş Çuxursəd bəylərbəyliyi ərazisində yaranmış müstəqil Azərbaycan feodal dövləti. Ağrıdağ düzənliyinin Göyçə gölü hövzəsini və Araz çayından cənub-qərbə doğru uzanan ərazini əhatə edirdi. Azərbaycanın cənub-qərbində yerləşən bu xanlıq paytaxtı İrəvan şəhəri olmaqla, inzibati cəhətdən 15 mahala bölünürdü. İrəvan xanlığı 1747–97-ci illərdə müstəqil dövlət, 1797–1828-ci illərdə isə İranın hakimiyyəti altında olmuşdur. Türkmənçay müqaviləsinə (1828) görə Rusiyanın tərkibinə keçmişdir. Bu zaman İrəvan xanlığı ərazisində 420-dən çox kənd dağıdılmış, on minlərlə azərbaycanlı əhali məhv edilmişdi. – 92, 309.

**63. Göyçə** – İrəvan xanlığının 15 mahalından biri. İndiki Ermənistan ərazisində qədimdən Azərbaycan türklərinin yaşadıqları bölgə. Göyçə adının ilk dəfə V əsrin sonlarında işlədildiyi güman edilir. Şah İsmayılın (1487–1524) 1510-cu ilə aid fərmanında «Göyçə mahalı» qeyd edilmişdir. Türkmənçay müqaviləsinə (1828) əsasən, İrəvan xanlığının tərkibində çar Rusiyasının tərkibinə qatılmışdı. 1829–32-ci illərə aid məlumata görə, Göyçə mahalında 100-dən çox yaşayış məskəni, 14354 nəfər əhali (əsasən, azərbaycanlılar) qeydə alınmışdı. Ermənilərin kütləvi şəkildə Qərbi Azərbaycana köçürülməsi Göyçə mahalının etnik tərkibini əsaslı şəkildə dəyişdirdi və mahal erməniləşdirilməyə başlandı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə inzibati-ərazi vahidi idi (əhalisi özünü Cümhuriyyətin tərkib hissəsi hesab edir və onun hakimiyyətinin möhkəmləndirilməsi uğrunda mübarizə

aparırdı). Ermənilər bu torpaqlara iddialarını həyata keçirmək üçün azərbaycanlılara qarşı soyqırımı siyasəti yeridirdilər. Azərbaycanda və Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra sovet-bolşevik rejiminin himayəsi ilə Göyçə, demək olar ki, bütünlüklə Ermənistana verildi. Mahalın Azərbaycan türklərinə məxsus yaşayış məskənlərinin adları kütləvi surətdə dəyişdirilərək erməniləşdirildi. Ermənilərin həyata keçirdikləri soyqırımları və zorakı köçürmələr nəticəsində tarixən azərbaycanlılara məxsus olan Göyçə mahalında hazırda bir nəfər də olsun azərbaycanlı qalmamışdır. – 92.

**64. Zəngəzur mahalı,** Z ə n g ə z u r q ə z a s ı – XIX əsrin 2-ci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil edilmişdir. Çar Rusiyası hökumətinin 1867-ci il dekabr tarixli Fərmanına əsasən yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdir. – 92.

**65. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət. Sahəsi 5,5 min $km^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 100–103.

**66. Rəşad Mahmudov** (d.1974) – tibb elmləri doktoru, ürək-damar cərrahı. Azərbayan Ürək və Sağlamlıq Assosiasiyası İdarə Heyətinin sədridir. 2015-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin üzvüdür. – 103–107.

**67. Azərbaycan Diplomatik Akademiyası** (A D A U n i - v e r s i t e t i), – beynəlxalq münasibətlər və diplomatiya, biznes administrasiyası, energetikanın idarə edilməsi və ətraf mühit və s. sahələr üzrə mütəxəssis hazırlayır. 2006-cı ildə təsis edilmişdir. ADA-nın fəaliyyəti bakalavr, magistr, xarici siyasət proqramı, doktorantlara dəstək proqramı – doktoranturada təhsil alan gənc alimlərə elmi işləri üçün qrantlar ayırır. Dərslər ingilis dilində aparılır. ADA-da dünyanın 16 aparıcı institutundan cəlb edilmiş professor-müəllim heyəti çalışır. – 114–117.

**68. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də «Azərbaycan vətəndaşlığı haqqında» Qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata

keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 115, 221, 243, 260.

**69. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 66, 68, 72, 205, 226.

**70. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi

əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldə yerləşir. – 116.

**71. Leyla Əliyeva,** L e y l a İ l h a m q ı z ı (d.1986) – «Baku» jurnalının baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı. 2006–2008-ci illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Moskvada Heydər Əliyev Fondunun filialına başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 116, 185

**72. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 116, 183–186, 187–188, 254.

**73. Vatikan** – Avropada Papa dövləti. Monte-Vatikano təpəliyində, İtaliyanın paytaxtı Roma şəhərinin qərb hissə-

sində yerləşir. Roma-katolik kilsəsinin siyasi, inzibati və ideoloji mərkəzidir. Vatikan teokratik monarxiyadır. Dövlət başçısı Roma Papasıdır. – 125–126, 296.

**74. Almaniya,** Almaniya Federativ Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 82,2 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı Prezident, hökumət başçısı Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 131–139, 281, 290.

**75. Fransisk,** Jorge Mario Bergoglio (d.1936) – 266-cı Roma Papası, indiki Vatikan hökmdarı. Cənubi amerikalı və Yezuit ordenindən ilk Papa. 2013-cü ildə Roma Papası seçildikdən sonra Fransisk adını qəbul etmişdir. – 125–126, 268, 296.

**76. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezident Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 127, 225, 300.

**77. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi

244,1 min km$^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 143, 146, 267–268.

**78. Donald Tramp** (d.1946) – ABŞ biznesmeni və siyasi xadimi, ABŞ Respublikaçılar Partiyasının üzvü, mediamaqnat. 2017-ci ildən ABŞ-ın 45-ci Prezidentidir. – 144.

**79. İpək yolu**, b ö y ü k İ p ə k y o l u – beynəlxalq tarixi tranzit ticarət yolu, eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin böyük İpək yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də böyük İpək yolunun üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa İttifaqının iştirakı ilə beynəlxalq konfrans keçirildi, TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – böyük İpək yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 151, 236, 242, 247.

**80. Albaniya,** A l b a n i y a  R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 28,7 min km$^2$, əhalisi 3 milyon nəfərdir. İnzibati cəhətdən 26 retiyə (rayona) bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Tirana şəhəridir. – 146, 251.

**81. İtaliya,** İ t a l i y a  R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Padan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301,3 min km$^2$, əhalisi 61 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 146, 163, 266–267.

**82. Pərviz Şahbazov,** P ə r v i z  O q t a y  o ğ l u (d. 1969) – mühəndis, diplomat. 2017-ci ildən Azərbaycan Respublikasının Energetika naziridir. – 154.

**83. Berat Albayrak** (d.1978) – Türkiyə biznesmeni və siyasətçisi. 2018-ci ildən Türkiyənin Xəzinə və Maliyyə naziridir. 2015–2018-ci illərdə Türkiyənin Enerji və Təbii Sərvətlər naziri olmuşdur. – 160.

**84. Bruney,** B r u n e y  D a r ü s s a l a m – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 5,8 min km$^2$, əhalisi 434 min nəfərdir. Bruney konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultandır. Paytaxtı Bəndər-Səri-Bəqavan şəhəridir. – 167.

**85. Hacı Həssənal Bolkiah** (d.1946) – Bruney sultanı. XIV əsrdən hakimiyyətdə olan sülalənin 29-cu nümayəndəsidir. – 167.

**86. Niderland Krallığı** (qeyri-rəsmi adı Hollandiya) – Qərbi Avropada, Şimal dənizi sahilində dövlət. Sahəsi 41,5 min km$^2$, əhalisi 17 milyon nəfərdir. İnzibati ərazisi 12 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Amsterdam şəhəridir. – 169–170.

**87. Rene Van der Linden** (d.1943) – holland siyasətçisi. 2005–2008-ci illərdə AŞPA-nın, 2009–2010-cu illərdə Niderland Senatının Sədri olmuşdur. – 169–170.

**88. Küveyt,** K ü v e y t D ö v l ə t i – Qərbi Asiyada dövlət. Sahəsi 17,8 min km$^2$, əhalisi 3,3 milyon nəfərdir. Küveyt konstitusiyalı monarxiyadır. Dövlət başçısı əmirdir. Qanunverici orqan və hökumət əmirə və birpalatalı Milli Məclisə tabedir. Paytaxtı əl-Küveyt şəhəridir. – 173, 174.

**89. Əl-Cabir əs-Sabah** (d.1929) – 2006-cı ildən Küveyt əmiri. Hakimiyyətə gəldikdən sonra ölkədə bir sıra demokratik islahatlar keçirmiş, qadınlara dövlət orqanlarında işləməyə icazə verilmiş, onlar seçib-seçilmək hüququ əldə etmişlər. – 173.

**90. Fəttah Heydərov,** F ə t t a h S ə m ə d o ğ l u (d.1938) – Azərbayan Respublikası Milli Məclisin üzvü, Regional Məsələlər Komitəsinin sədr müavini, Azərbaycan Ağsaqqallar Şurasının sədridir. ATƏT-in Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin

üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf», «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 175–178.

**91. Oqtay Əsədov,** O q t a y S a b i r o ğ l u (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin Sədridir. Azərbaycan Respublikasının «Şərəf» və Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. – 183, 318.

**92. Ramiz Mehdiyev,** R a m i z Ə n v ə r o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin birinci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Preziden-tinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Beynəlxalq Nyu York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf»,

«İstiqlal» və Rusiya Federasiyasının «Dostluq» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 183, 318.

**93. Mərakeş,** M ə r a k e ş K r a l l ı ğ ı – Şimal-Qərbi Afrikada dövlət. Sahəsi 446,6 min $km^2$, əhalisi 34 milyon nəfərdir. İnzibati ərazisi 16 əyalətə bölünür. Mərakeş konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı birpalatalı Nümayəndələr Palatasıdır. Paytaxtı Rabat şəhəridir. – 218–219.

**94. VI Məhəmməd,** b i n ə l - H ə s ə n (d.1963) – 1999-cu ildən Mərakeş kralı. VI Məhəmməd 1666-cı ildən Mərakeşi idarə edən Alauitlər sülaləsindən 18-ci kraldır. – 218, 219.

**95. 8 Mart Beynəlxalq Qadınlar Günü** – iqtisadi, ictimai və siyasi bərabərlik uğrunda mübarizədə qadınların beynəlxalq həmrəyliyi günü. Beynəlxalq Qadınlar Gününün bayram edilməsi Klara Setkinin təklifi ilə 1910-cu ildə sosialist qadınların II Beynəlxalq konfransında (Kopenhagen) qərara alınmışdı. İlk dəfə bayram 1911-ci ildə bir sıra Avropa ölkələrində keçirilmiş, Azərbaycanda isə 1917-ci ildən qeyd edilməyə başlanmışdır. – 221–222.

**96. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 378 min $km^2$, əhalisi 127 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 231-232.

**97. Şinzo Abe** (d.1954) – Yaponiyanın dövlət və siyasi xadimi. 2006–2007 və 2012-ci ildən Yaponiyanın Baş Naziridir. – 231, 232.

**98. ATƏT-in Parlament Assambleyası** – 317 parlamentarisi olan beynəlxalq parlament qrupu. 1990-cı ildə Parisdə yaradılmışdır. Assambleya ildə bir neçə dəfə Milli parlament

deputatlarını toplayaraq, ATƏT-lə bağlı məsələləri müzakirə edir. Hər il Assambleya səs çoxluğu ilə sədr seçir, sədr əsas yığıncaqlarda iştirak edir və yığıncaqlara sədrlik edir. Assambleyanın 14 daimi əməkdaşı vardır. Mənzil-qərargahı Kopenhagendə yerləşir. – 236, 242.

**99. Anar,** R z a y e v A n a r R ə s u l o ğ l u (d.1938) – görkəmli yazıçı, publisist, dramaturq, ictimai xadim, Azərbaycanın Xalq yazıçısı. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı. Azərbaycan və SSRİ Ali sovetlərinin deputatı olmuşdur. 1995–2005-ci illərdə Milli Məclisin üzvü, Mədəniyyət Məsələləri Komitəsinin sədri olmuşdur. 1987-ci ildən Azərbaycan Yazıçılar Birliyinin sədridir. Əsərləri dünyanın bir çox ölkələrində nəşr olunmuşdur. Azərbaycan Respublikasının «Heydər Əliyev» mükafatı, «Şöhrət», «Şərəf» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 239–240.

**100. İrlandiya,** İ r l a n d i y a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 70,3 min km$^2$, əhalisi 4,6 milyon nəfərdir. İnzibati ərazisi 26 qraflığa və 5 şəhər qraflığına bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Dublin şəhəridir. – 245.

**101. Maykl Higgins** (d.1941) – İrlandiya siyasətçisi, şair, yazıçı, sosioloq. 2011-ci ildən İrlandiya Respublikasının Prezidentidir. – 245.

**102. Binəli Yıldırım** (d.1955) – Türkiyənin siyasi xadimi, 2015–2016-cı illərdə Nəqliyyat naziri, 2016–2018-ci illərdə isə Baş Nazir olmuşdur. 2018 iyul – 2019 fevral aylarında Türkiyə Böyük Millət Məclisinin Sədri olmuşdur. – 246–248, 261–266.

**103. Nizami Gəncəvi,** İ l y a s Y u s i f o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı 5 epik poemadan ibarət «Xəmsə»

müəllifi kimi daxil olmuşdur. Onun ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır, Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 249–279.

**104. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 250, 295.

**105. Vayra Vike-Freyberqa** (d.1937) – Latviyanın dövlət xadimi, 1999–2007-ci illərdə Latviya Respublikasının Prezidenti olmuşdur. Psixologiya elmləri doktoru, professor. Kanadada emiqrant olmuş, 1997-ci ildə Latviyaya köçmüş və siyasi fəaliyyətə başlamışdır. Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif edilmişdir. – 249–279.

**106. Mövlud Çavuşoğlu** (d.1968) – Türkiyənin siyasi xadimi. 2010–2012-ci illərdə AŞPA-nın başçısı, 2014-cü ildən Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziridir. – 251.

**107. Fələstin Dövləti** – BMT Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli Qərarına əsasən Böyük Britaniya mandatlığı ləğv edilərək, Fələstin ərazisində müstəqil ərəb və yəhudi dövlətləri yaradılmalı idi. Fələstin ərəb dövləti üçün ayrılmış ərazinin böyük hissəsi 1948–49-cu illərdə və 1967-ci ildə İsrail tərəfindən zəbt edilmişdir. 1988-ci ildə Fələstin Azadlıq Təşkilatı müstəqil Fələstin Dövlətinin yaranmasını elan etdi. 1994-cü ildə isə Müvəqqəti

Fələstin muxtariyyəti yaradıldı. Sahəsi 6,2 min km$^2$, əhalisi 5 milyon nəfərdir. Paytaxtı Qüds şəhəridir – 251.

**108. Makedoniya,** Şimali Makedoniya Respublikası – Cənubi Avropada dövlət. Sahəsi 25,3 min km$^2$, əhalisi 2 milyon nəfərdir. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Məclisdir. Paytaxtı Skopye şəhəridir. – 251.

**109. George İvanov** (d.1960) – Makedoniyanın dövlət və siyasi xadimi. 2009-cu ildən Makedoniya Respublikasının Prezidentidir. – 251.

**110. Helsinki Yekun Aktı –** 1975-ci il avqustun 1-də Finlandiyanın paytaxtı Helsinkidə Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət başçılarının müşavirəsi olmuşdur. Onlar Avropada təhlükəsizlik və əməkdaşlıq haqqında Zirvə aktını imzalamışlar. Azərbaycan Respublikası bu aktı 1992-ci ildə imzalamışdır. – 255.

**111. Sercio Mattarella** – (d.1941) – 2015-ci ildən İtaliya Respublikasının Prezidentidir. – 266–267.

**112. Tereza Mey** (d.1956) – Böyük Britaniya siyasətçisi. Mühafizəkarlar Partiyasının lideri. 2016-cı ildən Böyük Britaniyanın Baş Naziridir. – 267–268.

**113. Antonio Quterreş** (d.1949) – Portuqaliyanın dövlət xadimi. 1995–2002-ci illərdə Portuqaliyanın Baş Naziri, 1999–2005-ci illərdə Sosialist İnternasionalının sədri, 2005–2015-ci illərdə BMT-də Qaçqınların İşi üzrə Baş Komissar olmuşdur. 2017-ci il yanvarın 1-dən BMT-nin Baş katibidir. – 270–271.

**114. İordaniya,** İordaniya Haşimilər Krallığı – Qərbi Asiyada dövlət. Sahəsi 92,3 min km$^2$, əhalisi 10,1 milyon

nəfərdir. İnzibati ərazisi 8 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Əmman şəhəridir. – 275–276.

**115. II Abdullah,** A b d u l l a h b i n H ü s e y n (d.1962) – 1999-cu ildən İordaniya Haşimilər Krallığının Kralıdır. – 275–276.

**116. Qazaxıstan,** Q a z a x ı s t a n R e s p u b l i k a s ı – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km$^2$, əhalisi 18 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Nur-Sultan şəhəridir. – 280.

**117. Məhəmməd Cavad Zərif** (d.1960) – İran diplomatı və dövlət xadimi. 2013-cü ildən İran İslam Respublikasının Xarici İşlər naziridir. – 283.

**118. Angela Merkel** (d.1954) – Almaniya siyasətçisi, Xristian-Demokrat İttifaqı Partiyasının lideri, 2005-ci ildən Almaniyanın Federal Kansleridir. –290.

**119. Novruz bayramı** – qədim xalq bayramı. Şimal yarımkürəsində astronomik yazın başlandığı gecə-gündüz bərabərliyi günündə (martın 21–22-də) keçirilir. Qədim zamanlardan başlayaraq, İran, Azərbaycan, Əfqanıstan, Tacikistan, Özbəkistan və bəzi Şərq ölkələri baharın – yeni ilin gəlişini şənliklərlə qarşılayırdı. Respublikamız müstəqillik qazandıqdan sonra Novruz bayramı rəsmi ümumxalq bayramı və istirahət günü elan edilmişdir.

2009-cu ildən Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə UNESKO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. BMT-nin Baş Məclisi martın 21-ni Beynəlxalq Novruz Günü elan etmişdir. – 291–292, 304–318.

**120. Nepal,** Nepal Federativ Demokratik Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 140,8 min $km^2$, əhalisi 30,5 milyon nəfərdir. İnzibati cəhətdən 14 zonaya bölünür. Paytaxtı Katmandu şəhəridir. – 293.

**121. Bidhya Devi Bhandari** (d.1961) – Nepalın dövlət xadimi. 2015-ci ildən Nepal Respublikasının Prezidentidir. – 293.

**122. Si Cinpin** (d.1953) – Çinin dövlət və siyasi xadimi, fəaliyyətdə olan Çin Kommunist Partiyasi Mərkəzi Komitəsinin Baş katibi, 2013-cü ildən Çin Xalq Respublikasının, ÇXR Mərkəzi Hərbi Şurasının Sədridir. – 295.

**123. Tunis,** Tunis Respublikası – Şimali Afrikada dövlət. Sahəsi 163,6 min $km^2$, əhalisi 11 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici hakimiyyət Nümayəndələr Palatasına (parlament) məxsusdur. Paytaxtı Tunis şəhəridir. – 297.

**124. Pakistan,** Pakistan İslam Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 804 min $km^2$, əhalisi 207,7 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 301.

**125. Məmnun Hüseyn** (d.1940) – iş adamı. 2013–2018-ci illərdə Pakistan İslam Respublikasının Prezidenti olmuşdur. – 301.

**126. Banqladeş,** Banqladeş Xalq Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 144 min $km^2$, əhalisi 169 milyon nəfərdir. İnzibati ərazisi 4 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Dəkkə şəhəridir. – 302.

**127. Əbdül Həmid** (d.1944) – Banqladeşin siyasi və dövlət xadimi. 2013-cü ildən Banqladeş Xalq Respublikasının Prezidentidir. – 302.

**128. Yunanıstan,** Yunanıstan Respublikası – Cənubi Avropada dövlət. Sahəsi 132 min km$^2$, əhalisi 11 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Afina şəhəridir. – 303.

**129. Avropa Şurasının Parlament Assambleyası** (AŞPA) – 1949-cu ildə yaradılmışdır. AŞPA-ya 47 Avropa ölkəsi daxildir. – 308.

**130. Ağdərə** – Azərbaycan ərazisində (Dağlıq Qarabağ Muxtar Vilayəti) inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 308.

**131. Cəbrayıl** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 km$^2$, əhalisi 76,6 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 308.

**132. Xankəndi** – Azərbaycan Respublikasında şəhər. Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi. 1991-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 308.

**133. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 km$^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlandırılmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 308.

**134. Qız qalası** – Bakı şəhərində tarixi-memarlıq abidəsi. Tədqiqatçıların çoxu tərəfindən müdafiə məqsədilə XII əsrdə tikildiyi qəbul olunmuşdur. Qalanın daş kitabəsində kufi xətti ilə Məsud Davud oğlunun («Qübbə Məsud bin Davud») adı həkk edilmişdir. Qız qalası memarlıq formasına görə Şərqdə yeganə abidədir. Abidənin hündürlüyü 32 m, diametri 16-16,5 m-dir. Divarlarının qalınlığı aşağıda 5 m, yuxarıda 4 m olan Qız qalası silindrik əsas hissədən və ona bitişik bütöv çıxıntıdan ibarət orijinal quruluşa malikdir. Silindrik hissə daxildə səkkizmərtəbəlidir. Bu mərtəbələrdə 250-dək adam yerləşə bilər. Abidənin Qız qalası adlanması haqqında xalq arasında müxtəlif əfsanələr mövcuddur. – 311.

## Şəxsi adlar göstəricisi

**II Abdullah** – 275–276
**Abe Şinzo** – 231, 232
**Abdurahmanova Neva** – 111–117
**Ağayev Məmmədəli** – 223–224
**Al Səud Salman** – 9
**Albayrak Berat** – 160
**Almeyda German** – 24
**Alvarado Orlando** – 14
**Amr Ziad** – 251
**Anar** – 239–240
**Aslanlı Emil** – 114–117
**Atalay Ergün** – 78
**Barkindo Məhəmməd** – 298–299
**Baumann Tobias** – 138
**Bayramov Niyazi** – 189
**Berse Alen** – 22
**Bhandari Bidhya** – 293
**Birçall Ana** – 243–244, 251, 268–270
**Brayoviç İvan** – 241–242
**Brink Bricet** – 81
**Bolkiah Həssənal** – 167
**Bourita Nasser** – 218–219
**Budaqov Tahir** – 226
**Bühele Volfqanq** – 131–139

**Camalxanov Elnur** – 107–111
**Çavuşoğlu Mövlud** – 251
**Dadli Robert** – 19
**Dençile Viorika** – 268–270
**Debon Mari-Anj** – 7
**Dodon İqor** – 251, 285–286
**Eskinazi Rafael** – 84
**Eyyubov Yaqub** – 66
**Əhmədov Əli** – 98, 117–121
**Əl-Falih Xalid** – 9
**Əl-Nəhəyyan Xəlifə** – 30
**Əl-Nəhəyyan Hassa** – 30
**Əliyev Heydər** – 86, 87, 97, 101, 103, 111, 116, 175, 176, 178, 191, 234, 280
**Əliyeva Leyla** – 116, 185
**Əliyeva Mehriban** – 100, 103, 105, 107, 113, 115, 177, 183, 185, 189, 199, 201, 206, 209, 210, 251, 261, 266, 274–275, 277, 287, 288, 312, 313, 315, 316, 317
**Əs-Sabah əl-Həməd** – 174
**Əs-Sebsi Beji** – 297
**Əl-Sərrac Faiz** – 140
**Əs-Sabah əl-Cabir** – 173
**Əsədov Oqtay** – 183, 318

**Ərdoğan Rəcəb Tayyib** – 69, 70, 160
**Felisio Joao** – 75
**Fransisk***(Roma Papası)* – 125, 126, 268, 296
**Gəncəvi Nizami** – 249–279
**Hatəmi Əmir** – 171–172
**Herrenknext Martin** – 133–134
**Heydərov Fəttah** – 175–178
**Həşimov Hüseyn** – 205–206
**Həmid Əbdül** – 302
**Həziyev Oqtay** – 98–100
**Hololey Henrik** – 27
**Higgins Maykl** – 245
**Hüseyn Məmnun** – 301
**İbrahim Adel** – 214–215
**İnfantino Canni** – 124
**İshaqzai Qulam** – 270–271
**İvaniç Mladen** – 251, 282
**İvanov George** – 251, 284
**İzoria Levan** – 233
**Kalyulayd Kersti** – 168
**Karambo Kristian** – 123–124
**Kosqrov Piter** – 12
**Keri Çeyz** – 130
**Kıdırəli Darxan** – 280
**Klaar Toivo** – 165–166
**Kostin Andrey** – 6
**Kovind Ram** – 13
**Krofts Karol** – 267–268
**Kumsişvili Dmitri** – 161–162
**Kvirikaşvili Giorgi** – 5, 161, 162, 237–238
**Qani Məhəmməd** – 26
**Qribauskayte Dalya** – 129

**Qollaher Pol** – 125–126
**Quliyeva Sevda** – 100–103
**Quterreş Antonio** – 270–271
**Mahmudov Rəşad** – 103–107
**MakAlister Kevin** – 180
**Massari Auqusto** – 266–267
**Mattarella Sercio** – 266–267
**Medina Danilo** – 179
**Mehdiyev Ramiz** – 183, 318
**Mendez Fernando** – 294
**Merkel Angela** – 290
**Meta İlir** – 281
**Mey Tereza** – 267–268
**VI Məhəmməd** – 218, 219
**Məmmədov Elxan** – 124
**Məmmədov Saleh** – 197
**Möhbalıyev Səttar** – 78
**Mun Ce-İn** – 25
**Netanyahu Benyamin** – 20
**Nikolson Emma** – 143
**Niinistö Sauli** – 28
**Parolin Pietro** – 125, 126
**Pənahov Məzahir** – 220
**Piqas Metyu** – 10
**Pinyera Sebastian** – 23
**Popov İqor** – 82
**Putin Vladimir** – 127, 225, 300
**Raad bin Zeid** – 275–276
**Radev Rumen** – 213
**Rasi-zadə Artur** – 183
**Rometti Cinni** – 15

**Ruhani Həsən** – 83, 164, 171–172, 283
**Rubinşteyn Devid** – 16
**Rzayev Baba** – 195
**Saarinio Syu** – 141–142
**Saetre Eldar** – 21
**Sarıəroğlu Jülidə** – 69–70
**Serageldin İsmail** – 249–279
**Si Cinpin** – 295
**Silva Xose** – 23
**Sirisena Maytripala** – 68
**Skalfarotto İvan** – 163
**Saroviç Mirko** – 251
**Şahbazov Pərviz** – 154
**Şapiro Con** – 182
**Şevçoviç Maroş** – 17, 145, 146, 147, 154–158, 159, 165
**Şleyer Hanns-Eberhard** – 136
**Şmakov Mixail** – 76–77
**Şofer Endrü** – 82
**Şvarzman Stiven** – 11
**Taniquçi Tomohiko** – 231–232
**Tembon Mersi** – 79–80
**Tramp Donald** – 144
**Ture Hamadun** – 71
**Van der Linden Rene** – 169–170
**Vardinoyannis Marianna** – 277–278, 287
**Vike-Freyberqa Vayra** – 249–279
**Viskonti Stefan** – 82
**Vuçiç Aleksandr** – 128

**Yıldırım Binəli** – 246–248, 251, 261–266
**Yıldız Əhməd** – 251
**Zeman Miloş** – 29
**Zərif Məhəmməd** – 283

## Coğrafi adlar göstəricisi

**Ağdaş** – 43, 196
**Ağdərə** – 308
**Ağsu** – 196
**Ağstafa** – 49
**Afrika** – 8
**Albaniya** – 146,251
**Almaniya** – 131–139, 281, 290
**Amerika Birləşmiş Ştatları** – 11, 16, 81, 82, 141–142, 144, 146, 180–181, 182, 250, 255
**Anadolu** – 264
**Aralıq dənizi** – 149
**Asiya** – 134, 150, 258
**Astara** – 106
**Avrasiya** – 97
**Avropa** – 8, 89, 91, 96, 134, 150, 247, 257, 258
**Avstraliya İttifaqı** – 12
**Balkan** *(yarımada)* – 264
**Banqladeş** – 302
**Bərdə** – 196, 319–325
**Birləşmiş Ərəb Əmirlikləri** – 30
**Bolqarıstan** – 146, 157, 213
**Bosniya və Herseqovina** – 146, 251, 282
**Böyük Britaniya** – 143, 146, 267–268
**Bruney Darüssalam** – 167

**Cəbrayıl** – 308
**Cənubi Amerika** – 294
**Cənubi Qafqaz** – 15, 60, 79–80, 118, 165–166, 206
**Cocuq Mərcanlı** – 45, 46, 94, 95, 98–100, 120
**Çex Respublikası** – 29
**Çili** – 23
**Çin** – 250, 295
**Dağlıq Qarabağ** – 46, 81, 82, 90, 91, 92, 166, 236, 255, 265, 308
**Davos** – 5–11, 15–22
**Dominikan** – 179
**Ekvador** – 24
**Estoniya** – 168
**Əfqanıstan** – 26
**Əlcəzair** – 157
**Ələt** – 306
**Fələstin** – 251
**Finlandiya** – 28
**Fransa** – 7, 82, 84, 255
**Füzuli** – 44, 308
**Gəncə** – 40, 49, 109–110
**Goranboy** – 44, 196
**Göyçə** – 92
**Gürcüstan** – 5, 33, 146, 161–162, 233, 237–238, 259
**Hindistan** – 13
**Honduras** – 14
**Xankəndi** – 308
**Xaçmaz** – 49
**Xəzər dənizi** – 41, 148, 149, 257, 270

**Xocalı** – 116, 183–186, 187–188, 254
**Xorvatiya** – 146
**İordaniya** – 275–276
**İran** – 33, 83, 164, 171–172, 259, 283
**İrlandiya** – 245
**İrəvan xanlığı** – 92
**İsmayıllı** – 49
**İstanbul** – 149
**İsrail** – 20
**İsveçrə** – 5–11, 15–22
**İtaliya** – 146, 163, 266–267
**Kəngərli** *(Naxçıvan Muxtar Respublikasında rayon)* – 100–103
**Koreya Respublikası** – 25
**Küveyt** – 173, 174
**Qafqaz** – 264
**Qara dəniz** – 148, 270
**Qazax** – 44
**Qazaxıstan** – 280
**Qəbələ** – 40, 43, 49
**Qərbi Balkan** *(ölkələri)* – 156
**Qobustan** – 44
**Quba** – 44
**Qusar** – 66–67, 112
**Lənkəran** – 40
**Litva** – 129
**Liviya** – 140
**Makedoniya** – 251, 284
**Mərakeş** – 218–219
**Mərkəzi Avropa** – 156

**Mingəçevir** – 43, 52, 189–213
**Misir** – 215–216
**Moldova** – 251, 285–286
**Monteneqro** – 146, 241–242
**Moskva** – 127, 223–224
**Naxçıvan Muxtar Respublikası** – 100–103
**Naxçıvan** – 40, 86
**Naftalan** – 44
**Nepal** – 283
**Niderland** – 169–170
**Norveç** – 157
**Orta Asiya** – 247, 264
**Pakistan** – 301
**Paraqvay** – 294
**Rumıniya** – 243–244, 251, 268–270
**Rusiya** – 33, 44, 82, 127, 187–188, 223–224, 225, 255, 300
**Salyan** – 49
**Serbiya** – 128
**Səudiyyə Ərəbistanı** – 9
**Sumqayıt** – 44, 49
**Supsa** – 147
**Şəmkir** – 44
**Şərqi Avropa** – 156
**Şuşa** – 308
**Şri-Lanka** – 68
**Tunis** – 297
**Türkiyə** – 39, 69–70, 146, 149, 150, 160, 246–248, 251, 259, 261–266
**Türkmənistan** – 146
**Vatikan** – 125–126, 296

**Uzaq Şərq** – 247, 264
**Yaxın Şərq** – 8, 89, 264
**Yaponiya** – 231–232
**Yunanıstan** – 146, 303
**Zaqatala** – 40
**Zəngəzur** – 92

# MÜNDƏRİCAT

GÜRCÜSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ GİORGİ KVİRİKAŞVİLİ İLƏ GÖRÜŞ

*23 yanvar 2018-ci il*.............................................................................*5*

«VTB BANK»IN PREZİDENTİ, İDARƏ HEYƏTİNİN SƏDRİ ANDREY KOSTİN İLƏ GÖRÜŞ

*23 yanvar 2018-ci il*.............................................................................*6*

«SUEZ GROUP»un BAŞ İCRAÇI VİTSE-PREZİDENTİ MARİ-ANJ DEBON İLƏ GÖRÜŞ

*23 yanvar 2018-ci il*.............................................................................*7*

«MİCROSOFT» ŞİRKƏTİNİN VİTSE-PREZİDENTİ MİŞEL VAN DER BEL İLƏ GÖRÜŞ

*23 yanvar 2018-ci il*.............................................................................*8*

SƏUDİYYƏ ƏRƏBİSTANININ ENERJİ, SƏNAYE VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRİ XALİD ƏL-FALİH İLƏ GÖRÜŞ

*23 yanvar 2018-ci il*.............................................................................*9*

«LAZARD FRERES» ŞİRKƏTİNİN SƏDRİ VƏ BAŞ İCRAÇI DİREKTORU METYU PİQAS İLƏ GÖRÜŞ

*23 yanvar 2018-ci il*...........................................................................*10*

ABŞ-ın «BLACKSTONE» ŞİRKƏTİNİN HƏMTƏSİSÇİSİ VƏ İCRAÇI DİREKTORU STİVEN ŞVARZMAN İLƏ GÖRÜŞ

*23 yanvar 2018-ci il*...........................................................................*11*

AVSTRALİYA İTTİFAQININ GENERAL-QUBERNATORU ZATİ-ALİLƏRİ CƏNAB PİTER KOSQROVA

*23 yanvar 2018-ci il*........................................................................................*12*

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB RAM NATX KOVİNDƏ

*23 yanvar 2018-ci il*........................................................................................*13*

HONDURAS RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB XUAN ORLANDO HERNANDES ALVARADOYA

*23 yanvar 2018-ci il*........................................................................................*14*

«IBM» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU
CİNNİ ROMETTİ İLƏ GÖRÜŞ

*24 yanvar 2018-ci il*........................................................................................*15*

ABŞ-ın «CARLYLE GROUP» ŞİRKƏTİNİN HƏMTƏSİSÇİSİ VƏ İCRAÇI DİREKTORU DEVİD RUBİNŞTEYN
İLƏ GÖRÜŞ

*24 yanvar 2018-ci il*........................................................................................*16*

AVROPA KOMİSSİYASININ ENERJİ BİRLİYİ ÜZRƏ VİTSE-PREZİDENTİ MAROŞ ŞEFÇOVİÇ İLƏ GÖRÜŞ

*24 yanvar 2018-ci il*........................................................................................*17*

DAVOS FORUMU ÇƏRÇİVƏSİNDƏ «NEFT VƏ QAZ SƏNAYESİ SİYASƏTİ ÜZRƏ LİDERLƏRİN TOPLANTISI»
ADLI SESSİYADA İŞTİRAK

*24 yanvar 2018-ci il*........................................................................................*18*

*bp* ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU
ROBERT DADLİ İLƏ GÖRÜŞ

*24 yanvar 2018-ci il*........................................................................................*19*

İSRAİL DÖVLƏTİNİN BAŞ NAZİRİ

BENYAMİN NETANYAHU İLƏ GÖRÜŞ

*24 yanvar 2018-ci il*..........................................................................*20*

STATOYL ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ELDAR SAETRE İLƏ GÖRÜŞ

*24 yanvar 2018-ci il*..........................................................................*21*

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ ALEN BERSE İLƏ GÖRÜŞ

*24 yanvar 2018-ci il*..........................................................................*22*

ÇİLİ RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ XOSE MANUEL SİLVA İLƏ GÖRÜŞ

*26 yanvar 2018-ci il*..........................................................................*23*

EKVADOR RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ GERMAN ALEXANDRO ORTEQA ALMEYDA İLƏ GÖRÜŞ

*26 yanvar 2018-ci il*..........................................................................*24*

KOREYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MUN CE-İN

*27 yanvar 2018-ci il*..........................................................................*25*

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ƏŞRƏF QANİYƏ

*28 yanvar 2018-ci il*..........................................................................*26*

AVROPA KOMİSSİYASININ NƏQLİYYAT VƏ MOBİLLİK ÜZRƏ BAŞ DİREKTORU HENRİK HOLOLEYİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 yanvar 2018-ci il* .........................................................................*27*

FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ

ZATİ-ALİLƏRİ CƏNAB SAULİ NİİNİSTÖYƏ

*29 yanvar 2018-ci il*..........................................................................*28*

ÇEX RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MİLOŞ ZEMANA

*29 yanvar 2018-ci il*..........................................................................*29*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ
ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAİD
ƏL-NƏHƏYYANA

*29 yanvar 2018-ci il*..........................................................................*30*

REGİONLARIN 2014–2018-ci İLLƏRDƏ SOSİAL-İQTİSADİ
İNKİŞAFI DÖVLƏT PROQRAMININ İCRASININ
DÖRDÜNCÜ İLİNİN YEKUNLARINA HƏSR OLUNMUŞ
KONFRANSDA İŞTİRAK

*29 yanvar 2018-ci il*..........................................................................*31*

YEKUN NİTQİ

*29 yanvar 2018-ci il*..........................................................................*42*

QUSARDA «ŞAHDAĞ» QIŞ-YAY TURİZM
KOMPLEKSİNİN NÖVBƏTİ İNKİŞAF
PLANLARI İLƏ TANIŞLIQ

*30 yanvar 2018-ci il*..........................................................................*66*

ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST
RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB MAYTRİPALA SİRİSENAYA

*31 yanvar 2018-ci il*..........................................................................*68*

TÜRKİYƏ RESPUBLİKASININ ƏMƏK VƏ SOSİAL
MÜDAFİƏ NAZİRİ JÜLİDƏ SARIƏROĞLUNUN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*1 fevral 2018-ci il* ...........................................................................*69*

«SMART AFRİCA» TƏŞƏBBÜSÜNÜN İCRAÇI DİREKTORU HAMADUN TURE İLƏ GÖRÜŞ

*1 fevral 2018-ci il* ........................................................................ *71*

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASININ V QURULTAYINA

*5 fevral 2018-ci il* ........................................................................ *72*

BEYNƏLXALQ VƏ XARİCİ ÖLKƏLƏRİN HƏMKARLAR İTTİFAQLARININ NÜMAYƏNDƏ HEYƏTİNİN BİR QRUPU İLƏ GÖRÜŞ

*5 fevral 2018-ci il* ........................................................................ *74*

DÜNYA BANKININ CƏNUBİ QAFQAZ ÜZRƏ REGİONAL DİREKTORU MERSİ TEMBON İLƏ GÖRÜŞ

*6 fevral 2018-ci il* ........................................................................ *79*

ABŞ DÖVLƏT KATİBİ MÜAVİNİNİN MÜŞAVİRİ BRİCET BRİNK İLƏ GÖRÜŞ

*6 fevral 2018-ci il* ........................................................................ *81*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*7 fevral 2018-ci il* ........................................................................ *82*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ

*8 fevral 2018-ci il* ........................................................................ *83*

FRANSA RESPUBLİKASININ «THALES INTERNATİONAL» ŞİRKƏTİNİ BİRİNCİ VİTSE-PREZİDENTİ RAFAEL ESKİNAZİ İLƏ GÖRÜŞ

*8 fevral 2018-ci il* ........................................................................ *84*

YENİ AZƏRBAYCAN PARTİYASININ VI QURULTAYINDA İŞTİRAK

*8 fevral 2018-ci il* ........................................................................ *85*

FUTBOL ÜZRƏ DÜNYA ÇEMPİONATI KUBOKUNUN
ƏSLİNİ AZƏRBAYCAN PREZİDENTİNƏ
TƏQDİMETMƏ MƏRASİMİ

*9 fevral 2018-ci il ..........................................................................123*

MÜQƏDDƏS TAXT-TACIN XARİCİ DÖVLƏTLƏRLƏ
ƏLAQƏLƏR ÜZRƏ KATİBİ ARXİYEPİSKOP POL RİÇARD
QALLAHERİN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 fevral 2018-ci il ........................................................................125*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*12 fevral 2018-ci il ........................................................................127*

SERBİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR VUÇİÇƏ

*12 fevral 2018-ci il ........................................................................128*

LİTVA RESPUBLİKASININ PREZİDENTİ XANIM DALYA
QRİBAUSKAYTEYƏ

*13 fevral 2018-ci il ........................................................................129*

«FORMULA-1» QRUPUNUN BAŞ İCRAÇI DİREKTORU
ÇEYZ KERİ İLƏ GÖRÜŞ

*13 fevral 2018-ci il ........................................................................130*

ALMANİYA İQTİSADİYYATININ ŞƏRQ KOMİTƏSİNİN SƏDRİ
VOLFQANQ BÜHELENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*13 fevral 2018-ci il ........................................................................131*

LİVİYA MİLLİ BARIŞIQ HÖKUMƏTİNİN BAŞÇISI ZATİ-
ALİLƏRİ CƏNAB FAİZ MUSTAFA ƏL-SƏRRACA

*14 fevral 2018-ci il* ........................................................................... *140*

ABŞ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 fevral 2018-ci il* ........................................................................... *141*

BÖYÜK BRİTANİYA BAŞ NAZİRİNİN TİCARƏT ELÇİSİ
BARONESSA EMMA NİKOLSON İLƏ GÖRÜŞ

*14 fevral 2018-ci il* ........................................................................... *143*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB DONALD TRAMPA

*15 fevral 2018-ci il* ........................................................................... *144*

«CƏNUB QAZ DƏHLİZİ» MƏŞVƏRƏT ŞURASI
ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN DÖRDÜNCÜ
TOPLANTISINDA İŞTİRAK

*15 fevral 2018-ci il* ........................................................................... *145*

AVROPA KOMİSSİYASININ ENERJİ BİRLİYİ ÜZRƏ VİTSE-
PREZİDENTİ MAROŞ ŞEFÇOVİÇ İLƏ GÖRÜŞ

*15 fevral 2018-ci il* ........................................................................... *159*

TÜRKİYƏ RESPUBLİKASININ ENERJİ VƏ TƏBİİ
SƏRVƏTLƏR NAZİRİ BERAT ALBAYRAK İLƏ GÖRÜŞ
*15 fevral 2018-ci il* ........................................................................... *160*

GÜRCÜSTAN RESPUBLİKASI BAŞ NAZİRİNİN BİRİNCİ
MÜAVİNİ DMİTRİ KUMSİŞVİLİ İLƏ GÖRÜŞ

*15 fevral 2018-ci il* ........................................................................... *161*

İTALİYA RESPUBLİKASI İQTİSADİ İNKİŞAF NAZİRİNİN MÜAVİNİ
İVAN SKALFAROTTO İLƏ GÖRÜŞ

*15 fevral 2018-ci il* ........................................................................... *163*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ

*18 fevral 2018-ci il* ............................................................................*164*
AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ TOİVO KLAARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 fevral 2018-ci il* ............................................................................*165*

BRUNEY-DARÜSSALAMIN SULTANI ƏLAHƏZRƏT HACI HƏSSƏNAL BOLKİAHA

*20 fevral 2018-ci il* ............................................................................*167*

ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ XANIM KERSTİ KALYULAYDA

*21 fevral 2018-ci il* ............................................................................*168*

NİDERLAND KRALLIĞI SENATININ SABİQ SƏDRİ RENE VAN DER LİNDEN İLƏ GÖRÜŞ

*21 fevral 2018-ci il* ............................................................................*169*

İRAN İSLAM RESPUBLİKASININ MÜDAFİƏ VƏ SİLAHLI QÜVVƏLƏRƏ DƏSTƏK NAZİRİ ƏMİR HATƏMİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*21 fevral 2018-ci il* ............................................................................*171*

KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX SABAH ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA

*22 fevral 2018-ci il* ............................................................................*173*

KÜVEYT DÖVLƏTİ NAZİRLƏR KABİNETİNİN SƏDRİ ƏLAHƏZRƏT ŞEYX CABİR ƏL-MÜBARƏK ƏL-HƏMƏD ƏS-SABAHA

*22 fevral 2018-ci il* ............................................................................*174*

MİLLİ MƏCLİSİN ÜZVÜ FƏTTAH HEYDƏROVA «İSTİQLAL» ORDENİNİ TƏQDİMETMƏ MƏRASİMİ

*22 fevral 2018-ci il* ........................................................................... *175*

DOMİNİKAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB DANİLO MEDİNAYA

*23 fevral 2018-ci il* ........................................................................... *179*

«BOEING» ŞİRKƏTİNİN PREZİDENTİ VƏ BAŞ İCRAÇI
DİREKTORU KEVİN MAKALİSTERİN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 fevral 2018-ci il* ........................................................................... *180*

AMERİKA YƏHUDİ KOMİTƏSİNİN PREZİDENTİ
CON ŞAPİRONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*25 fevral 2018-ci il* ........................................................................... *182*

XOCALI SOYQIRIMI QURBANLARININ XATİRƏSİNİ ANIM
MƏRASİMİNDƏ İŞTİRAK

*26 fevral 2018-ci il* ........................................................................... *183*

«ROSSİYA-24» TELEKANALININ MÜXBİRİNƏ MÜSAHİBƏ

*26 fevral 2018-ci il* ........................................................................... *187*

MİNGƏÇEVİR ŞƏHƏRİNƏ SƏFƏR

*27 fevral 2018-ci il* ........................................................................... *189*

«MİNGƏÇEVİR TEKSTİL» MMC-nin İPLİK İSTEHSALI
ÜZRƏ İKİ MÜƏSSİSƏSİNİN AÇILIŞI ZAMANI ŞƏHƏR
İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*27 fevral 2018-ci il* ........................................................................... *199*

BOLQARISTAN RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB
RUMEN RADEVƏ

*27 fevral 2018-ci il ........................................................213*

MİSİR ƏRƏB RESPUBLİKASININ
AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ
SƏFİRİ ADEL İBRAHİM ƏHMƏD İBRAHİM
İLƏ GÖRÜŞ

*28 fevral 2018-ci il ........................................................214*

RESPUBLİKA NARKOLOJİ MƏRKƏZİNDƏ
BAŞ VERMİŞ YANĞININ FƏSADLARININ
ARADAN QALDIRILMASI İŞLƏRİ İLƏ
TANIŞLIQ

*2 mart 2018-ci il ............................................................216*

MƏRAKEŞ KRALLIĞININ XARİCİ İŞLƏR
VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ NAZİRİ
NASSER BOURİTANIN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 mart 2018-ci il ............................................................218*

PREZİDENTLİYƏ NAMİZƏDLİK
VƏSİQƏSİNİ TƏQDİMETMƏ MƏRASİMİ

*5 mart 2018-ci il ............................................................220*

8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK

*6 mart 2018-ci il............................................................221*

MOSKVA AKADEMİK SATİRA TEATRININ DİREKTORU MƏMMƏDƏLİ AĞAYEV İLƏ GÖRÜŞ

*6 mart 2018-ci il ...........................................................223*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*7 mart 2018-ci il............................................................225*

BAKI ŞƏHƏR STATİSTİKA İDARƏSİNİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*7 mart 2018-ci il ...........................................................226*

YAPONİYA BAŞ NAZİRİNİN XARİCİ SİYASƏT MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ TOMOHİKO TANİQUÇİ İLƏ GÖRÜŞ

*8 mart 2018-ci il ...........................................................231*

GÜRCÜSTAN RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ LEVAN İZORİA İLƏ GÖRÜŞ

*9 mart 2018-ci il ...........................................................233*

AZƏRBAYCAN JURNALİSTLƏRİNƏ
TƏBRİK

*9 mart 2018-ci il.............................................................234*

ATƏT PARLAMENT ASSAMBLEYASININ
SƏDRİ GİORGİ SERETELİNİN RƏHBƏRLİK
ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 mart 2018-ci il .........................................................236*

GÜRCÜSTAN RESPUBLİKASININ BAŞ
NAZİRİ  GİORGİ KVİRİKAŞVİLİ İLƏ GÖRÜŞ

*12 mart 2018-ci il .........................................................237*

AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN
SƏDRİ XALQ YAZIÇISI ANARA

*13 mart 2018-ci il..........................................................239*

MONTENEQRO PARLAMENTİNİN SƏDRİ
İVAN BRAYOVİÇİN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 mart 2018-ci il  ........................................................241*

RUMINİYA BAŞ NAZİRİNİN MÜAVİNİ ANA
BİRÇALL İLƏ GÖRÜŞ

*13 mart 2018-ci il* ..........................................................*243*

İRLANDİYA PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAYKL HİGGİNSƏ

*14 mart 2018-ci il*............................................................*245*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ BİNƏLİ YILDIRIM İLƏ GÖRÜŞ

*14 mart 2018-ci il* ..........................................................*246*

NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNİN HƏMSƏDRLƏRİ, SABİQ DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARI VƏ MƏRKƏZİN İDARƏ HEYƏTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*14 mart 2018-ci il* ..........................................................*249*

VI QLOBAL BAKI FORUMUNUN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*15 mart 2018-ci il* ..........................................................*251*

BEYNƏLXALQ TÜRK AKADEMİYASININ PREZİDENTİ DARXAN KIDIRƏLİYƏ «DOSTLUQ» ORDENİNİ TƏQDİMETMƏ MƏRASİMİ

*15 mart 2018-ci il* ...........................................................*280*

ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ
İLİR META İLƏ GÖRÜŞ

*15 mart 2018-ci il ..........................................................281*

BOSNİYA VƏ HERSEQOVİNANIN
RƏYASƏT HEYƏTİNİN ÜZVÜ MLADEN
İVANİÇ İLƏ GÖRÜŞ

*15 mart 2018-ci il ..........................................................282*

İRAN İSLAM RESPUBLİKASININ XARİCİ
İŞLƏR NAZİRİ MƏHƏMMƏD CAVAD
ZƏRİFİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*15 mart 2018-ci il ..........................................................283*

MAKEDONİYA RESPUBLİKASININ
PREZİDENTİ GEORGE İVANOV İLƏ GÖRÜŞ

*15 mart 2018-ci il ..........................................................284*

MOLDOVA RESPUBLİKASININ
PREZİDENTİ
İQOR DODONUN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 mart 2018-ci il ..........................................................285*

ELPIDA ASSOSİASİYASININ VƏ
MARİANNA VARDİNOYANNİS FONDUNUN
PREZİDENTİNƏ «DOSTLUQ» ORDENİNİ
TƏQDİMETMƏ MƏRASİMİ

*15 mart 2018-ci il ............................................................287*

VI QLOBAL BAKI FORUMUNUN
İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ VERİLMİŞ
ZİYAFƏTDƏ İŞTİRAK

*15 mart 2018-ci il ............................................................288*

ALMANİYA FEDERATİV
RESPUBLİKASININ
FEDERAL KANSLERİ XANIM ANGELA
MERKELƏ

*15 mart 2018-ci il.............................................................290*

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ
AZƏRBAYCAN XALQINA TƏBRİK

*16 mart 2018-ci il.............................................................291*

NEPAL FEDERATİV DEMOKRATİK RESPUB-
LİKASININ PREZİDENTİ XANIM
BİDHYA DEVİ BHANDARİYƏ

*16 mart 2018-ci il.............................................................293*

PARAQVAY RESPUBLİKASI SENATININ SƏDRİ FERNANDO LUQO MENDEZ İLƏ GÖRÜŞ

*16 mart 2018-ci il*..........................................................*294*

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB Sİ CİNPİNƏ

*17 mart 2018-ci il* ..........................................................*295*

ROMA PAPASI FRANSİSK HƏZRƏTLƏRİNƏ

*17 mart 2018-ci il* ..........................................................*296*

TUNİS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BEJİ KAİD ƏS-SEBSİYƏ

*17 mart 2018-ci il* ..........................................................*297*

OPEC-in BAŞ KATİBİ MƏHƏMMƏD BARKİNDO İLƏ GÖRÜŞ

*18 mart 2018-ci il* ..........................................................*298*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*19 mart 2018-ci il* ..........................................................*300*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏMNUN HÜSEYNƏ

*19 mart 2018-ci il ........................................................301*

BANQLADEŞ XALQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜL HƏMİDƏ

*19 mart 2018-ci il ........................................................302*

YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PROKOPİS PAVLOPULOSA

*19 mart 2018-ci il ........................................................303*

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ ÜMUMXALQ ŞƏNLİYİNDƏ İŞTİRAK

*19 mart 2018-ci il ........................................................304*

BƏRDƏ RAYONUNA SƏFƏR

*25 mart 2018-ci il ........................................................318*

QEYDLƏR...........................................................................*325*

*Şəxsi adlar göstəricisi ......................................................3*

*Coğrafi adlar göstəricisi...................................................3*

| | |
|---|---|
| **Texniki redaktor** | ***Zoya Nəcəfova*** |
| **Yığım üzrə operator** | ***İlhamə Kərimova*** |
| **Kompüter tərtibatı** | ***Məhəbbət Orucov*** |

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından
istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 24,5. Uçot nəşr vərəqi 25,0. Tirajı 5000
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.